ISSN: 2664-4975

# GEOSTRATEGİYA

2021
№6 (66)

BAKI-2021

**Baş redaktor:**
**Əli Həsənov**

**Redaktor:**
**İbrahim Əliyev**

**Məsul katib:**
**İsmayıl Qasımov**

**Redaksiya heyəti:**
**Prof.Dr. Александр Пухкал (Ukrayna)**
**Prof.Dr. Arif Quliyev (Ukrayna)**
**Prof.Dr. Aygün Attar (Türkiyə)**
**Prof.Dr. Babaxan Şərifov (Özbəkistan)**
**Prof.Dr. Cəfər Cəfərov (Azərbaycan)**
**Prof.Dr. Durxan Kıdırıli (Qazaxıstan)**
**Prof.Dr. Efim Pivovar (Rusiya)**
**Prof.Dr. Elçin Əhmədov (Azərbaycan)**
**Prof.Dr. Elman Nəsirov (Azərbaycan)**
**Prof.Dr. Ədalət Muradov (Azərbaycan)**
**Prof.Dr. Əli Həsənov (Azərbaycan)**
**Prof.Dr. Heydərbəy Bababekov (Özbəkistan)**
**Prof.Dr. Hikmət Məmmədov (Azərbaycan)**
**Prof.Dr. Xəqani Məmmədov (Azərbaycan)**
**Prof.Dr. İsa Həbibbəyli (Azərbaycan)**
**Prof.Dr. Kemal Çiçek (Türkiyə)**
**Prof.Dr. Quram Marxuliya (Gürcüstan)**
**Prof.Dr. Musa Qasımlı (Azərbaycan)**
**Prof.Dr. Sergey Pirojkov (Ukrayna)**
**Prof.Dr. Səlahəddin Xəlilov (Azərbaycan)**
**Prof.Dr. Şəfa Əliyev (Azərbaycan)**
**Prof.Dr. Ziyad Səmədzadə (Azərbaycan)**
**Dos.Dr. Akkan Suver (Türkiyə)**
**Dos.Dr. Aleksandr Quşşin (Rusiya)**
**Dos.Dr. Ərəstun Mehdiyev (Azərbaycan)**
**Dos.Dr. Firdovsiyyə Əhmədova (Azərbaycan)**
**Dos.Dr. İbrahim Əliyev (Azərbaycan)**
**Dos.Dr. Mübariz Qurbanlı (Azərbaycan)**
**Dos.Dr. Müslüm Nəzərov (Azərbaycan)**
**Dos.Dr. Oleq Kuznetsov (Rusiya)**

***"GEOSTRATEGİYA"*** jurnalı Azərbaycan Respublikasının Prezidenti yanında
Ali Attestasiya Komissiyası tərəfindən Azərbaycan Respublikasında dissertasiyaların
***Tarix, Antropologiya, Siyasi elmlər, Fəlsəfə, Sosiologiya və İqtisadi elmlər***
üzrə əsas nəticələrinin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlərin siyahısına salınmışdır.
Beynəlxalq ictimai-siyasi, elmi-nəzəri jurnal ildə altı dəfə nəşr olunur.

ISSN: 2664-4975

# GEOSTRATEGY

2021
№6 (66)

BAKU-2021

**Editor-in-Chief:**
**Ali Hasanov**

**Editor:**
**Ibrahim Aliyev**

**Executive Secretary:**
**Ismayil Gasimov**

**Editorial Board:**
**Prof. Dr. Alexandr Pukhkal (Ukraine)**
**Prof. Dr. Arif Guliyev (Ukraine)**
**Prof. Dr. Aygun Attar (Turkey)**
**Prof. Dr. Babakhan Sharifov (Uzbekistan)**
**Prof. Dr. Jafar Jafarov (Azerbaijan)**
**Prof. Dr. Durkhan Kidirili (Kazakhstan)**
**Prof. Dr. Efim Pivovar (Russia)**
**Prof. Dr. Elchin Ahmadov (Azerbaijan)**
**Prof. Dr. Elman Nasirov (Azerbaijan)**
**Prof. Dr. Adalat Muradov (Azerbaijan)**
**Prof. Dr. Ali Hasanov (Azerbaijan)**
**Prof. Dr. Haydarbay Bababekov (Uzbekistan)**
**Prof. Dr. Hikmat Mammadov (Azerbaijan)**
**Prof. Dr. Khagani Mammadov (Azerbaijan)**
**Prof. Dr. Isa Habibbayli (Azerbaijan)**
**Prof. Dr. Kemal Chichek (Turkey)**
**Prof. Dr. Guram Markhulia (Georgia)**
**Prof. Dr. Musa Gasimli (Azerbaijan)**
**Prof. Dr. Sergei Pirozhkov (Ukraine)**
**Prof. Dr. Salahaddin Khalilov (Azerbaijan)**
**Prof. Dr. Shafa Aliyev (Azerbaijan)**
**Prof. Dr. Ziyad Samadzadah (Azerbaijan)**
**Assoc. Prof. Dr. Akkan Suver (Turkey)**
**Assoc. Prof. Dr. Alexandr Gushshin (Russia)**
**Assoc. Prof. Dr. Arastun Mehdiyev (Azerbaijan)**
**Assoc. Prof. Dr. Firdovsiyya Ahmadova (Azerbaijan)**
**Assoc. Prof. Dr. Ibrahim Aliyev (Azerbaijan)**
**Assoc. Prof. Dr. Mubariz Gurbanli (Azerbaijan)**
**Assoc. Prof. Dr. Muslum Nazarov (Azerbaijan)**
**Assoc. Prof. Dr. Oleg Kuznetsov (Russia)**

***“GEOSTRATEGY”*** journal is included in the list of periodicals recommended by
the Supreme Attestation Commission under the President of the Republic of Azerbaijan
to publish the main results of the dissertations of the Republic of Azerbaijan on
***History, Anthropology, Political Science, Philosophy, Sociology and Economic Sciences.***
The international socio-political, scientific-theoretical journal is published six times a year.

Siyasi elmlər

UOT 327; 930.22

# İRAN-RUSİYA MÜNASİBƏTLƏRİNDƏ YAXIN ŞƏRQ REGİONUNUN ROLU

**ƏLİMUSA İBRAHİMOV**
*Siyasi elmlər üzrə fəlsəfə doktoru,*
*Bakı Dövlət Universitetinin*
*Beynəlxalq münasibətlər fakültəsinin müəllimi*

*E-mail: ialimusa@mail.ru*

Geosiyasi mövqeyi və nəhəng neft-qaz ehtiyatlarının mövcudluğu səbəbindən Yaxın Şərq regionu hər zaman dünyanın böyük dövlətlərinin diqqət mərkəzində olmuşdur. Rusiya dünyanın böyük dövlətlərindən biri kimi bu regiona öz yanaşması mövcuddur, bu səbəbdən Rusiyanın regional perspektivlərinə və Qərblə rəqabətə əsaslanan xarici siyasətindəki dəyişiklikləri təhlil etmək vacibdir [9].

1990-cı illərin əvvəllərində Çeçenistandakı müsəlman üsyançılarla müharibə və Kosovoda Bosniya ilə müharibədə Moskvanın Serbiyaya verdiyi dəstək səbəbindən Rusiyanın İslam ölkələri arasında populyarlığı azalmışdı. Ruslar yeni müstəqil dövlətlərin Amerika Birləşmiş Ştatları ilə münasibətlərindən narahat idilər. Buna görə də Qərbdən, xüsusən də ABŞ-dan dəstək almağı prioritet vəzifə hesab edirdilər. Boris Yeltsin Yaxın Şərq məsələsini birinci dərəcəli problem kimi qiymətləndirmirdi. O, hətta ərəb dünyası ilə İsrail arasında 1992-ci ilin yanvar ayının sonunda Moskvada baş tutan çoxtərəfli danışıqlarda iştirak etməkdən imtina etmişdi.

1995-ci ildən etibarən ABŞ-ın Yaxın Şərqdə artan təsirini nəzərə alaraq Rusiyada avrasiyaçı yanaşmanın güclənməsi və Moskvanın regiona geosiyasi yaxınlığının dərki Kremlin Yaxın Şərq siyasətində dəyişikliklərə səbəb oldu. Yevgeni Primakovun Rusiya xarici işlər naziri təyin olunması Moskvanın Yaxın Şərq siyasətində böyük dəyişikliyin göstəricisi idi. Y.Primakov ölkənin xarici siyasətini balanslaşdırmaq üçün Asiyaya və Rusiyanı əhatə edən ölkələrə diqqət yetirməyin vacibliyini vurğulayırdı. Onun fikrincə, Rusiyanın Yaxın Şərqdə fəal iştirakı tələb olunurdu. Yaxın Şərqin zəngin ölkələrinə silah satışından əldə olunan iqtisadi faydalar, şübhəsiz, Rusiya üçün cəlbedici idi.Bu siyasətin davam etdirilməsi Rusiyanın geosiyasi tələbləri ilə diqtə olunduğundan, Y.Primakovdan sonra da zəruri idi.

V.Putinin hakimiyyəti dövründə Rusiyanın Yaxın Şərqə baxışını dəyişdirmək, keçmiş müttəfiqlərlə münasibətləri bərpa etmək yenidən aktuallıq kəsb etdi və Rusiya hökuməti Yaxın Şərq səhnəsində fəal iştiraka səy göstərdi. Moskvanın Yaxın Şərq siyasətinin xüsusiyyətləri regionun bütün dövlətləri ilə əlaqələrin qurulmasından və mürəkkəb böhranlarda iştirak edən oyunçuların maraqlarına birtərəfli dəstək verilməməsindən ibarətdir. Moskva üçün yalnız İran və Suriya kimi ABŞ-la mənafeləri toqquşan ölkələrlə əlaqələrin inkişafı deyil, eyni zamanda mühafizəkar dövlətlər və ABŞ-ın Yaxın Şərqdəki müttəfiqləri ilə əlaqələrin qurulması böyük əhəmiyyət kəsb edirdi. Lakin son otuz ildə Yaxın Şərqdə İran-Rusiya münasibətləri bir tərəfdən Moskvanın qlobal maraqları və məqsədləri, digər tərəfdən İranın ABŞ və İsraillə ideoloji düşmənçiliyi nəzərə alınmaqla qiymətləndirilməlidir. Şübhəsiz ki, Rusiya dünyanın böyük dövləti olaraq Yaxın Şərqdə müxtəlif məqsədlər güdür: təhlükəsizlik, siyasi və iqtisadi, onların əhatə dairəsi İranla ikitərəfli münasibətlərdən daha genişdir.

Təhlükəsizlik nöqteyi-nəzərindən Yaxın Şərqdə sülh və sabitliyin hər hansı pozulması Rusiyanın təhlükəsizliyinə təsir edir, çünki Rusiyanın cənub sərhədləri Yaxın Şərqlə qonşudur və bu ölkənin cənubunda milyonlarla müsəlman yaşayır.

## Qafqaz

Rusiyanın 1990-cı illərdə çeçen separatçılarına qarşı apardığı mübarizə bəzi müsəlmanların radikallaşmasına və sələfi islamın Rusiyada yayılmasına səbəb oldu. Çeçenistan müharibəsi nəticəsində çoxsaylı radikal islamçı qrup Rusiya ərazisinə nüfuz edərək separatizmi təbliğ edir və müsəlman bölgələri Rusiyadan ayrılmağa təhrik edirdi. Pol Rivlinin fikrincə, doxsanıncı illərin sonunda Rusiya İslam toplumunda İslamın düşməni kimi qəbul edilirdi[7, s. 34].

`Bu şəraitdə İranın Rusiyanın cənub sərhədlərindəki strateji mövqeyi nəzərə alınaraq, bölgədəki

böhran fonunda Tehranın Rusiya ilə əməkdaşlığa yanaşması böyük əhəmiyyət kəsb edirdi. Moskvanın nöqteyi-nəzərindən, İran Səudiyyə Ərəbistanı və Qətər tərəfindən dəstəklənən bəzi ərəb KİV-lərinin "anti-Rusiya təbliğatı"nın əksinə olaraq islam dünyasında ictimai fikrə təsir göstərə bilərdi. Bundan əlavə, Rusiya müsəlman respublikalarındakı separatçı hərəkatlara xarici dəstəyi azaltmaq və Çeçenistan məsələsinin müsəlman dünyasının probleminə çevrilməsinin qarşısını almaq üçün Yaxın Şərqdəki digər müsəlman ölkələri ilə əlaqələrini inkişaf etdirməyə çalışırdı.

Bu baxımdan Rusiyanın ABŞ-ın 2003-cü ildə İraqa qarşı apardığı hərbi əməliyyatlarla razılıq verməməsinin səbəblərindən biri də Yaxın Şərqdə və Qafqaz bölgəsində radikal terrorçu və separatçı qrupların güclənməsi və bəzi cənub bölgələrində dini radikalizmin yayılması ehtimalı idi. Rusiyanın Yaxın Şərqə yaxınlığı səbəbindən Kreml rəsmiləri ölkənin dini ekstremizmə qarşı ABŞ-dan daha həssas olduğunu söyləyirdilər. Rusiyanın İranın nüvə proqramı ilə bağlı siyasəti də bu kontekstdə izah edilməlidir. Dmitri Treninin sözlərinə görə, Rusiya rəhbərliyi hesab edir ki, İranla istənilən preventiv müharibə nüvə İranından daha pisdir. Kreml belə bir müharibənin regional böhrana, dini radikalizmə və müsəlmanlarla Qərb arasında toqquşmalara yol açacağına əmindirlər, bəlkə də yalnız İranın nüvə proqramı bu ssenarinin qarşısını alır[8, s. 102].

Rusiyanın Yaxın Şərqdəki siyasi fəaliyyətinin digər bir aspekti Moskvanın ABŞ-ın gücünü tarazlaşdırmaq istəyidir. Bu baxımdan amerikalı politoloq Corc Fridman Vaşinqtonun Rusiyanın maraqlarını nəzərə almadan bu ölkənin qonşuluğundakı regionlara nüfuz etdiyini, Gürcüstan kimi Rusiyaya qarşı yönəlmiş ölkələri dəstəkləməyə çalışdığını iddia edir. Rusiya ABŞ-ı passiv vəziyyətinə salaraq və bu regiondakı nüfuzunu artıraraq, İran, Suriya və Fələstin kimi ölkələrlə əlaqələrini gücləndirir və ABŞ-ın Yaxın Şərqdəki ənənəvi müttəfiqləri (Misir, Qətər, Birləşmiş Ərəb Əmirlikləri və İordaniya) ilə yaxınlaşır.

Bu kontekstdə İranın ABŞ ilə düşmənçiliyini və İranın ABŞ-ın xarici siyasətində iki böhranlı ölkə, yəni İraq və Əfqanıstan ilə qonşuluğunu nəzərə alaraq, Moskvanın Tehranla münasibətləri daha böyük əhəmiyyət kəsb edir. ABŞ-ın Əfqanıstan və İraqa hücumundan və ABŞ qüvvələrinin Yaxın Şərqdə yerləşdirilməsindən sonra Vaşinqtonun bölgədəki iştirakının artmasının doğurduğu narahatlıqla əlaqədar Tehran və Moskvanın regional siyasətinin yaxınlaşması müşahidə olunur. Bu şəraitdə Rusiya soyuq müharibə dövründəki siyasi metodlardan istifadə edərək İran və Suriya kimi müttəfiqlərinə silahla dəstək verməklə ABŞ-a qarşı müdafiə xətti yaratmağa çalışır.

Təhlükəsizliklə bağlı və siyasi məqsədlərdən əlavə, Rusiya Yaxın Şərqdə iqtisadi strategiyalar da həyata keçirir. Uzun müddət Rusiya Yaxın Şərq ölkələrini silahla təmin edən əsas ölkə olmuşdur. Bu mövzu V.Putinin Yaxın Şərqə səfərlərində qabarıq şəkildə görünür. RF Prezidentinin silah şirkətləri rəhbərlərinin müşayiəti ilə Səudiyyə Ərəbistanı, Misir, Qətər və İordaniyaya səfərləri və bu ölkələrin başçıları ilə silah satışı ilə bağlı apardığı danışıqlar Rusiyanın Yaxın Şərq silah bazarına xüsusi diqqət yetirdiyini göstərir[5]. Yaxın Şərq Rusiya silahlarının satışına görə Çin və Hindistandan sonra üçüncü böyük bazardır. Bu bölgə bütün Rusiya silah ixracatının 17%-nə sahibdir. İran, Əlcəzair və Birləşmiş Ərəb Əmirlikləri Rusiyadan ən böyük silah alıcılarıdır. Yəmən, Suriya, Küveyt Rusiyanın Yaxın Şərqdəki digər əsas ixrac bazarları hesab olunur. Əlbəttə, Rusiyanın Yaxın Şərq regionu ölkələri ilə iqtisadi əlaqələri, son illərdəki fəal inkişafına baxmayaraq, ölkənin xarici ticarətində əhəmiyyətsiz paya malikdr. Siyasi və təhlükəsizlik maraqları Rusiyanın Yaxın Şərqdəki xarici siyasətində əsas rol oynayır. Lakin Tunis, Misir və Liviyada, daha sonra Bəhreyndə və Yəməndə siyasi dəyişikliklər başladıqdan sonra Moskva ilə Tehran arasında daha sıx əməkdaşlıq üçün şərait yarandı. Hər iki ölkə bölgədəki yeni kütləvi inqilab dalğasında tərəfsiz siyasət yürütməyə başladı. İran hökuməti Misir, Liviya və Tunisdəki hökumət əleyhinə hərəkatları Qərb tərəfindən dəstəkləndikləri üçün müdafiə etmədi. Əlavə olaraq, İranın "Müsəlman qardaşlar" kimi partiyaları qəbul etmədiyi də qeyd olunur, çünki onlar sünni-vəhhabi düşüncəsinin təsiri altındadırlar və gücləndikləri təqdirdə İranın şiə hökumətinə müsbət yanaşmayacaqlar. Digər tərəfdən, Rusiya da bu dəyişiklikləri Liviya və Misirdə "idarəolunan xaos" mexanizmi üzrə həyata keçirilmiş və hazırda Suriyada həyata keçirilən Yaxın Şərq üçün yeni

Amerika planı çərçivəsində qiymətləndirdi. Moskva "Ərəb baharı"nı Vaşinqtonun öz təsirini daha da genişləndirmək və rəqiblərini, o cümlədən Rusiyanı sıxışdırmaq məqsədi ilə Yaxın Şərqin siyasi xəritəsini yenidən formalaşdırmaq cəhdi kimi qəbul etdi. Bu dəyişikliklərin nəticələri yalnız siyasi və iqtisadi maraqların itirilməsinə və Rusiyanın geosiyasi təsir dairəsinin daralmasına səbəb olmayacaq, əksinə, ABŞ-ın ambisiyalarının genişlənməsi nəzərə alınaraq, ölkənin uzunmüddətli təhlükəsizliyi ciddi problemlərlə üzləşəcəkdi. Uzaq perspektivdə ABŞ Suriyada Bəşər Əsədi devirdikdən sonra İrana üz tutacaqdı, Tehran ilə Vaşinqton arasında hər hansı bir ciddi münaqişə isə Rusiyanın cənub sərhədlərində təhlükəsizlik və sabitlik probleminə səbəb ola bilərdi. Moskva dini ekstremistlərin Yaxın Şərqə gəlişindən və Mərkəzi Asiya və Qafqaz ölkələrinə təsirindən, bu bölgədə oxşar hadisələrin baş verməsi perspektivindən narahat idi.

Suriya böhranı Moskva ilə Tehran arasında Yaxın Şərqdə əməkdaşlığın və ortaq maraqların zirvəsi oldu. İran baxımından Suriya İsrail əleyhinə cəbhə xəttidir və Qərb yönümlü və Amerika tərəfdarı hökumət Suriyada hakimiyyətə gələrsə, bu, İran və müttəfiqlərinin mənafeyinə uyğun olmayacaqdır. Rusiya da Amerika tərəfdarı hökumətin Suriyada hakimiyyətə gəlməsini istəmir[1]. Rusiyanın xaricdəki yeganə dəniz bazası Suriyanın Tartus limanındadır. Bu baza Rusiya silahlı qüvvələrinin müdafiə gücünü artıra bilər. Onun içərisində yerləşən gəmilər Süveyş kanalı ilə Qırmızı dənizə və Hind okeanına və Cəbəllütariq boğazından Atlantik okeanına çıxmaq imkanına malikdir. Rusiya qlobal oyunçu kimi mövqeyini bərpa etməkdə maraqlı olduğu üçün mənafelərini "böyük dövlət" prizmasından müdafiə etməyə çalışır.

Bundan əlavə, Əsədin devrilməsi və müxaliflərin hakimiyyətə gəlməsi nəticəsində baş verəcək ekstremist islamçılıq dalğası Rusiyanın təhlükəsizlik sahəsində narahatlığına səbəb olan başqa bir mövzudur. Moskva Suriyadakı sələfi islamçı və ekstremistlərin hakimiyyətə gəlməsi perspektivindən çox narahat idi, çünki bu, Qafqaz və Mərkəzi Asiyanın sabitliyinə və təhlükəsizliyinə mənfi təsir göstərə bilərdi[10, s. 12]. Hesabatlar on iki min əcnəbi döyüşçünün Suriyanın daxili müharibələrində iştirak etdiyini göstərir. Qeyri-ərəblər arasında əksəriyyəti çeçen müsəlmanlar təşkil edir[4]. Liviyanın "Əl-Manar" televiziya kanalının məlumatına görə, Səudiyyə Ərəbistanı və Misir vətəndaşlarından sonra qafqazlılar Suriyada həlak olanlar arasında sayca üçüncü yeri tutur.

Corc Vaşinqton Universitetinin Mərkəzi Asiya proqramının direktoru Merilin Lervill hesab edir ki, Qafqaz və Orta Asiya gələcəkdə qarışıqlıq mərkəzinə çevrilə bilər. Sələfi qrupların Əfqanıstan, İraq və Suriyadakı şiddətli qarşıdurmalarda iştirak etdikdən sonra öz ölkələrinə qayıtması Orta Asiya və Qafqazda gərginliyin artmasına səbəb ola bilərdi. Buna görə də Əsəd hökumətinə geniş siyasi və hərbi dəstək verən Rusiya rəhbərliyi dini ekstremistlərin hakimiyyətə gəlməsinin qarşısını almağa çalışmışlar. Suriya böhranında Tehran Rusiyanın bölgədəki yeganə müttəfiqi olmuşdur.

Nəhayət, Tehran və Moskva Qərbin Yaxın Şərqdəki son hadisələrə ikili yanaşmasından narazıdır. Bəhreyndə və Səudiyyə Ərəbistanında insan haqları ilə bağlı Qərbin narahatlıq ifadə etməməsi, Suriyanın diqqət mərkəzində saxlanması vurğulanır. Deməli, əslində, Qərbin Suriya rejimi ilə mübarizədə məqsədi heç də insan hüquqlarının müdafisəi deyil, Rusiyanın Yaxın Şərqdəki mövcudluğunu azaltmaq və İranı zəiflətməkdir.

Lakin Tehran və Moskvanın Yaxın Şərqdəki dəyişikliklər ilə bağlı ortaq mövqeyinin əksinə olaraq, Fələstin məsələsində İran və Rusiyanın baxışları bir-birindən uzaqdır. Rusiya Yaxın Şərqdə sülh prosesi üzrə dördlüyün üzvü kimi İsrail və Fələstin arasında sülh yaratmaq cəhdlərini dəstəkləyir. İran İslam Respublikası isə İsrail və Fələstin arasındakı sülh prosesini ədalətsiz hesab edir və xarici siyasətinin prinsipləri əsasında İsraillə barışmaz qarşıdurma mövqeyi tutur. Əksinə, Rusiya hökuməti xarici siyasətinin çoxşaxəli məqsədlərini nəzərə alaraq İsrail və İranla eyni zamanda diplomatik və iqtisadi əlaqələri davam etdirməyə və bu ölkələrin hər birindəki maraqlarını təmin etməyə çalışır.

Beləliklə, son illər ərzində İraqdakı Şiə hökumətinin hakimiyyətə gəlməsi ilə İranın Yaxın Şərqdə nüfuzunun güclənməsi, Fələstin seçkilərində anti-İsrail qrupu "Həmas"ın qələbəsi, Rusiyanın. "Həmas" və İranın əsas müttəfiqi olan "Hizbullah" təşkilatlarını antiterror qrupları kimi qəbul etməsi, habelə hər iki ölkənin ABŞ-ın Yaxın Şərqdəki təsirinə qarşı çıxması Moskva ilə Tehran arasında bölgədə fəal yaxınlaşma üçün zəmin hazırlamışdır.

İranın Fars körfəzindəki strateji mövqeyi,

ticarət tərəfdaşı kimi əhəmiyyəti, Mərkəzi Asiya və Qafqazdakı tarixi təsiri Moskvanın diqqətini çəkir. Bundan əlavə, Rusiya İranla münasibətlərini ABŞ-dan müstəqilliyin simvolu kimi qiymətləndirir. Əksinə, ABŞ-ın Tehranı təcrid etmək cəhdlərinə müqavimət göstərmək üçün İranın Rusiyadan siyasi dəstəyə ehtiyacı var. Bundan əlavə, İran Rusiyanın Yaxın Şərqdə "dini ekstremizmə qarşı mübarizə" məsələsində təbii müttəfiqidir.

İranın Yaxın Şərqdəki sülh prosesi ilə bağlı mövqeyi Amerika Birləşmiş Ştatlarının İrana qarşı düşmənçiliyinin əsas səbəblərindən biridir. İran İslam Respublikası Yaxın Şərqdə və hətta dünyada İsrailin ən ciddi düşməninə çevrilmişdir. ABŞ-ın dəstəyi ilə İranı zəiflətməyə və təcrid etməyə çalışır.

Lakin İran İslam Respublikası ilə İsrail arasındakı kəskin qarşıdurmaya baxmayaraq, Rusiyanın İsraillə münasibətləri inkişaf etməkdə davam edir. Sovet İttifaqının dağılmasından sonra mütəxəssis və elmi işçi olan yüz minlərlə yəhudinin İsrailə mühacirəti iki ölkə arasındakı münasibətləri tamamilə dəyişdirdi. İsraildə bir milyondan çox rusun olması MDB respublikalarından kənarda ən böyük etnik rus icması formalaşdırdı. Bu köçün nəticələrindən biri də Rusiya ilə İsrail arasında siyasi, iqtisadi və mədəni əlaqələrin inkişafı və Yaxın Şərqdəki sülh prosesinə güclü dəstək oldu.

İsraildə rusiyalı mühacirlərin rəhbərliyi altında iki ölkə arasında iqtisadi və ticarət arenasında əlaqələri sürətləndirən nəhəng şirkətlər şəbəkəsi mövcuddur. Rusiya da öz sənayesini modernləşdirmək üçün İsrail texnologiyalarını əldə etməkdə maraqlıdır. İki ölkə arasında hərbi-texniki əməkdaşlıq haqqında ilk saziş 1995-ci ildə imzalanıb. İki ölkə terrorizmə qarşı mübarizədə də əməkdaşlıq edir. Mədəni və sosial münasibətlərdə də əhəmiyyətli irəliləyiş əldə olunmuşdur. Son onilliklərdə İsrail ruslar üçün populyar turizm mərkəzinə çevrilmişdir. Rusiyalı turistlər İsraildə amerikalılardan sonra ikinci yerdədir. Hər il İsraili 500 minə yaxın rus turist ziyarət edir. 2008-ci ildə iki ölkə arasında viza rejiminin ləğvi də bu prosesə kömək etmişdir. İsrail hökuməti də Rusiya ilə əlaqələrin inkişafında maraqlıdır. İsrailin məqsədi Rusiyaya mal ixrac etmək və ölkənin neft-qaz ehtiyatlarına çıxış əldə etməkdir. İsrail Rusiyanın Yaxın Şərqdəki siyasi təsirindən müəyyən qrupların və hökumətlərin özünə qarşı düşmənçiliyini azaltmaq üçün istifadə etməyə çalışır. Lakin İsrail hökuməti hər zaman Moskva ilə Tehran arasındakı strateji əməkdaşlığa qarşı çıxır. İsrail rəsmilərinə görə, İran Rusiyanın dəstəyi ilə hərbi və nüvə sənayesində bölgədə əhəmiyyətli gücə çevrilmişdir və Livandakı Hizbullah və Fələstindəki Həmas kimi anti-İsrail qruplarına maliyyə və hərbi dəstək verir. İsrail İranın nüvə silahına və ballistik raketlərə çıxışı olduğu təqdirdə öz milli təhlükəsizliyi üçün ən ciddi təhdidə çevriləcəyinə əmindir. Bu səbəbdən İran ilə Rusiya arasında nüvə və hərbi əməkdaşlıq məsələsi daim İsrailin Rusiya ilə apardığı danışıqların gündəmindədir[6].

Professor A.A. Kornilovun fikrincə, "İsrailin təhlükəsizliyinə təhdidlərə iki əsas yanaşma - hərbi və siyasi-diplomatik yanaşmalar fərqləndirilməlidir. Birinci yanaşmaya görə, təhlükə fələstinlilərlə qarşıdurmadan deyil, kütləvi qırğın silahları əldə etmək üçün hər cür səy göstərən regional rejimlərdən qaynaqlanır..."[3, s.75].

Son otuz ildə İsrail Rusiya ilə İran arasındakı münasibətləri pozmaq üçün müxtəlif vasitələrdən istifadə etmişdir:

- Moskva-Tehran münasibətlərinə təsir göstərmək üçün Rusiya ilə ikitərəfli əməkdaşlığın inkişafı;
- bölgədə və dünyada ictimai rəyə təsir göstərmək üçün İran və Rusiya arasında əməkdaşlığa qarşı psixoloji müharibə;
- Rusiya ilə İran arasında hərbi əməkdaşlığın şişirdilməsi;
- Mərkəzi Asiya və Qafqaz ölkələrində siyasi İslamın təbliği məsələsində İran təhlükəsinin vurğulanması. İsrail Mərkəzi Asiyada və Qafqazdakı fəal oyunçulardan biridir və bu regionların ölkələri ilə yaxşı əlaqələrə malikdir. Siyasi islam təhlükəsindən bu ölkələrin İranla münasibətlərinə təsir aləti kimi istifadə daim İsrailin gündəmindədir. Bu təbliğatın məqsədi həmin ölkələrin İranla əməkdaşlığının məhdudlaşdırılmasıdır;
- beynəlxalq aləmdə İsrailpərəst lobbinin Rusiyanın xarici siyasətinə təzyiqi. Bu sahədə İsrail Konqresdəki və ABŞ Milli Təhlükəsizlik Şurasındakı güclü lobbisindən istifadə edərək Rusiyaya bu ölkənin İranla işbirliyini azaltmaq məqsədilə təzyiq göstərir;
- Türkiyənin Mərkəzi Asiya və Qafqazdakı nüfuzunun gücləndirilməsinə kömək. İsrailin Türkiyənin bölgədəki nüfuzunu genişləndirməsinə

verdiyi dəstək, Türkiyə ilə İsrail arasındakı hərbi, iqtisadi və təhlükəsizlik sahəsindəki əməkdaşlığa paralel olaraq türkdilli ölkələr qurşağını formalaşdıra bilər. Şərqi Sibirə. Bu siyasətin nəticəsi Rusiyanın Yaxın Şərq və İran da daxil olmaqla Cənubla münasibətlərini məhdudlaşdırmaqdır.

Beləliklə, İsrail Tehranla Moskva arasındakı münasibətlərə ABŞ ilə müqayisədə daha az dağıdıcı təsir göstərsə də, Rusiya bəzi hallarda, məsələn, İranla nüvə əməkdaşlığında İsrail rəhbərliyinin tələblərinə əhəmiyyət vermirlər. Eyni zamanda, ötən illər ərzində Rusiya ABŞ və İsrailin təzyiqləri üzündən İrana qabaqcıl silah satmamışdır. Rusiyanın iqtisadi, bank sistemində və ticarət şirkətlərində yəhudi səhmdarların və investorların olması da Moskva ilə Tehran arasındakı iqtisadi münasibətlərin azalmasının səbəblərindən biridir.

**Açar sözlər:** *İran, Rusiya, Yaxın Şərq, münasibətlər, maraqlar.*

## ƏDƏBİYYAT SİYAHISI

1. *Бехештипур, Х. Сравнительное сопоставление политики Ирана и России по отношению к Сирии / 2012, URL.: http:// www. mardomsalari. com/template1/*

2. *Киани, Д.Политика России на Среднем Востоке: Оси и мотивации / Д. Киани // Тегеран: Центр стратегических исследований Ирана, 2008. URL:http://www.csr.ir/departments. aspx?lng=en&abtid=06&&depid=44& semid=1089.*

3. *Корнилов А. А. Безопасность превыше всего: концепции внешней политики и национальной безопасности Государства Израиль /А. А. Корнилов // Н. Новгород: ННГУ имени Н. И. Лобачевского. – 2005.*

4. *Barrett, R. Foreign Fighters in Syria /R. Barrett //2014. URL:http://soufangroup.com/wp-content/ uploads/ 2014/06/TSG-Foreign-Fighters-in-Syria.pdf.*

5. *Bourtman,I. Putin and Russia's Middle Eastern Policy / Journal of MERIA. http://www. rubincenter. org/ meria/ articles/ 2006/june/putin-and-russias-middle-eastern-policy.pdf.*

6. *Lukyanov, F. Russia's Israel Policies / Al-Monitor. 26 January 2013.- URL: http://eng.globalaffairs.ru/redcol/Russias-Israel-Policies-15840.*

7. *Rivlin, P. The Russian Economy and arms exports to Middle East / P. Rivlin// the Jaffee Center for Strategic Studies (JCSS), Memorandum, 2005. – №79. – p. 34.*

8. *Trenin, D. Russia Redefines itself and its Relation with West. - Op. cit, p. 102.*

9. *Trenin, D. Russia's Middle East Gambit / D. Trenin // Carnegie Moscow Center. – 30 May 2013. URL: http://carnegie.ru/2013/05/30/russia-s-middle-east-gambit*

10. *Trenin, D. The Mythical Alliance: Russia's Syria Policy / Washington D.C. Carnegie Endowment for International peace. – February 2013.*

### Роль ближневосточного региона в ирано-российских отношениях

**РЕЗЮМЕ**

В статье рассматривается роль региона Ближнего Востока в современных ирано-российских отношениях. Автор дает краткий анализ влияния развития событий на Ближнем Востоке на ирано-российские отношения. Особое внимание уделяется изменениям в ирано-российских отношениях под влиянием этого фактора в последние десятилетия.

**Ключевые слова:** *Иран, Россия, Ближний Восток, отношения, интересы.*

### The role of the Middle East region in Iranian-Russian relations

**SUMMARY**

The article examines the role of the Middle East region in modern Iranian-Russian relations. The author provides a brief analysis of the impact of developments in the Middle East on Iranian-Russian relations. Particular attention is paid to the changes in Iranian-Russian relations under the influence of this factor in recent decades.

**Key words:** *Iran, Russia, the Middle East, relations, interests.*

UOT 327; 930.22

# AVROPA İTTİFAQININ CƏNUBİ QAFQAZDA "AVROPA QONŞULUQ SİYASƏTİ ÜZRƏ FƏALİYYƏT PLANI": MAHİYYƏTİ VƏ GÖZLƏNTİLƏRİ

**KAMRAN MƏMMƏDOV**
*Bakı Dövlət Universitetinin Beynəlxalq münasibətlər kafedrasının dissertantı*

*E-mail: kamran.c.mammadov@gmail.com*

Müasir dövrdə Avropa Ittifaqının Cənubi Qafqaz ölkələri, o cümlədən Azərbaycan Respublikası ilə qarşılıqlı əlaqələrin güclənməsi, işbirliyinin genişlənməsi və əməkdaşlığın dərinləşməsi baxımından hazırda həyata keçirilməkdə olan "Avropa Qonşuluq Siyasəti üzrə Fəaliyyət Planı" xüsusi əhəmiyyətə malikdir. Bu plan demək olar ki, bütün sahələr üzrə tərəflər arasında işbirliyinin qurulmasında mühüm rol oynamaqla yanaşı, region dövlətlərinin Avroatlantik məkanına inteqrasiyasında ciddi əhəmiyyət kəsb etməkdədir ki, bunu hazırda birliklə Cənubi Qafqaz ölkələri arasında intensiv işbirliyinin toplanmış təcrübəsi və həyata keçirilməkdə olan layihələr açıq şəkildə nümayiş etdirməkdədir.

Azərbaycan Respublikası üçün Fəaliyyət planın daha mühüm əhəmiyyəti Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması məsələsində suveren dövlətin ərazi bütövlüyünun beynəlxalq hüquq normalarına uyğun şəkildə dəstəklənməsidir. Fəaliyyət planının təhlili göstərir ki, beynəlxalq normalar və ATƏT-in "Bəyannamə prinsipləri" kontekstində Avropa İttifaqı Azərbaycanın ərazi bütövlüyünü tanıyır və münaqişənin dinc vasitələrlə nizamlanması sahəsində görülən işləri dəstəkləyir.

Azərbaycan Respublikasının Avropa ölkələri ilə əlaqələrinin dərinləşməsində mühüm əhəmiyyət kəsb edən layihələrin içərisində Avropa Qonşuluq Siyasəti mühüm əhəmiyyətə malikdir. Məhz bu siyasətin uğurla həyata keçirilməsi sonrakı əməkdaşlıqda mühüm rol oynamışdı. Hələ keçən əsrin 90-cı illərinin ortalarında Aİ-nin postsovet məkanı ölkələrinə münasibətdə həyata keçirməyə başladığı yeni kurs – Tərəfdaşlıq və Əməkdaşlıq Sazişlərinin (TƏS) imzalanması və onların qüvvəyə minməsi ikitərəfli münasibətlərdə mühüm rol oynamışdı. TƏS Aİ-nin yeni müstəqillik əldə etmiş ölkələrə maddi, siyasi və hüquqi dəstək aləti idi. Belə dəstəyin köməyi ilə Azərbaycan və Gürcüstan qısa müddətə dövlət müstəqilliklərinin möhkəmləndirilməsi yolunda həyati əhəmiyyətə malik işlər görmüşdülər [8, 3].

Qarşılıqlə əməkdaşlığın dərinləşdirilməsi gedişində yeni-yeni layihə və proqramlar meydana gəlmiş, həyata keçirilməyə başlamışdı. Belə layihələrin içərisində Şərq tərəfdaşlığı və Avronest layihələri ilə yanaşı hər bir ölkə ilə fərdi qaydada imzalanan fəaliyyət planları da mühüm rol oynayırdı. Azərbaycanla Avropa İttifaqı arasında başlanan Fəaliyyət planı xeyli davam etmiş müzakirələrdən sonra 2006-cı il noyabrın 14-də Brüsseldə Aİ-Azərbaycan Əməkdaşlıq Şurasının iclası zamanı qəbul edilmişdir. Bununla da əvvəllər ikitərəfli əməkdaşlıq Tərəfdaşlıq və Əməkdaşlıq Sazişinə əsasən tənzimlənirdisə, bundan sonrakı mərhələdə Qonşuluq siyasəti çərçivəsində Fəaliyyət planına əsasən münasibətlərin inkişaf etdirilməsi nəzərdə tutulurdu [3]. Qeyd edək ki, Fəaliyyət planı konkret mərhələlərə bölünməklə həyata keçirilir, belə plana malik olan ölkələrlə müxtəlif sahələrdə əməkdaşlığın həyata keçirilməsi və demokratik dəyərlərin inkişafına yardım göstərilməsi nəzərdə tutulurdu.

Dövlət müstəqilliyinin elan olunmasından sonra keçən illər ərzində Azərbaycanla Avropa İttifaqı arasında tərəfdaşlıq və əməkdaşlıq sahəsində münasibətlərin siyasi-hüquqi əsasları yaradılmışdır. 2006-cı ildə Fəaliyyət planinin qəbul edilməsi ilə ikitərəfli əməkdaşlığın ikinci mərhələsi başlamışdır. Avropa Komissiyasının Azərbaycandakı xüsusi nümayəndəsi A.Vaddamsa görə, ilk dəfə fəaliyyət planı çərçivəsində AQS-yə daxil olan respublikaların hökumət, vətəndaş cəmiyyəti və Avropa strukturları nümayəndələri bir araya gəlməyə və müzakirələrə başlamağa nail olmuşlar. Məlum olduğu kimi, AQS Aralıq dənizi hövzəsi və MDB məkanının 12 dövlətini əhatə edir, Rusiya ilə münasibətlər isə ayrıca layihəyə əsasən qurulur və inkişaf etdirilir. Fəaliyyət planına əsasən

2007-ci il üzrə respublikamıza proqram üzrə 19 mln. avroluq büdcə müəyyənləşdirilmiş və uğurla həyata keçirilmişdir. Qeyd edək ki, Aİ-nin 2007-2013-cü illəri əhatə edən "Yeni Qonşuluq Siyasəti üzrə Fəaliyyət Planı"na əsasən birliyin büdcəsindən 11 mlrd 181 mln avro miqdarında vəsait ayrılmışdı ki, həmin vəsait Avropa İttifaqının qonşuluq siyasətinə əsasən tərəfdaşlıq etdiyi dövlətlərlə qarşılıqlı əməkdaşlığı genişləndirmək üçün milli və beynəlxalq proqramların həyata keçirilməsinə xərclənməsi nəzərdə tutulmuşdu və təyinatı üzrə də sərf edilmişdi [6].

Aİ-nin Bakıdakı koordinatoru V.Şporer qeyd edirdi ki, Azərbaycanda Fəaliyyət planinin həyata keçirilməsi üçün Birlik 92 mln. avro ayırmışdı ki, bu, Gürcüstan və Ermənistan üçün ayrılan məbləğlərdən xeyli azdır. Bununla belə, vəsaitlərin bölgüsü zamanı ölkələrin adam başına düşən ÜDM-si nəzərə alındığına, həm də vəsaitlər ölkələrin özlərinin sorğularına əsasən tərtib olunmuş konkret layihələrə yönəldiyinə görə fərqlərin olması qaçılmazdır. Lakin regional sərhədyanı əməkdaşlıq layihələrində iştirak və pay əldə etməsi baxımından Azərbaycanın əlavə yardımlar əldə etməsi mümkün hesab edilirdi [16]. Ümumiyyətlə, 1992-ci ildən sonra keçən dövr ərzində Aİ müxtəlif layihələrə əsasən Azərbaycana 400 mln. avrodan yuxarı yardım edilmişdir [13, 22-23].

AQS təsis edilərkən Avrasiya regionunda sabitliyin, inkişafın və demokratiyanın möhkəmləndirilməsi vəzifələri hədəflənmişdi və ictimai quruluşun bütün institutlarını - hökuməti, bələdiyyələri, həmkarlar ittifaqlarını, qeyri-hökumət təşkilatlarını əhatə edirdi. Azad ticarətin təşviq edilməsi Avropa Qonşuluq Siyasətinin mühüm istiqamətlərindən biri olsa da, ekologiya və idarəçilik sahələrində islahatların həyata keçirilməsini, hüquqi quruculuğu, məhkəmə sisteminin təkmilləşdirilməsini, Qərb dəyərləri bazasında demokratiyanın inkişaf etdirilməsini nəzərdə tuturdu. Xüsusilə, azad ticarət rejiminin inkişafı üzrə tədbirlərin dəstəklənməsi Azərbaycanın Ümumdünya Ticarət Təşkilatına daxil olması prosesini tezləşdirilməsinə xidmət edirdi. Fəaliyyət planında digər sahələr də diqqətdə saxlanılır və deyilirdi ki, "qonşuluq siyasəti sərhədlərdən sərbəst keçidi, viza rejiminin sadələşdirilməsini, miqrasiya sahəsində əməkdaşlığı, enerji təhlükəsizliyinin təmin edilməsini də nəzərdə tuturdu. AQS-nin əsas vəzifələri sırasına həmçinin demokratiyanın inkişafı məsələləri də daxildir". Plana görə, İttifaqın Bakıda öz nümayəndəliyini açması, Azərbaycana demokratiya və insan hüquqları ilə məşğul olan xüsusi nümayəndə təyin edilməsi məsələləri də gündəmdə idi [7].

Fəaliyyət Planında nəzərdə tutulanların ayrıca təhlil edilməsinə ehtiyac ilk növbədə onun gözləntiləri ilə bağlıdır. Belə ki, onun həyata keçirilməsi Azərbaycan qanunvericiliyinin, norma və standartlarının Avropa dəyərlərinə yaxınlaşmasını təmin etməyə istiqamətlənmişdir. Sənədə görə, məhz bu prosesdə "ticarət, investisiya qoyuluşu və artım potensialı olan iqtisadi və ticarətlə əlaqəli qaydaların qəbulu və həyata keçirilməsinə əsaslanan gələcək iqtisadi inteqrasiyanın möhkəm əsasını qoyacaq... iqtisadi artım və sosial birliyin inkişafı, yoxsulluğun azaldılması və ətraf mühitin qorunması ilə bağlı siyasət və tədbirlərin işlənilməsi və həyata keçirilməsinə kömək edəcək, bunun vasitəsilə də uzun müddətli və davamlı inkişafa töhfə verəcəkdir" [1, 1].

Qeyd edək ki, Azərbaycanın Avropaya inteqrasiyası prosesində qeyri-hökumət təşkilatlarının fəaliyyəti də əhəmiyyətli rol oynayır. Bu baxımdan İnteqrasiya üzrə Milli İctimai Komitənin həmsədri İ.Bağırova qurumun Azərbaycanın Avropa strukturlarına inteqrasiyası proseslərinə yardım etmək məqsədilə yaradıldığını qeyd edərək komitənin Fəaliyyət planına əlavələrlə bağlı təkliflər hazırlandığını da diqqətə çatdırmışdı. Analoji mövqeni "Avropa Evi"nin Bakıdakı koordinatoru V.Şpörer də sərgiləmiş və göstərmişdi ki, Azərbaycanın Fəaliyət planında nəzərdə tutulan prioritetlər çoxşaxəli xarakterə malik olmuşdur: "Avropa İttifaqı 2007-2010-cu illərdə Qonşuluq siyasətinin həyata keçirilməsi üçün 12 mln avro qrant ayırmışdır, Avropa Yenidənqurma və Bərpa Bankının da həmin miqdarda vəsait ayıracağı gözlənilir" [12].

Ekspertlərə görə, Fəaliyyət planının təkcə Avropa İttifaqının imkanları hesabına həyata keçirilməsi nəzərdə tutulmamışdır, çünki, Azərbaycanda yerinə yetirilməsi nəzərdə tutulan böyük sayda öhdəliklərin reallaşması xeyli vəsait tələb edir, buna görə də digər maliyyə mənbələrinə müraciət olunmalıdır. Sənəddə habelə əsas fəaliyyət

istiqamətləri kimi iqtisadi inteqrasiya, mütəmadi siyasi və mədəni və humanitar sahələrdə əlaqələr, sərhəd əməkdaşlığı və s. nəzərdə tutulmuşdu. Nəzərdə tutulanların həyata keçirilməsi isə həmin sahələrdə bir sıra genişmiqyaslı quruculuq işlərinin aparılmasını və milli qanunvericiliyin təkmilləşdirməsini tələb edirdi.

Nəzərə alsaq ki, hazırda Avropa İttifaqının genişlənməsi ilə bağlı perspektivlər uzaq gələcəyin işidir, onda Fəaliyyət proqramı çərçivəcində Birliyin öz qonşuları ilə yaxınlaşması təhlükəsizlik, strateji sabitlik, əhalinin rifah halının yüksəldilməsi, demokratiyanın inkişafı və qeyri-qanuni mühacirətin əngəllənməsi məqsədlərinə xidmət etməsi nəticəsini alarıq. Planın mühüm xüsusiyyətlərindən biri də İttifaqın qonşu olduğu dövlətlərlə hansı şərtlər əsasında əməkdaşlıq etmək məramlarını əks etdirməsidir. Belə çıxır ki, Avropa İttifaqı qonşularına imtiyazlı əlaqələr təklif edir, müqabilində insan hüquqlarının qorunması şəraitində bazar iqtisadiyyatı prinsipləri bazasında vətəndaş cəmiyyətinin qurulacağını görmək istəyir. Məhz buna görə də Azərbaycan politoloji fikri Avropa Qonşuluq Siyasətini mövcud əlaqələrin statusundan daha yüksək statusa malik siyasi əməkdaşlığı və ölkələrin Avropaya iqtisadi inteqrasiyasını təmin edən proqram kimi qiymətləndirir [4, 70-71].

Politoloqlara görə, Fəaliyyət planı Cənubi Qafqaz dövlətləri ilə Aİ arasında yenı tərəfdaşlıq münasibətlərinə start verməklə onların Avropaya yaxınlaşması üçün yeni perspektıvlər yaradır. Bu baxımdan "Yeni Qonşuluq Siyasəti üzrə Fəaliyyət Planı"nın əhəmiyyəti böyük, tərəfdaşlıq perspektivləri və gözləntiləri uzağagedəndir. Beynəlxalq Mediaya Dəstək qeyri-hökumət təşkilatının dəstəyi ilə nəşr olunmuş hesabatda deyilirdi ki, “özünün Azərbaycan üçün nəzərdə tutulmuş demokratiyanın təşviqi strategiyasında Avropa Birliyi daha çox “yumşaq güc” kimi çıxış etmiş və dialoqa, əməkdaşlığa və maarifləndirməyə əsaslanan strategiyadan istifadə etmişdir. Bu gün Azərbaycanda siyasi nüfuzunu artırmaq və ölkədə insan hüquqlarının pisləşməkdə olan durumunu yaxşılaşdırmaq üçün Avropa Birliyi daha sərt və daha düşünülmüş yanaşmadan istifadə etməlidir” [2].

Toplanmış materialların elmi-politoloji təhlili göstərir ki, perspektivlər baxımından Fəaliyyət planının gözləntilərini aşağıdakı kimi qruplaşdırmaq olar:

- Avropa İttifaqının daxili bazarında pay əldə edilməsi imkanı və Cənubi Qafqaz dövlətlərinin qurumun siyasət və proqramlarının əsas aspektlərində daha çox iştirakı daxil olmaqla, əməkdaşlıqdan inteqrasiyanın daha yüksək səviyyəsinə dogru irəliləmə perspektivləri;

- müqaviləyə gələn tərəflərin maraqlarına təsir edən təhlükəsizlik məsələləri üzrə siyasi dialoq və məsləhətləşmələr üçün mexanizmlərin daha da inkişafı vasitəsilə siyasi əməkdaşlıgın əhatə dairəsinin və intensivliyinin genişləndirilməsinin mümkünlüyü;

- Avropa İttifaqının Cənubi Qafqaz üzrə Xüsusi Nümayəndəsi də daxil olmaqla qurumun ixtiyarındakı vasitələrdən istifadə edərək regiondakı münaqişələrirn nizamlanmasının dəstəklənməsi istiqamətində Avropa İttifaqının güclü səy göstərməsinin davam etdirilməsi. Əlavə olaraq qeyd edə bilərik ki, Avropa İttifaqı regiondakı sessionist münaqişələrin həlli və münaqişədən sonra bərpa prosesi ilə baglı özünün cəlb olunmasının daha da gücləndirilməsi üçün yollar axtarışını nəzərdən keçirməyə hazır olduğunu dəfələrlə bəyan edib, baxmayaraq ki, fakt və sənədlərin təhlili Cənubi Qafqaz münaqişələrinin latent vəziyyətdə saxlanmasında Aİ-nin maraqlı olduğunu göstərir, Aİ daha çox enerji maraqlarlnln təmin edilməsinə və enerji ixracı kəmərlərinin təhlükəsizliyi qayğısına qalır;

- Ticarət və iqtisadi sahələrdə əlaqələrin dərinləşdirilməsi; iqtisadi qanunvericiliyin Qərb standartlarına uyğunlaşdırılması imkanının təmin edilməsi, iqtisadiyyatların qarşılıqlı olaraq açılması və ticarətə sərmayə qoyuluşu və inkişafı stimullaşdıracaq qeyri-tarif maneələrin davamlı olaraq azaldılması prosesinin davam etdirilməsi;

- Avropa İttifaqının Cənubi Qafqaza artmaqda olan maliyyə dəstəyinin davamlı xarakter daşıması. Bu proses həyata keçirilməkdə olan layihələrin uğurlarından və gətirdiyi gəlirdən asılı olaraq inkişaf etdirilir, məlum olduğu kimi beynəlxalq təşkilatlar başlıca diqqəti regional xarakterli layihələrə yönəldirlər, lakin bu kontekstdə Avropa qurumlarının Ermənistana siyasi və iqtisadi xarakterli dəstəkləri “ikili standartlardan” başqa bir şey deyildir.

- Mədəniyyət, təhsil, ətraf mühit, texniki və

elmi əlaqələri təşviq edən müəyyən Avropa İttifaqı proqramlarına tədricən qoşulma və daha geniş iştirak imkanlarının açılması;

- Texniki yardım və tvinninq proqramı da daxil olmaqla Avropa İttifaqının norma və standartlarına uyğunluq üçün dəstəyin verilməsi, həmçinin hədəfli məsləhət və TAIEX (məlumat mübadiləsi üzrə texniki yardım) kimi mexanizm vasitəsilə qanunvericiliyin Qərb meyarlarına uyğunlaşdırılmasına dəstək verilməsi;

- Avropa İttifaqı və Cənubi Qafqaz ölkələri arasında insanların hərəkəti ilə baglı məsələlər üzrə qanunvericiliyin təkmilləşdirilməsi və buna uyğun olaraq dialoqun təsis edilməsi. Zaman və toplanmış təcrübə belə dialoqun vacibliyini göstərir və məhz həmin prosesdə yeni formaların, vasitə və üsulların meydana gəlməsinin şahidi oluruq [11].

Aparılmış təhlil göstərir ki, "Avropa Qonşuluq Siyasəti üzrə Fəaliyyət planı"nın məqsədlərinin həyata keçirilməsi təşkilatla Cənubi Qafqaz dövlətləri arasında əlaqə və əməkdaşlığın mahiyyət və məzmunca dərinləşməsinə, habelə ümumi inkişafının daha da sürətləndirilməsinə xidmət edir.

AQS-nin Azərbaycanla bağlı Fəaliyyət Planında 10 prioritet istiqamət müəyyənləşdirilmişdir ki, bunlar aşağıdakılardır:

- Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə tənzimlənməsi;

- demokratiyanin gücləndirilməsi sahəsində tədbirlərin görülməsi;

- qanunun aliliyinin, insan hüquqlarının və başlıca azadlıqların müdafiəsinin gücləndirilməsi;

- sahibkarliq və investisiya mühitinin yaxşılaşdırılması;

- gömrük xidməti işinin yaxşılaşdırılması;

- balanslaşdırılmış və davamlı iqtisadi inkişafa dəstək verilməsi;

- iqtisadi qanunvericiliyin və inzibati praktikanın yaxınlaşdırılması;

- Avropa İttifaqı ilə Azərbaycan arasında enerji və nəqliyyat sahələrində əməkdaşlığının gücləndirilməsi;

- məhkəmə, azadlıq və təhlükəsizlik sahələrində, o cümlədən sərhəd işində əməkdaşlığın dərinləşməsi;

- regional əməkdaşlığın gücləndirilməsinin daim nəzarətdə saxlanması və müntəzəm olaraq inkişaf etdirilməsi [1, 1-2].

Göstərilən priorititlərin elmi-siyasi təhlili onların mahiyyətinin açılmasına xidmət edir. Göründüyü kimi, həmin priorietlərdən başlıcası və Azərbaycan üçün taleyüklü məsələ olan Dağlıq Qarabağ münaqişəsidir ki, artıq çoxdan regionallıqdan çıxmışdır. Fəaliyyət planına əsasən, Avropa İttifaqının Cənubi Qafqaz üzrə Xüsusi Nümayəndəsinin də vasitəçiliyi ilə diplomatik səylərin artırılması və bütün regional münaqişələrin sülh yolu ilə həllinə dəstək priotriet olaraq davam etdiriləcəkdir. Fəaliyyət planında bu məqsədlə BMT TŞ-nın müvafiq qətnamələri, AŞPA və ATƏT-in sənəd və qərarları əsasında nizamlama prosesinə siyasi dəstəyin artırılması yer almışdı.

Fəaliyyət planında iknici prioritet sahə kimi region ölkələrində, o cümlədən də Azərbaycanda demokratiyanin gücləndirilməsi nəzərdə tutulmuşdu. Buna isə ilk növbədə beynəlxalq tələblərə cavab verən ədalətli və şəffaf seçkilərin keçirilməsi yolu ilə nail olunması mümkün hesab edilirdi. Sənəddə həmin prioritet üzrə 4 vəzifə müəyyənləşdirilmişdi ki, bunlar aşağıdakılardır: Avropa Şurasının Venesiya Komissiyasının və ATƏT/DTİHB-in (Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosu) tövsiyələri əsasında seçki islahatlarının həyata keçirilməsinin davam etdirilməsi, seçkilərin ATƏT-in öhdəliklərinə və digər beynəlxalq standartlara uyğun keçirilməsinin təmin edilməsi, Avropa Şurası qarşısında götürülmüş öhdəliklərə uyğun olaraq, icraedici və qanunverici hakimiyyətlərlə bağlı institusional islahatların davam etdirilməsi, yerli özünü idarəetmənin gücləndirilməsinə yönəlik islahatların davam etdirilməsi [1, 3].

Üçüncü prioritet sahəyə müvafiq olaraq 6 xüsusi tədbirin reallaşdırılması nəzərdə tuturdu. Belə ki, region dövlətləri TƏS, AŞ, ATƏT və BMT qarşısında götürdükləri beynəlxalq öhdəliklərə uyğun olaraq insan hüquqlarının, əsas azadlıqların və qanunun aliliyinin müdafiəsini gücləndirməli, hakim və prokurorların təyinat və yüksəlmə prosedurаları və məhkəmə sistemini təkmilləşdirməli, BMT-nin İşgəncə və digər qəddar, qeyri-insani və ya alçaldıcı rəftar və ya cəza əleyhinə Konvensiyasına olan Könüllü Protokolun ratifikasiyası (2006-cı ildən) və tətbiqini, habelə məlumat azadlığı haqqında qanunun düzgün tətbiqini təmin etməli, vətəndaş cəmiyyəti və onun təşkilatlanmış formalarının (QHT-lər, cəmiyyətlər və s.) inkişafını təşviq etməli və s. tədbirlər həyata

keçirməli idi.

Korrupsiya qarşı mübarizəni gücləndirməklə biznes və investisiya mühitinin yaxşilaşdirilmasi Fəaliyyət planında 4-cü prioritet sahə kimi nəzərdə tutulmuşdu. Plana əsasən aşağıdakı tədbirlər həyata keçirilməli idi: 2005-ci ildən qüvvədə olan Anti-korrupsiya qanununun və Korrupsiyaya qarşı Dövlət proqraminin icrasının gücləndirilməsi və müddəti başa çatdıqdan sonra yenidən davam etdirilməsi, adekvat ittiham və məhkumiyyətin təmin edilməsi məqsədilə Cinayət Məcəlləsi və digər beynəlxalq sənədlərə əsasən rüşvətxorluq və korrupsiya ilə bağlı cinayətlərin təyini, konkret beynəlxalq hüquq normaları bazasında korrupsiyaya qarşı mübarizə sahəsindəki normativ-hüquqi bazanın təkmilləşdirilməsi; şəffaf özəlləşdirmə prosesinin aparılması, biznes mühitinin yaxşılaşdırılması üçün hərtərəfli proqramın tərtib edilməsi və həyata keçirilməsi, vergi orqanlarında müasirləşmənin, sadələşmənin və informasiya kommunikasiya texnologiyalarının istifadəsinin davam etdirilməsi.

Növbəti – 5-ci prioritet sahə gömrük xidmətinin fəaliyyətinin təkmilləşdirilməsi olub özündə beş xüsusi tədbirin həyata keçirilməsini əks etdirirdi. Planda Aİ-nin və beynəlxalq standartların etalon götürülməklə gömrük qanunvericiliyinin təkmilləşdirilməsi və proseduraların sadələşdirilməsi məsələləri yer almışdı. Belə ki, xüsusi tədbirlərin içərisində gömrük məmurları üçün etika üzrə Aİ təcrübəsinin öyrənilməsi, yeni qəbul olunmuş idxal-ixrac qaydaları və prosedurаları haqqında məlumatın təmin edilməsi və bu sahədə biznes qrupları ilə mütəmadi görüşlərin təşkil edilməsi, tariflər haqqında ictimaiyyətə tam və müntəzəm məlumatlın verilməsi, gömrük qiymətləndirmə qaydalarının beynəlxalq standartlara uyğun olaraq həyata keçirilməsi, gömrük məmurlarının səriştələrinin artırılması üçün Aİ-nin ən yaxşı praktikası və təcrübəsinə əsaslanan müvafiq təlimlərinin keçirilməsi, gömrük orqanlarının informasiya texnologiyaları sahəsində lazımi texniki vasitələrlə və digər operativ imkanlarla təchiz edilməsi, gömrük məmurlarının təliminin gücləndirilməsi və s. kimi məsələlər aparıcı hesab olunurdu.

Altıncı prioritet sahədə - iqtisadi fəaliyyətlərin diversifikasiyası, kənd ərazilərinin inkişafı, yoxsulluğun azaldılması və sosial/ərazi birliyə xüsusi diqqət yetirilməsi, tarazlanmış və davamlı iqtisadi inkişafın dəstəklənməsi üçün 12 xüsusi tədbirin həyata keçirilməsi nəzərdə tutulmuşdu. Tədbirlərin içərisində qeyri-neft fiskal kəsirin və aşağı səviyyəli inflyasiyanın sabit saxlanılmasına xüsusi diqqət yetirərək düşünülmüş maliyyə və pul siyasəti vasitəsilə sabit iqtisadi artım siyasətinin aparılması, səmərəliliyi, məsuliyyəti, şəffaflığı və proqnozlaşdırmanı təkmilləşdirmək üçün dövlət maliyyəsinin islahatı prosesinin davam etdirilməsi, strateji müəssisələrin özəlləşdirilməsi də daxil olmaqla “Azərbaycan Respublikasında Dövlət Əmlakının Özəlləşdirilməsi haqqında İkinci Dövlət Proqramı”nın və Regionların İnkişafı üzrə Dövlət Proqramının icrasının davam etdirilməsi, icrasının sürətləndirilməsi, beynəlxalq təcrübəyə uyğun olaraq ARDNŞ-in və dövlətə məxsus digər böyük şirkətlərin restrukturizasiyasının davam etdirilməsi, həmçinin ətraf mühitin qorunması da daxil olmaqla davamlı inkişafın təşviq edilməsi əsas məqamlardan biri kimi göstərilirdi.

Növbəti prioritet sahəyə əsasən, Cənubi Qafqaz dövlətləri iqtisadi qanunvericiliyin və idarəetmə təcrübəsinin daha da yaxşılaşdırılması siyasətini dönmədən həyata keçirməli idilər. Bunun üçün həyata keçirilməli olan xüsusi tədbirlərin sırasına standartlaşdırma və akkreditasiya sahələrində uyğunluğun qiymətləndirilməsi, metrologiya və bazara nəzarət üzrə müvafiq dövlət qurumlarının fəaliyyətinin gücləndirilməsi, Əqli Mülkiyyət Hüquqları ilə bağlı qanunvericiliyin Tərəfdaşlıq və Əməkdaşlıq Sazişinin tələblərinə tam cavab verməsi və onun səmərəli tətbiqi, habelə dövlət investisiya siyasəti sahəsində islahatların davam etdirilməsi kimi məsələlər yer almışdı.

2004-cü ilin noyabr ayında qəbul olunmuş Bakı Nazirlər Konfransının məqsədlərinə nail olmaq məqsədilə, Aİ ilə Azərbaycan arasında enerji üzrə ikitərəfli əməkdaşlığın və enerji və nəqliyyat üzrə regional əməkdaşlığın gücləndirməsi 8-ci prioritet sahəyə aid edilirdi [9,53]. Bu prioritetlə bağlı təxirəsalınmaz tədbirlərin içərisində Avropa İttifaqı ilə Azərbaycan arasında enerji sahəsində Strateji Tərəfdaşlığın təsis edilməsi haqqında Anlaşma Memorandumunun həyata keçirilməsi və icrasına müntəzəm olaraq nəzarət edilməsi, yanacaq-enerji kompleksinin inkişafı üzrə Dövlət Proqramının (2005-2015-ci illər) həyata keçirilməsi və davamlı olaraq yenilənməsi, Aİ-nin enerji

siyasəti məqsədləri ilə daha çox uyğunlaşmasının təmin edilməsi, İNOGATE və onun davamı kimi Aİ-Qara dəniz-Xəzər hövzəsi ölkələrinin Bakıda keçirilmiş Nazirlər Konfransı çərçivəsi daxil olmaqla, Xəzər dənizi və Qara dəniz regional enerji məsələləri üzrə əməkdaşlığın davam etdirilməsi, 2004-cü ilin noyabrinda Bakıda keçirilmiş Aİ-Qara dəniz və Xəzər hövzəsi ölkələri Nazirlərinin Nəqliyyat Konfransında qəbul edilmiş sənədlərə uyğun olaraq əməkdaşlığın inkişaf etdirilməsinin dəstəklənməsi kimi məsələlər mühüm yer tuturdu. Qeyd edək ki, Azərbaycanla Aİ ölkələri arasında enerji layihələrində əlaqələndirici rolunda çıxış edən Türkiyə bir tərəfdən ölkənin entejiyə olan tələbatını ödəyir, digər tərəfdən Azərbaycanla əməkdaşlığı daha da dərinləşdirir, üçüncü tərəfdən Avropaya təsir göstərmək üçün son dərəcə güçlü təsir vasitəsi əldə edir və nəhayət özünü Qara dəniz-Cənubi Qafqazda regional səviyyədən daha yüksək səviyyəli "oyunçu" kimi təqdim edirdi. Hadisə və proseslərin təhlili göstərir ki, Rusiya-Türkiyə yaxınlaşmasının bu templə davam etməsi Avropanı perspektivdə Şərqdən daha ciddi olaraq enerji məsələsində asılı edəcəkdir [10].

Doqquzuncu prioritet sahədə isə ədliyyə, azadlıq və təhlükəsizlik, o cümlədən sərhədlərin idarə edilməsi sahəsində əməkdaşlığın gücləndirilməsi nəzərdə tutulurdu. Bu prioritet üzrə respublikamızın həyata keçirəcəyi təxirəsalınmaz tədbirlərin sırasına aşağıdakılar aid edilirdi: 2006-cı ildən etibarən inteqrasiya edilmiş sərhəd idarəçiliyi strategiyasının inkişaf etdirilməsi və müvafiq sərhəd demarkasiyası və mövcud ikitərəfli sərhəd əməkdaşlığı sazişləri və protokollarının tam icrası da daxil olmaqla (xüsusilə Gürcüstan, İran, Rusiya Federasiyası və Türkiyə ilə), sərhədlərin idarə edilməsi sahəsində əməkdaşlığın gücləndirilməsi, çirkli pulların yuyulması, cinayət yolu ilə əldə edilmiş gəlirlərin axtarişi, həbsi və müsadirəsi haqqında 1990-cı il Avropa Şurası Konvensiyasının həyata keçirilməsi və onun təbii davamı olan terrorizmin maliyələşdirilməsinə qarşı yeni konvensiyanın imzalanması, readmissiya və viza məsələləri də daxil olmaqla, insanların yerdəyişməsi ilə bağlı məsələlər üzrə dialoqun təsis edilməsi, 2003-cü ildə qəbul edilmiş İnsan alveri ilə mübarizə üzrə Milli Fəaliyyət planinin icrasının nəzərdən keçirilməsi və növbəti tədbirlərə baxılması, BMT-nin transmilli mütəşəkkil cinayətkarliğa qarşı Konvensiyası və onun insan, xüsusilə qadin və uşaq alverinin qarşisinin alınması, miqrantlarin müxtəlif yollarla qanunsuz daşınmasına qarşı, odlu silahlar, onların hissələri və sursatlarının qanunsuz istehsali və alverinə qarşı üç protokolun icrasının təmin edilməsi.

Nəhayət, sonuncu – 10-cu prioritet sahə üçün regional əməkdaşlığın gücləndirilməsi tədbirləri nəzərdə tutulurdu. Əldə edilmiş razılığa əsasən, göstərilən prioritetin həyata keçirilməsi üçün ətraf mühit, təhsil, sərhədlərin idarə edilməsi, nəqliyyat və parlamentlərarası sahələrdə əməkdaşlığın daha da genişləndirilməsi, Narkotiklər üzrə Cənubi Qafqaz Fəaliyyət Planı (SCAD) kimi Aİ tərəfindən maliyyələşdirilən regional yardım təşəbbüslərində Azərbaycanın iştirakının gücləndirilməsi, Qafqaz Regional Ekoloji Mərkəzinin regionda hökumət və qeyri-hökumət qurumları arasında əməkdaşlıqda daha fəal iştiraka cəlb edilməsi, Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı ilə (QİƏT) davamlı birgə əməkdaşlıq da daxil olmaqla, Qara dəniz regionunda və Qara dəniz ilə Baltik dənizi regionları arasında ikitərəfli və çoxtərəfli əməkdaşlığın genişləndirilməsi və regional səviyyədə gənclərin mübadiləsi və əməkdaşlığın dərinləşdirilməsi tədbirləri gündəmə gətirilirdi.

AQS-nin Fəaliyyət planında prioritet sahələrlə yanaşı Azərbaycanla Aİ arasında 40-dan artıq istiqamətdə kifayət qədər dəqiqliklə əks olunan qarşılıqlı fəaliyyət sahələrinin genişləndirilməsi də nəzərdə tutulurdu. Qeyd edək ki, Tərəfdaşlıq Planının (əvvəlcə Fərdi Tərəfdaşlıq Planı, sonralar Fəaliyyət Planı) reallaşdırılması üçün səylərin əlaqələndirilməsi məqsədilə Azərbaycan Prezidenti İ.Əliyev 2005-ci il iyunun 1-də Dövlət komissiyasının yaradılmasına dair Sərəncam imzalamışdı ki, sənədə əsasən başlıca hakimiyyət strukturlarının rəhbərləri komissiyaya daxil edilmişdilər. Sərəncama uyğun olaraq Komissiya çərçivəsində Azərbaycanla Aİ arasında əməkdaşlığın inkişaf etdirilməsi üçün müxtəlif sahələrə aid yeddi işçi qrupu yaradılmış, istiqamətləndirici qurum kimi Xarici İşlər Nazirliyi müəyyənləşdirilmişdi [15, 15-16].

Azərbaycan-Aİ əməkdaşlığının dərinləşməsində tərəflərin hər ikisinin maraqlı olması sürətlə həyata keçirilməkdə olan tədbir və dəyişikliklərdə öz əksini tapmışdı. Belə ki, Aİ müvafiq hüquqi aktlar imzalandıqdan dərhal sonra Y.Hani birliyin AQS

və Genişlənmə danışıqları üzrə komissarı təyin edərək onu Azərbaycana ezam etmişdi. Azərbaycan Prezidentinin Sərəncamı ilə İqtisadiyyat və Sənaye naziri Ş.Mustafayevin rəhbərliyi altında yaradılan Avropaya inteqrasiya üzrə Dövlət komissiyası ilə Aİ komissarı arasında qısa müddətə işgüzar əməkdaşlığın təməli qoyulmuşdu. İkitərəfli əməkdaşlığın inkişafında qarşılıqlı səfərlərin də əhəmiyyəti böyük olmuşdu. Belə ki, 2005-2015-ci illər arasındakı dövrdə Prezident İ.Əliyev Avropa İttifaqına 5 dəfə Aİ rəsmiləri isə ikiqat artıq belə səfərlər etmişdilər [5]. Təsadüfi deyildi ki, əməkdaşlığın bütün tarixi boyu hüquqi bazanın təkmilləşdirilməsi sahəsində müvafiq işlər görülməkdə, yeni proqram və layihələr təsis olunmaqdadır.

Azərbaycanın başlıca ticarət partnyorlarından biri kimi Aİ ölkələri ilə ticarət-iqtisadi əlaqələr yüksələn xətlə inkişaf etməkdədir. 2014-cü ildə Azərbaycanın ümumi ticarət dövriyyəsində Aİ-nin payı 47,3 faiz təşkil etmişdi, növbəti ilin yanvar-fevral aylarında isə bu göstərici 43 faiz təşkil etmişdi. Aİ-nin Azərbaycanın qeyri-enerji sektoruna maraqları ildən-ilə artmaqdadır. Ekspertlərin hesablamalarına görə son onillik ərzində Aİ ölkələrinin Azərbaycanın əsas kapitalında investisiyaları 52 faiz, qeyri-neft sektorundakı investisiyaları isə 35,3 faiz olmuşdu. İkitərəfli əlaqələrin dərinləşməsində Hökumətlərarası komissiyaların fəaliyyəti xüsusilə böyükdür, hazırda Aİ-nin üzvü olan 12 ölkə ilə Azərbaycan arasında belə komissiyalar yaradılmışdır. Aİ-nin üzvü olan 21 ölkə ilə respublikamız arasında ikiqat vergitutmanın ləğv olunması, investisiyaların təşviqi və qorunması ilə bağlı 17 ölkə ilə imzalanmış sazişlər qarşılıqlı iqtisadi inteqrasiyanın dərinləşməsində mühüm əhəmiyyət kəsb edir. Azərbaycanın Avropa ölkələrinə investisiya yatırımları da ildən-ilə artmaqdadır. Avropanın enerji təchizatında respublikamızın karbohidrogen ehtiyyatlarının rolu və yeri xüsusilə böyükdür. Təkcə 2014-2017-ci illər arasındakı dövrdə Cənub Qaz Dəhlizi, Tanap, Tap və Yeni Əsrin müqaviləsi kimi layihələrə start verilmişdi ki, bunlar enerji sahəsindəki əməkdaşlığın perspektivlərini aydın şəkildə göstərirdi.

Azərbaycanın xarici siyasət strategiyasında Avropaya inteqrasiya xəttinin güclənməsi, Avropaya inteqrasiya prosesinin sürətləndirilməsi və Azərbaycanın beynəlxalq mövqelərinin möhkəmləndirilməsi baxımından ölkəmiz üçün strateji əhəmiyyət daşıyan və ilk beşillik üçün nəzərdə tutulan Fəaliyyət planı bir tərəfdən Azərbaycanın quruma üzv olan ölkələrin hər biri ilə ikitərəfli münasibətləri dərinləşdirməsinə imkanlar açır, digər tərəfdən isə əməkdaşlığın yeni istiqamətləri və perspektivlərini müəyyənləşdirirdi. Cərəyan etməkdə olan proseslərin nəzarətdə saxlanması üçün Fəaliyyət planı çərçivəsində yaradılan müvafiq strukturlarla yanaşı mütəmadi hesabatlar da hazırlanır və onların nəticələri ilə planın iştirakçısı olan dövlətlər tanış edilirdi.

Beləliklə, "Avropa Qonşuluq Siyasəti üzrə Fəaliyyət planı"nın təhlili göstərir ki, bu sənəd Cənubi Qafqaz dövlətlərinin Avropa İttifaqına inteqrasiyasında əhəmiyyətli rol oynayır. Prioritetlərin və qarşıya qoyulmuş vəzifələrin həyata keçirilməsi nəticəsində Avropa İttifaqı ilə Cənubi Qafqaz dövlətləri, xüsusilə Azərbaycan Respublikası arasında əməkdaşlığın daha yüksək mərhələyə yüksəlişi təmin olunacaqdır.

**Açar sözlər:** *Qara Dəniz, Cənubi Qafqaz, Rusiya Federasiyası, ATƏT, Türkiyə, Gürcüstan, Avropa Şurası.*

## ƏDƏBİYYAT SİYAHISI

*1. Aİ-Azərbaycan Fəaliyyət plani / http://pao.az/az/elektron-kitabxana/a-azrbaycan-sazilri proqramlar/86-a-azrbaycan-falyyt-plani/file*

*2. Azərbaycan və Avropa Birliyi: Siyasi Dilemma Reportyorların Azadlıq və Təhlükəsizlik İnstitutu www.irfs.org Sentyabr, 2013*

*3. Azərbaycanın Avropa İttifaqı ilə əməkdaşlığında yeni mərhələ başlayır. Zaman-Azərbaycan qəz., 2006, 14 noyabr*

*4. Bayramov Ş.V. Avropa İttifaqının genişlənməsi və Avropa Qonşuluq Siyasəti: müqayisəli təhlil və qiymətləndirmə / Azərbaycanın vergi xəbərləri, 2011, № 3*

*5. Cavadov N. Avropa İttifaqının Avropa Qonşuluq Siyasəti və Genişlənmə danışıqları üzrə komissarı İqtisadiyyat və Sənaye nazirliyində. Respublika qəz., 2015, 9 aprel*

*6. Hacıalıyev E. Azərbaycan-Avropa İttifaqı əməkdaşlığı yeni mərhələyə qədəm qoyur. Azərbaycan qəz., 2009, 3 may*

*7. Məmmədov Q. Fəaliyyət planı Avropa Qonşuluq Siyasətinin əməkdaşlıq alətidir. Pano-*

*rama qəz., 2007, 24 sentyabr*

*8. Esra Hatipoğlu: "Avrupa Komşuluk Politikası'nın Güney Kafkasya Boyutu" http://ec.europa.eu/ agenda2000/index_en.htm*

*9. Hasan Kanbolat: " 2004 Yılında Doğu ile Batı Arasında Kafkasya: Geçmiş Doğu'da, Gelecek Batı'da Mı?, Stratejik Analiz (Aralık 2004)*

*10. Necdet Pamir A.: "Kafkaslar ve Hazar Havzasındakı Ülkelerin Enerji kaynaklarının Türkiye'nin Enerji Güvenliği'ne Etkileri", Türkiye'nin Çevresindeki Gelişmeler ve Türkiye'nin Güvenlik Politikalarına Etkileri Sempozyumu Harp Akademileri, http:www. avsam.gov.tr, 10 Mart 2006*

*11. "European Commission, Wider Europe – Neighbourhood: A New Framework for Relations with our Eastern and Southern Neighbours", com(2003)104 final, 11.3.2003*

*12. Friedrichs, Jörg and the others, "Synergies and Tradeoffs in International Cooperation: Broadening, Widening and Deepening", European Integration online Papers (EIoP), Vol.9, No.13, 2005, < http:// eiop.or.at/eiop/texte/2005-013a.htm > (22.02.2007)*

*13. Fulvio Attina, Rosa Rossi, European Neighbourhood Policy: Political, Economic and Social Issues, The Jean Monnet Center "Euro-Med",Catania, 2004*

*14. Helene Sjursen, "Enlargement and the Common Foreign and Security Policy: Transforming the EU's External Policy", Arena Working Papers, No.18/98, Oslo, 1998*

*15. Kahraman, S. ,"The European Neighbourhood Policy: A Critical Assessment", Ankara Review of European Studies, Vol:5, No:3,Ankara, Spring 2006*

*16. "The Policy: What is the European Neighbourhood Policy?", <http://ec.europa.eu/ world/ enp/policy_ en.htm> (20.08.2007)*

## РЕЗЮМЕ

В контексте расширения отношений ЕС со странами Южного Кавказа проект Плана действий Европейской политики соседства важен с точки зрения целей и перспектив. План действий Новой политики соседства на 2007-2013 годы был разработан в рамках Программы расширения ЕС. План действий служит для сближения Европейского Союза с его соседями, создания атмосферы взаимной безопасности, стратегической стабильности и улучшения благосостояния народов.

В статье раскрываются сущность, содержание, цели, приоритеты и перспективы Плана действий, а также разъясняются способы устранения препятствий в процессе его реализации. Согласно проекту, Европейский Союз предлагает преференциальные отношения своим ближайшим соседям, а взамен рекомендует придерживаться принципов демократии, суверенитета, защиты прав и свобод человека и рыночной экономики. Цели, способы реализации и ожидания каждого из десяти конкретных приоритетов, определенных в плане, также важны с точки зрения определения новых областей деятельности.

**Ключевые слова:** *Черное море, Южный Кавказ, Российская Федерация, ОБСЕ, Турция, Грузия, Совет Европы.*

## SUMMARY

In the context of the expansion of EU relations with the countries of the South Caucasus, the draft Action Plan of European Neighborhood Policy is important from the point of view of goals and prospects. The Action Plan of the New Neighborhood Policy for 2007-2013 was developed under the EU Expansion Program. The action plan is used to bring the European Union with its neighbors, creating an atmosphere of mutual security, strategic stability and improving the welfare of peoples.

The article discloses essence, content, objectives, priorities and prospects of the action plan, and explain how to eliminate obstacles in the process of its implementation. According to the project, the European Union offers preferential relations with its closest neighbors, and in return recommends adheres to the principles of democracy, sovereignty, protection of human rights and freedoms and market economies. Objectives, ways to implement and expect each of the ten specific priorities defined in the plan are also important from the point of view of identifying new areas of activity.

**Keywords:** *Black Sea, South Caucasus, Russian Federation, OSCE, Turkey, Georgia, Council of Europe.*

UOT 327; 930.22

# BEYNƏLXALQ MÜNASİBƏTLƏRDƏ "DÖVLƏT UĞURSUZLUĞU"NUN NƏZƏRİ ƏSASLARI VƏ ƏFQANISTAN NÜMUNƏSİ

**ELMAR İSMAYILZADƏ**
*Bakı Dövlət Universitetinin magistrantı*

*E-mail: elmarismaylzadebm@gmail.com*

"Uğursuz dövlət" anlayışı. Bəzi dövlətlər xarici suverenliyi tam istifadə edir, ancaq daxili suverenliyi həyata keçirməkdə əngəllər yaşayır. Belə dövlətlərin M. Veberin müəyyən ərazidə yeganə güc monopoliyasına sahib olan dövlət fikrinə tərs düşdüyü görünür. Bu dövlətlərə siyasi ədəbiyyatda "uğursuz dövlətlər" (failed state) deyilir. "Uğursuz dövlətlər"ə misal kimi Somali, Sudan, Zimbabve, Konqo Demokratik Respublikası, Əfqanıstan, Yəmən və s. dövlətləri misal göstərmək olar.

Uğursuz dövlət anlayışı ilk dəfə ABŞ Dövlət Katibliyinin iki keçmiş məmuru olmuş Gerald B. Helman və Steven R. Ratner tərəfindən istifadə edilmişdir [1: s. 167]. Bu anlayışın nəzəri əsasları Qərb siyasi fikrində formalaşmışdır. Bu anlayışın yaranmasında demokratiya və bazar iqtisadiyyatı sistemini effektiv tətbiq edən dövlətlərin mövqeyi böyük rol oynayır. Bu dövlətlər özlərini "güclü dövlət" sayırlar və dövlət sistemi baxımından daha aşağı dövlətləri "uğursuz dövlət" adlandırırlar. Burada müqayisəlilik özünü göstərir.

"Uğursuz dövlətlər" ifadəsi siyasi leksikonda 2001-ci il 11 sentyabr hadisələrindən sonra daha çox istifadə olunmağa başladı. Terrorizmə qarşı mübarizə uğursuz dövlətlərə diqqət ayırmağa yönəltdi. Çünki uğursuz dövlətlər "terrorizm yuvası"na çevrilmişdi. Eyni zamanda dövlətlərin əksəriyyəti uğursuz dövlətləri miqrant problemi, qeyri-sabitlik və digər təhlükəsizlik problemlərinin mənbəyi kimi nəzərdən keçirirlər.

Schneckener dörd uğursuz dövlətçilik tipologiyasını irəli sürmüşdür: birləşmiş dövlət (consolidating state), zəif dövlət (weak state), uğursuzluqda olan dövlət (failing state) və uğursuz dövlət (failed state). Birləşmiş dövlətdə dövlətin üç funksiyası (hüquqi, rifahı təmin etmək və təhlükəsizlik) tam həyata keçirilir. Zəif dövlətdə legitim- hüquq dövlətliliyi və rifah sahələrində ciddi əskikliklər olsa da, təhlükəsizlik sahəsində funksiyaları əksərən həyata keçirilir. Uğursuzluqda olan dövlətdə təhlükəsizlik funksiyası məhduddur. Digər iki funksiya isə müəyyən qədər idarə edilə bilir. Uğursuz dövlətdə isə heç bir funksiya həyata keçirilə bilmir [2: s. 353- 354].

Uğursuz dövlətlərin yaranmasında liberal düzən və Vestfaliya sistemi arasındakı rəqabət rol oynayır. ABŞ-ın rəhbərlik etdiyi liberal düzən tərəfdarları Vestfaliya sisteminin irəli sürdüyü daxili işlərə qarışmamaq prinsipinin elastikləşməsinə çalışırlar. Vestfaliya sistemini əsas müdafiə edən dövlətlərə Rusiya və Çini aid etmək olar [3: s. 8]. Zartman dövlət uğursuzluğunun səbəblərini göstərmək üçün dörd əsas faktor ortaya qoymuşdur. Birinci faktora hakimiyyət uğrunda mübarizə aiddir. İkinci faktor hökumətin cəmiyyətin ehtiyaclarını qarşılaya bilməməsi nəticəsində dəstəyini itirməsi ilə bağlıdır. Üçüncü faktor idarəetmə böhranı nəticəsində ortaya çıxır. Dördüncü faktor isə dövlətin vəzifəli şəxslər üzərində nəzarəti itirməsini ehtiva edir [4: s. 9-10].

Daron Acemoğlu və Ceyms Robinson "Millətlər Niyə Tənəzzül Edir?" kitabında dövlətlərin uğursuzluğuna səbəb kimi sömürücü iqtisadi və siyasi institutlara malik olmasını göstərir. Sömürücü iqtisadi və siyasi institutlar siyasi elitanın nəzarətində olan, əhalinin proseslərdə iştirakının məhdud olduğu institutlardır. İnklüziv siyasi və iqtisadi institutlar əhaliyə geniş iqtisadi və siyasi imkanların verildiyi və dövlət nəzarətinin məhdud olduğu institutlardır. Kitabda uğursuz dövlətlərin nümunələri və bunun səbəbinin sömürücü iqtisadi və siyasi qurumlar olduğu göstərilir. Məsələn, SSRİ-nin dağılma səbəblərindən biri kimi sömürücü iqtisadi qurumlara malik olması göstərilir. 1970-ci illərə qədər müəyyən iqtisadi inkişafa nail olsa da, sonrakı dövrdə bu inkişafın dayandığı və tənəzzül dövrünün başladığı qeyd olunur. Müəlliflər həmçinin iqtisadi və siyasi qurumlarının xarakterlərinin bir-biri ilə əlaqəli olduğu vurğulayırlar. Dövlətlərin uğursuz olmasında coğrafiya, mədəniyyət, əhalinin savadlılıq səviyyəsi kimi faktorların rol oynaması düzgün qəbul olunmur. Eyni zamanda müstəmləkəçi dövlətlərin müstəmləkələrində həyata keçirdikləri siyasətlərin xarakteri də təhlil olunur və bunun dövlətin gələcək siyasi həyatına təsiri təsvir olunur. Uğursuz dövlət

olmamaq üçün çıxış yolu kimi əhalinin siyasi proseslərdə fəallığı, siyasi liderin tarixi fürsətdən dövlətin xeyrinə istifadə etməsi və tarixi gedişat faktorları sadalanır. Dövlətin özünü inkişaf etdirməsi üçün onda inklüzivlik potensialının müəyyən qədər olmasının vacibliyi irəli sürülür. Bu kontekstdə Almaniya və Yaponiya nümunələri göstərilir [5: s. 78-95].

Dövlətlərin uğursuzluğu haqqında ABŞ prezidenti B. Klintonun dövründə 1994-cü ildə State Failure Task Force (Dövlət Uğursuzluğu Komandası) adlı araşdırma layihəsi yaradılmış və bu layihənin adı 2003-cü ildə Political İnstability Task Force (Siyasi Qeyri-Sabitlik Komandası) kimi dəyişdirilmişdir. Layihə vasitəsilə 1955-ci ildən sonrakı dövrdə dünyadakı dövlət uğursuzluğu araşdırılmışdır. Araşdırma nəticəsində uğursuz dövlətin yaranmasında rol oynayan faktorlar ortaya çıxarılmışdır. Bunlar struktur, gedişat və tətikləyici faktorlar olaraq ayrıldı. Struktur faktorlara dövlətin siyasi, mədəni, struktur və sosial-iqtisadi xüsusiyyətləri və şərtləri aid edildi. Burada eyni zamanda müstəmləkəçilik keçmişi və böyük dövlətlərin təsiri də qeyd olundu. Gedişat faktorları isə həm daxildə, həm də xaricdə baş verən hadisələrlə əlaqədardır. Bu faktorun təsiri dövlət idarəetməsinin böhranidarəetmə qabiliyyətindən asılıdır. Tətikləyici faktorlara isə çevriliş cəhdi, xarici müdaxilə və s. aid edilir [2: s. 357].

Siyasi cəhətdən uğursuz dövlət dövlətin dezinteqrasiyası, güc strukturlarının dağıldığı dövlətdir. Bu zaman hüquq və düzənin dağılması da gündəmə gəlir. Tarixi çərçivədən yanaşdıqda isə müstəmləkə, müstəmləkədən sonrakı, Soyuq müharibə dövrlərində dövlətin qütbləşməsi və fərdiləşməsinin ayırıcı prosesinin ortaya çıxması ön plana çıxır. Sosiolojik yanaşma isə Maks Veber tərəfindən “Güc inhisarı” kimi təsvir edilmiş hökumət strukturunun əsasının dağılması ilə əlaqədardır [6: s. 4-6].

“Uğursuz dövlətlər”in ortaya çıxmasında müstəmləkə keçmişi, əhalinin mühafizəkar dəyərlərə bağlılığı, qəbilə sisteminin hökm sürməsi, siyasi liderin legitimliyini itirməsi, xarici müdaxilələr, əhalinin multi-etnik tərkibə malik olması və s. faktorlar rol oynayır. Bir çox uğursuz dövlətin tarixinə baxanda müəyyən dövrdə müstəmləkə olduğunu müşahidə edirik. Bu da onların gələcək siyasi taleyinə köklü şəkildə təsir edir. Siyasi liderin legitimliyini itirməsi nəticəsində başqa siyasi qruplar hakimiyyət uğrunda mübarizə aparırlar. Terror təşkilatları da bu vəziyyətdən istifadə edir. Universal olaraq qəbul olunan müasir dövlət sistemi bu dövlətlərin siyasi həyatına yerləşə bilməyib. Qəbilə sisteminin mövcud olması bunun göstəricisidir.

Uğursuz dövlətlərin ortaya çıxmasında rol oynayan faktorlardan biri də dövlət aparatında işləyən şəxslərin milli fikirlərə malik olmamasıdır. Məsələn, Əfqanıstan və Somalinin tənəzzülündə bu faktor böyük rol oynamışdır. Fərqli düşüncəyə malik bürokratların (sosialist, qərbyönümlü, islamçı və s.) çoxluğu cəmiyyətdə qütbləşmə yarada bilər. Milli düşüncəyə malik insanların çoxluğu isə birləşdirici rol oynayır. Ancaq ifrat millətçi siyasət etnik azlıqların sıxışdırılmasına səbəb olur, hökumət bu balansı qorumağı bacarmalıdır.

“Fund For Peace” təşkilatı uğursuz dövlətlərlə bağlı hesabatlar çap edirlər. Həmin təşkilatın yanaşmasına görə dövlətin hökuməti ölkəsindəki fiziki nəzarəti itirdiyi və ya legitim güc tətbiqi inhisarında əskiklik yarananda dövlət uğursuzluğu baş verir. Bu təşkilat uğursuz dövləti müəyyənləşdirmək üçün on iki göstərici ortaya qoymuş və bu göstəriciləri də dördü sosial, ikisi iqtisadi, altısı siyasi və hərbi olmaqla üç qrupa ayırmışdır. Sosial göstəricilərə demoqrafik təzyiqlər (təbii fəlakətlər, ətraf mühit məsələləri və s.), qaçqınlar və deportasiya edilmiş insanlar, qrup problemləri ( ayrıseçkilik), insan və “beyin köçü” aiddir. İqtisadi göstəricilərə qeyri-stabil iqtisadi inkişaf, yoxsulluq və iqtisadi geriləmə aid edilir. Siyasi və hərbi göstəricilərə isə dövlətin legitimliyi (korrupsiya, demokratiyanın səviyyəsi, hökumətin effektivliyi), ictimai xidmətlər ( təhsil səviyyəsi, nəqliyyat və s.), insan hüquqları və hüquqi dövlət, təhlükəsizliyin sistemliliyi, bölünmüş elitalar (hakimiyyət uğrunda mübarizə), xarici müdaxilə (BMT sülhməramlılarının olması, xaricdən hərbi müdaxilənin həyata keçirilməsi və s.) daxildir [1, s. 168-169].

2021-ci ildə dərc edilmiş Kövrək Dövlətlər İndeksi hesabatına görə Yəmən, Somali və Suriya çox yüksək həyəcan səviyyəsindədir. Cənubi Sudan, Konqo Demokratik Respublikası, Mərkəzi Afrika Respublikası, Çad, Sudan və Əfqanıstan isə yüksək həyəcan səviyyəsində olan dövlətlərdir [7: s. 11].

Beynəlxalq münasibətlərdə “Uğursuz dövlətlər”i azaltmaq və ya müsbət istiqamətdə inkişaf etdirmək üçün “dövlət quruculuğu” və “millət quruculuğu” konsepsiyaları irəli sürülür. Bu iki termin konfliktdənsonrakı yenidənqurma tədbirlərinin

tərkib hissəsidir. Aralarındakı fərq ondan ibarətdir ki, millət quruculuğu dövlət quruculuğundan fərqli olaraq dövlət institutlarının formalaşmasını əhatə etmir. Bu terminlər İraq, Əfqanıstan və s. konfliktlərə münasibətdə istifadə edilmişdir.

Millət və dövlət quruculuğu proseslərində bir sıra aktorlar iştirak edir. Bu aktorlara dövlətlər, beynəlxalq hökumətlərarası təşkilatlarla yanaşı, QHT-lər də daxildir. Prosesdə fəal iştirak edən beynəlxalq hökumətlərarası təşkilatlara BMT, NATO, Avropa İttifaqı, Afrika İttifaqı daxil etmək olar. Beynəlxalq hökumətlərarası təşkilatlar, demək olar ki, bütün sahələrdə, QHT-lər isə daha çox sosial və humanitar məsələlərdə yardımlar edirlər.

Beynəlxalq ictimaiyyət dövlət quruculuğu işində hələ də istənilən səviyyəyə çatmayıb. Bunun səbəblərinə maliyyənin kifayət qədər ayrılmaması, əhalinin adət-ənənələrinin nəzərə alınmaması və s. daxil etmək olar [8: s. 200-201]. İndiyə qədər dövlət quruculuğu sahəsində ən yüksək nəticə Bosniya və Herseqovinada əldə olunmuşdur [9: s. 120]. Ancaq bəzi problemlər (etnoslararası inteqrasiyanın zəifliyi, daxili suverenlik problemləri) hələ də qalır. Çünki yenidənqurma tədbirlərində əsas diqqət sabitliyin təmin olunmasına ayrılır, təhlükəsizliyin müxtəlif sahələrinə (iqtisadi təhlükəsizlik, sosial təhlükəsizlik və s.) az diqqət ayrılır. Bu hal da dövlət quruculuğu fəaliyyətinə mənfi təsir edir.

Millət quruculuğuna müsbət nümunələr kimi Almaniya və Yaponiya daha çox önə çıxır. Uğurlu olma səbəblərinə ixrac edilən sistemin uyğunluğu və dövlət quruculuğu potensialının olması qeyd edilə bilər. Qərb dövlətləri bu iki nümunəni əsas götürərək digər uğursuz dövlətlərə öz dövlət modellərini tətbiq etməyə çalışdılar, ancaq bir çox hallarda bu iflasa uğradı.

Beynəlxalq ictimaiyyət dövlət uğursuzluğunu aradan qaldırmaq üçün düzgün strategiya müəyyənləşdirməli və bu strategiyanı həyata keçirmək üçün lazım olan resursları effektiv istifadə edə bilməlidir. Dövlət quruculuğu zamanı daxili faktorları nəzərə almaq vacibdir. Daxili faktorlar xarici təsirlə dəstəklənməlidir. Əks halda xarici təsirlərdən asılı sistem formalaşacaq və bu təsir azaldıqda dövlət yenidən əvvəlki vəziyyətinə qayıdacaq.

Əfqanıstan nümunəsi. Əfqanıstan Yaxın Şərqin qaynar münaqişə ocaqlarından biridir. Əfqanıstanda uzun müddət davam edən müharibə və əhalinin multi-etnik və qəbilələrdən təşkil olunmuş strukturu dövlətin funksiyalarını tam həyata keçirməsinə mane olmuşdur. Onun "uğursuz dövlət" adlandırılmasını anlamaq üçün tarixi gedişata nəzər salmaq lazımdır.

1919-cu ildə Əmənullah Xan Əfqanıstan dövlətinin yaradılmasını elan etdi. O, qərbyönümlü islahatlar paketi irəli sürsə də, islahatlar əhali tərəfindən müsbət qarşılanmadı. Onun hakimiyyətdən getməsindən sonra ölkədə monarxiya quruldu. Əfqanıstan Soyuq müharibə dövründə neytral xarici siyasət yürütməyə üstünlük verdi. 1973-cü ildə Davud Xan SSRİ-nin dəstəyi ilə monarxiyanı devirdi və respublika qurdu. Bu tarixdən sonra SSRİ-nin dəstəklədiyi liderlər hakimiyyətə gəldi, xalqın və xarici qüvvələrin etirazlarına məruz qalaraq devrildilər. Əhali arasında qərbyönümlü, sosialist-marksist və islamçı fikirlərin ziddiyyəti Əfqanıstanın tənəzzülündə rol oynadı. SSRİ 1979-cu ildə Əfqanıstana hərbi müdaxilə etdi. Mücahidlər əsasən ABŞ, Pakistan və Səudiyyə Ərəbistanı kimi dövlətlər tərəfindən dəstəklənirdi. 1989-cu ildə SSRİ Əfqanıstandan əsgərlərini çıxartmaq məcburiyyətində qaldı. 1992-ci ildə Nəcibullah devrildi. 1993-cü ildə mücahid qruplar Bürhanəddin Rəbbaninin liderliyində hökumətin qurulmasında razılaşdılar. Mücahid qruplar arasında birlik yox idi və hakimiyyət uğrunda mübarizə kəskinləşdi. 1996-cı ildə xaosdan istifadə edən Taliban Əfqanıstanda hakimiyyətə gəldi. Taliban rejimini Pakistan, BƏƏ və Səudiyyə Ərəbistanı tanıdı. Taliban rejimi ölkədə qatı şəriət qaydaları tətbiq etdi. Eyni zamanda Əfqanıstanda Əl-Qaidə terror təşkilatını da himayə etdi. Əl-Qaidə Keniya və Tanzaniyada ABŞ səfirliklərinin bombalanmasında, 11 sentyabr hadisələrinin həyata keçirilməsində günahlandırıldı.

2001-ci il oktyabrın 7-də ABŞ "terrorizmə qarşı mübarizə" adı altında Böyük Britaniya ilə birlikdə Əfqanıstana hərbi müdaxilə həyata keçirdi. Əməliyyatın adı "Azadlığa Dözüm" (Operation Enduring Freedom) adlanırdı. Taliban rejimi devrildi. 5 dekabr 2001-ci ildə BMT-nin dəvəti ilə Əfqanıstandakı əsas qruplar Almaniyanın Bonn şəhərində toplandılar və 6 dekabrda Bonn müqaviləsini imzaladılar. Müqaviləyə görə 2002-ci ilin iyuluna qədər ölkəni 30 üzvdən ibarət müvəqqəti idarəçilik idarə etməli idi. İSAF(Beynəlxalq Təhlükəsizliyə Yardım Qüvvələri) yaradılması qərara alındı [10: s. 129-130]. Bu müqavilə çərçivəsində Əyalət Yenidənqurma Qrupları (Provisinal Reconstruction Teams) yaradıldı. Onun vəzifəsi təhlükəsizlik tədbirlərini gücləndirmək və yerli

idarəetməni təkmilləşdirmək idi.

Bonn müqaviləsindən sonra Əfqanıstanda təhlükəsizliyi təmin etmək üçün Təhlükəsizlik Sektoru İslahatına başlanmışdı. ABŞ-a Əfqan Milli Ordusunun təlimi, Almaniyaya Əfqan Milli Polisinin təhsili, Yaponiyaya Silahsızlanma, Tərxis və Cəmiyyətə Yenidən Qazandırma işi, İngiltərəyə Narkotik əleyhinə əməliyyatlar, İtaliyaya Ədalət Sektorunda islahat vəzifəsi verilmişdi. Digər iştirakçı dövlətlər isə bu dövlətlərə kömək etməkdə səlahiyyətləndirilmişdi.

Almaniya Əfqan Milli Polisinin təlimində gözlənilən uğuru əldə edə bilməmişdi. Çünki beynəlxalq ictimaiyyət tərəfindən dəstək daha çox orduya verilmiş, polis təlimi ikinci planda olmuşdu. Almaniyanın ləng fəaliyyəti EUPOL-un polis təlimi məsuliyyətini götürməsinə səbəb olmuşdu. Narkotikin yayılmasına qarşı əməliyyatlar da uğursuzluqla nəticələnmişdi. Keçən dövr ərzində xaşxaş istehsalı dəfələrlə artmışdı. Əhalinin pul qazanmaq üçün əsas mənbəyinin xaşxaş olduğunu Qərb dövlətləri nəzərə almamışlar. Silahsızlanma, Tərxis və Cəmiyyətə yenidən Qazandırmadan müəyyən nəticələr əldə edilməmişdi. ABŞ-ın bu məsələyə maraq göstərməməsi və siyasi təzyiqlər effektivliyini azaltmışdı. Ədalət sektorunda islahatlarda müasir hüquq sisteminin tətbiqi əsas götürülmüşdü. Əfqanıstanda qəbilə və şəriət hüquq sistemlərinin nüfuzu yüksək olduğuna görə bu sistemin tətbiq olunmasında qarşıya çoxlu problemlər çıxdı [11, s. 186-189].

Əfqanıstanda Qərb tərəfindən dəstəklənmiş Həmid Kərzai və Əşrəf Qani hökumətləri effektiv dövlətin yaradılmasına nail ola bilmədilər. Bu liderlərin adları korrupsiyada hallandı. Əhali qarşısında legitimlik səviyyələri aşağı idi. Dövlət xarici yardımlardan asılı idi. ABŞ eyni zamanda İraqda millət quruculuğu məsələsi ilə məşğul olurdu. Buna görə də ABŞ-ın Əfqanıstana göstərilən diqqəti azalmağa başladı. ABŞ-ın Əfqanıstanın təhlükəsizliyini təmin etmək üçün döyüş lordları ilə razılaşması dövlət quruculuğu prosesinə mənfi təsir etdi. Beynəlxalq ictimaiyyətin Əfqanıstandakı yolları bərpa etmək üçün çalışdığı “Dairəvi Yol” layihəsi müharibə şəraitinə görə tamamlana bilmədi. Bu dövrdə paytaxt Kabilin infrastrukturu daha çox inkişaf etdirildi. Nəticədə paytaxtla ucqar bölgələr arasında fərqlər artdı. Bu da Əfqanıstanda inteqrasiya prosesinə mane oldu.

ABŞ Talibanın Əfqanıstanda siyasətə daxil olmasına şərait yarada bilərdi. ABŞ Əfqanıstan konfliktinin həllində əməkdaşlıq yox, rəqabət yolunu seçdi. Uzunmüddətli perspektivdə bu strategiyanın müsbət nəticəsi olmadı.

23 fevral 2020-ci ildə Qətərin paytaxtı Dohada Taliban və ABŞ arasında saziş imzalandı. Sazişə görə xarici qüvvələr 1 may 2021-ci ilə qədər Əfqanıstandan çəkilməli idi. Taliban 15 avqustda 2021-ci ildə Kabilə daxil oldu. ABŞ 11 sentyabra qədər bütün qüvvələrini çəkdi. Bununla da Əfqanıstanda yeni dövrün başlanğıcı qoyuldu.

ABŞ Yaxın Şərqdə stabilləşdirici rol oynayan bəzi avtokratik rejimlərin saxlanmasında maraqlıdır. Bunlardan biri də Əfqanıstandakı Taliban rejimidir. ABŞ Əfqanıstanda Talibana mane olmamaqla sabitliyi demokratiyaya qurban vermiş oldu.

Taliban Əfqanıstan kontekstində həm gücü, həm də xalqın əksər hissəsindən dəstək almaqla legitimliyi əlində saxlayır. Bu amilləri nəzərə alaraq Talibanın dövlətçilik baxımından Həmid Kərzai və Əşrəf Qani hökumətlərindən daha irəlidə olduğunu hesab etmək olar. Ancaq Taliban hakimiyyətinin siyasi təcrübəsi zəifdir. Sabitlik və düzən qurulsa da, Taliban rejimi yenə də siyasi hüquqları məhdudlaşdırır və ağır cəza üsullarından istifadə edir. Taliban hakimiyyətə gəldikdən sonra Əfqanıstanda iqtisadi vəziyyət pisləşdi. Səbəb isə iqtisadiyyatın Qərb dövlətlərindən asılılığı və bəzi varlı insanların ölkəni tərk etməsidir. Yeni hökumətin gördüyü tədbirlərdən biri də xaşxaş əkilməsinə icazə verilməməsidir. Bu hadisə də dünya narkotik bazarına təsirsiz ötüşmür.

ABŞ Əfqanıstanda Çin- Rusiya rəqabətindən öz maraqları üçün istifadə etməyə çalışa bilər. ABŞ-ın münaqişəidarəetmə strategiyası artıq dəyişmişdir. Artıq ABŞ böyük maliyyə tələb edən hərbi müdaxilələr əvəzinə ölkə daxilində mübarizə aparan rəqib qrupların yaratdığı xaosdan öz lehinə istifadə etməyə çalışır. Bu strategiya həm də az xərc tələb edir. Yuxarıda ifadə edilmiş fikirlərə görə ABŞ-ın Əfqanıstandan çəkilməsini tam məğlubiyyət saymaq olmaz. Bunu strategiya dəyişikliyi kimi başa düşmək lazımdır.

Hal- hazırda Əfqanıstanda siyasi islam əsasında dövlət formalaşdırılmağa çalışılır. Əhalinin əksəriyyəti mühafizəkar düşüncədə olduğuna və qərbyönümlü kəsim ölkəni tərk etdiyinə görə bu rejim bir müddət davam edəcəkdir. Ancaq Əfqanıstanda milli kimliyin önə çəkildiyi müasir dövlət modelinin qurulması da mümkündür. Bu da xalqın tələbindən, siyasi liderin vəziyyəti düzgün

qiymətləndirməsi və seçimlərini daha effektiv aparmasından asılıdır.

Talibanın dövründə Pakistanın Əfqanıstanın daxili işlərinə müdaxiləsi daha da artacaqdır. Çünki Pakistan Talibanın hakimiyyətə gəlməsinə siyasi və hərbi dəstək vermişdir. Dürand xətti məsələsi Taliban hakimiyyətdə olduğu müddətdə gündəmə gətirilməyəcəkdir.

Əfqanıstanda NATO/ABŞ birliklərinin olması Çinin "Bir Kəmər Bir Yol" layihəsinin həyata keçirilməsinə təhlükəsizlik təminatı yaradırdı. Bu hal ABŞ-ın milli maraqlarına cavab vermirdi. Çinin bu layihə çərçivəsində güclənməsi Rusiya ilə rəqabətin daha da artmasına səbəb oldu. Bu baxımdan hərbi birliklərin Əfqanıstandan çıxması Rusiya və Çini daha da qarşı-qarşıya gətirəcək.

**Açar sözlər:** *Əfqanıstan, uğursuz dövlət, ABŞ, dövlət quruculuğu, millət quruculuğu, Taliban.*

## ƏDƏBIYYAT SİYAHISI

*1. Marmara Üniversitesi Hukuk Fakültesi Hukuk Araştırmaları Dergisi Dr. Selman Öğüt Başarısız Devlet Kavramının İncelemesi 2013*

*2. Yard. Doç. Dr. Osman N. Özalp Uluslararası İlişkilerde Başarısız Devletler Sorunsalı ve Bu Sorunsalın Uluslarası Hukuka Etkileri 2014*

*3. Prof. Dr. Sait Yılmaz Başarısız Devlet 2019*

*4. Levent Dalkılıç Ulus Devletler Neden Başarısız Olur?*

*5. Daron Acemoğlu, James Robinson Ulusların Düşüşü: Güç, Zenginlik ve Yoksulluğun Kökenleri (Çeviren: Faruk Rasim Velioğlu) Doğan Egmont Yayıncılık 2014, 496 s.*

*6. International Journal of Politics and Good Governance Brian Dube, Proceed Manatsa and Cowen Dziva Failed State Discourse Under International Law: The Place, Attributes and Implications 2013*

*7. Fund For Peace Fragile State Index Annual Report 2021, 50 s.*

*8. Jochen Hippler Ulus inşası: Çatışmayı Barışa Çevirmədə Anahtar Bir Konsept Mi? (Çevirmen: Algan Sezgintüredi, Burhan Şayli), İstanbul 2007, 240 s.*

*9. Francis Fukuyama Devlet İnşası: 21. Yüzyılda Düzen ve Yönetişim (Türkçesi Devrim Çetinkasap) İstanbul 2005 (II basım), 160 s.*

*10. Yalova Üniversitesi Hukuk Fakültesi Dergisi Serdar Örnek On Bir Eylül Olayları ve Afganistan Operasyonu, İstanbul 2012.*

*11. Trakya Üniversitesi Sosyal Bilimler Dergisi Mehmet Yıldız Devlet İnşasında Başarı ve Kurumlara Talep: Türkiyenin Afganistandaki Rolü (2001-2013), Edirne 2013.*

## SUMMARY

Article tries to explain the term of failed state in theoretical and practical perspectives. Theories of nation building and state building are took into account as a solution of problem mainly. The Problem of Afghanistan from actual issues of world politics is analysed by conception of “failed states”. It is addressed to history for understand problem of Afghanistan and roots of problem are researched. After intervention of Afghanistan challenges of NATO countries for create new system here are explained. Current aspects of Afghanistan stategy of USA are listed. Playing role in come to power of Taliban in Afghanistan interests of big powers and next scenarios are discussed.

**Keywords:** *Afghanistan, failed state, USA, state building, nation building, Taliban*

## РЕЗЮМЕ

В статье предпринята попытка объяснить термин "несостоятельное государство" с теоретической и практической точек зрения. Теории национального строительства и государственного строительства принимаются во внимание главным образом как решение проблемы. Проблема Афганистана с точки зрения актуальных вопросов мировой политики анализируется с помощью концепции “несостоявшихся государств”. Он обращен к истории для понимания проблемы Афганистана и исследуются корни проблемы. После вмешательства Афганистана здесь объясняются задачи стран НАТО по созданию новой системы. Перечислены текущие аспекты стратегии США в Афганистане. Обсуждается роль в приходе к власти талибов в Афганистане интересов крупных держав и последующие сценарии.

**Ключевые слова:** *Афганистан, несостоявшееся государство, США, государственного строительства, национального строительства, талибан*

# THE MAIN PROSPECTS OF AZERBAIJAN'S PARTICIPATION IN THE SILK ROAD PROJECT

**ALI SADIGOV**
*Khazar University, doctorate*

*E-mail: elisadiqov88@gmail.com*

## Main part

The launch of the Baku-Tbilisi-Kars (BTK) railway has revived the idea that Azerbaijan is a crossroads between East and West. According to official data, this line is one of the most convenient routes from China to Europe. The BTK railway can facilitate access of Central Asian countries - Turkmenistan, Kazakhstan, Uzbekistan, Kyrgyzstan and Tajikistan, as well as Afghanistan to European and world markets. According to research, the BTK is currently several thousand kilometers shorter than the Russian route, which carries goods by land from China to Europe. At the same time, the transportation time is shortened by several days.

In addition, the project's potential can grow rapidly. Thus, BTK's cargo carrying capacity may increase in the coming years to 3-5 million tons in the third year of operation, 6-8 million tons in the fifth year of operation, and then to 3 million passengers and 17 million tons of cargo per year. Thus, the Azerbaijani economy will further develop. In the first years, the minimum annual transit revenue of our country will be $ 50 million.(5,101)

It should be noted that a 504-kilometer section of the 846-kilometer Baku-Tbilisi-Kars railway falls on the territory of Azerbaijan. 263 kilometers of the railway line pass through Georgia. 79 km of the road is in Turkey.

As can be seen, according to the official data of the Azerbaijani government, in fact, the BTK, ie the Azerbaijani route is one of the main routes of the Great Silk Road. By the way, the Great Silk Road map proposed by the Chinese government consists of 7 different directions. Currently, the main cargo route to Europe is through Russia. Although this road is relatively long, it is considered the most convenient way because it is safer and passes through fewer countries.(7, 120)

Another promising line is the line through Central Asia. This road divides Kazakhstan into two directions, north and south. At the same time, as we approach the Caspian Sea, there is a section of this line that passes through Azerbaijan and descends to the south and passes through Iran. In addition, the route through India and by sea to Africa and the Middle East is one of the main routes of the Great Silk Road.

Theoretically, the projects implemented by Azerbaijan, both the BTC railway line and the North-South Transport Corridor project, create favorable conditions for the passage of an important part of the Great Silk Road project through Azerbaijan. But for this, it is necessary to modernize the transport, tax and customs systems, to make them suitable for a large project. And most importantly, there must be political preparation. The point is that most of the Great Silk Road project passes through Kazakhstan. The main roads are distributed through Kazakhstan.

It seems that in addition to economic profitability, Kazakhstan will also need the consent of Russia, which is currently the main transit country for the Great Silk Road. The Russians still look very dissatisfied. Because BTK will share Russia's share.

In any case, the BTK project claims to be an important part of the Great Silk Road. Because one of the closest routes to get to Europe via Turkey, as well as to the Middle East and North Africa, is through the BTK line. But for this road to be attractive, a number of factors must be in place. Factors such as a more comfortable, safe road, the absence of bureaucratic obstacles, as well as the fact that the return containers are not as empty as possible, the return of cargo will play a decisive role in making the BTK and Azerbaijan route attractive. All this requires time and serious political decisions.

China's Belt and Road Initiative aims to connect the entire Asian continent with Europe. For this purpose, for several years now, both the countries

of Southeast Asia and the countries of the South Caucasus (mainly Azerbaijan and Georgia) have signed a number of trade agreements with China.

Examples of these projects are the Trans-Caspian Transit Corridor, the North-West Trade Corridor and the Baku-Tbilisi-Kars railway. In all, more than $ 90 billion has been invested in the Silk Road project over the years.

It is no secret that over the past few years, China has been aiming to gain greater influence in the South Caucasus region, in addition to Asia. In this context, Georgia is one of the countries in the region and China's main trading partner. The fact that Chinese companies have access to seaports in Georgia, as well as the activity of various Chinese construction companies in the country, gives grounds to say this.

The frequent visits of Azerbaijani officials to China in recent years and the participation of Chinese delegations in Baku meetings show that official Baku is also interested in close cooperation with China. From this point of view, Azerbaijan is more interested in its importance as a "transit country".(10, 185)

Most of the trade corridors implemented under the Silk Road project are connected to Azerbaijan and then to Georgia via the Caspian Sea. This allows Azerbaijan to play an important role in the world trade network.

After one-on-one meetings with the heads of a number of influential companies in Beijing, a new trade agreement worth $ 820 million was signed between Azerbaijan and China.(6)

This is one of the most valuable trade agreements signed with the former Soviet Union. Although the main details of the agreement and its composition are not yet fully known to the public, certain provisions are already known. According to the agreement, Chinese state companies will build new industrial parks in Guba, Goychay and Khachmaz regions, an agro-industrial complex in Kurdamir (300 hectares) and a new chemical-industrial park in Sumgayit.

According to the companies that signed the agreement, the main goal is to stimulate the development of light industry in Azerbaijan. The agreement also envisages an increase in the volume of Chinese goods passing through Azerbaijan and the volume of products exported from Azerbaijan to this country (mainly Azerbaijani wine). In general, according to government agencies, the trade turnover between China and Azerbaijan in 2018 amounted to $ 1.3 billion. The volume of goods imported from China has increased by 40 percent.

Undoubtedly, one of the main goals of Ilham Aliyev's official visit to China was to become a key regional partner by establishing closer and longer-term relations with official Beijing.

This opinion was also voiced at a one-on-one meeting of the Presidents of Azerbaijan and China. According to the official statement, China supports all international initiatives of Azerbaijan and, most importantly, its territorial integrity and sovereignty. At this point, it should be noted that the statement does not explicitly contain a specific provision on which country Nagorno-Karabakh is part of.

Apparently, official Beijing, as before, does not intend to take a stand on a specific country in the Nagorno-Karabakh issue - China is cooperating quite closely with Armenia. However, Ilham Aliyev discussed the Nagorno-Karabakh issue in private with President Vladimir Putin, who is visiting Beijing. It is unknown at this time what he will do after leaving the post.

In general, we can say that the visit of the President of Azerbaijan to China is aimed at establishing close trade relations with this country. For Azerbaijan, which is working to develop its "non-oil sector", investments from China are important. Although Chinese companies are more pro-Georgian in terms of business environment, they acknowledge that Azerbaijan is also very important as a potential market.

Azerbaijan's access to the Silk Road: WTO membership and competition with Russia:

During his official visit to China this week, Azerbaijani President Ilham Aliyev expressed support for the initiative to establish an economic zone along the Silk Road, adding that the road through Azerbaijan could be the shortest route for Chinese goods to Europe.

“Azerbaijan is located on the ancient Silk Road. "Our country has a favorable geographical position and infrastructure in the export of Chinese goods

from our country to Turkey and from there to Europe," Mr. Aliyev said.

Analysts have different views on increasing Azerbaijan's transit route between the West and the East - reforming Azerbaijan's transport and customs system and joining the World Trade Organization.

Zohrab Ismayil, an economist at the University of Michigan in the United States, believes that Azerbaijan can increase its transit role between West and East by rebuilding and modernizing its railways and highways, reforming its customs system and expanding transport opportunities in the Caspian Sea.

"Unfortunately, more than $ 80 billion has been spent on oil in the last 10 years, but it has not been done," he said.

Fariz Huseynli, a professor of finance at North Dakota State University in the United States, agrees with the idea of bringing roads into line with international standards and customs.

Otherwise, he said, there could be competition with "cheaper sea transport directly across the Indian Ocean from the Red Sea to Europe."

In 2015, President of the Republic of Azerbaijan, Supreme Commander-in-Chief Ilham Aliyev visited the People's Republic of China. The issues discussed at the meeting with the Chinese President, the talks held once again showed that Beijing intends to further expand and strengthen cooperation with Azerbaijan. At the same time, Azerbaijan's appreciation of the "One China" policy is met with satisfaction and gratitude by Beijing.

The Minister of Defense of the Republic of Azerbaijan, Colonel-General Zakir Hasanov, who paid an official visit to Beijing in April 2019 at the invitation of Colonel-General Wei Feng, Minister of National Defense of the People's Republic of China, also met with the military leadership of this country. The future prospects of cooperation became one of the main topics.(5, 98)

The Minister of National Defense of the People's Republic of China V.Fenhe thanked the Azerbaijani side for its contribution to the "One Belt, One Road" project. , Supports Azerbaijan's solution within the framework of territorial integrity.

It can also be considered a message for the countries of the region. So, Beijing, in the example of its Defense Minister, wants to say that if the Nagorno-Karabakh war is resolved militarily, China is with Azerbaijan and is ready to provide the necessary assistance to Baku.

**FINAL**

It also provides China with a strong partner in the South Caucasus region, developing on the example of Azerbaijan, to more reliably protect the New Silk Road economic transport corridor in the future, as noted above. On the other hand, through the New Silk Road passing through Azerbaijan, which has a special weight in the region, Beijing can play a positive role in further strengthening economic, trade, cultural and military relations with countries such as Turkey, Russia, Georgia and Iran. It also creates a favorable environment for these countries to work together to combat future terrorist threats, economic problems, as well as energy security partnerships.

**LITERATURE:**

*1. Akhundov A. Speech at the opening session of the II International Folklore Conference "From a common Turkish past to a common Turkish future". Materials of the II International Folklore Conference "From the common Turkish past to the common Turkish future" of the Institute of Folklore of ANAS. Baku, March 17-21, 2019, p.3.*

*2. AzThe strengthening of the Azerbaijani-Turkish unity is very important for the whole Turkic world and the processes taking place in the world. "Azerbaijan", March 11, 2007 № 53 (4570).*

*3. Azerbaijan-Turkey relations and Heydar Aliyev (book 1), 1991-2001. Baku, Qafqaz University Publishing House, 2002, 180 p.*

*4. Proceedings of the scientific-practical conference dedicated to the 10th anniversary of the establishment of diplomatic relations between the Republic of Azerbaijan and the Republic of Turkey (January 14, 2002). Baku, 2002, 69 p.*

*5. Azerbaijan-Turkey relations (1920 - 1922), Documents and materials (Compilers: Jala Gurbanova, Musa Piriyev). Baku, AzAtaM, (Orkhan publishing house), 2020, 334 p.*

*6. Azerbaijani-Turkish relations are based on*

*brotherhood and friendship in all areas and levels. Revival - XXI century, 2019, special edition, p. 51-58.*

*7. Huseynov I. Artistic and aesthetic essence of Azerbaijani national customs and traditions. Baku: Mars-Print, 2020, 308 p.*

*8. Peace Bridge for the XXI Century: Visit of the President of the Republic of Azerbaijan Heydar Aliyev to Turkey in connection with the Istanbul Summit of the Organization for Security and Cooperation in Europe (November 17-20, 1999). Baku, "Baku", 2000, 214 p.*

*9. IsmayIlov A., Aliyev G., Gasimli A.Sh. Heydar Aliyev and the philosophy of national dignity. Baku, "Doctor", 1998, 149 p.*

*10. IsmayIlov H. Introductory speech at the III International Folklore Symposium "From the common Turkish past to the common Turkish future". Materials of the III International Folklore Conference "From the common Turkish past to the common Turkish future" of the Institute of Folklore of ANAS. Baku, November 13-16, 2005, p. 5-8.*

*11. Karimov I. Thoughts from the theater festival of Turkic-speaking peoples. Revival - XXI century, February 2003, № 2 (60), p. 156-162.*

*12. Karimov M. Speech at the opening meeting of the International Folklore Scientific Conference "From a common Turkish past to a common Turkish future". Materials of the III International Folklore Conference "From the common Turkish past to the common Turkish future" of the Institute of Folklore of ANAS. Baku, November 13-16, 2005, p. 3-4.*

## SUMMARY

The Great Silk Road is a caravan route from ancient and medieval China to Central and East Asia. Historical trade routes have passed through China, Japan, India, Mongolia, Iran, Uzbekistan, Tajikistan, Azerbaijan and other countries. Another route of the Great Silk Road passed through East Turkestan via Uyghuristan and Mongolia to the north of the Caspian Sea, relatively north of the Chinese capital. This road is still in use today and is considered the main transport route from China to Europe. The idea of the Great Silk Road is now being seriously promoted by the Chinese government. Because it is both an economic stimulus to stimulate China's cheap and competitive transportation to Europe and Asia (West Asia and North Africa), as well as the development of political and cultural ties. It is desirable for China to have this project in different variants and several alternatives. That is why Beijing, as they say, supports all alternatives.

**Key words:** *The Silk Road, the state, politics.*

## Azərbaycanın "İpək Yolu" layihəsində iştirakının əsas prespektivliyi

**Əli Sadiqov**
**Xəzər Universiteti,**
**doktotant**
**E-mail: elisadiqov88@gmail.com**

## XÜLASƏ

"Böyük İpək Yolu" qədim və orta əsrlərdə Çindən Orta və Ön Asiya ölkələrinə aparan karvan yoludur. Tarixi ticarət marşrutları Çin, Yaponiya, Hindistan, Monqolustan, İran, Özbəkistan, Tacikistan, Azərbaycan və digər ölkələrdən keçmişdir. "Böyük İpək Yolu"nun daha bir marşrutu Çin paytaxtından nisbətən şimal istiqamətində Uyğurustan və Monqolustan üzərindən Şərqi Türkistandan keçərək Xəzərin şimala keçirdi. Bu yol təxmini olaraq indi də istifadə olunur və Çindən Avropaya əsas nəqliyyat xətti hesab olunur. "Böyük İpək Yolu" ideyasını Çin hökuməti hazırda ciddi şəkildə təbliğ edir. Çünki söhbət həm iqtisadi baxımdan Çinin Avropa və Asiya (Qərbi Asiya və Şimali Afrika) istiqamətində ucuz və rəqabətli yük daşımaçılığını stimullaşdırmaq, həm də siyasi, mədəni əlaqələrin inkişaf etdirilməsindən gedir. Çin üçün bu layihənin fərqli variantlarda və bir neçə alternativdə olması arzuolunandır. Bu səbəbdən də Pekin necə deyələr bütün alternativlərə dəstək verir.

**Açar sözlər:** *İpək Yolu, dövlət, siyasət.*

**Сновные перспективы участия Азербайджана в проекте Шелковый путь**

**Али Садыгов**
**Хазарский университет,**
**докторантура**
**Почта: elisadiqov88@gmail.com**

**РЕЗЮМЕ**

Великий шелковый путь - это караванный путь из древнего и средневекового Китая в Центральную и Восточную Азию. Исторические торговые пути проходили через Китай, Японию, Индию, Монголию, Иран, Узбекистан, Таджикистан, Азербайджан и другие страны. Другой маршрут Великого шелкового пути проходил через Восточный Туркестан через Уйгуристан и Монголию к северу от Каспийского моря, относительно севернее китайской столицы. Эта дорога используется до сих пор и считается основным транспортным маршрутом из Китая в Европу. Идея Великого шелкового пути сейчас серьезно продвигается китайским правительством. Потому что это одновременно экономический стимул для стимулирования дешевых и конкурентоспособных перевозок Китая в Европу и Азию (Западную Азию и Северную Африку), а также для развития политических и культурных связей. Китаю желательно, чтобы этот проект был в разных вариантах и нескольких альтернативах. Поэтому Пекин, как говорится, поддерживает все альтернативы.

**Ключевые слова:** *Шелковый путь, государство, политика.*

UOT 32.019.51

# SOSİAL MEDİANIN SİYASİ SFERADA ROLU

**AYNURƏ MƏMMƏDOVA**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının magistrantı*

*E-mail: memmedova-aynure-98@mail.ru*

## Giriş

Texnologiyaların sürətli inkişafı insanların bir-birilə ünsiyyət prosesində və bununla da qısa müddətdə daha çox informasiya bolluğuna məruz qalmasında böyük bir əhəmiyyət kəsb etdi. Bu cür inkişafın nəticəsi olaraq yaranan, yeni ünsiyyət vasitəsinə çevrilən sosial media insanların məlumatları daha etibarlı mənbələrdən əldə etməsini şərtləndirdi. Yəni insanlar artıq bilvasitə deyil, bilavasitə informasiyanı əsaslı qaynaqlardan öyrənə bilirdilər. Hazırda sosial mediaya bloqlar (Blogger, LiveJournal), mikro-bloqlar (Twitter, FMyLife), sosial şəbəkə servisləri (Facebook, LinkedIn), viki-lər (Wikipedia, Wet-paint), sosial bookmarking (Delicious, CiteULike), sosial xəbərlər (Digg, Mixx), icmallar (ePinions, Yelp), multimedia paylaşımı (Flickr, Youtube) aid edilir. Facebook, Twitter, Youtube və digər sosial media servisləri İnternet istifadəçilərinin mütləq əksəriyyətinin onlayn həyatının ayrılmaz hissəsinə çevrilib [1,2].

Artıq inkar edilməz bir həqiqətdir ki, müasir dövrdə vətəndaş cəmiyyətinin inkişafını sürətləndirən ən vacib amillərdən biri də sosial mediadır. Qərb ölkələrində fikir azadlığı sosial media vasitələrinin istifadəsindən əvvəl də mövcud olsa da, Şərq ölkələrindəki totalitar hakimiyyət insanların bir-birilə müstəqil bir şəkildə əlaqə qurmasında və vətəndaş cəmiyyətinin formalaşmasında ciddi maneələr yaradırdı. Lakin sosial media saytları Şərqdə hökm sürən belə vəziyyəti dəyişdirməkdə önəmli rol oynadılar [3].

Onu da qeyd edə bilərik ki, insan hüquqları müdafiəçiləri 10 ildən artıqdır ki, dinc etirazlar təşkil etmək və demokratiyanı müdafiə etmək üçün sosial media texnologiyasından istifadə edirlər. Son zamanlar sülh qurucuları bu üsulu münaqişənin dinamikasını anlamaq və ekstremizmə qarşı daha güclü bir şəkildə mübarizə aparmaq üçün bir vasitə ola biləcəyini kəşf etdilər. Bununla belə, dezinformasiya kampaniyaları vasitəsilə sosial medianın radikallaşma və zorakılığa rəvac vermək üçün istifadə olunmasının acınacaqlı rekordu onun insan haqları, demokratiya və sülhü təşviq etmək üçün bir meqafon olma potensialını bəzən kölgədə qoyur [4].

Ümumilikdə, sosial media mövzusunu tədqiq etdikdə onun faydalarını aşağıdakı şəkildə sıralamaq mümkündür:

• Təşkilatlanmanı asanlaşdırır;

• Həqiqətləri sürətlə öyrənə bilmə imkanı yaradır;

• Fərdlər arasında əlaqəni artırır;

• Fikirlərin qısa bir müddətdə yayılmasına kömək edir;

• Təşkilati və kommunikasiya xərclərinin azaldılmasında mühim yer tutur;

• Daha çox insan siyasi və ya sosial məcrada baş vermiş hadisələrə reaksiya vermək bacarığına sahib olur [2].

## 1. Sosial medianın siyasi gücü

Sosial media siyasi partiyalar və siyasətçilər tərəfindən insanları siyasi iştiraka istiqamətləndirmək üçün xüsusilə də, seçkilər zamanı bir propaqanda və ya təbliğat aləti olaraq istifadə edilirlər. İnteraktiv əlaqənin qurula bilməsi, siyasətçinin qısa zamanda daha geniş kütləyə xitab edə bilməsi və onların reaksiyasını daha rahat ölçə bilməsi sosial medianı effektiv bir vasitəyə çevirən səbəblərdəndir. Vətəndaşlar sosial mediadan istifadə edərək mövcud məsələyə yanaşmalarını daha rahat şəkildə ifadə edə bilir, digər şəxslərin və siyasətçilərin fikirlərini təhlil edərək cavablaya və ya şərh edə bilirlər.

Keçmişdən hazırkı dövrə qədər siyasətçilər qısa müddət ərzində daha çox insana təsir edə bilmək üçün müxtəlif cəhdlər etmişdilər. Sosial mediadan istifadə edən siyasətçilər ənənəvi üsulları

tətbiq edənlərlə müqayisədə bu məqsədə daha yaxındırlar və milyonlarla insanla dərhal əlaqə yaratmaq gücünə sahib olurlar. Bütün bunlar bir daha sosial medianın daha çox insana nüfuz edə biləcəyini sübut etmiş olur. Bir siyasi partiyanın və ya siyasətçinin çıxışlarında iştirak edən təqribi insan sayını düşündükdə isə qeyd edə bilərik ki, sosial media vasitələrindən istifadə etmədən bu qədər insanı eyni məkana toplamaq çox mürəkkəb bir prosesdir. Lakin məhz bu informasiya texnologiyasını tətbiq etməklə siyasətçilər minlərlə, milyonlarla şəxsə öz ideyalarını eyni anda ifadə edə bilmək imkanına sahibdirlər.

Bundan əlavə, sosial medianın siyasətçi və seçici arasındakı əlaqəni necə asan və interaktiv hala gətirdiyini başa düşmək üçün Youtube-un World-view kanalını nümunə olaraq qeyd edə bilərik. Bu kanal siyasətçilər ilə vətəndaşlar arasında daha şəffaf bir əlaqə vasitəsidir. İlk növbədə, kanala üzv olan istifadəçilər iştirak edəcək qonaqdan soruşmaq üçün müxtəlif suallar hazırlayıb yazırdılar. Daha sonra isə həmin suallar istifadəçilər arasında səsverməyə qoyulur və ən çox səs toplayan suallar bir jurnalist tərəfindən qonağa yönəldilirdi. Belə bir hal sosial medianın siyasi subyektlərlə elektoratlar arasında vasitəçilik rolunda çıxış etdiyinin əyani göstəricisidir [2].

**2. Sosial medianın siyasi fəaliyyətlərdə istifadəsi**

Sosial media siyasi sahədə baş verən hadisələrə səbəbiyyət verən amillərdən olmasa da cəmiyyət siyasi sferada sosial medianı bir təşkilat və rabitə platforması olaraq istifadə etməkdədir. Bir-birindən çox fərqli cəmiyyətlərdə meydana gələn “Wall Street” işğalı, Ərəb üsyanları kimi siyasi hərəkətlərdə sosial media insanları təşkilatlandırmaq, daha çox insan sayı cəlb etmək və əlaqəni təmin etmək üçün tətbiq edilmişdir [5].

“Ərəb Baharı” ilk olaraq 17 dekabr 2010-cu ildə Tunisdə başlamışdır. Səyyar satıcılıqla məşğul olan universitet məzunu işsiz Tunisli gənc Məhəmməd Buəzizinin özünü yandırması bütün ölkədə etirazlara səbəb oldu. Ölkədəki sosial ədalətsizlik, işsizlik və yoxsulluqdan bezmiş olan xalq küçələrə axın etmiş, 16 yanvar 2011-ci ildə Tunis prezidenti Zin əl-Abidin Ben Əli Səudiyyə Ərəbistanına qaçmış və xalq zəfər elan etmişdir. Tunisdə başlayan bu üsyan qısa bir zamanda Şimali Afrika və Orta Şərqi də öz təsiri altına almağı bacarmışdır. Tunis, Əlcəzair, Misir, Livan, Bəhreyn, İordaniya və Yəmən “Ərəb Baharı”nın ən çox təsir etdiyi ölkələr sırasında yer alarkən Mavritaniya, Səudiyyə Ərəbistanı, Oman, Suriya, İraq daha az təsirə məruz qalmışdır. Ərəb üsyanlarını işsizlik, inflyasiya, ərzaq qiymətlərinin yüksəlməsi, söz azadlığı, bürokratik əngəllər və sosial həyat səviyyəsinin aşağı olması şərtləndirmişdi [6]. Qeyd edilən üsyanların diqqət mərkəzində olmasının əsas səbəblərindən biri sosial medianın üsyanın yayılmasında oynadığı böyük rol idi. Buna görə də Ərəb üsyanları “sosial media inqilabları”, “facebook inqilabı” və yaxud “twitter inqilabı” kimi də səciyyələndirilmişdir [7].

Qısa zaman ərzində bütün Şimali Afrika və Orta Şərqi bürüyən üsyanlar Tunis, Misir və Liviyada hakimiyyəti devirdi. Misir prezidenti Hüsnü Mübarəkin istefasından əvvəlki həftədə twitter izləyicilərinin sayında xeyli artım müşahidə edilmişdir [8]. Üsyanın Tunisdən Misirə nüfuz etməsindən sonra sosial media vasitəsilə təşkilatlanmaya başlayan xalqı dayandırmaq üçün Misir hökuməti twitter-ə girişi qadağan etmiş, eyni zamanda Facebook, Yahoo və Google kimi sosial media vasitələrinə daxil olmaqda ciddi məhdudiyyətlər tətbiq etmişdir [2,8]. 2011-ci il yanvarın 28-də Misir hökuməti tərəfindən internet və o cümlədən ölkə prezidentinin, hökumət qurumlarının saytlarının da bağlanması əmri verilmişdir. Lakin rəhbər orqanların sosial mediaya qarşı həyata keçirdiyi əməliyyatlar uğursuzluqla nəticələndiyi üçün 11 fevral 2011-ci ildə Misir prezidenti Hüsnü Mübarək istefa etməli olmuşdur [2].

Sosial medianın siyasi münaqişələrdə rolundan bəhs edərkən “Wall Street” işğalını da nəzərdən keçirmək mühim əhəmiyyət kəsb edir. 2011-ci il sentyabrın əvvəlində Nyu York şəhərindəki “Wall Street” adlı ərazidə siyasi aktivistlər tərəfindən xalqın gücü olaraq tanınan bir siyasi hərəkat başladıldı [9]. Bu hərəkat böyük bankların və transmilli şirkətlərin gücünə və demokratiyadan uzaq mövqelərinə qarşı xalqın mübarizəsi olaraq başladıldı. Misir və Tunisdə meydana gələn üsyanlardan təsirlənən bu hərəkatın məqsədi isə dünya iqtisadiyyatının ədalətsiz qaydalarını

müəyyənləşdirən və ümumi əhalinin çox az qismini əhatə edən zənginlərə qarşı mübarizə aparmaqdan ibarət olmuşdu. Hərəkatın rəsmi veb-saytı olan "occupywallst.org"da verilən məlumata görə, 15 sentyabr 2011-ci il tarixində hərəkat digər ölkələrə də yayılmış və qlobal bir siyasi akt halını almışdır. Bütün bu etirazlar Facebook, Twitter, Youtube kimi sosial media vasitələri ilə daha geniş vüsət alsa da, 15 noyabr 2011-ci il tarixində polisin sərt müdaxiləsinə məruz qalmışdır [2,9]. Lakin bütün bunlara baxmayaraq, "Ərəb Baharı", "Wall Street" işğalı kimi siyasi fəaliyyətlər sosial medianın siyasi aləmdə baş verə biləcək hadisələrdə etirazçı qüvvələri səfərbər etmək üçün istifadə edilə bildiyini də aydın şəkildə göstərmiş oldu [1,2].

Onu da qeyd edək ki, bir sıra dövlətlərin sosial media ilə əlaqədar əsas narahatlığı sosial medianın terrorçu, ekstremist, radikal qruplar tərəfindən istifadə edilməsidir. İnternetdə mütəşəkkil terrorizmin 90%-i sosial media ilə həyata keçirilir. Sosial media terroristlərə bir neçə saniyədə milyonlarla insana müraciət etməyə imkan verir [1]. Buna görə də dövlətlər sosial medianın nöqsanlı tərəfləri ilə mübarizə aparmağı öz əsas strategiyalarına daxil edirlər.

Sosial servislərin geniş yayılması münaqişələrin təbiətinə də təsir göstərə bilir. Bu servislərdən səmərəli istifadə edilməsi silahlı qüvvələrə əməliyyatların informasiya dəstəyini daha keyfiyyətlə həyata keçirməyə imkan verir [1]. ABŞ Müdafiə Nazirliyi tərəfindən qəbul edilmiş xüsusi "Strateji kommunikasiyalarda sosial media"(Social Media in Strategic Communication, SMİSC) proqramının əsas məqsədi texnologiya bazasında qurulmuş yeni sosial şəbəkə elminin işlənməsidir. Burada dörd konkret hədəfin vaxtında yerinə yetirilməsinə təminat verilməlidir [1]:

1. (a) ideyaların və konsepsiyaların formalaşmasını, inkişafını və yayılmasını; (b) məqsədyönlü və ya yanıldıcı məlumatları və dezinformasiyanı aşkarlamaq, təsnif etmək, qiymətləndirmək və izləmək.

2. Sosial media saytlarında inandırma kampaniyalarının strukturlarını və təsir əməliyyatlarını aşkarlamaq.

3. İnandırma kampaniyalarının iştirakçılarını və onların niyyətlərini identifikasiya etmək və bu kampaniyaların effektlərini qiymətləndirmək.

4. Düşmənin aşkarlanmış təsir əməliyyatlarına əks əməliyyatlar həyata keçirmək.

Bundan əlavə, 2021-ci il Stokholm Sülh və İnkişaf Forumunda tədqiqatçılar, siyasətçilər, texnoloji şirkətlər və vətəndaş cəmiyyəti təşkilatları sosial medianın sülhməramlı məqsədlər üçün necə istifadə oluna biləcəyini kəşf etmək və zərərli onlayn dezinformasiya kampaniyalarına yönəlmiş siyasi reaksiyaları qiymətləndirmək imkanı əldə etdilər [4]. Bununla əlaqədar sülhü, demokratik təsisatları və insanların rifahını qorumaq üçün sülh qurucuları, polisimeykerlər, sosial media kompaniyaları və vətəndaşların hər birinə aşağıdakı tövsiyələr verilir:

• Sülhməramlılar: münaqişə edən tərəflərin təhlilini aparmalı, erkən xəbərdarlıq, demokratiya və insan hüquqlarının müdafiəsi üçün sosial media texnologiyasından istifadəni sistemləşdirməlidir;

• Siyasətçilər və ya polisimeykerlər: effektiv nəzarət üsulu və məlumatların idarə edilməsinin düzgün qaydalarını yaratmaqla sosial mediada zərərli dezinformasiya kampaniyalarının qarşısını almalıdırlar;

• Texnologiya şirkətləri: zərərli siyasi məqsədlər üçün istifadə edilmələrinin və münaqişənin tərəfdarı olmalarının qarşısını almaq üçün sosial media alətlərini yenidən dizayn etməyi nəzərdən keçirməlidir;

• Vətəndaşlar: dezinformasiyaya qarşı dayanıqlığını artırmalı, eyni zamanda sosial media tərəfindən onlar haqqında toplanan məlumatların necə istifadə edildiyini və kimlər tərəfindən öyrənildiyini tələb etməlidirlər.

**Nəticə**

Aparılan tədqiqatlara əsaslanaraq belə bir yekun mülahizə irəli sürmək mümkündür ki, texnologiyaların inkişafı və internetin bütün dünyada geniş şəkildə yayılması sosial medianı insanlar arasında interaktiv əlaqə üsulunun əsas vasitələrindən birinə çevirmişdir. Sosial şəbəkələr həyatın hər bir sahəsinə nüfuz edərək digər veb saytlar və ənənəvi media ilə müqayisədə baş vermiş, mövcud hadisədən daha çox insan məfhumunu mərkəzə qoyur. Siyasi cəhətdən əsas üstünlükləri kimi təşkilatlanmanı asanlaşdırmasını,

rabitəni genişləndirməsini, siyasi proseslərə asanlıqla qısa bir müddətdə reaksiya verə bilməsini vurğulamaq mümkündür. Bu mənada sosial medianın əsas rolunun vətəndaşların dəqiq, düzgün məlumatlarla təmin edilərək dezinformasiyaya qarşı mübarizə aparmaqdan, şəffaflığı qorumaqdan, insanların hüquq və azadlıqlarının müdafiəsində vasitəçilik funksiyasını yerinə yetirməkdən siyasi iştirakı gücləndirməkdən ibarət olduğunu qeyd edə bilərik. Bundan əlavə fərdlər arasında ünsiyyəti artırdığına, siyasətçilərə böyük miqdarda xərc tələb etmədən geniş kütləyə xitab etmək imkanını verməsi də onun siyasi aləmdə son dərəcə əhəmiyyətli olduğunu bir daha göstərmiş olur.

Onu da qeyd etmək lazımdır ki, sosial media azadlıq tələbinin və demokratiyanın yayılmasında və artmasında güclü bir ünsiyyət vasitəsi kimi daha az inkişaf etmiş ölkələrdəki ümumi rifahın bərqərar olunmasına şərait yaratdığından yalnız fərdlərarası deyil, eyni zamanda siyasətçilərlə vətəndaş cəmiyyəti arasındakı rabitənin də güclənməsində mühim əhəmiyyət kəsb etdi. Doğrudur, sosial medianın siyasətdəki rolu çoxşaxəlidir və müsbət tərəfləri ilə yanaşı, bəzi nöqsanlı xüsusiyyətləri də mövcuddur. Ona görə də meydana çıxa biləcək hər növ təhlükəyə vaxtında müdaxilə edilməsi labüd məsələlərdəndir.

Qeyd olunanları ümumiləşdirərək belə bir nəticə əldə etmək olar ki, sosial media siyasi aləmdə yaranan hər hansı bir problemin, təhdidlərin əvvəlcədən müəyyənləşdirilməsində və ona qarşı müvafiq tədbirlərin görülməsində də müstəsna rol oynayır.

**Açar sözlər:** *sosial media, yeni ünsiyyət vasitələri, siyasi iştirak, şəffaflıq, siyasət, siyasi münaqişələr, etirazlar dalğası, tövsiyələr.*

## ƏDƏBİYYAT SİYAHISI

*1. R. M. Əliquliyev, Y. N. İmamverdiyev, F. C. Abdullayeva. "Sosial şəbəkələr." Bakı İnformasiya Texnologiyaları, 2010.*

*2. Çildan C., Ertemiz, M., Küçük, E., Tumuçin, H. K., Albayrak, D., (2012) "Sosyal Medyanın Politik Katılım ve Hareketlerdeki Rolü", Akademik Bilişim Konferansı, Şubat-2012, İnternet Adresi: ab.org.tr/ab12/bildiri/205.doc Erişim Tarihi: 22.08.2017)*

*3. Shirky, C. "The Political Power of Social Media." Foreign Affairs Volume 90-1, 28-41. (2011).*

*4. Dr Simone Bunse. " Social media: A tool for peace or conflict?(2021, august 20) https://www.sipri.org/commentary/topical-backgrounder/2021/social-media-tool-peace-or-conflict*

*5. Joseph, S. "Social Media, Human Rights and Political Change" Winter edition of the Boston College*

*6. International & Comparative Law Review volume 35(1) (2011) Papic, M. & Noonan, S. "Social Media as a Tool for Protest. STRATFOR" Stratfor Global Intelligence. Retrieved November, 25, 2011, fromwww.stratfor.com/weekly/20110202-social-media-tool- protest?utm_source=SWeekly&utm_medium=email&utm_campaign=11020 (2011)*

*7. Duncombe, C."The twitter Revolution? Social Media, Representation and Crisis in Iran and Libya." School of Political Science and International Studies, University of Queensland, Australia. (2011)*

*8. O"Donnel, C. "New study quantifies use of social media in Arab Spring." ScienceDaily. Retrieved January 5, 2012, from http://www.washington.edu/news/articles/new-study-quantifies-use-of-social-media-in-arab-spring (2011)*

*9. Brisbane, A.S. "Who is Occupy Wall Street?" (2011, November 12). Sunday Review, The New York Times, from http://www.nytimes.com/2011/11/13/opinion/sunday/who-is-occupy-wall-street.html (2011).*

## РОЛЬ СОЦИАЛЬНЫХ СЕТЕЙ В ПОЛИТИЧЕСКОЙ СФЕРЕ

### РЕЗЮМЕ

В этой статье исследуется роль социальных сетей в событиях и процессах на политической арене. Сегодня социальные сети охватывают все сферы жизни. Поэтому в первую очередь внимание уделяется содержанию и сути концепции социальных сетей. О социальных сетях говорят как о новом способе создания и увеличения быстрого взаимодействия между людьми. Затем в нем рассматриваются последние политические события как показатель политической власти социальных

сетей, а также исследуются протесты за права и свободы человека и их влияние на демократию. Подчеркиваются преимущества социальных сетей. Его политическая сила и роль в конфликтах изучаются. В нем рассматривается, насколько быстро социальные сети могут распространяться за короткий период времени и как вовлечь людей в политику. И также Одним из ярких моментов современной эпохи является взаимосвязь между “Арабской Весной” и другими политическими мероприятиями и социальными сетями. Помимо преимуществ социальных сетей, исследуются и недостатки, а также учитываются рекомендации, приведенные в конце статьи.

**Ключевые слова:** *социальные сети, новые средства коммуникации, политическое участие, прозрачность, политика, политические конфликты, волна протестов, рекомендации.*

## THE ROLE OF SOCIAL MEDIA IN THE POLITICAL SPHERE

### SUMMARY

This article examines the role of social media in events and processes in the political arena. Today, social media covers all areas of life. Therefore, first of all, attention is paid to the content and essence of the concept of social media. Social media is being talked about as a new way to create and increase fast interactions between people. It then looks at recent political developments as an indicator of the political power of social media, the struggle for human rights and freedoms, and its impact on democracy. The benefits of social media are highlighted. Its political power and role in conflicts are being studied. It looks at how fast social media can spread in a short period of time and how to get people involved in politics. Also one of the highlights of the modern era is the relationship between the Arab Spring and other political activities and social media. In addition to the advantages of social media, the disadvantages are also explored, and the recommendations made at the end of the article are considered.

**Key words:** *social media, new communication technology, political participation, trancparency, politics, political conflicts, wave of protests, recommendations.*

UOT 327; 930.22

# AVROPANIN ENERJİ TƏHLÜKƏSİZLİYİNDƏ TAP, TANAP LAYİHƏLƏRİNİN ROLU

**VÜQAR BƏDƏLOV**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası*

*E-mail: vuqarbedelii@gmail.com*

Tarixən enerji resursları və bu resursların daşınma marşurutlarını nəzarətdə saxlamaq qabiliyyəti dövlətlərin güc faktorunu müəyyənləşdirən əsas amillər sırasına daxil olub. Bu məsələ aktuallığını bu gün də tam ciddiyyəti ilə qorumaqdadır. Qaz və neft mənbələrinin tükənmə ehtimalı dəyərləndirildikdə, enerji amilinin əhəmiyyətinin günbəgün artması elə də təəccüblü deyil. Hal-hazırda enerji amili beynəlxalq münasibətlərdə əlaqələrin ən ciddi müəyyənləşdirici faktorlarından biri olmuşdur. Qeyd etsək ki, bu faktor heç vaxt bugünkü qədər əhəmiyyətli olmamışdır, yəqin ki, yanılmarıq. Çağdaş dövrdə-soyuq müharibənin bitməsi ilə dünya düzəninin rəqabət yaradan ən əsas amili enerji amili olmuşdur. Bu baxımdan hal-hazırda ümimi təhlükəsizlik konsepsiyasının ən mühüm elementi enerji siyasətinin hədəfi olan enerji təhlükəsizliyinin təminatıdır.

Enerji siyasətinə münasibətdə dövlətlər fərqli mövqelərdə dayanır. Belə ki, dövlətlər idxalçı və istehsalçı olmaqla mahiyyətcə bir-birindən fərqlənirlər. İstehsalçı dövlətlər ixracatlarını genişləndirməyə, alıcılarının sayını artırmağa çalışırlar. İdxalçı dövlətlər isə öz növbəsində qaynaq müxtəlifliyini artırmağa çalışırlar. Bu məqalədə enerji təhlükəsizliyində Avropanın yeri və TANAP, TAP layihələrinin bu təhlükəsizlikdə rolu təhlil edilir.

Dünya enerji resurslarının əhəmiyyətli bir miqdarı Xəzər hövzəsi, Rusiya, Orta Şərq və Şimali Afrikada yerləşmişdir ki, bu da Avropa üçün coğrafi cəhətdən əlçatandır. Avropa faktiki olaraq bu regionların hamısından enerji idxal edir. Amma Avropanın Rusiyadan artma tempi ilə gedən irihəcmli asılılığı və Rusiyanın bu asılılıqdan siyası məqsədlər üçün aydın şəkildə istifadə etmək planı bəzi üzv dövlətlərdən və ABŞ tərəfindən təminatın diversifikasıyası üçün daha geniş enerji strategiyası çağırışlarına səbəb olmuşdur. Bu regionların hər birindən enerji alınmasında tarazlığa nail olmaq və bu regionların hökümətləri ilə əlaqələrini daha yaxşı formada qurmaq imkanlarını müəyyən etmək Avropa üçün bir növ açardır.Yəni nəzərdə tutulan regionlarla siyasi əlaqələri gücləndirməklə Avropa xarici enerji strategiyası üçün yeni perspektivlər açır. Bəzilərinə görə isə Avropa strategiyası yuxarda qeyd olunan məqsədlərdən fərqlənir. Avropalılar qəbul edirlər ki, onlar heç vaxt tam enerji müstəqilliyi əldə edə bilməzlər və odur ki, birbaşa enerji müstəqilliyi əldə etməkdənsə öz enerji asılılıqlarını daha yaxşı idarə etmək taktikasını ön plana çəkirlər.

Avropanın enerji təhlükəsizliyi məsələsində problemlərinə Rusiyadan asılılıq və enerji mənbələrinin diversifikasıya aiddir. Şimal dənizində resursların azalması ilə Avropanın onsuz da yüksək həddə olan enerji ehtiyacının artması Orta Şərq və Rusiyadan enerji idxalını əhəmiyyətli dərəcədə artıracaq. Artıq Avropa qazın yarıdan çoxunu idxal edir və Şərqi Avropanın bir sıra dövlətləri demək olar ki, tamamilə Rusiya qazından asılıdırlar.

Rusiyanın enerji amilindən istifadə etməklə təzyiq üsüllarından biri də qiymət siyasətidir. Əvvəla, Mərkəzi və Şərqi Avropada Rusiyanın qaz və neft ixracı ilə bağlı monopolist olması Rusiyaya şərait yaradır ki, bu enerji daşıyıcılarının qiymət siyasəti ilə bu ölkələrə təzyiq etsin. Eyni zamanda, həm də Rusiya enerji daşıyıcılarının qiymət siyasəti ilə yaxın qonşuları olan keçmiş Sovet Respublikalarına ciddi təsir göstərə bilir. Bu siyasətlə o, Ukraynadakı daxili vəziyyəti gərginləşdirə bilir, Ermənistan və Belarusu öz satellitetinə çevirə bilib. Rusiya Əlcəzair kimi tarixən Rusiyanın təsiri altında olmayan ölkələrdə təsirini artırmaq ambisiyasına cəhd göstərir. Nəticədə isə, Avropanı neft və qazla təmin edən Rusiya ərazisindən keçməyən kəmərlərdə belə rus təsiri əldə olunur.

Rusiyanın Avropa ilə bağlı enerji siyasətinin əhəmiyyətli qollarından biri də Xəzər hövzəsinin enerji ehtiyatlarının alternativ yollarla Avropaya

çatdırılmasının qarşısının alınmasıdır. Bölgədə olan münaqişələrin həlli məsələlərinin qəlizləşdirilməsi, bölgə ölkələrinə olan birbaşa və dolayı yolla təzyiqlər və s. kimi məslələr problemin həlli üçün Rusiya tərəfindən yaradılan maneələrdir.

Rusiyanın mövcud təbii qaz gücündən Avropa ölkələrinə qarşı istifadəsi və daha çox gəlir əldə etmək üçün xərcləri artırması Avropa ölkələrinə bu məsələni həll etmək üçün çıxış yolu axtarmağa vadar edirdi. Enerji ehtiyaclarının 79% ni xaricdən təmin edən Avropa ölkələri yarana biləcək hər hansı bir siyasi münaqişələr zamanı ciddi enerji problemlər ilə rastlaşa bilərlər. Eyni zamanda, dediyimiz kimi Avropa ölkələrində təbii qaz istehsalının da azalması yarana biləcək belə vəziyyətlərdə məsələnin nə qədər əhəmiyyətli olduğunu bir daha göstərir. Bu baxımdan Avropa yeni enerji mənbələri axtarışlarına başlamışdır. Amma bunu da qeyd etmək lazımdır ki, Rusiyadan təbii qaz asılılığı Avropa ölkələrinin hamısına aid deyildir. Belə ki, İsveç, İspaniya, Xorvatiya kimi Avropa ölkələrinin Rusiya təbii qazından asılılığından söhbət gedə bilməz. Bununla yanaşı İngiltərə, Fransa kimi böyük iqtisadiyyata malik olan ölkələrin də Rusiya təbii qazına asılılıqları yoxdur. Halbuki Litva, Estoniya, Çexiya Rusiya qazından tam asılıdır.

Bütün bunlara baxmayaraq, Avropa Birliyi enerji ilə əlaqəli strategiyalar formalaşdırmış, müəyyən sənədlər, təklif paketləri və s. imzalamışdır. İlk olaraq 2006-cı ildə “Yaşıl kiyab-Dayanıqlı, Rəqabətli və Təhlükəsiz enerji üçün Avropa Strategiyası” adlı sənəd imzalanmışdır. Bu sənəd Avropanın enerji ilə əlaqəli olan strategiyaları içərisində daha çox hay-küyə səbəb olanıdır. Sənədin məzmununda Avropanın yeni enerji landşaftına daxil olduğu, bu gün idxaldan asılılığın 50% olduğu və bunun artan templə davam etməsi qeyd olunur. Bununla birlikdə hidrokarbon ehtiyatlarının günbəgün azalması, enerjinin bahalaşması və infrastrukturu yeniləndirmə tələbi kimi məsələlərə toxunulur. Amma sənəddə olan bu çağırışlar bütün Avropa üçün ümumidir. Belə ki, Avropa dövlət və hökümət başçıları 2005-ci ilin sonunda Böyük Britaniyada toplaşaraq real Avropa Enerji Siyasəti üçün çağırış etdilər. Odur ki, bundan sonra AK 2006-ci il martın 8-də Avropa Enerji Siyasətini inkişaf etdirmək üçün Yaşıl Sənədi qəbul etdi. Əgər Avropa enerji məsələsində ümumi yanaşmanı vahid səslə aydın ifadə edə bilsə, onda Avropa qalobal enerji debatına liderlik edə bilər. Bu baxımdan Yaşıl sənəd Avropaya təhlükəsizlik, rəqabətli və dayanıqlı enerjinin əsaslarını yaratmağa kömək etmək üçün qəbul olundu.

Avropanın enerji sahəsində atdığı addımlardan biri də 19 sentiyabr 2007-ci ildə Avropa Komissiyası tərəfindən qəbul olunan üçüncü qanunverici paketdir. Belə ki, bura istehlakçı seçimi, daha ucuz qiymətlər, daha təmiz enerji və təhlükəsizlik təminatı kimi məsələlər daxildir. Bu hədəflərə çatmaq üçün komissiya təkliflər irəli sürürdü. Bunlara sərhəd əməkdaşlığı və investisiyaların irəli çəkilməsi, şəbəkə əməliyyatlarında və marketlərdə daha çox şəffaflığa nail olunması, Avropa ölkələri arasında həmrəyliyin artırılması, sərhədlərdə enerji ticarətinin daha effektiv milli tənzimləmələri üçün istehsalla ötürücü şəbəkələrin təminatının ayrılması daxil idi. Bu təkliflər paketində Avropa Komissiyası Avropanın elektrik və qaz bazarları barəsində qanunverici təkliflər irəli sürür və burada hədəfə hər bir istehlakçı Avropa vətəndaşının daha geniş seçim imkanları, daha təmiz enerji və təminat təhlükəsizliyi məsələləri ortaya çıxır.

Avropa Birliyinin enerji və ətraf mühitdə dəyişikliklərə nail olmaq hədəflərinə çatması üçün 2007-ci il noyabrın 27-də Avropa Strateji texniki fəaliyyət planını qəbul etdi. Belə ki, plana əsasən Avropa aşağı karbonlu və təmiz enerji yandıran və istilik effekti problemini ön sıraya qoyan texnologiyaları inkişaf etdirməlidir. Avropa Komissiyası tərəfindən təklif olunan bu hərtərəfli plan Avropa üçün inkişaf etdirilmiş resursların daha səmərəli istifadəsini və yeni enerji tədqiqatı gündəliyi yaratmağı qarşıya qoyur.

Avropanın 2008 ci ilin noyabrında “Enerji gələcəyinin təminatı” ilə bağlı qəbul etdiyi enerji siyasəti gündəliyi əsas enerji hədəflərinə çatmaq üçün növbəti böyük addım idi. Bu gündəlik sonrakı illərdə Avropa enerji sistemində davamlı və əhəmiyyətli dəyişiklik olacağını göstərir. Buraya ictimaiyyətin səlahiyyətləri, enerji tənzimləmələri, infrastruktur əməliyyatları enerji sənayesi və bütün vətəndaşların buraya cəllb edilməsi daxildir. Bu baxımdan enerji təhlükəsizliyində yeni bir dönüş yaratmaq üçün Avropa komissiyası geniş bir təkliflər paketi irəli sürmüşdür. Bu təkliflər paketinin əsas məqamlarına bunlar aid idi:

- Daha səmərəli və az karbon effekti olan enerji şəbəkəsini stimullaşdırmaq;

- Dayanıqlı enerji təminatına nail olmaq üçün Enerji Təhlükəsizliyi və Həmrəylik Aksiyası Planı təklifi;

- Üzv dövlətlər arasında enerji həmrəyliyini artırmaq üçün yeni strategiya hazırlamaq;

- Aİ-nin 2020-2050-ci illərdə üzləşəcəyi problemləri həll etmək;

Bu qeyd olunanlara əlavələr də oldu. Belə ki, bu təkliflər 2009-cu ilin iyulunda Avropa Parlamenti tərəfindən yenidən işləndi və təkmilləşdirildi. Buraya daxil olunan məsələlərə qaz təminatında mümkün kəsintilərə qarşı tədbirlər, enerji məsələlərində, xüsusilə bu sahəyə qoyulan investisiyaların istifadəsində şəffaflıq aid idi.

Qeyd etdiyimiz problemlər yuxarda göstərilən təklif planlarının, sənədlərin imzalanmasına gətirib çıxardı. Eyni zamanda, Avropa yeni enerji mənbələri axtarışlarını genişləndirməyə çalışmışdır.

TAP və TANAP layihələri Avropa enerji təhlükəsizlik məsələsində əhəmiyyətli yer tutur.

TANAP layihəsi Xəzər dənizinin Azərbaycan hissəsində yerləşən "Şahdəniz-2" yatağından və dənizin digər sahələrindən əldə edilən təbii qazın Türkiyəyə və öz növbəsində bu ölkədən Avropaya nəqlini nəzərdə tutur. TANAP Cənubi Qafqaz Boru Kəməri (CQBK) və Trans-Adriatik Boru Kəməri (TAP) ilə birlikdə "Cənub Qaz Dəhlizi"nin tərkib hissəsi olan bir layihədir. TANAP Türkiyənin Gürcüstan sərhədində, Ərdəhanın Posof bölgəsindəki Türkgözü kəndindən başlayaraq Qars, Ərzurum, Ərzincan, Bayburt, Gümüşxanə, Girəsun, Sivas, Yozqat, Kırşəhər, Kırıkkale, Ankara, Əskişəhər, Bilecik, Kütahya, Bursa, Balıkesir, Çanaqqala, Təkirdağ və Ədirnə də daxil olmaqla 20 vilayətdən keçərək Yunanıstan sərhədində Ədirnənin İpsala bölgəsində başa çatır.

TANAP layihəsinin Gürcüstan-Türkiyə sərhədindən başlayaraq CQBK sisteminə birləşməsi, Türkiyə ərazisindən keçərək Türkiyə-Yunanıstan sərhədində başa çatması və sonra təbii qazın Avropaya çatdırılması üçün TAP boru kəmərinə birləşməsi planlaşdırılıb.

TANAP və TAP layihəsinin həm iqtisadi, həm siyasi önəmə sahib olduğunu deyə bilərik. İlk olaraq TANAP layihəsi dörd mərhələdən ibarətdir. İlk mərhələ 2018-ci ildə başa çatdı. 2020-ci ildə isə kəmərin buraxılış qabiliyyəti 16 mlrd kubmetrə çatdırıldı. Bundan sonraki illərdə yəni, 2023-cü ildə 23 mlrd., 2026-cı ildə isə 31 mlrd. kubmetrə çatdırılması hədəflənir.TANAP kəməri ilə nəql olunacan 16 mlrd. kubmetr Azərbaycan qazının 10 mlrd. kubmetri Avropaya, 6 mlrd. kubmetri isə Türkiyəyə satılır. Avropa üçün nəzərdə tutulan qaz Türkiyə-Bolqarıstan və ya Türkiyə-Yunanıstan sərhədində təhvil verilir.

TANAP ilə Türkiyə, Avropa İttifaqının Enerji Birliyi Layihəsi kontekstində mühüm rol oynayacaq. Avrpopa İttifaqının fevralın 25-də dərc olunmuş Avropa Enerji Birliyi sənədinə baxsaq, TANAP-ın onun "Cənubi Qaz Dəhlizi" adlandırdığı layihəyə çox ciddi önəm verdiyi görünür. Qarşıdakı dövrdə ilkin olaraq 16 milyard kubmetr qaz nəql edən TANAP 31 milyard kubmetr daşıma qabiliyyətinə çatmaq üçün yeni ehtiyatlar tapmalıdır. Azərbaycan belə bir təchizat təmin edə bilmədiyi halda Türkmənistan, İraq və İsrail kimi ölkələr qaz təchizatında rol oynaya bilər. Qeyd etdiyimiz kimi ilk mərhələdə 16 milyard kubmetr qaz verilməsindən danışılsa da, uzunmüddətli prespektivdə TANAP ilə nəql olunacaq qazın həcminin 31 milyard kubmetrə çatdırılması hədəflənir. Bu gün Rusiya Avropa bazarına təxminən 150 milyard kubmetr qaz verir. Cənub Qaz Dəhlizində TANAP vasitəsi ilə 30-31 milyard kubmetr qaz daşınması halında, Avropa Rusiya tərəfindən tədarük edilən qazın beşdə birini, yəni əhəmiyyətli həcmdə qaz tədarük etmiş olacaq.

Dövlətlərin bir biri ilə olan əlaqələrinin artdığı və daha da yaxınlaşdıqları bir zamanda qarşılıqlı asılılıq vəziyyəti daha çox hiss olunmaqdadır. Bu vəziyyət enerji layihələrində, xüsusilə də TANAP layihəsində özünü göstərir. Belə ki, "Qazan, qazan" prinsipinin hakim olduğu TANAP-ın ortaqlarına önəmli avantajlar verdiyi aşikardır. Bu baxımdan TANAP tamamlandıqdan sonra iştirakçı ölkələrə, region ölkələrinə, Avropa İttifaqı ölkələrinə və hətta dünya ölkələrinə həm iqtisadi, həm barışcıl töhvələr verəcəkdir. Bu töhfələri aşağıdakı kimi sıralamaq mümkündür:

• İlk olaraq region ölkələrindən Azərbaycan, Türkiyə və Gürcüstan ən çox iqtisadi faydanı götürən ölkələr olacaqlar. Çünki layihə ilə Azərbaycan təbii qazı beynəlxalq bazarlara çıxmış olacaq və ölkəyə xarici valyuta axını olacaq.

• TANAP Türkiyəni bir enerji dəhlizi halına gətirəcək və bu hal Türkiyəyə strateji bir avantaj qazandıracaq.

• TANAP Qafqaz ölkələri ilə Avropa İttifaqı

ölkələrini bir birinə həm iqtisadi, həm də siyasi olaraq yaxınlaşdıracaq bir layihədir.

• TANAP həm Türkiyənin, həm də Avropa İttifaqının enerji təhlükəsizliyini qarant altına alacaq.

• Bu layihə sayəsində Ermənistan siyasi və iqtisadi baxımdan problemli olduğu Azərbaycan və Türkiyə ilə yaxşı əlaqələr qurmağa məcbur olacaq.

• Avropanın Qafqaz bölgəsinə siyasi baxışı dəyişəcəkdir. Yəni, Azərbaycan və Gürcüstan istənilən hücuma məruz qalanda Avropa bu vəziyyətə biganə qalmayacaq.

## ƏDƏBİYYAT SİYAHISI


1. https://www.tanap.com/tanap-projesi/tanap-nedir/
2. https://www.sgc.az/az/layihe/tanap
3. https://www.unectf.org/tanap-v%C9%99-onun-beyn%C9%99lxalq-arenada-%C9%99h%C9%99miyy%C9%99ti/
4. https://socar.az/socar/az/news-and-media/news-archives/news-archives/id/11341
5. “Trans Anadolu Gaz Boru Hattı projesinin bölge ekonomisi ve barışı açısından önemi” adlı çalışma
6. İbrahimova H.Günel,(2015). “Avropanın enerji siyasəti”
7. Makale. Öz,Latif Samet Aslan,(2018) “Türkiyə-Azerbaycan arasındaki TANAP projesinin Türkiye’deki stratejik enerji planlamasındaki önemi ve AB ile ilişkilere etkileri..


## XÜLASƏ


Məqalədə Avropa enerji təhlükəsizliyi və TANAP,TAP layihələrinin bu məsələdə yeri araşdırılmışdır. Regionda olan beynəlxalq aktorlar və enerji məsələsində onların təsiri təhlil edilir. Eyni zamanda bu məsələ ilə bağlı Avropanın atdığı addımlar da qeyd edilir. TANAP layihəsinin Avropa enerji təhlükəsizliyi məsələsində rolu, burdan əldə olunan qazanclar və ümumi olaraq layihənin verdiyi töhvələr sadalanır.



**Açar sözlər:** *Avropa, Enerji təhlükəsizliyi, TANAP, enerji layihələri.*


## SUMMARY


The article examines the role of the European energy security and TANAP, TAP projects in this issue. It analyzes the international actors in the region and their impact on the energy issue. It also notes the steps taken by Europe in this regard.The role of TANAP project on the issue of the Europe's energy security, the earnings from here and generally the project's contributions are listed.



**Keywords:** *Europe, Energy Security, TANAP, energy projects.*


## РЕЗЮМЕ


В статье исследуется европейская энергетическая безопасность и роль проектов TANAP,TAP в этом вопросе. Анализируются находящиеся в регионе международные участники и их влияние на проблему энергетики.В то же время отмечаются шаги,предпринятые Европой в связи с этим вопросом.Указывается на роль Европы в вопросах энергетической безопасности проекта TANAP, полученные отсюда доходы,и обобщенно перечисляются преимущества,вытекающие из данного проекта.



**Ключевые слова:** *Европа, энергетическая безопасность, TANAP, энергетические проекты.*

UOT 32:34

# MUZDLULUQ BEYNƏLXALQ VƏ MİLLİ HÜQUQ KONTEKSTİNDƏ

**AYTAC ALLAHVERDİYEVA**
*Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının magistrantı*
*E-mail: aytac.allahverdiyevaa@gmail.com*

**SUQRA ABDULLAYEVA**
*Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının magistrantı*
*E-mail: suqraabdullayeva20@gmail.com*

**Giriş**

Hal-hazırda müasir dövrümüzə nəzər yetirsək görərik ki, dünyanın müxtəlif yerlərində hələ də müharibələr baş verir və bu müharibələrdə ən ağır sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri törədilir. Bu ağır cinayətlərdən biri də muzdluluq cinayətidir. Muzdluluq dərin tarixi köklərə malik olan bir əməl kimi hələ də öz mövcudluğunu qoruyub saxlamış və deyə bilərik ki, daha da təhlükəli xarakter almışdır. Ermənistanın Azərbaycana qarşı baş vermiş təcavüzü və bunanla da başlanan İkinci Qarabağ Müharibəsi zamanı da Ermənistan tərəfindən geniş surətdə muzdlulardan istifadə edilmişdir. Bu hal onu ortaya çıxarır ki, bu cinayətlə mübarizə aparılması müasir dövrümüzdə ölkəmiz üçün də aktual məsələlərdən biridir.

Tədqiqatın məqsədi muzdluluq cinayətinin beynəlxalq-hüquqi və ölkədaxili qanunvericilikdə təsbiti qaydasını müəyyən etmək və onlar arasındakı fərqlərin üzə çıxarılmasıdır. Tədqiqatın vəzifəsi ilk növbədə muzdluluq anlayışının formalaşması tarixinə diqqət etmək, xüsusi hərbi şirkət mənsubları və muzdlu əsgərlər arasındakı fərqin ortaya çıxarılması, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində cinayətin təsbiti xüsusiyyətlərini müəyyən etmək və Ermənistan tərəfindən Azərbaycana qarşı istifadə edilən muzdlulularla əlaqədar məsələlərə diqqət etməkdir.

Araşdırmanın yeniliyi ondan ibarətdir ki, muzdluluq cinayətinin tarixi köklərinə diqqət edilmiş və bəzi beynəlxalq hüquqi sənədlərdəki boşluqlar diqqətə çatdırılmış, muzdlu şəxslər ilə özəl hərbi şirkətlər arasındakı fərqlər müəyyən edilmiş, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində bu cinayətin təsbiti ilə bağlı məqamlara münasibət bildirilmiş və qanunvericiliyin təkmilləşdirilməsi üçün bir sıra təkliflər irəli sürülmüşdür.

**1. Muzdlu anlayışının tarixi formalaşma mərhələsi**

Müharibənin tarixi qədər qədim bir keçmişə sahib olan muzdlu əsgərlər, qazanc məqsədi ilə bir araya gələn və münaqişələr sona çatdıqda ayrılan şəxsləri və ya bu şəxslərin formalaşdırdığı qrupları ifadə edir. Keçmişdə ölkələr hərbi dəstəyə ehtiyac duyduqlarında əvəz qarşılığında muzdlu əsgərlər cəlb edirdilər. Haqq qarşılığında digər ölkələr adına döyüşən şəxslər silahlı qüvvələrin təməlini təşkil edirdilər və onlar döyüşməyi bir iş və qazanc qapısı olaraq görürdülər. [7, s. 977].Milli ordular Napeleonun ordusunu qurmasını təmin edən 23 avqust 1793-cü il tarixli Konvensiyanın qəbul etdiyi "levee en masse" yəni məcburi əsgərlik qanunu ilə ortaya çıxmışdır. Muzdlu anlayışı lap qədim dövrlərdən məlum olan bir anlayışdır. Misir mədəniyyətində, Antik Yunan dövründə, Makedoniyada əcnəbi əsgərlərin pul müqabilində istifadə edildiyi məlumdur. Roma imperatorluğu dövründə də izlərinə rast gəlinən muzdlu əsgərlər, Orta Əsrlər dövründə Avropada pul ilə kirayə edilən cəngavərliyə qədər bir dəyişmə dövrü keçirmişdir. [9, s.253].Orta əsrlərin sonlarında ortalama bir xristian üçün döyüşmək və əsgərlik məqbul olan bir sahə deyildi. Buna görə də, pul üçün vuruşan kasıb təbəqənin formalaşdırdığı muzdluların anlayışına on beşinci əsrdə "condottiere" olaraq rast gəlinir. Təməl olaraq xüsusi bir ordu olan "condottiere", italyanca müqavilə (condotta) kəlməsindən formalaşmış olan bu sistemdə xüsusi ordular İtalyan krallıqlarını qorumuşdular. Muzdlu anlayışı iki ünsürə bağlı olaraq izah edilir. Birincisi muzdlu əsgərlər iştirak etdikləri münaqişəninin tərəflərindən heç biri ilə milli bağı olmayan əcnəbilərdən formalaşır. İkincisi onların məqsədi maddi qazanc əldə etməkdir. Tarixi təcrübələr göstərir ki, Avro-

pada tez-tez istifadə edilməklərinə baxmayaraq muzdluların əsas məqsədi maddi qazanc və güc əldə etmək olduğundan , müharibə əxlaqını heçə sayan və sədaqət duyğularından kənar olduqlarından onlar çox mənfi bir imicə sahibdirlər [8, s. 14]. Yüzillər boyu Avropada muzdlu əsgərlərin istifadə edilməsi adət halını alsa da milli orduların meydana çıxması səbəbi ilə birlikdə bu seçim əhəmiyyətini itirmişdir. Vestfaliya müqaviləsi muzdlu əsgərlərin istifadəsi mövzusunda bir dönüş nöqtəsi olmuşdur. Bu müqavilədən etibarən gücdən istifadə etmək səlahiyyəti sadəcə milli ordulara məxsus olur. Müharibə sahəsində muzdluların yerini milli ordular almış, bunun nəticəsində muzdlu əsgərlərin sayı xeyli azalmışdır ancaq tam aradan qalxmamışdır. Muzdluluqla əlaqədar beynəlxalq hüquqda üç hüquqi tənzimləmə mövcuddur: 1949-cu il tarixli Cenevrə Konvensiyasına Əlavə edilmiş bir nömrəli protokol, Muzdluluğun ləğvinə dair Afrika Birliyi müqaviləsi, Muzdluların cəlb edilməsi, maliyyələşdirilməsi, onlardan istifadə edilməsi və onlara təlim keçirilməsi ilə mübarizə haqqında" Beynəlxalq Konvensiya. Muzdluluq, beynəlxalq silahlı münaqişə kontekstində bir nömrəli protokolun 47(2) maddəsində təsbit edilmiş və ünsürləri müəyyən edilmişdir.

Muzdlular aşağıda müəyyən edilən şərtləri daşıyan şəxslərdir.

a) Yerli və ya xaricdə olan silahlı münaqişədə döyüşmək üçün cəlb edilmiş;

b) Döyüşlərdə bilavasitə iştirak edən;

c) Xüsusilə, şəxsi qazanc əldə etmək məqsədi ilə döyüşlərdə iştirak etmək istəyən, münaqişəyə daxil olan tərəfin silahlı qüvvələrindəkinə bənzər rütbə və vəzifələr üçün nəzərdə tutulduğundan daha artıq ödəniləcəyi öhdəsinə götürülən, ya da ödənilən miqdarın üzrərinə maddi təzminat alacağı vəd edilən;

d) Münaqişə tərəflərindən birinin vətəndaşı olmayan, münaqişə tərəflərinin ərazisində yaşamayan;

e) Münaqişə tərəfinin silahlı qüvvələrinə mənsub olmayan;

f) Münaqişənin tərəfi olmayan bir dövlət tərəfindən, bu dövlətin silahlı qüvvələrinin bir mənsubu olaraq rəsmi vəzifəyə göndərilməmiş şəxslər. [4,m.47]

Muzdluların kombatant statusunun olmadığı və tutulduqları təqdirdə hərbi əsir kimi qəbul edilməyəcəkləri ifadə edilmişdir. Bu konvensiya muzdluluqla bağlı müddəaları təsbit edən ilk konvensiya olmağına rəğmən bu konvensiyanın tam olduğunu demək olmaz. Konvensiyanın əsas çatışmazlığı isə muzdluluğu qadağan etmədiyi kimi, bu cür fəaliyyətləri cəzalandırma yönündə hər hansı bir hökmə də yer verməməsidir. Həmçinin muzdlu əsgərlərin istifadəsi və ya maliyyələşdirilməsinin də qadağan edilməsinə yer verməmişdir, muzdluluq bir cinayət kimi ortalığa qoyulmamışdır. Afika xalqlarının self determinasyon haqlarının istifadəsinə mane olmaq, Afrika dövlətlərinin ərazi bütövlüyünə və ya azadlıqlarına zərər vermək məqsədi ilə muzdlu əsgərlərin cəlb edilməsi, təşkilatlanması, onlara təlim keçilməsi və ehtiyaclarının təmin edilməsini qadağan edən Afrika Müqaviləsi qaydanın pozulduğu təqdirdə əlaqədar şəxslərin və dövlətlərin məsuliyyətinin yaranacağını müəyyən edir. [6]

"Muzdluların cəlb edilməsi, maliyyələşdirilməsi, onlardan istifadə edilməsi və onlara təlim keçirilməsi ilə mübarizə haqqında" Beynəlxalq Konvensiyaya görə muzdlu əsgər:

a) Xüsusi olaraq silahlı münaqişədə döyüşmək üçün daxildən və ya xaricdən cəlb edilən;

b) Şəxsi qazanc məqsədi ilə düşmənçilik hərəkətlərində yer almaq üçün hərəkətə keçirilmiş və ya münaqişədə yanında yer aldığı və adına hərəkət etdiyi tərəfin silahlı qüvvələrindəkinə bənzər rütbə və vəzifələrdə xidmət edən əsgərlərə ödənməsi vəd edilən və ya ödənən miqdardan daha çox maddi ödəniş ediləcəyi vəd edilən;

c) Münaqişənin tərəfi bir dövlətin vətəndaşı olmadığı kimi münaqişənin tərəfi olan dövlət tərəfindən nəzarət edilən bölgədə yaşamayan;

d) Münaqişə tərəfi olan dövlətin silahlı qüvvələrinə mənsub olmayan;

e) Münaqişə tərəfi olmayan bir dövlətin silahlı qüvvələrinin mənsubu olaraq rəsmi vəzifələrin icrası üçün münaqişəyə göndərilməyən şəxsdir.

Digər hər hansı vəziyyətdə muzdlu əsgər eyni zamanda:

a) Daxildən və ya xaricdən aşağıdakı məqsədlərlə planlaşdırılmış zorakılıq aktlarına qatılmaq üçün cəlb edilən şəxslərdir;

Bir hökumətin devirmək və ya bir dövlətin konstitusiya quruluşunu yıxmaq;

Bir dövlətin ərazi bütövlüyünə zərər vermək;

b) Diqqətə dəyər bir şəxsi qazanc arzusu ilə münaqişəyə qatılmaq üçün hərəkətə keçirilmiş

və ya maddi təzminat vədi və ödəməsi ilə təşviq edilmiş;

c) Təcavüz hərəkətlərinin yönəldildiyi dövlətin vətəndaşı və ya sakini olmayan;

d) Bir dövlət tərəfindən rəsmi vəzifə ilə göndərilməyən

e) Şiddət hərəkətinin həyata keçirildiyi dövlətin silahlı qüvvələrinin mənsubu olmayan bir şəxsdir. [5,m.1]

Bu müqavilə Afrika müqaviləsindən fərqli olaraq hansı məqsədlə əlaqədar olmasından asılı olmayaraq muzdluluq sayılan bütün hərəkətləri qadağan etmişdir.

**2. Muzdlu əsgərlər və xüsusi hərbi şirkətlər arasındakı mövcud olan fərqlər**

Müasir dövrümüzdə fəaliyyət sahəsi münaqişə və müharibə səhnəsi olan yeni bir sektor meydana gəlmişdir. Xüsusi hərbi şirkətlərin meydana gəlməsinin müəyyən səbəbləri məlumdur. Soyuq müharibədən sonra iqtisadiyyatın gətirdiyi özəlləşdirmə dalğası, orduların kiçilməsi ilə meydana gələn həbi iş qüvvəsinin işə olan ehtiyacı və s. Yeni sektorun iş gücünə tələb ilk öncə Afrikadan sonra isə Qərb dövlətlərindən gəlmişdir. Təməl bacarığı döyüşmək olan və cəbhədə ön xətlərdə döyüşçülərlə bərabər və ya döyüşçü ünsürlər kimi hərəkət edən xüsusi hərbi sektorun təmsilçilərinə hərbi şirkət deyilir. Hərbi şirkətlərin Afrikada təşkilatlana bilməmiş dövlətlərlə Amerika Birləşmiş Ştatları tərəfindən Kolumbiya, Əfqanıstan və İraqda istifadə edildiyi müşahidə edilir. Bu tip şirkətlər konvoyların qorunması, dövlətin vəzifəli şəxslərinin qorunması, strateji təsisat və bölgələrin azad edilməsi kimi vəzifələr yerinə yetirə bilərlər. [11,p.1-4]

Xüsusi Hərbi Şirkətlər məsələsinin BMT gündəminə daşınması və statuslarının beynəlxalq hüquqla əlaqəsini təhlil edə bilmək məqsədi ilə bu nəticəyə gətirən səbəblərin təhlil edilməsi məqsədəmüvafiq olacaqdır. Bu məsələdə Executive Outcomes şirkəti mühüm bir örnək təşkil edir. İngilis şirkəti olaraq rəsmi qeydlərə əsasən 1990-cı ildə qurulmuşdur. Şirkətin ilk öhdəsinə götürdüyü vəzifə Anqoladakı daxili müharibəni sona çatdırmaq olmuşdur və bu vəzifəni şirkət qısa bir müddətdə yerinə yetirmişdir. İkinci vəzifə isə Sierra Leona ilə ölkədəki daxili müharibəni sona çatdırmaq və daha sabit bir vəziyyət formalaşdırmaq məsələsində müqavilə imzalanmışdır. Qısa bir müddət içərisində bu vəzifəni uğurla tamamlayan EO münaqişəni sona çatdırmış və ölkədə daha sabit bir siyasi vəziyyətin ortaya çıxmasını təmin etmişdir. Bu səbəblə Sierra Leona dövləti 1997-ci ildə vəzifəsini tamamladığı üçün müqaviləni ləğv etmişdir. Əsas problemlər də müqavilələrin ləğvindən sonra başlamış və əvvəlkindən daha təhlükəli olan bir xaos yaranmışdır. Şirkətin ölkəni tərk etməsi ilə birlikdə dövlətin hökuməti müxalif güclərin zərbəsi ilə vəzifədən uzaqlaşdırılmışdı. Yaşanan bu təcrübə Xüsusi Hərbi Şirkətlərin etibarlılığı məsələsində vacib bir şübhə oyandırmışdır. Onların uzun müddətli təhlükəsizlik məsələsinin həlli və sabitliyin yaradılmasında işə yaramadıqları ortaya çıxmışdır. Bundan savayı xüsusi hərbi şirkətlərin ölkələrdəki münaqişələrdə tətbiq etdikləri üsullar sərt tənqidlərə məruz qalmışdır. Bu münaqişələr sırasında döyüşlərin kütləvi ölümlərə səbəb olduğu, işgəncə və bənzəri tətbiqlər nəticəsində insan hüquqlarını pozması məsələsində iddialar ortaya çıxmışdır, buna görə də xüsusi hərbi şirkətlərin statusu BMT gündəminə çıxarılmışdır. Çıxarılan qərarlar nəticəsində hüquqdan kənar tətbiqlərdən ortaya çıxan zərərlərin qarşısının alınması üçün bəzi məhdudiyyətlər müəyyən edilmişdir. Buna görə də Xüsusi Hərbi Şirkətlərin yalnızca dövlətlər və onların rəsmi hökumətləri ilə müharibədən xarici vəzifələrdə istifadə edilmək üzrə təşviq edilməsi(encourge), dövlət xarici olan birləşmələrlə əməkdaşlıq etməkdən çəkinməkləri (discourge) lazım olduğu ortaya qoyulmuşdur. BMT Şirkətləri "heç bir dövlətin öz silahlı qüvvələrini göndərməyə istəkli olmadığı yer və şərtlərdə sülhü qorumaq vəzifələri öhdələrinə götürmələri və münaqişələrin böldüyü bölgələrdə humanitar yardım göstərən qurupların qorunması məsələsində onları dəstəkləyir" ifadəsi ilə arzu edilən münaqişə şərtləri ortaya qoyulmuşdur.

Green paper İngiltərə İcmalar Palatasının xüsusi hərbi şirkətlərin qanuni nizamlanmasına zəmin formalaşdırmaq məqsədi ilə hazırlatdığı və hüquqi variantların təqdim edildiyi bir sənəddir. Sənədə görə dünyadakı hərbi xidmət sektorunun təsnifatı verilmişdir: muzdlu əsgərlər, könüllülər, əcnəbi ordulara cəlb edilənlər (gurkalar), müdafiə sənayesi şirkətləri, xüsusi hərbi şirkətlər (məsləhət, təlim, daşıma, insan resursları, mina təmizləmə) və xüsusi təhlükəsizlik şirkətləri şəklindədir. [12]

Müasir dövrümüzdə muzdlu əsgərlərin hüquqi vəziyyəti mübahisəlidir. Bəzi məqamlarda onların statusu ilə muzdlu əsgərlərin statusu müəyyən qarşışıqlıqlara səbəb olur. Lakin onları bir-birindən fərqləndirən təməl ünsürlər vardır. Xüsusi hərbi şirkətlər ticari bir xarakter daşıyan firmadır. Davamlılıqları vardır və iyerarxik quruluşa malikdir. Beynəlxalq ticarət alətlərindən istifadə edirlər və legitimliyi beynəlxalq ictimaiyyət tərəfindən tanınan hökumətlərlə çalışırlar. [12,s.307]

**3.Muzdluluq milli hüquq kontekstində**

Muzdluluq cinayətinin ictimai təhlükəliliyi hərbi münaqişələrdə və hərbi əməliyyatlarda iştira etməsi müqabilində maddi mükafat əldə etməyi özünə peşə seçən qeyri-müəyyən sayda insanların meydana çıxması, həmin şəxslərin iştirakı nəticəsində hərbi münaqişədə olan hərbi qüvvələrdən, o cümlədən dinc əhalidən xeyli adamın məhv edilməsi ilə xarakterizə edilir.[2,s.385]

Cinayət Məcəlləsinə “Muzdluların cəlb edilməsi, maliyyələşdirilməsi, onlardan istifadə edilməsi və onlara təlim keçilməsi ilə mübarizə” haqqında 4 dekabr 1989-cu il tarixli Konvensiyanın Azərbaycan Respublikası Milli Məclisi tərəfindən ratifikasiya edilməsi nəticəsində müstəqil 114-cü maddə kimi daxil edilmişdir. Muzdluluğun müharibə cinayətləri qurupuna aid edilməsi onunla şərtləşir ki, burada müharibə qanunlarının və adətlərinin pozulmasından söhbət gedir. Cinayət Məcəlləsinin 114-cü maddəsi ilə məsuliyyət iki şərtin olduğu zaman meydana gəlir. Onlardan biri güman edilir və qanunda birbaşa nəzərdə tutulmur: muzdluluğun cinayət-hüquqi qadağası BMT-nin yuxarıda adı çəkilən konvensiyası çərçivəsində həyata keçirilir. Digər şərt isə qanun tərəfindən verilən muzdlu anlayışından istifadədir.[3, s.66]

Cinayət Məcəlləsinin 114-cü maddəsinə əlavə edilən qeydə uyğun olaraq aşağıdakı şəxslər muzdlu hesab edilir.

Hərbi münaqişədə və hərbi əməliyyatda iştirak edən dövlətin vətəndaşı olmayan, onun ərazisində daimi yaşamayan, habelə rəsmi vəzifələrin yerinə yetirilməsi üçün göndərilməyən şəxslər, maddi mükafat əldə etmək üçün fəailyyət göstərən şəxslər [1, m.114]

Azərbaycan tarixin müxtəlif mərhələlərində Ermənistanın təcavüzkar müharibəsinə məruz qalmış və ona qarşı sülh və insanlıq əleyhinə cinayətlərin , müharibə cinayətlərinin ən ağırları törədilmişdir. Muzdluluq cinayəti də bu cinayətlərdən biri olmaqla həm Birinci Qarabağ Müharibəsi, həm də İkinci Qarabağ Müharibəsi dövründə ermənilər tərəfindən muzdlulardan təşkil olunmuş qruplaşmalardan Azərbaycana qarşı istifadə edilmişdir. 1992-ci ildə Ballıca kəndini öz gözləri ilə görməyə gələn general-mayor Aleksandr Çindarov MDB üzrə Ümumi Qoşun qüvvələri komandanı marşal Şapoşinkova ünvanladığı məktubda qeyd edirdi ki, Dağlıq Qarabağ ərazisində, Xocalı sahəsində ermənilərlə birgə Ərəb ölkələrindən gəlmiş muzdlu əsgərlər də iştirak ediblər və o, öldürülmüş adamlar arasında ərəb mənşəli terrorçuların cəsədlərinə rast gəlib. O qeyd edir ki, bunlar ermənilər tərəfindən azərbaycanlılara qarşı vuruşan adamlar idi. İkinci Qarbağ müharibəsində düşmənin itkiləri arasında Suriya və Yaxın Şərqin müxtəlif ölkələrindən olan çoxlu sayda muzdlu döyüşçülər də var idi. Hələ 27 sentyabr 2020-ci il tarixində baş tutan Ermənistanın növbəti təcavüzündən əvvəl türk mənbələri İraq və Suriyadan bir çox YPG və PKK üzvünün Azərbaycana qarşı döyüşmək üçün muzdlulara təlim keçmək üçün Dağlıq Qarabağa köçürüldüyünü xəbər vermişdir [13]. Bu faktlar Ermənistanın beynəlxalq hüquqla qadağan edilmiş, yüksək ictimai təhlükəliliyə malik cinayət törətməsindən xəbər verir. BMT Baş Assambleyasının “Dövlətlər arasında dostluq münasibətlərinə və əməkdaşlığa aid beynəlxalq hüquq prinsipləri haqqında 1970-ci il tarixli Bəyannaməsində” BMT üzv dövlətlərinə muzdluların hərəkətlərinin dəstəklənməsini qəti şəkildə qadağan etmişdir. Hətta Ermənistanın Cinayət Məcəlləsinin 395-ci maddəsində də anoloji əməllər cinayət hesab edilir. Buna baxmayaraq, Ermənistan həm birinci həm də İkinci Qarabağ müharibəsində muzdlulardan istifadə etməklə beynəlxalq hüquq normalarını pozmuşdur.

## ƏDƏBİYYAT SİYAHISI

*1. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi, Bakı, 2021*

*2. Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin Kommentariyası, I Hissə, 1-189 –cu maddələrin şərhi, “Hüquq Yayın Evi”, Bakı, 2018.*

*3. İ.B. Ağayev. Cinayət hüququ. Xüsusi hissə. Dərslik.Bakı, Nurlar Nəşriyyat-Poligrafiya Mərkəzi,2018, 488 s.*

4. *Cenevrə Konvensiyasına Əlavə edilmiş bir nömrəli protokol, 1977.( Protocols additional to the Geneva Conventions of 12 august 1949) https://www.icrc.org/en/doc/assets/files/other/icrc_002_0321*

5. *Muzdluların cəlb edilməsi, maliyyələşdirilməsi, onlardan istifadə edilməsi və onlara təlim keçirilməsi ilə mübarizə haqqında" Beynəlxalq Konvensiya, (International Convention against the Recruitment, Use, Financing and Training ofMercenaries) https://www.ohchr.org/EN/ProfessionalInterest/Pages/Mercenaries.aspx*

6. *Muzdluluğun ləğvinə dair Afrika Birliyi müqaviləsi(Convention of the OAU for the Elimination of Mercenarism )http://www.icrc.org/ihl.nsf/FULL/485*

7. *Ahmet Hamdi Topal, Uluslararası hukuk açısından özel askeri şirketler və şirket çalışanlarının statüsü, AUHFD, 60 (4) 2011: 963-1021*

8. *Ahmet Keser, Özel Askeri Şirketlerin Küresel yayılımı ve geleceği , Seta yayınları 154. I baskı, 2020, İstanbul*

9. *Dr. Haldun Yalçınkaya, Özel askeri sektörün oluşumu ve savaşların özelleşmesi, Ankara Üniversitesi SBF Dergisi. 61-3*

10. *BRAYTON, Steven (2002), "Outsourcing War: Mercenaries and the Privatization of Peacekeeping," Journalaf International Affairs (Ilkbahar, Cilt.55, Sayı 2): 304-324*

11. *SINGER, Peter W (2003), Corporate Warriors: The Rise of the Privatized Industry (USA: Cornell University Press)*

12. *THE HOUSE OF COMMONS (ordered by) (2002), "Green Paper" Private Military Companies: Options for Regulation (February). London: The Stationery Office*

13. *Vətən müharibəsi və ya "Dəmir Yumruq" əməliyyatı https://www.virtualkarabakh.az/az/post-item/52/2871/ikinci-qarabag-muharibesi.html*

## РЕЗЮМЕ

### Преступление наемничества в контексте международного и национального права

Преступление наемничества является одним из самых тяжких военных преступлений, запрещенных международным и национальным законодательством. Тот факт, что в мире до сих пор существуют очаги войны и политические беспорядки в некоторых странах, является одной из причин развития этого преступления. В наше время развитие науки и технологий, нововведений и разработок в военной области еще больше увеличило социальную опасность этого преступления. Как правило, преобладание несоблюдения обычаев и законов войны среди наемников увеличивает количество жертв, как среди военных, так и среди гражданского населения. Эти дела также указывают на социальную опасность преступления и требуют применения международно-правовых санкций и борьбы с преступностью.

**Ключевые слова:** *Наемники, национальное право, международное право, война, международное преступление.*

## SUMMARY

### The crime of mercenary in the context of international and national law

The crime of mercenary is one of the gravest war crimes, prohibited by international and national law. The fact that there are still hotbeds of war in the world and political turmoil in some countries is one of the reasons for the development of this crime. In modern times, the development of science and technology, innovations and developments in the military field have further increased the social danger of this crime. As a rule, the prevalence of non-compliance with the customs and laws of war among mercenaries increases the number of casualties, both among the military and the civilian population. These cases also indicate the social danger of the crime and necessitate the application of international legal sanctions and fight againist crime.

**Key words:** *Mercenaries, national law, international law, war, international crime.*

UOT32

# ГОСУДАРСТВЕННАЯ ИННОВАЦИОННАЯ ПОЛИТИКА КАК СТРАТЕГИЧЕСКИЙ ФАКТОР ИННОВАЦИОННОЙ МОДЕРНИЗАЦИИ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

**САМИР СУЛТАНОВ**
*Магистрант Академии Государственного Управления при Президенте Азербайджанской Республики*

*E-mail: samirsultanov665@gmail.com*

Обеспечение инновационного развития – один из актуальных вопросов стоящих перед государством в XXI веке. Инновации являются основной движущей силой в развитии страны в современном мире, поэтому становление инновационной политики – это основа для дальнейшего развития государства.

Впервые термин «инновация» был введен в научный оборот в тридцатых годах XX века австрийским (позже американским) ученым Йозефом Алоизом Шумпетером, считавшим инновации ключевым фактором развития экономики. Вслед за этим понятия, имеющие отношения к инновациям и инновационной деятельности, постепенно вошли в повседневный оборот. Й. Шумпетер подразумевал под инновациями изменения, проводимые с целью внедрения и использования новых видов потребительских товаров, новых производств, транспортных средств, рынков и форм организации в промышленности [7].

В настоящее время применительно к технологическим инновациям действуют понятия, установленные в Международных стандартах в статистике науки, техники и инноваций. В соответствии с этими стандартами инновация – конечный результат инновационной деятельности, получивший воплощение в виде нового или усовершенствованного продукта, внедренного на рынке, нового или усовершенствованного технологического процесса, используемого в практической деятельности, либо в новом подходе к социальным услугам [6].

Инновации играют все более важную роль в экономике. Они способствуют созданию лучших рабочих мест, построению более экологичного общества и повышению качества нашей жизни, а также для поддержания конкурентоспособности страны на мировом рынке.

Инновационная политика является связующим звеном между политикой исследований и технологического развития и промышленной политикой и направлена на создание благоприятных условий для вывода идей на рынок.

Государственная инновационная политика – это составная часть социально-экономической политики, направленная на развитие и стимулирование инновационной деятельности, под которой понимается создание новой или усовершенствованной продукции, нового или усовершенствованного технологического процесса, реализуемых в экономическом обороте с использованием научных исследований, разработок, опытно-конструкторских работ либо иных научно-технических достижений [8].

В связи с глобальными вызовами для ускорения социально-экономического развития страны мира все больше уделяют внимание проведению инновационной политики и её совершенствованию. Однако для инновации экономики, обновления существующих механизмов, формирования высокотехнологичных секторов экономики требуются масштабные и устойчивые инвестиции. Таким образом, обеспечение устойчивого развития экономики в значительной степени зависит от инвестиционной политики государства.

Посредством инвестиционной политики государство использует финансовый и денежный механизм, чтобы влиять на рост и долю общественного производства. Если инвестиционная политика носит инновационный характер, она называется инвестиционно-инновационной политикой [3].

В свою очередь инвестиционно-инновационная политика должна быть направлена на устойчивый экономический

рост в стране, созданию новых рабочих мест, введению новых технологий в промышленности и сельском хозяйстве, таким образом, способствовать модернизации политики и экономики страны.

Инновационная модернизация является не только государственным приоритетом, но также и необходимостью в современном мире. Государственная инновационная политика как фактор инновационной модернизации должна иметь продуманный и взвешенный характер, а также иметь долгосрочную перспективу. При этом инновационный путь должен стать не просто тактическим маневром, а стратегическим выбором правящей элиты, бизнеса и общества [10].

Важным условием при становлении инновационной политики является, во-первых, чтобы она была направлена на реализацию интересов всех субъектов, а не отдельных групп, во-вторых, чтобы учитывала специфику того общества, в котором будет проводиться.

Государственное воздействие на инновационный процесс и регулирование инноваций является главным фактором устойчивого развития и необходимым фактором обеспечения национальной безопасности государства.

Итак, основная цель государственной инновационной политики – это научно-технологическое развитие, которое должно способствовать развитию экономики страны, решению социальных задач, укреплению безопасности страны.

Важный фактор в развитии практической реализации инновационной политики – это создание инфраструктуры инноваций в стране: инновационных центров, технологических парков и инкубаторов малых фирм и других структур, которые должны поддерживать наукоемкие отрасли.

Страны с развитой инновационной деятельностью сегодня в мировой экономике получают конкурентное превосходство в сравнении со странами, в которых инновационная деятельность слабо развита. Итак, интеллектуальные продукты, товары и услуги стран с развитой инновационной деятельностью пользуются повышенным спросом со стороны тех, в которых инновационная деятельность развита слабо. Научно выверенная и целенаправленная инновационная политика государства во многом определяет благосостояние всего общества и могущество страны.

В современном Азербайджане уделяется особенное внимание развитию инновационной деятельности. Разрабатывая инновационную политику, современное политическое руководство должно учитывать весь комплекс внутренних и внешних факторов развития, что позволяет выбирать тот или иной тин стратегии и тактики инновационного управления «Стратегические «вызовы инновационности» вначале осознаются руководством страны, политической и деловой элитой. Восприятие массовым сознанием инновационности носит тактический характер и получает развитие по мере адаптации к проводимым государством реформам» [5].

Прединновационная стадия охватывала в Азербайджане решение комплекса сложнейших задач: «установление политической стабильности внутри страны, коренные институциональные преобразования, целенаправленные политические меры по формированию рыночной экономической системы и социальной поддержке населения» [1]. Политическая позиция страны строится на том, что в инновационном прорыве Азербайджана должен максимально рассчитывать на собственные ресурсы.

Согласно статье 2 Закона Азербайджанской Республики «Об инвестиционной деятельности» инновационная деятельность может осуществляться как форма инвестиционной деятельности с целью применения достижений научно-технического прогресса в производственной и социальной сфере. Инновационная деятельность включает:

- реализация долгосрочных научно-технических программ;
- финансирование фундаментальных исследований по качественному изменению состояния производительных сил с целью улучшения структуры экономики;
- разработка, выпуск, распространение и внедрение принципиально новых, экономичных

видов оборудования и технологий [2].

Сегодня в Азербайджане ведется активная работа по созданию инновационной системы. Это будет стимулировать интенсивное развитие страны и приведет к развитию инноваций. Основные усилия в этой области сосредоточены на развитии элементов Национальной инновационной системы (НИС), увеличении производственных площадей, инновационном развитии регионов и повышении спроса на инновации.

Национальную инновационную систему можно определить как совокупность взаимодействующих в пределах национальных границ институтов, занятых созданием и коммерциализацией знаний и технологий, и институтов правовой, финансовой и социальной направленности, обеспечивающих инновационные процессы [9].

Для Азербайджана становится актуальным вопрос развития не нефтяного сектора. Развитие не нефтяного сектора должно способствовать устойчивому развитию экономики, снижению ее зависимости от нефтяного сектора. Для развития не нефтяного сектора необходимо создание альтернативных источников развития экономики, сделать страну привлекательной для иностранных инвесторов в связи с этим создание инновационных структур, развитие информационных технологий и обеспечение их дальнейшей деятельности является основной задачей. К инновационным структурам можно отнести инновационные центры, технологические комплексы, технопарки и т. д.

Одним из основных вопросов реформирования экономики Азербайджана является повышение инновационной активности предприятий, организаций, фирм и компаний. Отличительной особенностью развития инноваций на данном этапе является быстрый переход к более совершенным технологическим процессам и гибкому производству, что позволяет выпускать новые конкурентоспособные продукты, соответствующие мировым стандартам.

Для решения ключевых вопросов устойчивого экономического роста необходимо объединить ресурсы и возможности страны. Это возможно в случае укрепления связей между фундаментальной и прикладной науками, с одной стороны, и производством инновационных продуктов и завоеванием рынка, с другой. Приоритетными направлениями развития инновационной системы страны являются создание механизма развития рынков интеллектуальной и промышленной собственности.

Формирование и реализация инновационной политики предусматривает повышение научно-технического потенциала республики, направление результатов научных исследований и разработок в реальный сектор экономики, а также создание системы предотвращения замедления экономического роста. Для решения таких вопросов был принят ряд важных крупномасштабных программных документов (концепций, стратегий и программ): «Государственная программа помощи малым и средним предприятиям в Азербайджанской Республике (1997-2000 годы)»; «Концепция демографического развития Азербайджанской Республики»; «Государственная программа развития малого и среднего предпринимательства в Азербайджанской Республике (2002-2005 годы)»; «Государственная программа по сокращению бедности и устойчивому развитию в Азербайджанской Республике на 2008-2015 годы»; «Государственная программа развития туризма в Азербайджанской Республике на 2010-2014 годы»; «Государственная программа развития виноградарства в Азербайджанской Республике на 2012-2020 годы»; «Государственная программа социально-экономического развития регионов Азербайджанской Республики на 2014-2018 годы»; «Государственная программа развития сельскохозяйственного сотрудничества в Азербайджанской Республике на 2017-2022 годы»; «Стратегия занятости Азербайджанской Республики (2006-2015)» и другие.

Важным стратегическим ресурсом Азербайджана в реализации инновационного государственного управления выступает прочный консенсус государственной власти, бизнеса и общества по поводу постепенного свертывания преимущественно сырьевого курса страны в пользу развития ненефтяного сектора. Главная задача инновационного

государственного управления Азербайджана на современном этапе - добиться опережающего развития ненефтяного сектора, повысить эффективность и конкурентоспособность экономики, обеспечить ее прогресс на инновационной основе.

В экономической стратегии Азербайджана формирование человеческого капитала обозначено как приоритетная цель, современные знания и нанотехнологии как инструменты развития инноваций, научный анализ и обоснование стратегии оцениваются как обеспечение устойчивости и эффективности имеющихся успехов.

Технопарки - один из основных инструментов формирования инновационной экономики. Технопарк - это экспертно управляемая организация, направленная на стимулирование инновационной культуры и повышение конкурентоспособности инновационного бизнеса и научных организаций. Эта организация упрощает создание и рост инновационных компаний за счет инкубаторных процессов и способности существующих компаний отделять их от других [4].

Опыт зарубежных стран по созданию индустриальных и технопарков показывает, что в условиях ускорения глобализации мировой экономики и усиления конкуренции за доступ к рынкам государственная поддержка предприятий, работающих в этой сфере, является одним из позитивных факторов, обеспечивающих устойчивое экономическое развитие.

Принимая во внимание международный опыт положительной роли индустриальных и технологических парков в экономическом развитии, развитие этого сектора в Азербайджане стало одной из составляющих успешной экономической политики, проводимой государством. Одно из направлений Концепции развития «Азербайджан 2020: взгляд в будущее», утвержденной указом Президента Азербайджанской Республики Ильхамом Алиевым, предусматривает развитие инновационного предпринимательства, создание технопарков и инновационных зон для развития и применения наукоемких продуктов и технологий.

Несомненно, что в развитии инновационных процессов огромную роль призвано решать государство. Это связано с тем, что применение инноваций является дорогостоящим и рискованным процессом, в связи с чем требует поддержки со сторон государства. А также внедрение инноваций выгодно государству, так как дает обществу значительный экономический эффект [7].

Согласно Концепции развития «Азербайджан – 2020: взгляд в будущее» основные факторы современного этапа заключаются в том, что в условиях глобализации происходят изменения в экономических и хозяйственных процессах, активизируется инновационная деятельность, что в свою очередь создает новую реальность. В таком случае, все больше стран сможет приобщиться к достижениям в области инноваций, передовым техническим стандартам и новым методам управления.

Предполагается, что будут установлены новые стандарты международной торговли, конкуренции, интеллектуальной собственности и окружающей среды, и роль международных организаций в этом направлении усилится.

В связи с этим основная задача, стоящая перед Азербайджаном – это не допустить отставания в процессе развития стран мира. Для этого требуется формирование экономической модели, которая ведет к коренному изменению системы образования, повышению значения таких компонентов образования, как дополнительное и пожизненное образование, а также предусматривает повышение роли ИКТ - и виртуального обучения, знаний в области компьютерных сетей в расширяющемся с каждым днем масштабе. В то же время повысится значение интеллектуальной собственности, основная миссия которой заключается в поддержке стимулирования творчества и инноваций, регулирования рынка.

Таким образом, исходя из того что инновации, оказывают все большее влияние на процессы, протекающие в современном мире, сформирование государственной инновационной политики является одним из основных составляющих в системе национальных приоритетов Азербайджанской Республики. Основной целью которой является обеспечение

экономического роста, эффективного государственного управления, социального благосостояния и т.д.

**Ключевые слова:** *инновации, модернизация, Азербайджан, инновационная политика.*

## СПИСОК ЛИТЕРАТУРЫ

*1. «Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası Konsepsiyası - Bakı şəhəri, 29 dekabr 2012-ci il № 800*

*2. İnvestisiya fəaliyyəti haqqında Azərbaycan Respublikasinin Qanunu - Bakı şəhəri, 13 yanvar 1995-ci il*

*3. Əzizova G.A. Dövlətin investisiya-innovasiya siyasəti/Dərs vəsaiti. Bakı: "İqtisad Universiteti" Nəşriyyatı 2012. - 212 səh.*

*4. Musayev A. İnnovasiya iqtisadiyyatı və vergi stimullaşdırması. Bakı. "Azərbaycan Universiteti" nəşriyyatı, 2014. -184 s.*

*5. Dodgson, Mark & Hughes, Alan & Foster, John & Metcalfe, Stan, Systems thinking, market failure, and the development of innovation policy: The case of Australia," Research Policy, Elsevier, vol. 40(9), 2011. pages 1145-1156.*

*6. Агарков С. А., Кузнецова Е. С., Грязнова М. О. Инновационный менеджмент и государственная инновационная политика - Учебное пособие. - Издательство "Академия Естествознания", 2011*

*7. Васильев С.В. Правовые средства налогового стимулирования инновационной деятельности. Москва, 2008. 120стр.*

*8. Гончаренко Л.Р., Арутюнов Ю.А. Инновационная политика: учебник – М: КНОРУС, 2009. – 352с*

*9. Петровский А.Б., С.В. Проничкин, М.Ю. Стернин, Г.И. Шепелёв/Национальные инновационные системы: структуры, цели, функции, пути развития/ Серия Экономика. Информатика. 2018. Том 45, № 1*

*10. Селезнев С.А. Инновационная политика современного государства: стратегия, модели, практики. Докт. диссерт. по полит.наукам. М. - ФГОБУ ВПО.2014.- 448с*

## XÜLASƏ

Müasir dünyada innovasiyalar və innovativ modernləşmə ölkənin uğurlu inkişafının amilləri kimi çıxış edir. İqtisadiyyatda innovasiya getdikcə daha mühüm rol oynayır. Onlar daha yaxşı iş yerləri yaratmağa, daha yaxşı cəmiyyət qurmağa və həyat keyfiyyətimizi yaxşılaşdırmağa, ölkəni qlobal bazarda rəqabətədavamlı saxlamağa kömək edir. İnnovativ inkişafı təşviq etmək üçün innovativ fəaliyyətin inkişafına və stimullaşdırılmasına yönəldilmiş dövlət innovasiya siyasəti həyata keçirilir ki, bu da yeni və ya təkmilləşdirilmiş məhsulların yaradılmasını, yeni və ya təkmil texnoloji prosesin yaradılmasını nəzərdə tutur, elmi əsaslardan istifadə etməklə təsərrüfat dövriyyəsində həyata keçirilir. Müasir Azərbaycanda innovativ fəaliyyətin inkişafına xüsusi diqqət yetirilir, innovasiya sisteminin yaradılması istiqamətində fəal iş aparılır. Bu sahədə əsas səylər Milli İnnovasiya Sisteminin (MİS) elementlərinin inkişafına, istehsal sahələrinin artırılmasına, regionların innovativ inkişafına və innovasiyalara tələbatın artırılmasına yönəlib.

**Açar sözlər:** *innovasiya, modernləşmə, Azərbaycan, innovasiya siyasəti.*

## SUMMARY

In the modern world, innovations and innovative modernization are the factors of successful development of the country. Innovation is playing an increasingly important role in the economy. They help create better jobs, build a greener society and improve our quality of life, and keep the country competitive in the global market. To promote innovative development, the state innovation policy is implemented aimed at the development and stimulation of innovative activity, which involves the creation of new or improved products, the creation of new or improved technological processes, implemented in the economy using scientific principles. Special attention is paid to the development of innovative activities in modern Azerbaijan, active work is being done to create an innovation system. The main efforts in this area are aimed at developing elements of the National Innovation System (NIS), increasing production areas, innovative development of regions and increasing demand for innovations.

**Key words:** *innovation, modernization, Azerbaijan, innovation policy.*

# İqtisadiyyat

UOT 33
2:[001+62]

# DİN VƏ İQTİSADİYYAT: NORMATİVLİYİN RASİONAL SƏRHƏDLƏRİ

**ƏVƏZ BAYRAMOV**
*İqtisad elmləri doktoru, professor,*
*Azərbaycan Dövlət İqtisad Universiteti*

*E-mail: avazbayramov61@gmail.com*

## GİRİŞ

Ümumbəşəri miqyasda "yeganə" sivilizasiyanın formalaşacağına, qlobal kontekstdə müxtəlifliklərin "eyniyyətə" gələcəyinə, dünyanın "vahidləşəcəyinə" və s. tipli neoliberal "nağıllara" artıq heç kim inanmır... Həqiqət – bütün bunların əks – tərəfində yer almaqdadır. Görünən bu ki, son orta əsrlərdən başlanan proses – sekulyar cəmiyyət ideyasının "müqəddəsləşdirilməsi" nəinki məcmu fəaliyyət sferalarına dayanıqlılıq keyfiyyəti əxz etmədi, tam şəkildə əks – effektlə yekunlaşdı... Bəli, məhz yekunlaşdı! Ümumbəşəri potensial primitiv "eqoizmin" israfçı, dağıdıcı təsirinə məruz qalmaqla, tarix boyu analoqu olmayan yeni məzmunlu və böyük dağıdıcılıq gücünə malik olan yeni qlobal problemlər doğurdu... Bəşəriyyətin neoliberal "aldanışı" - çox ağır çəkili fəsadlı situasiyaların – "növbələşmə" ardıcıllığı ilə - təzahürünə gətirib çıxardı.

Başqa sözlə, monoteist dini cərəyanların, ilahi öngörmə kontekstində gələcəklə bağlı verdikləri proqnozlar artıq gerçəkləşməyə başlamışdır. İnsan – özünün insan kimi yaşayışını təmin edən ekosistemi, böyük canfəşanlıqla məhv etməkdədir...

Amma, nədən? Sadəcə olaraq, "iqtisadi insan" – biət etdiyi və ali dəyər saydığı neoklassikanın ona məqsəd keyfiyyətində təlqin etdiyini, yəni, "nəyin bahasına olursa – olsun" mənfəətin maksimumlaşdırılmasını həyata keçirməklə məşğuldur.

Neoklassika – "iqtisadi insanı" iqtisadi prosesin əsas abstrakt – nəzəri subyekti keyfiyyətində təsvir edir: o, həm rasionalistdir, həm də "əxlaqlı eqoistdir". Bu rakursdan da nəzəriyyənin irrasional hesab etdiklərindən, o cümlədən dini dəyərlərdən uzaqdır, yaxud uzaq dürmalıdır. Daha konkret formada: "iqtisadi insan" – canlı insanla eyniyyətdə deyildir: onun – asbtrakt obrazıdır. Yəni, onun yaşam arealı – iqtisadi prosesdir. Bu prosesdən kənarda mövcud deyildir. Bu qəbildən olan anlaşılmazlıqların problem yaratmayacağına olan inam A. Smit tərəfindən irəli sürülmüşdür: dini inancın həlledici roluna istinadla!

Beləliklə, uzun minilliklər boyu cəmiyyətin birgə yaşayış qaydalarını formalaşdıran, onun mental – dəyər modeli kimi çıxış edən dinin təlqin etdikləri (ələlxüsus, sosio – iqtisadi sferada), doğurdanmı irrasionaldır? Yaxud, bir sıra tədqiqatlarda söylənildiyi kimi, cəmiyyət inkişaf etdikcə dini inancın təsiri zəifləyirmi? Yaxud, dini dəyərlərin iqtisadiyyatda problemlər yaradacağına inanlar, həqiqətdə səmimidirlərmi? Suallar çoxdur! Bizim məqsədimiz konkret olaraq, deyilənlər (və deyilməyənlər) kontekstində həqiqətin axtarışını həyata keçirməkdən, bu aspektdən müasir gerçəkliyə konseptual baxış formalaşdırmaqdan ibarətdir.

### *Nəzəri baxış: istiqamət müxtəlifliyi problemi*

Dini inancın iqtisadiyyata təsiri problemi çoxsaylı tədqiqatçılar tərəfindən araşdırılmış və bu tədqiqatlar bu gün də davam etməkdədir.

Dini konfessiyaların iqtisadiyyata təsir gücünün eyniyyətdə olmadığı, fərqli məzmun daşıdığı qənaətinə gələn bir sıra tədqiqatlarda qeyd olunur ki, protestant, iudaizm və konfusian cəmiyyətlər katolik, müsəlman və provaslav cəmiyyətlərdən daha çox nailiyyət əldə ediblər [11,səh.282].

E. Dyürkqeym, hələ keçən əsrin əvvəllərində yazırdı ki, iqtisadiyyatın inkişafı səbəbdir, dinin zəifləməsi isə nəticə [10]. Yəni, inkişaf – dünyəvilik keyfiyyətini (cəmiyyətdə) yüksəldir və yekunda dinin təsiri ifrat dərəcədə məhdudlaşır! M.Veberin yanaşması bu baxışdan fərqlənir: əvvəlcə sekulyarizm baş verir – cəmiyyət "dünyəviləşir" və paralel olaraq, dinin təsiri azalır, din zəifləyir ki, bu da iqtisadi inkişafı stimullaşdırır...[8].

2000-ci ildən başlayaraq tərəflərarası əlaqənin empirik verifikasiyası yönümündə müxtəlif sorğular həyata keçirilmişdir. Verifikasiyası tələb olunan nəzəri müddəa belə idi ki, ölkənin inkişaf səviyyəsi nə qədər yüksəkdirsə, həmin cəmiyyətdə dinin rolu bir o qədər aşağıdır, yəni tərəflər arasında tərs mütənasib əlaqə mövcuddur... Araşdırmaların

nəticəsi birmənalı olmadı: məsələn, iqtisadi cəhətdən geri qalmış yaxud aşağı gəlirli ölkələrin bir çoxunda dindarların xüsusi çəkisi 90-95% - civarında olmuşdur.

Orta gəlirli ölkələrdə 70%, yüksək gəlirli ölkələrdə isə 50% - dən az təşkil etmişdir. Lakin, ABŞ – da (adambaşına ÜDM – 60 min dol. çox) sözügedən göstərici 65%, ABŞ-dan yüksək gəlirliyə malik Körfəz ölkələrində 98-100%, Rusiyada (11 min dol.) 35% təşkil etmişdir...

"...Ölkənin iqtisadi cəhətdən geri qalmasının yaxud inkişafın səbəbləri mədəniyyət fərqliliyi, eləcə də ölkə əhalisinin böyük əksəriyyətinin biət etdiyi dindir" [7]. Tərəflərarası əlaqənin gerçək məzmunu məhz budur. Milli iqtisadiyyatda, həmçinin ictimai həyatın bütün sferalarında dini dəyərlərin rolu kifayət qədər yüksəkdir.

Qlobal iqtisadi gerçəklik- bunun həqiqətən də belə olduğunu ortalığa qoymaqdadır.

Şübhə yoxdur ki, dinlə iqtiasdiyyatın qarşılıqlı bağlılığı, dinin – iqtisadi sferaya, eləcə də ictimai həyatın bütün spektrinə həm birbaşa, həm də dolayısı ilə (hətta, iqtisadi subyektlərin "şüuraltı" dəyərlərinə qədər) təsiri son orta əsrlərdən başlayaraq aktual olmuş və bu aktuallıq bu gün də davam etməkdədir.

- "... Din – protestant etikasından fərqli olaraq, iqtisadi təfəkkürə dolayısı ilə də təsir göstərə bilər" [9,səh.168].

- "...Kapitalizm – ümumi həmrəylik və individual avtonomiyanın simasız aspektlərini tarazlaşdırmaq prizmasından ictimai institutların mövcudluğuna möhtacdır" [5, səh.146].

- K. Dobbeler – din – iqtisadiyyat münasibətlərində 3 iyerarxik səviyyəni fərqləndirir: 1) Makrosəviyyə:cəmiyyət miqyasında; 2) Mezosəviyyə: dini institutlar; 3)Mikrosəviyyə: individual şüur [20].

Bu qəbildən olan konseptual yanaşmalar çox saylıdır.

Və aydındır ki, müsbət yönümlü konseptual müddəaların çoxluğu – sosial bütövlük fenomeninin həyati əhəmiyyət daşıdığı qənaətindən qaynaqlanır...

Bu aspektin önəmliliyi inkişaf səviyyəsindən asılı olmayaraq əksər ölkələr üçün keçərlidir. Zatən, cəmiyyətin inkişafının istinad sütunları sırasında yer alır. Yəni, inkişafı "doğuranlara" aiddir.

Ümumiyyətlə, din → iqtisadiyyat qarşılıqlı münasibətləri ikili səciyyə daşıyır: 1)Dini dəyərlərin iqtisadiyyat üzərində proyeksiyası; 2)İqtisadi metodların dini fenomenləri araşdırması.

Dinin iqtisadiyyatı - əgər belə ifadə etmək caizsə - çərçivəsində aparılan araşdırmalar da ikili yönümlüdür: 1) Dini dəyərlər çərçivəsində (yəni, "xalis" məzmunda) davranışın mikroiqtisadi təhlili; 2) Dinin iqtisadi göstəricilərə təsirindən alınan effektin ekonometrik tədqiqi [24].

Digər tərəfdən, dini dəyərlərin iqtisadiyyat üzərində proyeksiyası müstəvisində iqtisadi – münasibətlərin və iqtisadi institutların dini çərçivədə normativ dəyərləndirilməsi yönümlü tədqiqatlar da aparılmaqdadır. Bu istiqamətdə ilkin araşdırmalar A. Smitə [16] məxsusdur. Onun məşhur "Xalqların sərvəti"... əsərinin birinci fəsli xristianlığın iqtisadi aspektinə həsr olunmuşdur. Onun bu yönümdə apardığı araşdırmaların əsas hədəfi katolik kilsəsi ətrafında iqtisadi stimulları, institut və rəqabəti özündə ehtiva edən konkret modelin qurulması idi. Dinin iqtisadiyyata təsirinin həlledici əhəmiyyət daşıdığı M. Veberin araşdırmalarında da yer almışdır: Kapitalizm – protestant etikası bazasında formalaşmışdır [23].

Qeyd edilən yönümlüyə paralel olaraq, dinin iqtisadiyyata təsiri bir sıra tədqiqatlarda inkar olunurdu: din irrasional hesab edilirdi.

N. Toumza yazırdı ki: "... İqtisadiyyat – kökündən Allahsızdır. Dini inanc... və davranış "homoeconomicus"un həyatında heç bir rol oynamır"[22].

Yalnız ötən əsrin sonlarında – rasional seçim nəzəriyyəsinin təsiri altında teoloji amilin roluna yenidən baxılmağa başladı.

Daha dəqiqi, proses 1975 – ci ildə K.Azzi və R. Erenberqin – dinin mikroiqtisadiyyatına istinadla formalaşdırdıqları evtəsərrüfatı modeli ilə bərpa olunmuşdur [18].

Beləliklə, çağdaş zamanda din – iqtisadiyyat cütlüyünün qarşılıqlı bağlılığına həsr edilmiş iki əsas konseptual baxış mövcuddur:

1. Sekulyar nəzəriyyə (M.Veber və b.): din – iqtisadiyyatın təşkili və dəyişikliyi prosesinin mədəni fundamenti keyfiyyətində çıxış edir;

2. Rasional seçim nəzəriyyəsi (U. Beynbric, R.Finke və b.) Din – iqtisadi dəyişikliklərin bir hissəsidir. Hətta, dini bazar mövcuddur və bütövlüklə iqtsiadi qaydalarla tənzimlənir. Rasional seçim tərəfdarları bu tezisi absurda qədər inkişaf etdirirlər: Dini bazarda satışa çıxarılan əmtəə- həmin dinə xas olan dəyərlərdir (Ruhi – mənəvi dəyərlər) Bu aspektdən, dini cərəyanın tərəfdarlarını da mömin deyil, "müştəri" adlandırırlar...

Şübhə yoxdur ki, bu cür ifrat inkarçı

mövqelərin meydana çıxmasının kökündə “iqtisadimərkəzçiliyin” iqtisadi şüurda (oxu:təfəkkürdə) artıq qərarlaşmış dominantlığı dayanır. İnkarçılığın əsas səbəbi isə iqtisadiyyata dini dəyərlərin təsirinin kəmiyyətcə ölçmə imkanının yoxluğudur. “İqtisadimərkəzçilik” – rəqəmlərlə ifadə olunmayan, kəmiyyətcə qiymətləndirilməsi imkanlarının olmadığı hər şeyi – o cümlədən, dini dəyərləri – mənasız hesab edir. Və bu məntiqlə də problemə əks – yönümlü yanaşma tətbiq edilir: yəni, dəyərlərin iqtisadi prosesə, iqtisadi həyata təsirinin deyil, özünün “əmtəə”ləşdirilməsinə start verilir. Yuxarıda da, qeyd etdiyimiz kimi, “dinin iqtisadiyyatı” – absurd anlayışdır... Problemə baxışda spekulyativ məzmunluluğun aktuallaşması, əslində “iqtisadimərkəzçiliyin” daxili məntiqi ilə determinə olunur. Belə ki, ictimai həyatın bütün spektrinin “iqtisadiləşdirildiyi” bir situasiyada – dini dəyərlər kənarda qala bilməzdi.

Yəni, elmi fikirdə (bu problemlə bağlı) qarşılaşdığımız mənzərə - sırf nəzəri təxəyyülün formalaşdırdığı mənzərədir: iqtisadi gerçəkliklə hansısa bir formada real bağlılığı yoxdur, hansısa bir formada sübut edilməyən yanaşmadır.

Bununla belə, iqtisadiyyatın dini ideyalara təsiri məsələsi bu gün də diskurs obyekti olaraq qalmaqdadır. Praqmatizmlə “yoğrulmuş” iqtisadiyyatla, böyük əksəriyyətin iddia etdiyi kimi – irrasional və ehkamçı məzmun daşıyan dinin qarşılıqlı təsiri problemi müxtəlif yönümlü fəlsəfi spekulyasiyaların “yeminə” çevrilmişdir.

Əlbəttə, sırf nəzəri müstəvidə, əlalxüsus iqtisad elminin “müstəbeh”liyinin sərhəd tanımadığı müasir zamanda tərəflərarası bağlılığın rasional sərhədlərini “görmək” çox müşkül məsələdir: İqtisadi nəzəriyyə - iqtisadi gerçəkliyə öz prizmasından-faydanın maksimumlaşdırılması – baxır. İqtisadi nəzəriyyə - gerçəklikdə həqiqəti axtarmır. O, faydalılıq funksiyası üzərində bərqərardır. Bu anlamda, yuxarıda qeyd etdiyimiz “uyuşmazlıq” – gerçəkliyin deyil, nəzəriyyənin gəldiyi nəticədir. Yəni, iqtisadi nəzəriyyə - gerçəkliyin mental dəyərlərini, ən azı görməməzlikdən gəlir. Dinə xas olan mənəvi – etik dəyərlərin iqtisadi prosesdəki yeri və rolu bəribaşdan inkar olunur... Dini dəyərlər – iqtisadi axınlarla birlikdədirlər, ən azı ona görə ki, iqtisadi nəzəriyyənin əsas subyekti – “iqtisadi insan” abstraktsiyasının yüksəldiyi konkretlik – canlı insan formasında təzahür edir.

***Dinin yayılma səviyyəsi və proqnozu...***

Hər şeydən əvvəl, qlobal sosiumun dini mənsubiyyət prizmasından bölgüsünə nəzər yetirək. Bu yönümdə müxtəlif proqnoz qiymətləndirmələr irəli sürülmüş və hal – hazırda da bu proses davam etməkdədir. Qeyd edilən müxtəlifliyin təxmini ortalamasına istinadla yaxud proqnoz hesablamalarının orta göstəricisini əsas götürdük.

**Cədvəl 1.**

**Bəşəriyyətin dini mənsubiyyət üzrə bölgüsü: artımın dinamikası**

| Dinlər | Bəşəriyyətin sayı (mln.nəfər) | | | | 2100/2020 nisbətən | |
|---|---|---|---|---|---|---|
| | 7733 mln.nəfər | | 11182 mln.nəfər | | Mln.nəf. (+,-) | (%)+,- |
| | 2020-ci il | | 2100 – cü il | | | |
| | Mln.n. | % | Mln.n. | % | | |
| 1.Xristianlıq | 2412 | 31,2 | 3508 | 31,3 | +1096 | +0,1 |
| 2.İslam | 1948 | 25,2 | 3561 | 31,8 | +1613 | +6,6 |
| 3.İnduizm | 1194 | 15,4 | 1760 | 15,7 | +566 | +0,3 |
| 4.Buddizm | 447 | 5,7 | 524 | 4,6 | +77 | -1,1 |
| 5.İudaizm | 15 | 0,2 | 19 | 0,01 | +4 | -0,19 |
| 6.Sikxizm | 30 | 0,4 | 45 | 0,4 | +15 | X |
| 7.Daoizm | 12 | 0,6 | 21 | 0,01 | +9 | 0,59 |
| 8.Sair dinlər | 487 | 6,2 | 434 | 3,8 | -53 | -2,4 |
| 9.Ateizm | 1176 | 15,2 | 1295 | 11,6 | +119 | -3,6 |

Dinamik sıradan göründüyü kimi, əhatə dairəsinə görə əsas yeri xristianlıq və islam tutur. Hal – hazırda xristianların sayı müsəlmanlardan 20% civarında çoxdur (ümumbəşəri sayda xüsusi çəkisinə görə isə 6%). Proqnoz hesablamaları göstərir ki, əsrin sonuna qədər bu nisbət dəyişəcəkdir.

Müsəlmanların sayı xristianlardan 1,5% (xüsusi çəki:0,5%) çox olacaqdır. Gələcək 80 il ərzində baş verməsi ehtimal olunan dəyişikliyin əlbəttə də ki, səbəblər çoxluğu mövcuddur:

1) Demokrafik situasiya ilə bağlı hər iki “dünya” arasındakı fərqlərin getdikcə dərinləşməsi!

Müsəlman ölkələrində fertillik göstəricisi kifayət qədər yüksəkdir: Niger (reytinqdə 1 – ci ölkə) 6,7; Somali 5,9, Nigeriya – 5,2, Həbəşistan – 4, Pakistan -3,5 və s. Xristian ölkələrində isə millətin “qocalması” prosesi gedir: İsveç – 1,8; Fransa – 1,8; Belarus – 1,7; Norveç – 1,7; İsveçrə - 1,5; İtaliya – 1,3; Yunanıstan – 1,3 və s. Yəni, ölkə əhalisinin sadə təkrar istehsalı belə baş vermir. İslam dünyasının 57 ölkəsindən yalnız 4 – də (Bəhreyn – 1,9; Qətər – 1,8; Maldiv – 1,8; BƏƏ – 1,4) fertillik göstəricisi 2 – dən aşağıdır. Qeyd edək ki, “Şərq” dünyasının əsas aparıcı ölkələrində də demoqrafik situasiya Qərblə eyniyyətdədir; Çin – 1,7; C.Koreya – 1,1; Sinqapur – 1,2; Yaponiya – 1,4 və s. Yalnız Hindistanda bu

göstərici 2,2 – dir.

2) Həyat standartlarının yüksəkliyi ilə bağlılıq; Belə ölkələrdə üçüncü demoqrafik keçid baş verir. Yuxarıda qeyd etdiyimiz 4 müsəlman ölkəsi də yaşam səviyyəsinin yüksəkliyi ilə fərqlənirlər.

3) Artımın əsas ağırlığı iki monoteist dinin üzərinə düşür. Digər dini cərəyanlarda – Daoizm, Sikxizm və s. bu aspekt elə bir rol oynamır. Amma, induizmin əhatə dairəsinin genişlənəcəyi gözlənilir. Artıq tərəfdarların sayına görə xristianlıq və islamdan sonra üçüncü yerdə qərarlaşıbdır. Eyni zamanda, yaranışından etnomənsubiyyətli din olan induizm tədricən dünya dinləri sırasında yer almaqdadır. Lakin, induizm, buna rəğmən, kifayətqədər "dolaşıq" məzmunu ilə müqayisəyə gəlmir. Ona görə də, dinin iqtisadiyyatda yeri prizmasından induizm barəsində yığcam dəyərləndirmə aparmaq məcburiyyətində qaldıq.

**Dini dəyərlərin sosio – iqtisadi proyeksiyası**

Din sosio – iqtisadi inkişaf dinamikasının güclü amilidir. Sosial dəyişikliyin qaynaqlandığı əsas mənbə mədəni sistemlərdir (din də daxil olmaqla). M.Veber bu aspektdən real gerçəkliyi olduğu kimi ifadə edə bilmişdir...

Tədqiqatlar da göstərir ki, dini inancın təsir dairəsi kifayət qədər genişdir. İqtisadi fəaliyyət konstruktsiyasının fərqli təzahür formalarının mövcudluğunda dini dəyərlər əhəmiyyətli rol oynayırlar. Məsələn, protestant baxışlara uyğun gələn iqtisadi quruluş – liberal bazar iqtisadiyyatıdır; Katolisizmdə - korporativ quruluş, provaslaviyedə isə sosialist təsərrüfat sistemidir. (bax. cədvəl.2)

Eyni zamanda, cəmiyyətin siyasi quruluşu, siyasi rejiminə münasibətdə də yekdil yanaşma mövcud deyildir. Anlayışın müasir Qərb interpretasiyası çərçivəsinə yalnız protestantizm "sığır".

Bu tezis demokratiya anlayışına münasibətdə də keçərlidir. Demokratiyanın liberal/neoliberal interpretasiyası inkişaf etmiş kollektiv Qərbi tam şəkildə əhatə etmir: yalnız protestant cəmiyyətlərdə yer almaqdadır. Provaslav və katoliklərdə, eləcə də iudaizmdə əsaslı mahiyyət fərqliliyi müşahidə edilir. Konfutsiçi cəmiyyətlərdə demokratiya milli spesifikadan "süzülmüş" məzmunda mövcuddur:

Onun neoliberal interpretasiya ilə elə bir bağlılığı yoxdur. İslam cəmiyyətində isə situasiya əsaslı mahiyyət fərqliliyi ilə nəzər – diqqəti cəlb edir. İslamda – demokratiya mövcuddur, lakin neoliberal anlam daşımır. Belə ki, islamda cəmiyyətin siyasi rejimi, birgə yaşayış qaydaları yaxud həyat tərzi eyni mənbədən (şəriətdən) qaynaqlanır: yəni, eyni dəyərlərin formalaşdırdığı məna "yükünə" sahibdirlər. Buna görə də, islam cəmiyyətində siyasi plüralizm teokratiyanın çərçivəsindən kənara çıxmır.

**Cədvəl 2.**

**Cəmiyyətin sosio – siyasi və sosio – iqtisadi quruluşu prizmasından fərqlilik**

| Dinlər | Siyasi rejim | Milli dəyərlər | Hakimiyyət | Demokratiya | İqtisadi inkişaf modeli | Ölkələr |
|---|---|---|---|---|---|---|
| 1.Protestantizm | Liberalizm/sosial-demokratiya | Anqlo – sakson dəyərlər | Məhdud | Nümayəndəli demokratiya | - Liberal; - Sosial - demokrat | İngiltərə, Yeni Zenlandiya, Danimarka,Norveç, İsveç, Finlandiya |
| 2.Katolisizm | Dövlət korporativizmi | Anqlo – sakson dəyərlər | Qeyri – məhdud monarxiya | Lobbist demokratiya | Sosial - demokrat | Avropa: Belçika, Fransa, İtaliya, İspaniya və s. Latın Amerikası:Meksika, Braziliya, Arqentina, Venesuela və s. |
| 3.Pravoslaviya | Bürokratik imperializm | Slavyan - yunan | Qeyri – məhdud | Klan demokratiyası | İdentifikasiya problemi mövcuddur | Rusiya, Bolqarıstan, Ukrayna, Serbiya, Belarus və s. |
| 4.İudaizm | Tənzimlənmə | Yəhudilik | Məhdud | Fraqmental demokratiya | Konservativ-innovativ | İsrail |
| 5.Konfuçilik | Dövlət korporativizmi | Qruppizm | Qeyri – məhdud | Qeyri – qərb səciyyəli demokratiya | Korporativ model | Çin, Yaponiya, Honqonq, Sinqapur, Tayvan |
| 6.İslam | Normativ imperializm | Ümmətçilik | Qeyri – məhdud (şəriətlə sərhədli) | İslam plüralizmi, teokratiya | İslam modeli | İndoneziya, İran, Türkiyə, Misir, Ərəb ölkələri |

Göründüyü kimi, dini etikanın cəmiyyətin təsərrüfat tipinə və sosio – mədəni identikliyinə təsiri yaxud bu təsirin əhatə dairəsi və gücü əksər konfessiyalar üzrə eyniyyətdə deyildir. Bu baxımdan iudaizm (milli mənsubiyyəti müəyyənləşdirir) və islam (həyat tərzi kimi təzahür edir) fərqlənirlər. Bu fərqlilik cəmiyyətin siyasi quruluşu aspektindən də mövcuddur. Məsələn, katolisizmin cəmi bir dövləti (kilsənin idarəetdiyi) var – Vatikan – 44 sot ərazidə yerləşir. Vətəndaşlarının sayı – 800 nəfərdir. Son orta əsrlərə qədər olan zaman kəsiyində katolik kilsə bütün Qərbi Avropaya rəhbərlik edirdi. İudaizmin də bir dövləti mövcuddur – İsrail! Amma, onun dünyəvi dövlət olduğunu (baxmayaraq ki, dini inanc mühüm yer tutur) "deyirlər". Yalnız İslamda – dinin rəsmi dövlət ideologiyasına çevrilməsi, birgə yaşayış qaydalarının dini dəyərlər (şəriətin norma və normativləri) üzərində qurulması gerçək məzmun daşımaqdadır. Bu gün dünyada mövcud olan 57 müsəlman ölkəsindən 13-ü məhz islam dövlətidir.

Yeniləşmə prosesinə münasibətdə də əsaslı fərqlər müşahidə edilməkdədir (bax:cəd.3)

Yalnız protestantizm – yeniləşməni sistemli şəkildə təqdir edir (təbii ki, sakrallıq inkar edilməklə). Ənənəyə bağlılıq (provaslav) və mühafizəkar çərçivə (katolisizm) – yeniləşmənin məhz "yeniliyini" deformasiyaya uğradır. Ənənə - "yenilikçi" deyil və sabitliyi tərcih edən fenomendir. Mühafizəkarlıq – yeniləşmədə "yeni" olanı cari situasiyanın "süzgəcindən" keçirməklə "köhnə → yeni" formalı ziddiyyətli simbiozun yaranmasına rəvac verir. Ümumiyyətlə, eləcə də iqtisadi məzmunlu yeniləşmə - nəticə etibari ilə dəyərlərin məzmun dəyişikliyinə səbəb olur. Bu anlamda islam qəti mövqe sergiləməkdədir: dəyərlərin dəyişməsi müzakirə mövzusu ola bilməz.

**Cədvəl 3.**

**İqtisadi məzmunlu elementlər prizmasından müqayisə**

| **Dinlər** | **Yeniləşmə prosesinə münasibət** | **Əsas normalar (iqtisadi)** | **Nəticəliliyə (effektivlik) münasibət** | **İstehlaka münasibət** | **Sələmçiliyə (faiz) münasibət** |
|---|---|---|---|---|---|
| **1.İslam** | - Dəyərlər sabit qalmalıdır; | - Adət - ənənə;<br>- Qeyri – formal əlaqələr<br>- Ədalətlilik; | - Əsas olan prosesdir | - Mötədil;<br>- Orta yol | - Mənfi<br>- Qadağandır |
| **2.Protestantizm** | -Müsbət; | - Şəxsi mənafe;<br>- Rasionalizm | Əsas məqsəd | İsrafçı yanaşma | -Müsbət |
| **3.Provaslaviye** | Ənənəyə bağlı formada | - Ənənə;<br>- Ümumi mənafe | - Əsas olan prosesdir | Neytral | Etinasız |
| **4.Katolisizm** | Mühafizəkar | - Kilsənin mənafeyi;<br>- Qeyri – formal əlaqələr | "Seçilmişlərə" məxsus nəticəlilik | Neytral | Etinasız |
| **5.İudaizm** | "Qanun"lar çərçivəsində praqmatik | - Qənaət;<br>- Effektivlik;<br>- Rasionallıq | - Müsbət;<br>- Nemətlərin bolluğunu yaradır | Artan templə... | Müsbət (faizin müəllifi) |
| **6.Konfuçilik** | - Ənənə çərçivəsində praqmatik<br>- Tədricilik. | - Adaptasiya;<br>- Qənaət | - Proses və nəticənin harmoniyası | "Orta yol" | Neytral |

Cədvəldən göründüyü kimi, proses → nəticə ikiliyinə münasibətdə də yekdillik yoxdur. Belə ki, həyati əhəmiyyət kəsb edən məsələ (çağdaş dünyamızın əsas problemlərindən biri) – proses və nəticənin harmoniyası yalnız konfutsiçi cəmiyyətlərdə funksional fəaliyyətin hədəfi halına gətirilmişdir.

Göründüyü kimi, müasir maliyyə - bank sferasının funksional fəaliyyətində sistemyaradan element rolunda çıxış edən sələmçilik (faiz) yalnız islamda qadağan edilmişdir.

"...Sələm yeyənlər qəbirlərindən cin vurmuş kimi qalxarlar... Allah sələm almağı qadağan etmişdir... Əgər möminsinizsə, sələmdən qalan məbləğdən

vaz keçin... Belə etməsəniz, o zaman Allaha və onun Peyğəmbərinə qarşı müharibəyə girdiyinizi bilin..."[25].

Provaslaviya və katolisizm – ilkin vaxtlarda neqativ münasibət sərgiləsə də, sonralar, ələlxüsus protestantizmin təsiri altında vəziyyətlə barışmış, lakin münasibətdəki etinasızlıq komponenti olduğu kimi qalmaqdadır. İudaizm "müəllifi" olduğu sələmçilik Protestant etikası tərəfindən böyük ruh yüksəkliyi ilə qəbul edilmiş və yekun olaraq müasir maliyyə sistemi formalaşmışdır! Protestantizmin sələmçiliyə münasibəti B.Franklinin (1748) deyimində çox qabarıq şəkildə ifadə olunmaqdadır: "... Kredit – puldur... Pul – öz təbiəti etibari ilə baş verəndir və yeni pul doğurmaq qabiliyyətindədir.. Pul – yeni pullar... onların törəmələri daha çox pul yaradır və s." [15].

İstehlaka münasibət məsələsində də yalnız iki halda mötədil mövqe sərgilənir: Konfutsiçilik və islamda! Digər dini cərəyanlarda maksimum istehlak (müasir dövrün əsas xarakteristikalarından biri) probleminə etinasız yanaşılır: İstehlakın artımı imandan hesab olunur!

Qurani – Kərim məsrəflərdə "orta yol" tutmağı hökm edir: "... Nə əldən çox bərk ol, nə də əlini tamamilə açıb israfçılıq et. Yoxsa həm qınanarsan, həm də peşiman olarsan" [25].

Yaxud, digər bir ayədə: "... Onlar (mallarını) xərclədikdə nə israfçılıq, nə də xəsislik edər, bu ikisinin arasında orta yol tutarlar" [25], deyə buyrulur!

Xüsusi mülkiyyət və onun ictimai həyatda yeri və rolu ilə bağlı, eləcə də toxunulmazlığı ilə əlaqədar yalnız islamda və protestantizmdə birmənalı hökmlər yer almaqdadır.

İslamda - əsas çıxış nöqtəsi xüsusi mülkiyyətin halal yolla – yəni, heç bir kəsin haqqını tapdalamadan şəxsi əmək, zəhmətlə əldə olunması tələbi üzərinə düşür. Həm bu, həm də o biri dünyaya münasibətdə "... insana yalnız öz əməyi, öz zəhməti qalar" [25] hökmü keçərlidir. İudaizm isə, mülkiyyəti birmənalı olaraq Tanrıya aid edir: insan mülkiyyətdən yararlana bilər, amma, onun sahibi ola bilməz (cəd.4.).

**Cədvəl 4.**

**İqtisadi fəaliyyətin təşkili aspektindən müqayisə**

| Dinlər | Xüsusi mülkiyyətə münasibət | Əməyə münasibət | Sərvət münasibət | Davranış tipi | Əsas hədəf |
|---|---|---|---|---|---|
| **1.İslam** | Toxunulmazdır | İbadətdir (Allaha) | -Mənfi;<br>-Yalnız zəhmətlə əldə etmək; | - Kollektivizm;<br>- İndividualizm;<br>-Müsəlmanlara yardım | Allah dərgahına yüksəliş |
| **2.Protestantizm** | Toxunulmazdır | Borcdur – İnsanı tanrıya yüksəldir; | Əsas məqsəddir | İndividualizm innovativlik; | Maksimum fayda |
| **3.Provaslaviye** | -İcmaçılıq;<br>Dövlət paternalizmi; | Ali məqsədlər uğruna (ruhi) çalışmaq | Haqsız sərvət – şərdir | Kollektivizm;<br>Tolerantlıq; | Ruhi təmizlik |
| **4.Katolisizm** | İcmaçılıq; | Borcdur | Əsas olan kilsədir | Kollektivizm;<br>İndividualizm | Günahların bağışlanması |
| **5.İudaizm** | Tanrıya məxsusdur İnsan yalnız yararlanır | Effektiv çalışmaq | -Müsbət; İmanlı olan varlanır | İndividualizm | Maksimum fayda |
| **6.Konfuçilik** | Qruppizm | -Maksimum səylə çalışmaq<br>-Dəyərlərlə "yüklənmə" | Ruhi "yük" – ağırlıq yaradır | Kollektivizm | Harmoniya (insan→təbiət qarşılığı) |

Ümumiyyətlə, xristianlıqda – ilkin mənbəyi Moiseyin qanunlarıdır – mülkiyyət toxunulmaz hesab olunur! Və, hətta onu ələ keçirmək niyəti belə böyük günah sayılır. Bu aspektdən, maraqlı bir məqam ondan ibarətdir ki, torpaq üzərindəki mülkiyyət, ələlxüsus Tanrının İsrail oğullarına vəd etdiyi torpaqlar öz sahibinə məxsus olmalıdır [26].

Bununla belə, torpağı müvəqqəti olaraq satmaq olar. Amma, bu torpaq, Tanrı tərəfindən verildiyi üçün, öz sahibinə geri qaytarılmalıdır.

Anlaşılan bu ki, topraq – konkret insana deyil, Tanrıya məxsusdur. Və, insan onu həmişəlik kiməsə sata bilməz [14].

Həmçinin, provaslav və katolik baxışlarda xüsusi

mülkiyyətin məhz "xüsusiliyi" qətiyyən qabardılmır. Bu aspektdən icmaçılıq və dövlət paternalizmi açıq şəkildə müşahidə edilə bilir.

Konfuçilikdə də "xüsusilik" önəmli rol oynamır yaxud nə qədər ziddiyyətli səslənsə də, "xüsusi"lik sosial bütövlük, sosial harmoniyanın doğurduğu əlahiddəlikdir. Yəni, Qərb dünyasının heç bir halda "anlaya" bilməyəcəyi fenomenal yaranışdan söhbət gedir.

Xüsusi mülkiyyətlə birbaşa bağlılıqda olan sərvəttoplama istəyinə münasibətdə ifrat kənar mövqelərin olduğunun məntiqi əsaslandırılması haradasa, mümkünsüz görünür (əlalxüsus, monoteist dinlərin baxış bucağından).

İslam dinində sərvətə münasibət birmənalıdır.

Var- dövlətə, sərvətə aşırı düşkünlük – cəzalandırılan əməllər sırasındadır: "... O gün (qiyamət günü) yığdıqları qızıl – gümüş cəhənnəm atəşində qızdırılıb alınlarına, böyürlərinə və kürəklərinə dağ basılacaq..." [25].

"... O kimsə ki mal yığıb onu dönə - dönə sayar (çoxaldar)", "... Və, elə zənn edər ki, mal – dövləti onu əbədi yaşadacaqdır..."

Müqəddəs kitabda bu qəbildən çoxsaylı ayələr yer almaqdadır. İudaizmdən fərqli olaraq, islamda var – dövlət sahibi olmaq üstünlük deyil yaxud o şəxsin əsl mömin olduğuna dəlalət etmir. Var – dövlət (islamda) bir imtahandır, sınaqdır.

Eyni zamanda, sərvət sahibi olmaq – günah deyildir. Bir şərtlə ki, onun (sərvətin) toplanması halal yollarla həyata keçirilsin. Yəni, müasir terminologiya ilə ifadə etsək: Xalqın yaxud ayrıca götürülmüş bir insanın haqqını, var - dövlətini haqsız olaraq mənimsəmək olmaz; sələmçilik (faiz) qəti qadağandır; Haqsız rəqabət və yalançı reklam günahdır; Mənfəətliliyin konkret "sərhədi" olmalıdır, yəni gəlirin maksimumlaşdırılması haramdır; Bütün mübadilə aktlarında qarşılıqlı razılıq olmalıdır; ölçüdə və çəkidə düz olmaq; insanların haqqını azaltmamaq tələb olunur və s.

Digər tərəfdən, sərvətin qeyri – bərabər bölgüsü – ilahi hikmətlə şərh edilir: " Əgər Allah (bütün) bəndələrinə bol ruzi versəydi, onlar (günah etməklə) yer üzündə həddi aşardılar. Lakin, o öz bəndələrinə istədiyi qədər (birinə az, birinə çox) ruzi göndərir. Allah öz bəndələrindən xəbərdardır, onları görəndir..." [25].

Yaxud, başqa bir surədə deyilir ki: " ...Allah ruzi baxımından birinizi digərinizdən üstün etmişdir..." [25].

İlahi hikmətlə tətbiq edilən qeyri – bərabərlik iki amala xidmət edir:

1) Mömün bəndələr üçün sınaq imtahan anlamında qəbul edilir. Yəni, Allahın bəxş etdiklərini digər insanlar (yoxsullara, müsafirlərə və s.) arasında yardım olaraq (Allah xatirinə) bölüşdürürmü?

2) Kafirlərə - daha çox günaha batmaları və Allah tərəfindən daha ağır şəkildə cəzalanmaları üçün: "...Mömin bəndələrimdən arxayın olsaydım (çaşmayacaqlarından), kafirlərin evinin tavanını gümüşdən, nərdivanını qızıldan düzəltdirərdim".

Bir sözlə, sərvət və onun çoxluğu islamda arzu edilən deyil. Ümumiyyətlə, "orta yol"dan istənilən formada kənarlaşma – problem yaradan prosesdir.

Müqəddəs Kitabda sərvət toplama birmənalı şəkildə qınanır. Xristianlığın ən mütərəqqi cərəyanı kimi səciyyələndirilən protestantizmdə də yanaşmanın mahiyyəti dəyişmir. Amma... protestantizm – xristian cameədə "sürü" anlayışını aradan qaldırmaqla sərvət hərisliyinə yol açan kardinal dəyişiklik həyata keçirdi: 1) İndividualizmin mütləqləşdirilməsi; Xristianlıqda, eləcə də digər dünyəvi dinlərdə insan – "sürü"nün bir üzvüdir. Yəni, insanın varlığı – dini "sürü"də məna kəsb edir. Protestantizm isə insana – sən müstəqilsən, unikalsan, seçim azadlığın var və taleyin öz əlindədir – dedi: Başqa sözlə, əsas vurğu insan eqoizminin üzərinə yönəldi; 2) Dini baxışa görə, iqtisadiyyatda əsas məqsəd sərvət toplamaq, varlanmaq deyil, cəmiyyətin tələbatlarını normal standartlar çərçivəsində ödənilməsini təmin etməkdir. Protestantizmin tarix səhnəsinə çıxardığı "eqoist" – tələbatların ödənilməsini sərvəttoplama kontekstində həyata keçirməyə başladı. Yəni, zahiri görünüşcə Müqəddəs Kitabın söylədiklərinə əməl edilir, batini aspektdə isə, bu yanaşma Aristotelin xresmatikasından o qədər uzaqda deyil.

3) Sərvəttoplama – şəxsin varlanmasına, təmtaraq içində yaşamasına deyil, digər insanlara yardım etmək məqsədi daşımalıdır. Bu ilahi tələb – gerçəklikdə yer alır (simvolik səciyyə daşısa da). Amma... hətta bu halda da belə (yeni ərazilərə, bazarlara çıxış və s.) həqiqi hədəf şəxsi varlanma istəyi olur.

Bibliyada ziddiyyətdə olan iki yanaşmanın ikincisi "sərvət hərisliyi", ki ruhu məhv edir – Evanqeliyada açıq formada əks edilmişdir: "... Heç kim iki ağaya qulluq edə bilməz... Həm Tanrıya, həm də mammona eyni anda xidmət edə bilməzsiniz [26]. Yəni, "alın təri" ilə öz ehtiyaclarınızı ödəməlisiniz, amma sərvət, var – dövlət dalınca qaçmamalısınız. Əhdi – Ətiqdə (Новый Завет) maddi sərvət nemət

deyil, əlavə yük hesab edilir: "... Dəvənin iynə deşiyindən keçidi daha rahatdır, nəinki varlının Tanrı dərgahına daxil olması" [26]. Bununla belə, sərvəti dağıtmaqla insan istədiyinə nail ola bilməz. Bu yalnış yoldur. "Təmizlənməsi" zəruri olan – acgözlük, hərislik, xəsislik və s. dir. Bu halda – sərvətdən düzgün istifadə imkanı yaranır.

Qeyd edək ki, Vetxiy Zavetdə (Əhdi – Cədid), iudaizmdə yanaşma təzri fərqlidir. Belə ki, sərvət sahibi olma – kamil iman sahiblərinə məxsusdur. Başqa sözlə, insan nə qədər çox varlıdırsa, o qədər yüksək iman sahibidir.

Konfutsiçi baxışlarda sərvət – ağırlıq yaradan, ruhi "yükləmə" doğuran anlamda qəbul edilir. Sərvət – sosial məsuliyyətliliyi yüksəldir, əlavə qayğılar (sosiuma münasibətdə) doğurur və s.

Dinlərarası yanaşma fərqliliyinin təzahür etdiyi növbəti anlayış - əməyə münasibətlə bağlıdır.

Yanaşmanın mükəmməlliyi nöqteyi – nəzərindən ən yüksək səviyyə islam dininə məxsusdur.

Qurani – Kərimdə əməyə xüsusi diqqət yetirilir: saya bildiyimiz qədər 469 ayə məhz əməyə həsr olunmuşdur: "...Sizin dinc əməyiniz üçün gecəni qaranlıq və gündüzü işıqlı yaradan Allahdır" [25]. Yaxud: "... Biz insanı məşəqqətdə yaratdıq..." [25].

İslam insanların hamısının fərdi və ictimai faydalı əməkdə iştirakını, özgənin hesabına yaşamamasını, başqalarının hesabına yüksək güzəran sürən təbəqələrin olmamasını təbliğ edir.

İslam - əməyi insanın substansiyası keyfiyyətində görür: işləmək, çalışmaq – ibadətdir.

Yanaşmanın spesifik cəhətlərinə aşağıdakıları aid etmək olar:

1. Əmək azadlığı: Dinc və sərbəst fəaliyyət;
2. İstismar və məcburetmə (zorakılıq) rədd edilir;
3. Əmək sərfi – səmərəlilik və sosial ədalətlilik prinsiplərinə istinad etməlidir;

Görülən işlərin ən üstünü halal yolla ruzi qazanmaqdır. Qazancın ən təmizi insanın əməyi ilə əldə etdiyi qazancdır (Hz.Məhəmməd); [2,səh.76, 82-83]

4. Ədalətli bölgü – yalnız əməyə görə aparılan bölgüdür.
5. Və nəhayət heç bir dini cərəyanda yer olmayan ilahi tələb: əmək alınıb – satıla bilməz. Alınıb – satılan yalnız əməyin məhsuludur. Yəni, əmək bazarı institutsional struktur kimi rədd edilir. Pulla bərabər əməyə də alqı – satqı obyekti kimi yanaşma qadağan edilir.

Əməyin alqı – satqı obyekti olması, cəmiyyət üçün problem yaradan əsas komponentlərdən biridir. Bu halda:

1) İnsanın sosio – mənəvi varlığı deformasiyaya uğrayır. Əmək – insanın substansiyasıdır... insanı... "yaradandır".Onun ticarət obyekti olması... nəticə etibari ilə insanın özünün alınıb – satılması deməkdir;

2) İnsan – sosio – iqtisadi prosesin əsas subyekti "statusunu" itirir... Prosesin digər elementləri ilə bir sırada sırasında yer alır;

3) İqtisadi sistem – insanın (cəmiyyətin) xidmətçisi funksiyasını "itirir"... "Özü üçün" varlığa çevrilir... insan – iqtisadiyyatın inkişafına xidmət etməyə başlayır. Yəni, sosial rollarda kardinal yerdəyişmə baş verir.

Xristianlıq insan fəaliyyətinin xarakterinin Tanrı tərəfindən müəyyənləşdirildiyini, yəni ilahi hikmətlə təsbit edildiyini qeyd edir: "... в поте лица твоего будешь есть хлеб…" [26]. Yəni, əmək prosesinin xarakteri "üzündəki tərdir". Və əmək sərfinin intensivliyinə adekvat olaraq ədalətli nəticələrə sahiblənilir. İudaizmdə ədalətli nəticəlilik yaxud müasir terminologiya ilə - effektivlik, maddi nemətlərin çoxalması anlamını daşıyır.

Eyni mənbəyə istinad edilsə də, bu aspektdən tərəflərarası fərqlilik kifayət dərəcədə dərindir. Bu "dərinlik" iqtisadi müstəvidə daha qabarıq şəkildə təzahür edir.

Xristianlıq – insanlararası münasibətlərə xüsusi önəm verir. Qarşılıqlı əlaqələrdə, birgə fəaliyyətdə əsas prinsip kimi itaətkarlıq ortalığa qoyulur. Yəni, qarşılıqlı güzəşt, kompromis belə kifayətedici hesab olunmur.

Evanqeliyada, qeyd edilən anlamda çox saylı, hökmlər yer almaqdadır.

Məsələn: "...и кто захочет судиться с тобою и взять у тебя рубашку, отдай ему и верхнюю одежду..." [26].

Xristian "iqtisadiyyatının" (normativ iqtisadiyyat) əsas prinsipi insanlara münasibət (yaxın insanlara) və möminin fundamental üstünlük kimi qəbul etdiyi dəyərdən qaynaqlanır: Nemətlərə münasibətdə az alıb → çox vermək zərurəti. Yəni, əsas olan əbədi dünyanın nemətləridir! Əsas olan – maddi deyil, ruhi məmnunluqdur! Buna görə də, xristian dəyərlərinin üstün olduğu sosiumlarda fəaliyyət göstərən iqtisadi konstruktsiyanın "necəliyi" heç bir əhəmiyyət kəsb etmir.

Bu prinsip Provaslav Kilsənin (Rusiya) sosial konsepsiyasının [13] baza prinsipi kimi çıxış edir. "...Müqəddəs kitabda əməyə mənəvi stimulun iki forması vardır: Çalış ki, qidalanasan və digərlərinə

yük olmayasan, həmçinin çalış ki, ehtiyacı olanlara dəstək verəsən" [26].

Müqəddəs kitabda deyilir ki: "... Muzdlu işçini incitmə... Haqqını həmin gün ver ki, Səndən Tanrıya şikayət etməsin və günaha batmayasan"[26]. "...Öz yaxınını müftə işləməyə məcbur edənin vay halına" [17].

Ən maraqlı məqam ondan ibarətdir ki, əməyin dəyəri bazar metodu ilə hesablanırdı. Xristian inançı sələmçiliyi lənətləyirdi (F.Akvinski, A.Avqustin).

Xristian inancında özünə yer etmiş iqtisadi davranış prinsipi bu gün də olduğu kimi qalmaqdadır: əsasən nəzəri çərçivədə.

**Ümumkonseptual dəyərləndirmə...**

Müasir Qərb sivilizasiyası, o cümlədən kollektiv Qərbə məxsus olan iqtisadi sistemin qneosioloji kökləri çox qədim dövrlərə gedib çıxır. Doğrudur, bu prizmadan aparılan araşdırmalarda fərqli mövqelər də ortalığa qoyulmuşdur. Məsələn, modern eranın başlanmasını, bir çoxları "protestantizm ruhi" ilə (M.Veber), digərləri (M.Novak) katolik əxlaqla, üçüncüləri iudaizmlə əlaqələndirirdilər.

Qeyd edək ki, iudaizmin, katolisizmin, protestantizmin və provaslaviyanın vahid mənbəyi – xristianlığın müqəddəs kitabıdır (Bibliya). O, iki hissədən ibarətdir: Əhdi – Cədid (Vextiy Zavet) və əhdi - ətiq (Novıy zavet). İlkin olaraq, iudaizm - əlahiddələşmiş və müstəqil dini cərəyana çevrilmişdir: İ.Xristosun xilaskar yaxud messiya kimi qəbul etmədilər.Bu aspektdən əhdi - ətiqə (Novıy Zavet) İ. Xristosun etirazı da yer almışdır: "... Atalarımız harada Məni yoxladılar, sınaqdan keçirdilər, 40 ildə mənin etdiklərimi gördülər?... Onlar Mənim yolumu dərk etmədilər" [29]. İlk dəfə IV əsrdə Roma imperiyası xristianlığı rəsmiləşdirdi. Söhbət, katolisizmin rəsmi qəbulundan gedirdi. 1054- cü ildə Provaslav kilsəsi, 1517 – ci ildə isə protestantizm katolisizmdən ayrıldı.

Təfərrüata varmadan, qeyd edək ki, xristianlığın sadalanan cərəyanları arasında ən mütərəqqisi protestantizmdir: 1) Yalnız Tanrıya ibadət edilir; 2) Kilsələrdə ikonalar yox səviyyəsindədir; 3) Əhdi – Cədiddin (Vetxiy Zavet) 39 kitabından 11 – i qəbul edilmir; 4) Xilas – yalnız ibadətdədir, xeyir əməldə deyildir.

Protestant hərəkatı katolik kilsənin sərt norma və normativlərini aradan qaldırmaqla insan azadlığına geniş meydan verdi: Qərbi Avropa cəmiyyətində sözügedən keyfiyyət yeniləşməsi çox sürətlə sistemli xarakter kəsb etməyə başladı. Bu sistemli dəyişikliyi dövründə katolik kilsə insanların günahlarını "bağışlayır" və pulla cənnətdə yer satırdı [3]. "...Biz insanı iradəcə faili – muxtar (iradəcə azad) yaratdıq və "Allahla bəndə arasında əlaqə birbaşadır" deyən Qurani – Kərimin ilahi məntiqi protestant inancında olduğu kimi yer almışdır. Katolik zehniyyətin pressinqindən xilas olmuş və Müqəddəs Roma imperiyasının yıxılışı ilə azadlığa çıxmış sosium bir tərəfdən "milliləşməyə" başlamış, digər tərəfdən isə eqoizmin partlayış formasında təzahürü ilə qarşılaşmışdır. Dünya – daha doğrusu – Qərbi Avropa – keyfiyyət tutumu prizmasından tamamilə yeni bir eraya – modernizm erasına qədəm qoymuşdur. Keyfiyyət yeniləşməsinin (sosial varlığa münasibətdə) ictimai həyatın bütün spektrini (o cümlədən, iqtisadiyyat) əhatə edən təfərrüatı nöqteyi – nəzərindən, partlayış formasında baş verən "eqoizm" inqilabının bəşər tarixində tayı – bərabəri yoxdur.

Katolisizm – latınca catholicus – "universal", "ümumi" mənasını verir. Xristianlığın – ilkin və klassik orta əsrlərdə mövcud olmuş (1500 il) ən güclü imperialardan daha mükəmməl və aşırı surətdə sərt idarəetmə sisteminə malik olan, çağdaş dövrdə də "söz sahibliyi statusunu" itirməyən bir cərəyanı olaraq mövcudluğunu davam etdirməkdədir. Katolik kilsənin tarixi – həm də müharibələr tarixidir. Məsələn , kütləvi qırğınlarla müşaiyət olunan səlib yürüşlərinin təşkilatçısı olduğu hər halda, hamının bildiyi və qəbul etdiyi bir həqiqətdir... Mütləq məsafəlilik və sərt iyerarxik struktur, inkivisiziya və s. katolik kilsənin spesifik mahiyyətini anlamaq baxımından "açar" rolu oynaya bilərlər... Əslində, E.Canetti bu anlamı dəqiq və ziddiyyətsiz formada ifadə edə bilmişdir: "... Bütün insani əməllər və təşəbbüslər arasında daimilik ən çətin əldə edilən olmasaydı, insanları övliyalardan əmələ gəlmiş kütləyə nəyin cəzb etdiyini anlamaq çətin olardı" [1, s.181].

Yəni, "seçilmişlik" yaxud "seçilmişliyin" doğurduğu daimilik – bu dünyada insan varlığının mifoloji məzmun daşıyan ilahi "libasa" bürünməsi və bununla da nicat tapması deməkdir.

Roma imperiyasının süqutundan sonra (476 – cı il) Avropada başlayan "Qaranlıq çağlara" qarşı əsas dirəniş Katolik kilsəsi tərəfindən olmuşdur.

Kilsə - Xristian toplumu iki avtoritet tərəfindən – sivil (dövlət) və kilsə - yönətilən tək toplum olduğunu, birləşmə və uyğunlaşmanın zəruriliyini ortalığa qoydu.

H.Kissincer yazır ki: "... 494 – cü ildə Papa

Bizans imperatoruna yazırdı ki, bu dünyanın yönətimində iki sistem vardır: rahiblər və krallıq... Kralların yerinə də Tanrıya hesab verən rahiblər olduğu üçün, əsas ağırlığa (idarəetmədə) onlar sahib olmalıdırlar" [3, s.23].

Katolizmin mütləq hakimiyyətinə 1517- ci ildə Martin Lüter tərəfindən başlanan protestant hərəkatı son qoydu... Və kilsə 30 illik müharibəni (1618 – 1648) başlatdı.

V.Zombart – kapitalizmin yaranmasını iudaizmlə bağlayırdır.

K.Marks yazırdı ki ("К еврейскому вопросу" məqaləsində), yəhudi milləti – tacir millətidir, ümumiyyətlə, pul adamlarıdır. Bu qəbildən və bu məzmundan olan baxışların sayı çoxdur. Amma... tarixi həqiqəti heç bir halda "gizlətmək" mümkün deyildir:

- Sahibkarlıq ruhu – protestantizmin deyil, yəhudi millətinin ruhudur. Protestantizm – insan azadlığını "yaratdı" və paralel olaraq, "eqoizmin" inqilabı baş verdi. Yəni, protestantizm inqilabla gəldi... Yəhudi ruhu isə, müasir sivilizasiyanın təşəkkülü və təsərrüfat tiplərinin mahiyyət dəyişikliyi proseslərində substansional axın keyfiyyətində çıxış etmişdir: inqilabla yox, təkamül yolu ilə! Bugünkü inkişaf etmiş ölkələr və cəmiyyətlər nail olduqları yüksək həyat standartlarına görə yəhudi "ruhuna" borcludurlar. İlkin orta əsrlərdən etibarən yəhudilər ticarətlə, sələmçiliklə, sonrakı dövrlərdə qiymətli kağızlar və kapital bazarları ilə məşğul olmuş, banklarım funksiyasını yerinə yetirmişlər... Başqa sözlə, müasir iqtisadiyyatda "söz sahibi" olan komponentləri ... yaratmışlar [27].

- Tərəqqi anlayışı – XIX əsr sosioloqlarına deyil, "Vetxiy Zavet"ə (əhdi cədid) məxsusdur. İudaizm – tarixi tərəqqinin gerçək olduğuna inanır.

- Zaman anlayışının modernist interpretasiyası "Vetxiy Zavet"-dən götürülüb. Bu inanca görə, zaman – düzxətti axındır və yüksəlməyə meyllidir.

Zamanın əvvəli və sonu vardır... Sonra xilaskar zühur edəcək və bu dünyanın bütün nizamı dəyişəcəkdir (amma, İ.Xristosu nəzərdə tutmurlar).

- İudaizmdə əsas olan "əbədi" dünya deyil, bu dünyadır. Moisieyn kitablarında [26] qeyd olunur ki, Tanrının qanunlarına əməl etmək maddi bolluq yaradır. Yəni, mömininin imanı nə qədər kamil olarsa, o, o qədər varlı həyat tərzi sürür. Başqa sözlə, o biri dünya yaxud cənnətə düşmək uğurunda deyil, bu dünyada varlanmaq, sərvət toplamaq yolunda çalışmaq lazımdır. İudaizmə görə, "cənnət" bu dünyadadır: Mesopatomiyada... Sadəcə olaraq, onun bərpasına ehtiyac var ki, bu da Apokalinsisdən sonra yerə zühur edəcək Xilaskar tərəfindən həyata keçiriləcəkdir. Bu prizmadan maddi bolluğa çatma, sərvət sahibi olma imanın kamilliyinin əsas ölçü vahidinə çevrilir. İbrahimin (Avraam) sərvəti qoyun və öküzlər, gümüş və qızıl, kölə və kənizlər, dəvə və uzunqulaqlardan ibarət idi [26]. Bunlar, yəni sərvət İbrahimin - hamıya Tanrının ona olan qayğısını sübut etmək lazım idi.

Konfuçiliyin əsas müddəalarını aşağıdakı kimi sıralaya bilərik:

- İnsan – cəmiyyət üçün fəaliyyət göstərən varlıqdır. İnsan – sosio - iqtisadi fəaliyyətin funksiyasından qeyri bir anlam daşımır; iqtisadi mənafelər – individual deyildir;

- Humanizm; Cəmiyyət təbəqələrə bölünür (o cümlədən, iqtisadiyyata münasibətdə də); iqtisadi münasibətlər – ailə münasibətləri eyniyyəti mövcuddur. Ağalıq → tabeçilik prinsipi ruhani "örtüyə" "bürünür": Təbəqələşmə - təbii obyektiv prosesdir və geridönüşü yoxdur. Cəmiyyət ali və aşağı ( fiziki işlə məşğul olanlar) təbəqələrdən təşkil olunur.

- "Orta yol" ideyası: Sərvət yığımı, onun bölgüsü və istehlakının prosessual qaydası kimi çıxış edir; sərvət toplama – mümkündür, qəbahət hesab olunmur, amma ifratçılıq qəbul edilmir. Yəni, sərvət toplama – sərhədlidir... Sərvəti nə çox, nə də az olmamalıdır. Sərvətin bölgüsündə bərabərlik mümkün deyildir. Eyni zamanda, kəskin qeyri – bərabərlik də qəbul edilməzdir. Sərvətin istehlakı isə mötədil olmalı, təmtaraqdan yan keçməlidir.

Müqayisə üçün, qeyd edək ki, xristianlıq birmənalı olaraq sərvət toplamanın əleyhinədir. Qurani – Kərimdə isə "orta yol" təbliğ edilir. Müsəlman – tərki –dünya olmamalıdır. Sərvətin qədrini bilməlidir. İfratçılıq – qınanır!

"Mömün bəndələrindən əmin olsaydım, kafirlərin tavanını gümüşdən, nərdivanlarını qızıldan düzətdirərdim" ayəsi ilə ifrat sərvətin yalnız kafirələrə verildiyi təsbit edilməkdədir.

- Tədricilik ideyası: Formalaşmaqda yaxud formalaşdırılmaqda olan yeniləşmə prosesinə şamil edilir. Məsələn, Çin sosialist təsərrüfat tipindən bazar iqtisadiyyatına keçiddə "şok terapiyasından" deyil, "qradualizm"dən istifadə etmişdir.

- Cəmiyyətdə harmoniyaya aparan yol ideyası: ümumirifah-eqoizmin, müharibə və oğurluğun yoxluğu, monolit vahidliyə çatmış cəmiyyət tipi; iqtisadi inkişaf vektorunun seçimi – onun cəmiyyətə və insana istiqamətlənməsi!

Artıq 2,5 min ilin ötdüyünə baxmayaraq, kon-

fuçiliyin məzmununda heç bir dəyişiklik baş verməmişdir. Bu fəlsəfə - müasir Çinin, eləcə də Yaponiya, Cənubi Koreya və ümumiyyətlə Asiyanın yeni sənaye ölkələrinin mental – praqmatik əsasları olmaqda davam edir.

Konfutsi rasionalizmi protestant təfəkkürdən əsaslı surətdə fərqlənir. Onun əsasında ədalətlilik və şəxsi münasibətlər dayanır: Ən alicənab insan - ən çox çalışan (cəmiyyətin mənafeyinə) insandır.

Konfuçilikdə - o dünya və "cənnət" yoxdur. Və belə bir vəd də verilmir. Sadəcə olaraq, qeyd etdiyimiz statusa (alicənablıq) yiyələnən insan sağlam və uzun ömür yaşayır (sərvətinin həcmi əsas deyil), ölümündən sonra da özü haqqında yaxşı xatirələr (yaddaş) buraxır.

Konfutsi əmin idi ki: "... İnsanlar təbiətin yolunu getməli, insanlar və ətraf mühitlə harmoniyada olmaldır... Bu – həyatda insanın başlıca məqsədidir"[28].

Göründüyü kimi, konfuçilik Avropa mənşəli yaranış olan "iqtisadi insan" abstraktsiyasını qəbul etmir. Konfuçiliyin iqtisadi proyeksiyasının əsas xarakterik cəhətlərinə aşağıdakıları aid etmək olar:

1) İqtisadiyyat və onun məqsədlərinə TAMlıq, bütövlük prizmasından yanaşma;

2) Sosial həmrəylik, sosio – mədəni identikliyin formalaşdırılması və təsərrüfat həyatının əsas istinad nöqtələri – hərəkətverici qüvvələri statusunda qəbulu;

3) "İtki – fayda" dixotomiyasının fövqündə dayanma; Əmək prosesinin motivasiyasının mental dəyərlərlə "yüklənməsi";

4) Keyfiyyət aspektinin ön planda tutulması; Kəmiyyətcə çoxalma – hələ keyfiyyət dəyişikliyi deyildir.

Bir sıra tədqiqatçılar qeyd edirlər ki, müasir "Şərq" dünyasına mənsub olan ölkələrin (Çin, Yaponiya, Honkonq, Cənubi Koreya və s.) böyük uğurlar qazanmasının kökündə konfutçilik fəlsəfəsi dayanır [4].

Məlum olan həqiqətlərdən biri onsan ibarətdir ki, induizm – monoteist çərçivəyə nəinki sığmır, heç aid də deyil və bu anlamda onun birmənalı qiymətləndirilməsi problemi mövcuddur.

Elmi camiədə induizmə münasibət kifayətqədər zidiyyətli xarakter daşıyır. Tədqiqatçıların bir qrupu hesab edir ki, induizm – bütpərəst deyimlərin yığını, xəstə insan təbiətinin dinidir... Digər qrup isə əminliklə qeyd edir ki, induizmi – yalnız Hindistanın böyük övladları anlaya və Tanrıya yüksələ bilər [12, s.123].

İnduizmdə - "elastiklik" (hətta, ateizmi də qəbul edir) – normal insan təxəyyülünün sərhədlərindən çox uzaqdadır. Ruhi – ideoloji yönümdə "yabançı" fikirlərə (oxu:dəyərlərə) heç bir məhdudiyyət yoxdur. Amma... cəmiyyətin sosial təşkilinin kasta sistemi və rituallarla bağlı hər hansı bir kompromisdən söhbət gedə bilməz. İnduizmdə - həqiqət iyerarxikdir. Onun ən dəqiq təcəssümü kasta sistemidir. Ç.Eliot yazır ki, "...induizm – dinlərin (sikxizm, caynizm, daoizm və s.) parlamentidir... üzv olmaq üçün, sadəcə brahmanlara ( ən yüksək iyerarxiya – kasta sistemində) hörmətlə yanaşmaq və Vedinin nəzəri müddəalarını qəbul etmək kifayətdir"[21].

İnduizm – tərəfdarlarının sayı baxımından – 1 mlrd. nəfərdən çox – dünyada 3-cü yeri (Xristianlıq və islamdan sonra) tutur. İnduizmin – təkcə Hindistanda deyil (əhalinin 87% - i), eləcə də qonşu ölkələrdə və hətta Qərb ölkələrində də tərəfdarları vardır...

Bununla belə, çox maraqlıdır ki, aparılan çoxsaylı tədqiqatlara baxmayaraq, bugünə qədər induizmin fəlsəfi, dünyagörüşü, mənatutumluğu sərhədlərini müəyyənləşdirmək mümkün olmamışdır. Bu aspekt induizmin iqtisadi proyeksiyasında da dərketmə diskomfortu yaradır.

Beləliklə, induizmin iqtisadi məzmunu "Artxaşastra" adlı qədim traktatda yer almışdır. Son dövrlərdə "Ruhani iqtisadiyyat" konsepsiyası populyarlaşmağa başlamışdır.

- Mülkiyyət və şəxsi mənafe anlayışlarına münasibət birmənalıdır və doğurdan da "xəstə insan" təxəyyülünün gəldiyi qənaət kimi səslənir: "... Sən öhdəliklərini yerinə yetirə bilərsən, amma... sənin əldə etdiklərin sənə məxsus deyildir... Bununla belə, öhdəliklərini yerinə yetirməlisən... Krişnaya xidmət edənlər kimi – doğum → ölüm dövriyyəsindən xilas olmanın yolu maddi dünyada fəaliyyətinin məhsullarından imtina etməkdir" [19]. Başqa sözlə, əmək prosesi – sırf dini dəyərlər kontekstindədir və ona əməl olunması mütləqdir. Lakin, prosesin nəticələri (istehsal edilmiş məhsul) sənə aid deyildir. Nəticələrə "bağlanmaq" insanı haqq yoldan azdırır. İnsan – heyvanla müqayisə edilir: Heyvanın heç nəyi yoxdur, hətta öz bədəninin də sahibi deyildir. Dahası da var: sahibi onu öldürəndə də, heyvan ona müqavimət göstərmir. Krişnanın nəzərində insan məhz belə olmalıdır. Bu cür dəyərin iqtisadi proyeksiyası, birmənalı olaraq rəqabətin şər olduğunu və ondan uzaqlaşmağın zəruriliyini ortalığa qoyur. İnsan özünə deyil, cəmiyyətə xidmət etməlidir. Amma, mahiyyətcə, inqilabi xarakter

daşıyan dəyişikliyin həyata keçmə mexanizmi necə olacaq? sualının cavabı yoxdur. Sabiq SSRİ – nin təcrübəsi bu qəbildən olan yanaşmaların nəyə yaxud nələrə gətirib çıxardığını çoxdan ortalığa qoymuşdur.

Digər bir "dəyər" – istehlakın minimal səviyyəyə qədər azaldılmasıdır. Yəni, insanlar "aza qane olarlarsa" resursların qıtlığı problemi kəskinləşməz. Amma... "aza qane olmaq" – nə deməkdir yaxud yarı – ac, yarı – tox yaşam tərzindənmi söhbət gedir – qeyri – müəyyəndir. Və bütün bunların hamısı, məcmu şəkildə həyata keçirilərsə, onda mütləq formada sinergetik effekt meydana çıxacaqdır... Hesab edirik ki, qismən də olsa, təsvir etdiyimiz "indus təxəyyülün" empirik təsbiti, sadəcə olaraq mümkünsüzdür. Həqiqətən də, utopik səciyyə daşıyan yanaşmanın gerçəkliyə transferi, elə onun özü kimi, utopik istək olaraq qalacaqdır.

Digər tərəfdən, yuxarıda da qeyd etdiyimiz kimi, sərvət pislənilir, amma cəmiyyətin kastalarıa bölgüsü məqbul hesab edilir. Buna rəğmən sosial bərabərlik ideyasına sadiqlik nümayiş etdirilir. Əslində isə, bərabərlik ideyası – kastadaxili (4 səviyyəli kasta sistemi) məsələ kimi ortalığa qoyulur... Daha tam təsəvvürün yaranması üçün qeyd edək ki, kasta sistemində ən yüksək səviyyə - Brahmanlardır. Tanrının yerdəki canişinləri. Bazar iqtisadiyyatında isə - indus yanaşma aspektindən – bir çox hallarda kastanın ən aşağı səviyyəsində duranlar – şudrlar (fiziki əməklə məşğul olanlar) cəmiyyətin liderinə çevrilə bilirlər... Hipotetik olsa da, anlaşılan bu ki, induizm – nəyin bahasına olursa – olsun kasıbın liderə çevrilməsini önləməklə mükəlləfdir.

Müəyyən fərqlərin olmasına baxmayaraq, Buddizmlə induizm arasında həm konseptual ideyalarla, həm də gündəlik yaşam tərzi ilə bağlı kəsişən xəttlər kifayət qədərdir. Elə induizmin tədqiqatçıları da, qeyd edirlər ki, buddizm – induizmin tarixi prosesdə ayrılmış qoludur [6]. Buddizmin əsasını qoyan Budda Şakyamuni induizmdə Vişna tanrısının təzahürlərindən biri hesab olunur. Buddizm – induizmi təltiş etmə yolu ilə bəzi fərqliliklər ortaya "çıxarmışdır": Məsələn, Kasta sistemi qəbul edilmir. İnsanı ucaldan etikasıdır, mənşəyi deyil;

Nəhayət sonuncu və ən mükəmməl din olan islamın konseptual mahiyyətini apardığımız müqayisəli təhlildə ərtaflı məzmunda əks etdirdik.

Dinin ictimai həyat üzərində proyeksiyasının doğurduğu mənzərənin ənənəvi iqtisadi yanaşmadan fərqli məzmun daşıdığını ümumiləşdirilmiş formada ifadə etməyi də məqsədəuyğun hesab edirik.

Blok – sxemdən göründüyü kimi, neoklassika və ümumiyyətlə, müasir dövrdə qərarlaşmış elmi baxış iqtisadi artımın faydanın maksimumlaşdırılması hesabına əldə edildiyindən və onun milli rifaha müsbət yönümlü təsirinin "spontan qayda" mexanizmi vasitəsilə gerçəkləşdiyindən tam şəkildə əmindir. Və biznes (iqtisadi subyekt, individium) özü bilməsə də, faydanın maksimumuna can atır və bu prosesdə paralel şəkildə tələbatların ödənilməsini həyata keçirir (özündən asılı olmadan). Eyni zamanda, hər iki yönümlü fəaliyyət birmənalı şəkildə rasional xarakter daşıyır. Bütün bunlar isə spontan qaydanın "diqtəsi" altında baş verir... Çox maraqlıdır. Sırf konretliklərdən ibarət olan hərəkət trayektoriyası abstrakt "örtüyə" bürünür. Sosio – iqtisadi gerçəkliyin ifadə etdiyimiz məzmunda nəzəri təsəvvürü – deduktiv əqli – nəticələrin dominant səviyyədə olduğunu ortalığa qoyur. Bu – artıq real deyil, nəzəri "gerçəklikdir". Bu "gerçəklikdə"canlı insanı görmək mümkünmü yaxud onu görə bilən varmı?

Axı, iqtisadiyyat "simasız" deyil!

Sosio – iqtisadi gerçəklikdən neoklassikanın anlaqdıları yaxud görə bildikləri – A.Marşallın dövründən bu yana – həmişə "yarımçıqlıq" xarakteri daşıyıb. Və bu "yarımçıqlıqdan" faydalanan yalnız və yalnız qlobal kapitaldır.




**Şəkil 1. İqtisadi reallığa "insani" baxış: neoklassik və islami yanaşmaların mahiyyət fərqliliyi**

Əməl, saleh (yaxşı) əməl – "Qurani – Kərimin" mərkəzi anlayışıdır. Müqəddəs kitab saleh əməl sahibi olanları müttəqi adlandırır: İnsan cəmiyyəti – saleh əməl sahibi olanların hesabına "insanlıq"

keyfiyyəti əxz edir. “Qurani – Kərim” [25] saleh əməlin məzmununu təfərrüatı ilə təsvir edir:

-Allaha, axirət – gününə, mələklərə, kitaba (Allahın nazil etdiyi bütün ilahi kitablara) və peyğəmbərlərə inanmaq;

- Mal – dövləti çox sevməyinizə baxmayaraq, malını (kasıb) qohum - əqrabaya, yetimlərə, yoxsullara, (pulu qurtarıb yolda qalan) müsafirlərə, dilənçilərə və qulların azad olunmasına sərf etmək;

- Namaz qılıb, zəkat vermək;

- Əhdinə sadiq olmaq;

- Ehtiyac yaxud xəstəlik zamanı, çətinliklə qarşılaşanda səbr etmək;

Digər bir ayədə isə saleh əməl anlamında tövsiyyələr yer almışdır: [25]

- Allahın sənə verdiyindən özünə axirət qazan;

- Dünyadakı nəsibini də unutma (qismətinin ancaq bir kəfən olduğunu bil);

- Pulunu mənasız yerə sağa – sola səpələmə;

- Səhhətinin, sərvətinin, gəncliyinin qədrini bil;

- Allah sənə sərvət verməklə yaxşılıq etdiyi kimi, sənə də yaxşılıq et (varından yoxsullara xərcləməklə);

- Yer üzündə fitnə - fəsad törətməyə cəhd göstərmə islama görə kamil iman -saleh əməllə ibadətin vəhdətidir.

**Yekun mülahizələr**

Sübut etməyə ehtiyac yoxdur ki, istənilən cəmiyyətdə əmək və yoxsulluq anlayışlarına münasibətin dəyərtutumu, yəni konkret mənası dini inancdan qaynaqlanır. Məlumdur ki, XVII əsrin ortalarına qədər (1648 – ci il) din hər şeyin və hamının dəyər “ölçüsü” kimi çıxış edirdi. Protestant “çevrilişi” və “milliliyin” ön plana çıxışı dinin, ilkin olaraq Qərbi Avropada Katolik kilsəsinin və onun yaratdığı Müqəddəs Roma imperiyasının, hakimi – mütləqliyinə son verdi. Lakin...bütün qərb cəmiyyətlərinin təfəkkür tərzlərinin dini məzmunluluğunda əsaslı bir dəyişiklik olmadı.

Əksinə, bu dövrdən sonrakı tarixi inkişaf mərhələlərində, elə bugünə qədər milli dəyərlər, milli mentallıq adlananların formalaşma mənbəyi məhz həmin cəmiyyətin mənsub olduğu dini inancdır. Bu prosesdə şüuraltı təlqin və intuitiv konkretləşmələr mühüm rol oynamışdır...

Bu aspektdən yanaşdıqda, anlamamaq mümkün deyildir ki, iqtisadi elminin ilkin sistemli yaranışı – klassik siyasi iqtisad – nəzəri konstruktsiya olmaq etibari ilə - xristian mənşəlidir. Ümumiyyətlə, əksər monoteist dini cərəyanlarda iqtisadiyyatın əmək modeli təbliğ edilir. Bununla bahəm, yaşam standartlarının konkret məzmunu və sərhədləri (sərvətə münasibət prizmasından), elə həmin konkretliliklə müəyyənləşdirilir.

İbrani dinlər (İbrahimindən gələn) arasında sıx bağlılıq mövcuddur. Bağlılığın ana xətti:

Qanun → həqiqət → əməl üçlüyünü ehtiva edir. Moiseyin Qanunları insanın yalnış əməlini məhdudlaşdıran qadağaları əks etdirir. Xristosun gətirdiyi əməldə həqiqətin məzmun açıqlanmasıdır. Məhəmməd – Mustafanın təbliğ etdiyi, hər iki istinad sütununa uyğun gələn əməlin salehliyidir. Başqa sözlə, monoteist din – insani həyat tərzinin konstitutsiyasıdır. Məhz buna görə də, islam – sonuncu din, onun peyğəmbər də sonuncu peyğəmbər hesab olunur.

İstinad etdiyimiz üçlük cəmiyyətdə birgə yaşayış qaydalarının insanlıq (oxu:rasional) sərhədlərini və hər cür fəaliyyətin (o cümlədən, iqtisadi) məna yükünü formalaşdırır. Təfsilata varmadan da, öz – özlüyündə aydındır ki, üçlüyün bütün təfərrüatı, olduğu kimi reallaşdırıla bilsə idi, onda sözün bütün mənalarında ideal – insan cəmiyyəti qurulardı. Amma, sözügedən ideallıq gələcəkdə mümkündürmü? sualına cavabda yekdil yanaşma yoxdur. Evanqelie və Qurani – Kərim bunun mümkün olmayacağını, əksinə - situasiyanın getdikcə pisləşəcəyini və dünyanın sonunun gələcəyini yazır: Dünyanın sonunu da dünyanın özü (yəni, insanlar) gətirəcəkdir. İudaizm də apokalipsisin olacağını deyir, amma bu, dünyanın sonu olmayacaqdır. Xilaskar gələcək və mütləq ədalətli cəmiyyət formalaşacaqdır.

Elmi yanaşmaların böyük əksəriyyətində irrasionalizm- dinin az qala əsas keyfiyyət xarakteristikası kimi təsvir olunur; Dini deyimlər elmi prizmadan sübut edilən deyil; Deyimlər – ehkam xarakterlidir və s. Bu qəbildən olan baxışların geniş yayılmasının kökündə dini dəyərlərin mistik kontekstdə interpretasiyasına istinad edilməsi dayanır.

İqtisadi fəaliyyətlə bağlı dini baxışların strukturu, araşdırmalarımızın da göstərdiyi kimi, tam fərqli təsəvvür formalaşdırır;

1) İnsan həyatının mənası – faydanın maksimumlaşdırılmasında, israfçı istehlakda deyil;

Tarixi təcrübə birmənalı şəkildə təsbit edir ki, bu yönümdə tətbiq edilən “nəyin bahasına olursa, olsun” prinsipi – inkişafın sosial və ekoloji əsaslarını dağıtmaqla – cəmiyyəti məhvə aparır. İqtisad elmində faydanın maksimumlaşdırılması rasional hərəkət hesab olunur. Başqa sözlə, cəmiyyəti məhvə

aparan hərəkət – rasionaldır tipli bir "aksioma" ortalığa qoyulur.

2) Əhdi-ətiq (Noviy zavet) və ələlxüsus, Qurani – Kərimdə faydalılığın (oxu: iqtisadi artımın) sərhəddi var və o tələbatların tam şəkildə ödənilməsi səviyyəsi ilə üst – üstə düşür. Sərvət toplama – günah deyil, əgər,

1. Halal zəhmətlə toplanırsa; və 2. Sərvətə vurğunluq, acgözlük, hərislik və s. tipli neqativlərlə müşaiət olunmursa;

Amma, ən doğru yol(varlı/kasıb bölgüsündə) "orta yoldur". Qurani – Kərimdə bu aspektdən spesifik bir yanaşma da mövcuddur: "... Mömin bəndələrimdən arxayın olsaydım, kafirlərin evlərinin tavanını qızıldan, nərdivanını da gümüşdən düzəldərdim". İfrat varlılıq – insanların imanına, insani fəzilətlərə mənfi təsir göstərir. Eyni zamanda, islam Peyğəmbəri "...harada yoxsulluq varsa, orada kafirlik vardır" demişdir. Yəni, hər iki qütb – varlılıq və yoxsulluq – təqdir edilmir və bu qütblərin mövcud olduğu cəmiyyətin "insani siması" görünməz hala gəlir; Bu cür baxışları "işsizliyin təbii səviyyəsini" (?) aksioma kimi qəbul edən iqtisad elmi anlama qabiliyyətində deyildir.

3) Din – cəmiyyət həyatında sosial mühafizəni ən üst qatda yerləşən prinsip kimi qəbulunu tövsiyyə edir: Tələbatından artıq qalan hissəni ehtiyacı olanlar arasında bölüşdür. Cəmiyyət daxili yaşayış standartları arasındakı fərqi "neytrallaşdırmaq" məqsədi ilə Qurani – Kərimdə Ulu Tanrının müraciəti yer almışdır: "... Yoxsullar – mənim qohum - əqrabalarımdır. Onlara baxın". İqtisad elmi üçün sosial mühafizənin yalnız bir funksiyası var: iqtisadi artıma əngəl yaratma iqtidarında olan makrososial sabitliyin pozulmamasına xidmət göstərmək və s.

İndi, bu deyimlərin (təsbitlərin, tövsiyyələrin) hansı ehkamçı xarakterlidir, sübut edilən deyil və irrasionaldır? Əslində, həqiqi, gerçək rasionalizm məhz bu deyimlərdə yer alır. İqtisad elmi, insanı "parçaladığı" (iqtisadi insan) kimi, rasionalizmi də "özəlləşdirir".

Rasionalizm – sosial hərəkətin məqsədə doğru zamanca ən qısa və ən az məsrəflə gedişidir. Onu "iqtisadiləşdirmək" anlayışın gerçək mahiyyətini deformasiyaya uğradır...

Məqsəd - ən ali formada – insan cəmiyyətinin insan kimi yaşayan cəmiyyət səviyyəsinə yüksəlişidir. Bu aspektdən cəmiyyətin sahə və sferaları həmin rasional sərhədlər çərçivəsində məqsədə doğru hərəkətdə olurlar. Yəni, rasionalizm – bütövlükdə sosial hərəkətə xas olandır. İqtisadi hərəkət də - bu məcmuluqda olanlardan biridir. Və rasionalizmi – faydanın maksimumlaşdırılması dərəcəsi ilə ölçmək – gerizəkalılıqla çulğalaşmış "separatçılıqdan" qeyri bir məna kəsb etmir...

**Açar sözlər:** *din, irrasionalizm, iqtisadiyyat, mentallıq, cəmiyyət, inkişaf.*

## ƏDƏBİYYAT SİYAHISI


*1. Canetti, E. Kütlə və hakimiyyət. Bakı: 2016,- s.181*

*2. Feyzullabəyli, İ. Bayramov, Ə. İslam: sosial – iqtisadi münasibətlər. Bakı:2008, səh. 82-83*

*3. Kissencer, H. Dünya düzəni. İstanbul, 2016*

*4. Белик, А. Экономическая антропология// Экономический Журнал. 2010.№4.*

*5. Бергер П. Капиталистическая революция/ - М.:1994, -стр.146*

*6. Бонгард, Г. Древнеиндийсткая цивилизация// М.:1993*

*7. Ванюкова И.А. Влияние религиозных ценностей на экономику и её развитие // Современные научные исследования и инновации. 2015. № 6.*

*8. Вебер, М. Избранные произведения: Пер. с нем./Сост., общ. ред. и послесл. Ю.Н. Давыдова; Предисл. П.П. Гайденко. — М.: Прогресс,1990*

*9. Гараджа, В. Социология релегии/- М.:1996,- стр.168*

*10. Дюркгейм, Э. Элементарные формы религиозной жизни : тотемическая система в Австралии / Эмиль Дюркгейм ; пер. с франц. В. В. Земсковой ; - Москва : Элементарные формы, 2018*

*11. Лоуренс Харрисон: Главная истина либерализма: Как политика может изменить культуру и спасти ее от самой себя/ М.:2008 г. - стр.282*

*12. Мезенцева, О,В. Роль индуизма в идеологической борьбе в современной Индии. М.: 1986, -с.123*

*13. Основы Социальной концепции РПЦ. VI.4.VI.6*

*14. Пиличев, А. Образы экономических отношений собственности и тарговли в священном писании ветхого завета// Вестник (Екатеринбуртской духовной семинарии). Вып.1. – 2011*

*15. Рязанов, В. Роль религиозной этики в формировании этно-экономических*

*(национальных) систем хозяйствования, Проблемы современной экономики, N 3 (27), 2008*

*16. Смит, А. Исследование о природе и причинах богатство народов. М.:2007*

*17. Толковая Библия, или комментарий на все книги Св. Писания Ветхого и Нового Завета. Т.10. СПБ:- 1912 (ier. 22:13).*

*18. Azzi, L., Ehrenberq, R. Household Allocation of time and church attendance\\The Journal of Political Economy\-vol.83,-1975*

*19. Bhagavad Gita I Chapter 2 Verses 48 51 I Swami Sarvapriyananda*

*20. Dobbelaere,K. Secularization: a Multi – Dimensional Concept\\ Current sociology, 1981,- v.29*

*21. Elliot, Ch. Hinduism and Buddhism. An Historical Sketch. – vol.1. 1957*

*22. Jannaccon,L. Introduction to the Economics of Religion \\ Journal of Economic Literature/ -1998, -vol.36*

*23. Weber, M. The Protestant Ethic and the Spirit of Capitalism. -1905*

*24. Zannoccone,L.Introduction to the Economics of Religion//Journal of Economic Literature:Vol.36,1998*

***Elektron resurslar***

*25. Qurani–Kərim/ əl- Qəsəs, 77 – ci ayə, əl – Bəqərə surəsi, 177-ci ayə, əl – Bələd surəsi, 4 – cü ayə, ən –Nəhl surəsi, 71 – ci ayə, Əş –Şura surəsi, 27-ci ayə, ət – Tövbə surəsi, 35-ci ayə;əl – Huməzə surəsi, 9 – cu və 10 – cu ayələr, əl –Furqan surəsi, 67-ci ayə, əl – İsra surəsi, 29-cu ayə \https://www.academia.edu /4138475/Quran_Tercumesi_ Ziya_B%C3%BCnyadov*

*26. Библия (Синодальный перевод). Бытие 49:25-26, Бытие – 12.5, 13:2, 3:19, Левит- 26:3 – 13; Число 36:7; Левит – 25:23 :Мф.5:16; Иак. 2:17, Второзаконие 28:1 – 13, Vtor. 24:14-15/ Мф.5:40-41)https://www.biblegateway.com/*

*27. Ветхий Завет. Прогматичность и добродетельность/[элект.ресурс]/ econ.wikireading.ru/hD*

*28. Конфуцианство: путь гармонии и справедливости/ [элект.ресурс]http//www. tvoyhram.ru/ daosizm*

*29. Послание К Евреям. / intern. Resurs/ bible.ru.org/Hebrews*

## РЕЗЮМЕ

**Д.э.н. проф. А.И.Байрамов**
***Азербайджанский государственный университет экономики***
***Email:avazbayramov61@gmail.com***

## РЕЛИГИЯ И ЭКОНОМИКА: РАЦИОНАЛЬНЫЕ ГРАНИЦЫ НОРМАТИВНОСТИ

Полярность существующих концептуальных взглядов на проекцию религии на экономическую жизнь чрезвычайно широка.

Основная цель статьи - оценить адекватность концептуального толкования религии → экономического отношения действительности и дать теоретическое обобщение.

Методология исследования основана на общепринятых методах и приемах социального познания.

Обоснованность результатов, полученных в процессе исследования, имеет аксиоматическое содержание: место и роль религиозных ценностей в социально-экономической сфере актуальны и сегодня.

**Ключевые слова:** *религия, иррационализм, экономика, менталитет, общество, развитие.*

## SUMMARY

**Doctor of Economics Prof. A. I. Bayramov**
***Azerbaijan State University of Economics***
***Email: avazbayramov61@gmail.com***

## RELIGION AND ECONOMY: RATIONAL BORDERS OF NORMATIVITY

The polarity of the existing conceptual views on the projection of religion on economic life is extremely wide.

The main purpose of the article is to assess the adequacy of the conceptual interpretation of religion → economic relations to reality and to provide a theoretical generalization.

The research methodology is based on generally accepted methods and techniques of social cognition.

The validity of the results obtained in the research process has an axiomatic content: the place and role of religious values in the socio-economic sphere is still relevant today.

**Keywords:** *religion, irrationalism, economy, mentality, society, development*

**UOT: 330.342**

# DAVAMLI İNKİŞAF KONSEPSİYASININ FORMALAŞDIRILMASININ XARAKTERİK XÜSUSİYYƏTLƏRİ

**ANAR ABBASOV**
*Azərbaycan Kooperasiya Universitetinin "Biznesin təşkili, dövlət və bələdiyyə idarəetməsi" Kafedrasının professoru, iqtisad elmləri doktoru*

*E-mail: anar1973@mail.ru*

XX-ci əsrin 50-80-ci illərində istehsalın və istehlakın maksimumlaşdırılmasına istiqamsətlənmiş tədbirlər dünya çapında məhsul istehsalı və satışının həcminiun sürətlə artmasına əlverişli şərait yaratmışdır ki, bütün bunlar isə son nəticədə ətraf mühitə dəyən zərərlərin səviyyəsinin yüksəlməsi ilə səciyyələnmişdir. Məhz belə bir tendensiyanın fasiləsiz xarakter daşıması davamlı inkişaf konsepsiyasının yaranmasında əhəmiyyətli rol oynamışdır. Beləliklə dünya çapında davamlı inkişaf konsepsiyasının yaranması beynəlxalq münasibətlər sistemində sosial-iqtisadi problemlərin aradan qaldırılması fonunda həyata keçirilən tədbirlərin ekoloji balansın qorunub saxlanılması ilə uzlaşdırılması zərurətini doğurmuşdur. Davamlı inkişaf konsepsiyasının formalaşdırılması iqtisadi təhlükəsizliyin təmin edilməsi və cəmiyyət üzvlərinin yaşam ehtiyaclarının təmin edilməsi, eləcə də ekoloji balansın qorunub saxlanılması zərurətindən irəli gəlir. Davamlı inkişaf konsepsiyasının formalaşdırılması kifayət qədər mürəkkəb bir proses olub dövlət və özəl tərəfdaşlıq sisteminin effektiv inteqrasiyası əsasında reallaşdırıla bilər. Davamlı inkişaf konsepsiyasının formalaşdırılması iqtisadi səmərəliliyin təmin edilməsinə xidmət etməklə yanaşı eyni zamanda sosial və ekoloji səmərəliliyin qorunub saxlanılmasını da nəzərdə tutur. Davamlı inkişaf konsepsiyasının formalaşdırılması iqtisadi potensialın bütün elementlərindən səmərəli istifadə etməklə yanaşı həm də gəlirlərin ədalətli bölgüsünü, iqtisadi geriliyin aradan qaldırılmasını, iqtisadi və sosial qeyri-bərabsərliyin aradan qaldırılmasını nəzərdə tutur. Əslində davamlı inkişaf konsepsiyasının formalaşdırılması cəmiyyətdə sosial və ekoloji təhlükəsizliyin qorunub saxlanılmasını, eyni zamanda iqtisadi səmərəlilik, sosial ədalət və ekoloji səmərəlilik prinsipləri arasında optimal əlaqənin və inteqrasiya münasiblərinin reallaşdırılmasına xidmət edir.

Davamlı inkişaf konsepsiyasının hazırlanması prosesi həm də elmi ETT-nin ən yeni nailiyyətlərinin istehsala tətbiqi nəticəsində yaranan destruktiv tendensisyaların ekoloji fəlakət həddinə çatması zəmnində baş verən təhlükələrin qarşılanması ilə sıx əlaqədardır. Davamlı inkişaf termini ilk dəfə 1987-ci ildə BTM-nin Ətraf mühit və İnkişaf Üzrə Ümumdünya Komissiyasının "Ortaq gələcəyimiz" adlı hesabatında istifadə olunmuşdur [1]. Davamlı inkişafa nail olmaq üzrə dövlətin öhdəlikləri BMT-nin Ətraf Mühit və İnkişaf Üzrə Konfransında (iyun 1992. Rio-de Janeyro) qəbul edilmiş Bəyannaməsində qeyd edilmişdir. 1995-ci ildə BMT-nin Davamlı İnkişaf üzrə Xüsusi komissiyası tərəfindən davamlı inkişafı xarakterizə edən göstəricilər 4 qrupda təsnifləşdirilmişdir:

- davamlı inkişafın sosial göstəriciləri (yoxsulluğun azaldılması, demoqrafik göstəricilərin dinamikası və inkişafın davamlılığı, təhsil proqramlarının inkişafı, insanların sağlamlığının qorunması);
- davamlı inkişafın iqtisadi göstəriciləri (maliyyə resursları və ondan səmərəli istifadə edilməsi, ekoloji cəhətdən təmiz texnologiyaların transferi);
- davamlı inkişafın ekoloji göstəriciləri (su ehtiyatlarının keyfiyyətinin yaxşılaşdırılması, ökeanların, dənizlərin və sahilyanı ərazilərin mühafizəsi, əhalinin içməli su təminatı, kənd yerlərinin davamlı inkişafının təmin edilməsi, səhralaşmaının qarşısının alınması, biomüxtəlifliyin qorunması, ekoloji cəhətdən təmiz biotexnologiya);
- davamlı inkişafın institutsional göstəriciləri (qərarların qəbul edilməsində ekoloji maraqların və inkişaf prinsiplərinin inteqrasiyası) [2];

Davamlı inkişaf konsepsiyasının yaranmasının şərtləndirən ilkin amilləri ilk növbədə təbiətə antropogen təsirlərin daha da güclənməsi fonunda insanların iqtisadi fəaliyyətinin həyata

keçirilməsində ekoloji təhlükəsizliyin qorunub saxlanılması və cəmiyyətin sosial ehtiyaclarının davamlı şəkillərdən ödənilməsi ilə sıx əlaqədardır. Xüsusilə dünya əhalisinin sayının artması fonunda insanların ərzaq məhsullarına olan tələbatının ödənilməsində kifayət qədər çoxsaylı problemlər yaranmışdır və həmin problemlərin effektiv şəkildə aradan qaldırılması əslində davamlı inkişaf konsepsiyasının tətbiqini obyektiv zərurəti çevirmişdir. Müasir şəraitdə bəşər sivilizasiyasının inkişafına nail olunması ilk növbədə iqtisadi, ekoloji və sosial inkişaf amillərinin balanslaşdırılmasını zərurətə çevirməklə yanaşı, eyni zamanda iqtisadi sərvətlərin və resursların gələcək nəsillərə daha optimal şəkildə ötürülməsini tələb edir. Aparılan araşdırmalar göstərir ki, davamlı inkişaf konsepsiyasının meydana gəlməsini şərtləndirən amillər əslində ötən əsrin ortalarından etibaren cəmiyyətdə bu konsepsiyanın yaranmasına səbəb olan şərtlər zəminində meydana çıxmışdır. Belə ki, ötən əsrin ortalarından etibarən iqtisadi şaxələndirmə ideyasının meydana gəlməsi mahiyyət etibarilə əslində davamlı inkişafın formalaşdırılmasının ilkin klassik pastulatları kimi çıxış edə bilərdi. Kütləvi şaxələndirmə ideyasının yaranması ilk növbədə cəmiyyətdə baş verən istehsal münasibətlərinin və məhsuldar qüvvələrin inkişaf fonunda özünü büruzə versə də, daha çox bazar konyukturunda baş verən dalğalanmalardan, iqtisadiyyatın konkret kəsimlərinin daha çox təsirlənməsi ilə meydana çıxmışdır. Bazar strukturunda alternativ məhsulların və xidmətlərin olmadığı şəraitdə bütövlükdə ixrac fəaliyyəti konyuktur dalğalanmalarından daha çox asılı olur. Xüsusilə iqtisadiyyatın sahə və ərazi kəsimlərinin davamsızlığının artmasına səbəb olur. Dünyada iqlim dəyişikliklərinin, davamlı inkişafın, su resurslarının və energetika resurslarının iqtisadiyyatı üzrə ixtisaslaşmış iqtisadçı M.M.Sinxenin fikirincə, ötən əsrin ortalarında iqtisadi artım yalnız bir neçə inkişaf etmiş ölkədə özünü daha çox büruzə verirdi. Lakin bununla belə XX əsrin sonlarına yaxınlaşdıqca qloballaşma prosesinin təsiri altında dünya iqtisadiyyatında demək olar ki, praktik olaraq iqtisadi baxımdan genişlənmə halları müşahidə edilməyə başladı və iqtisadi artımın digər ölkələrə yayılması prosesi baş verdi. XX əsrin ortalarından XX əsrin sonlarına qədər dünyanın iqtisadi cəhətdən inkişaf etmiş ölkələri sırasına Kanada, Yaponiya, Cənubi Koreya və digər Asiyanın bir sıra ölkələri daxil olmağa başladı ki, bu da bütövlükdə iqtisadi cəhətdən inkişaf trayektoriyasının dünya boyu səpələnməsini şərtləndirdi. Əslində bu tip səpələnmə XX əsrin ortalarından 20-ci əsrin sonlarına qədər baş versə də, səpələnmə nin mahiyyəti istər inkişaf etmiş ölkələrdə və istərsə də inkişaf etməkdə olan ölkələrdə yalnız iqtisadi səmərəliyə yönəlmiş iqtisadi inkişaf proseslərini əhatə edirdi. İqtisadi səmərəliliyin təmin edilməsi isə əslində bazar iqtisadiyyatının ən mühüm prinsiplərindən biri olmaqla yalnız və yalnız iqtisadi sərvətin artırılması nəzərdə tuturdu. Yalnız iqtisadi sərvətin artırılmasına istiqamətlənmiş tədbirlər sistemi ekoloji dayanıqlığın qorunmasını təmin etmir və cəmiyyətin sosial ehtiyaclarını tam mənası ilə ödəmək iqtidarında olmurdu. Xüsusilə digər transmilli şirkətlərin daha çox iqtisadi səmərəlik uğurunda çarpışmaları bütövlükdə milli iqtisadiyyat çərçivəsində dayanıqlı iqtisadi səmərəlik əldə edilməsinə imkan vermirdi. Dayanıqlı iqtisadi səmərəliliyin əldə edilməsi o halda cəmiyyət üçün sərfəli ola bilərdiki, bu prinsip daha çox cəmiyyətin bütün təbəqələrinin sosial ehtiyaclarının ödənməsinə və zamanda ekoloji balansın qorunub saxlanılmasına xidmət edir [3].

Bütün bu tendensiyaların nəticəsi idi ki, adı çəkilən iqtisadi platforma qloballaşma prosesinin sürətləndiyi 20-ci əsrin sonlarından etibarən demək olar ki, bu dalğanın dünya iqtisadiyyatına tam mənası ilə nüfuz etməsinə gətirib çıxardı. XX əsrin ortalarından XX əsrin 90-cı illərinin əvvəllərinə qədər mövcud iqtisadi ədəbiyyatlarda əksər təhlillərdən belə qənaətə gəlmək mümkün idi ki, yalnız iqtisadi sistemin effektivliyini və ümumbəşəri sosial rifahın yüksəldilməsinə yol aça bilən tendensiya kimi iqtisadi səmərəlilik ön plana çəkilirdi və hesab edilirdi ki, iqtisadi səmərəliliyin təmin edilməsi mahiyyət etibarilə dünyada iqtisadi və sosial bərabərsizliyin qarşısının alınmasına son qoya bilən yeganə istiqamət ola bilər [4]. Ötən əsrin 80-ci illərində N.P.Federonko və N.F.Reyman hesab edirdi ki, dünyanın sənayecə inkişaf etmiş ölkələrində təbii sərvətlərin istehlakının qeyri-mütənasiblik xarakter daşıması nəticə etibarilə təsərrüfat fəaliyyətinin iqtisadi və səmərəliyinə əhəmiyyətli dərəcədə mənfi

təsir göstərir və bunun nəticəsidir ki, dünyanın ayrı-ayrı ölkələrində iqtisadi səmərəlik səviyyəsi bir-birindən kəskin şəkildə fərqlənir [5].

Adı çəkilən müəlliflərin fikirləri ilə tamamilə razılaşmaq mümkündür ki, ötən əsrin 60-cı illərində iqtisadi artımın təmin edilməsi əsas etibarilə istifadə olan təbii resurslardan tam mənası ilə balanssızlıq zəminində istifadə etmə halları yaranmışdır və bütün bunlar isə tam mənası ilə dünya iqtisadiyyatında ekoloji fəlakətin yaranma ehtimallarını tamamilə özündə birləşdirmişdir. Bütün bunlara baxmayaraq XX əsrin 70-80-ci illərində bütünlüklə mütərəqqinin tərəqqinin ən yeni nailiyyətlərin istehsalata tətbiqi, eləcə də yeni məhsul və texnologiyaların, elmi-texniki kəşflərin tətbiq edilməsi zəminində meydana çıxması və atom enerjisindən istifadə hallarının genişlənməsi, eləcə də kənd təsərrüfatında və aqrar sahədə mineral gübrələrdən istifadə hesabına intensivləşmə səviyyəsinin yüksəlməsi və məhsul istehsalın artırılmasına istiqamətlənmiş tədbirlərin gerçəkləşdirilməsi demək olar ki, ekoloji problemlərin yaranması ilə bağlı meydana çıxan fəlakət sindromunu bu və ya digər şəkildə arxa plana keçməsinə gətirib çıxarmışdır.

1900-1909-ci illərdə dünya iqtisadiyyatında artım 100% həddində baş vermişdirsə, 1910-1919-cu ildə bu artımın səviyyəsi 128%, 1923-29-cu illərdə 120%, 1930-39-ci illərdə və eləcə də 1940-49-cu illərdə 20% hədlərində olmuşdur. 1950-1959-cu illərdə dünya iqtisadiyyatında artım səviyyəsini 138%-ə çatmış, 1960-1969-ci illərdə iqtisadi artımın səviyyəsi 158%-ə, 1970-1979-ci illərdə iqtisadi artımın səviyyəsi 178%-ə, 1980-1989-cu illərdə iqtisadi artımın səviyyəsi 137%-ə, 1990-1999-cu illərdə isə dünya iqtisadiyyatında artımın səviyyəsi 131%-ə civarında baş vermişdir. Beləliklə, şəkilin məlumatların da belə qənaətə gəlmək olar ki, 1960-1980 ci illərdə dünya iqtisadiyyatında artımın səviyyəsini 157-158% civarlarında baş vermişdir ki, bu da bütövlükdə son 100 il ərzində ən yüksək iqtisadi artımın təmin olunması dövrü kimi də xarakterizə oluna bilər. Etiraf etmək lazımdır ki, yüksək iqtisadi artımını bütün hallarda təbii resurslardan maksimum istifadə edilməsi və eləcə də bir sıra hallarda qeyri-bərabər istifadə və iqtisadi səmərəliliyin aşağı düşməsi ilə şərtlənir və nəticə etibarilə ətrafını da kifayət qədər zərərlərin vurulması ilə səciyyələnir. 1970-ci illərdən etibarən iqtisadi artımın sərhədlərinin müəyyənləşdirilməsi ilə bağlı elmi ideyaların formalaşdırılmasına başlandı. İqtisadi artımın sərhədlərin müəyyənləşdirilməsi ilk növbədə dünyada baş verən mövcud tendensiyaların qiymətləndirilməsi, o cümlədən insanların sayının artımı təbii resurslardan istifadə, kənd təsərrüfatının sənayeləşməsi ətraf mühitin çirklənməsi kimi mövcud tendensiyaları nəzərə almağa yönəlirdi. XX əsrin əvvəllərinə olan mövcud qiymətləndirmələrə görə əslində adıçəkilən tendensiyalar içərisində təbii resursların tükənməsi və eləcə də insanların sayının artması, müxtəlif xəstəliklər və epidemiyaların miqyasının genişlənməsi halları baş verdi ki, bütün bunlarda dünyada iqtisadi və sosial böhranın hədlərinin daha da genişlənməsinə gətirib çıxardı. Əslində davamlı inkişaf konsepsiyasının formalaşdırılmasını səciyyələndirən müxtəlif amillər ilk növbədə orqanik iqtisadi artım konsepsiyası, eləcə də dinamik tarazlıq konsepsiyası və digər bu kimi konsepsiyaların yaranması ilə şərtləndi. XX əsrin sonlarından etibarən əslində ənənəvi iqtisadi modelin başlıca elementini özündə əks etdirən fasiləsiz iqtisadi artım konsepsiyası demək olar ki, davamlı iqtisadi artım və eyni zamanda orqanik iqtisadi artımla paralel şəkildə reallaşdırmağa başladı və onu əvəzlədi. Ölkə iqtisadiyyatının davamlı inkişafına nail olunması ilk növbədə onun təsərrüfat subyektlərinin davamlı iqtisadi inkişafı ilə səciyyələnir. Makroiqtisadiyyat müxtəlif mikro təsərrüfat subyektlərinin üzü birliyini özündə əks etdirir. Odur ki, hər bir müəssisənin davamlı inkişafına nail olunması, o cümlədən sənaye müəssisələrində iqtisadi artımın təmin edilməsi məhz rəqabət qabiliyyətili iqtisadi münasibətlər sisteminin formalaşdırılmasını nəzərdə tutur. Ümumiyyətlə, hər bir dövlətdə davamlı iqtisadi inkişaf meyllərindən nail olunması məqsədi ilə təsərrüfat subyektlərinin rəqabətqabiliyyətli məhsul istehsal etməsi və onun dünya birliyində möhkəmlənməsi vacib şərtlərdən biridir. Bütün bunlar isə ilk növbədə müəssisənin davamlı inkişafının reallaşdırılmasını obyektiv zərurətə çevirir. İqtisadiyyatın sahələrinin və ərazi kəsimlərinin davamlı inkişafına nail olmadan bütövlükdə ölkənin iqtisadiyyatında davamlı inkişafa nail olmaq mümkün deyildir. Qeyd olunan

mülahizələr bir sıra iqtisadçıların əsərlərində də özünü obyektiv şəkildə büruzə verə bilmişdir. Onu da nəzərə almaq lazımdır ki, müəssisənin davamlı fəaliyyətinin təmin edilməsi ilk növbədə onun innovasiya aktivliyini qorunub saxlanılmasından və eləcə də təbii resurslardan istifadə ilə bağlı xərclərin optimallaşdırılmasından da əhəmiyyəti dərəcədə asılıdır və bütün bunlar təsərrüfat subyektlərinin və şirkətlərinin maliyyə davamlılığının təmin edilməsində başlıca prinsip sayılmalıdır. Göstərilən prinsiplər rus iqtisadçısı T.V.Kolosovanın fikirlərində özünü aşkar şəkildə biruzə verir. Müəllif hesab edir ki, mülkiyyət mənsubiyyətindən aslı olmayaraq təsərrüfat subyektlərinin davamlı iqtisadi fəaliyyət gerçəkləşdirməsi əslində davamlı inkişafın fasiləsizliyinin təmin edilməsinə əsaslanır və bu zaman bazar konyukturunun da baş verən dəyişikliklər nəzərə almalı və müəssisənin rəqabət qabiliyyətinin təmin edilməsi məqsədi ilə innovasiya potensialından geniş və səmərəli şəkildə istifadə edilməlidir [6]. Q.Koryekovun fikrincə əslində davamlılıq dedikdə mülkiyyət mənsubiyyətindən aslı olmayaraq hər bir təsərrüfat subyektinin təsərrüfat fəaliyyətinə təsir edən daxili və xarici mühit amillərinin zərərli təsirlərini effektiv şəkildə neytrallaşdırmaq qabiliyyəti və eyni zamanda vaxtında qəbul edilmiş idarəetmə qərarlarının əsasında bazar yönümlü dəyişikliklərə effektiv reaksiya göstərmək imkanları nəzərdə tutulur [7].

Beləliklə, yuxarıda qeyd edilənləri ümumiləşdirib konkret olaraq belə qənaətə gəlmək mümkündür ki, hər bir sosial iqtisadi sisteminin dayanıqlığının xarakterizə edən ən mühüm arqumentlərdən biri həmin sistemin ayrı-ayrı elementlərinin mövcud şəraitə adekvat reaksiya göstərməsi, eləcə də təsərrüfat subyektlərinin və konkret olaraq regionların, sosial-iqtisadi inkişafında fasiləsizliyinin təmin edilməsi başa düşülür. Xüsusilə davamlı inkişafın əsasını dayanıqlıq təşkil edir ki, bu da ilk növbədə iqtisadi kateqoriya olub digər kateqoriyalarla, o cümlədən davamlı inkişaf və davamlı strateji inkişaf anlayışları ilə sıx əlaqədardır. V.A.Ximericekin fikrincə inkişaf əslində sistemi elə bir vəziyyətini nəzərdə nəzərdə tutur ki, bu zaman sistemin fəaliyyətindən zəruri keyfiyyət dəyişiklikləri baş verir və zaman keçdikcə həmin qanunauyğun proses dönməz və fasiləsiz bir məsələyə çevrilmək ilə məqsədə uyğun artım meyllərini özündə əks etdirir [8].

Əslində iqtisadi ədəbiyyatlardan məlum olduğu kimi inkişaf əslində zamanın və sürət baxımından kifayət qədər fərqli xarakterə və fərqli səviyyəyə malikdir. Bu baxımdan inkişafın əslində ekstensiv və intensiv növləri də fərqləndirilir. Ekstensiv inkişaf məlum olduğu kimi ilk növbədə istehsal və xidmət sahələrinin genişləndirilməsini, işçilərin sayının artırılmasını və bütövlükdə avadanlıqların və qurğuların sayının artırılması hesabına məhsul istehsalına və xidmətlər göstərilməsini səviyyəsinin yüksəldilməsini nəzərdə tutur və bu sahədə əldə olunan artım meyllərini özündə əks etdirir. İntensiv inkişaf isə demək olar ki, tamamilə fərqli bir anlayışı olub əsas etibarilə istehsal vasitələrindən səmərəli istifadə edilməsini, yeni texnika və texnologiyaların iqtisadiyyatda tətbiq edilməsini nəzərdə tutur. Əslində intensiv inkişaf üçün ən mühüm xarakterik cəhət məhsuldarlığının səviyyəsinin artırılması və investisiya qoyuluşlarının təmin edilməsidir. İntensiv inkişaf hesabına bütövlükdə əmək məsullarının yüksəldilməsinə nail olmaq mümkündür və bu da məhsul vahidinə çəkilən xərclərin həcminin azaldılması özündə ehtiva edir. Digər hər bir ölkənin iqtisadiyyatını bütövlükdə makro iqtisadi sistem kimi xarakterizə etsək, belə qənaətə gəlmək olar ki, ölkənin davamlı iqtisadi inkişafına nail olunması həmin ölkə iqtisadiyyatını formalaşdıran istehsal və xidmət sahələrinin, eləcə də bank sektorunun, biznes qurumlarının kommersiya müəssisələrinin davamlı inkişafının təmin edilməsindən keçir. Belə bir şəraitdə hər bir mülkiyyət məzuniyyətindən aslı olmayaraq təsərrüfat subyektinin, təsərrüfat-maliyyə fəaliyyətinin dayanıqlığının təyin edilməsi və eləcə də onun iqtisadi səmərəlilik göstəricilərinin rentabellik səviyyəsinin yüksəldilməsinə nail olunması son nəticədə iqtisadi sistemin tam mənası ilə davamlı inkişafının təmin edilməsi deməkdir. Firma və şirkətlərin çoxluğu və onların məcmusu ölkənin makroiqtisadiyyatın formalaşdırdığından hər bir şirkətin və firmanın davamlı inkişafı da bütövlükdə makroiqtisadi göstəricilərin səviyyəsinin sabitləşdirilməsinə xidmət edir. Ümumiyyətlə götürdükdə mülkiyyət mənsubiyyətindən aslı olmayaraq hər bir təsərrüfat subyektinin davamlı inkişafı mahiyyət etibarilə təsərrüfat subyektinin

uzunmüddətli iqtisadi inkişaf göstəricilərinin balanslaşdırılmasını, eləcə də xarici şərtlər çərçivəsində şirkətin uzunmüddətli inkişafının təmin edilməsini və xarici mühit şərtlərindəki tarazlığın pozulmaması şərti ilə bütövlükdə rəqabət qabiliyyətinin təmin edilməsi nəzərdə tutur.

**Nəticə**

XX əsrin sonlarından etibarən cəmiyyətdə davamlı inkişaf konsepsiyasının spesifik xüsusiyyətləri iqtisadi, sosial-ekoloji və səmərəlilik prinsiplərinin optimal şəkildə əlaqələndirilməsi ilə sıx əlaqədardır. Milli iqtisadiyyatın davamlı inkişafa nail olması ilk növbədə iqtisadi təhlükəsizliyinin təməl prinsiplərinin reallaşdırılması ilə sıx bağlıdır. Davamlı inkişaf iqtisadi dayanıqlılığa əsaslanır ki, bu da ilk növbədə sosial-iqtisadi sistemin, eləcə də mülkiyyət mənsubiyyətindən asılı olma-yaraq təsərrüfat subyektlərinin daxili və xarici mühitin destruktiv tendensiyalarına çevik reaksiya göstərilməsini nəzərdə tutur.

Davamlı inkişaf konsepsiyası iqtisadi təhlükəsizlik prinsiplərinə əsaslanmaqla yanaşı eyni zamanda resursların cəmiyyət üzvlərinin yaşam ehtiyaclarının ödənilməsinə yönəldilməsi baxımından mühüm strateji əhəmiyyət daşıyır. Xüsusilə cəmiyyətin aztəminatlı təbəqələrinin sosial təminatının yaxşılaşdırılması davamlı inkişaf konsepsiyasının sosial aspektlərini özündə əks etdirir. Davamlı inkişafın sosial aspektləri sosial resursların mobilliyinin təmin edilməsinə xidmət edir. Davamlı inkişaf konsepsiyası eyni zamanda resursların gələcək nəsillərə qorunub saxlanılmasını nəzərdə tutur.

Beləliklə yuxarıda qeyd edilənləri ümumiləş-dirərək belə qənaətə gəlmək olar ki, davamlı inkişaf konsepsiyasının formalaşdırılmasının özünəməxsus spesifik xüsusiyyətləri mövcuddur ki, bunlara da aşağıdakıları şamil etmək olar:

- davamlı inkişaf konsepsiyası iqtisadi resurs-lardana səmərəli istifadə edilməsi ilə yanaşı eyni zamanda istehlakın strukturunun keyfiyyətcə təkmilləşdirilməsinə xidmət edir;
- davamlı inkişaf konsepsiyası sosial-iqtisadi sistemin dayanıqlığının təmin edilməsinə xidmət etməklə yanaşı eyni zamanda daxili malsiyyə resursları ilə təminatın səviyyəsinin yüksəldilməsinə xidmət edir ki, bu da kapital aclığının qarşısının alınmasına istiqamətlənir;
- davamlı inkişaf konsepsiyası iqtisadiyyatın şaxələndirilməsilə bağlı mühüm strateji hədəflərə nail olunmasına xidmət edir. Məhz sosial-iqtisadi sistemin bütün elementlərinin dayanıqlı inkişafı fonunda davamlı inkişafa nail olunması mühüm əhəmiyyətə malikdir. Sosial-iqtisadi sistemein davamlı inkişafı iqtisadiyyatın, biznesin, ixracın şaxələndirilməsini nəzərdə tutur ki, bu da dövlət büdcəsinə daxil olmaların həcminin artırılmasına, iqtisadiyyatın və dövlət büdcəsinin bir sahədən asılılığının aradan qaldırılmasına xidmət edir;
- davamlı inkişaf konsepsiyasının ekoloji fundamentləri ekoloji təmiz məhsul istehsalının həyata keçirilməsini, eko sistemin tarazlığının təmin edilməsini nəzərdə tutur.

**Açar sözlər:** *davamlı inkişaf, iqtisadiyyatın dayanıqlılığı, iqtisadiyyatın şaxələndirilməsi, davamlı inkişaf konsepsiyası, davamlı inkişaf konsepsiyasının iqtisadi əsasları, davamlı inkişaf konsepsiyasının sosial aspektləri, davamlı inkişaf konsepsiyasının ekoloji aspektləri.*

**ƏDƏBİYYAT SİYAHISI**

*1. Наше общее будущее. Доклад Международной Комиссии по окружаюший среди и развитию М. 1989.*

*2. Перепет, Р.А. Выявление показателей устойчивого развития //Проблемы окружающей среды и природных ресурсов, 1995, №6.*

*3. Синхе, М.М. Экономическая политика и окружающий среда, опыт и вывода републикация в Всемирного банка к проблемам окружающей среды, выпуск 10, Вашингтон, Колумбия 1995.*

*4. Печчеи, А. Человеческие качества Москва,1980, 304 с.*

*5. Федоренко, Н.П., Реймерс Н.Ф. Экология и экономика - эволюция взаимоотношений. От "экономии" природы до "большой" экологии // Философские проблемы глобальной экологии. Москва, 1983. – С. 230-277.*

*6. Колосова, Т.В. Обеспечение устойчивого развития предприятия на основе повышения его инновационного потенциала автореферат*

*диссертация доктора Экономическая наука 18005, Нижний Новгород, 2011. 44 с.*

*7. Коряков, А.Г. Методологические вопросы устойчивого развития предприятий // Вопросы экономики и права. 2012. № 4. – С. 110–114.*

*8. Химинчески, В.И. Стратегия устойчивого развития предприятие как важный инструмент стратегического развития региона / Материалы VII международной конференции «Стратегия устройства развития региональной экономики», 2016, с. 919-922.*

## РЕЗЮМЕ

## ХАРАКТЕРНЫЕ ОСОБЕННОСТИ ФОРМИРОВАНИЯ КОНЦЕПЦИИ УСТОЙЧИВОГО РАЗВИТИЯ

Формирование концепции устойчивого развития проистекает из необходимости обеспечения экономической безопасности и жизнеобеспечения членов общества, а также поддержания экологического баланса. Формирование концепции устойчивого развития - довольно сложный процесс, который может быть реализован на основе эффективной интеграции государственно-частного партнерства. Формирование концепции устойчивого развития служит не только обеспечению экономической эффективности, но и поддержанию социальной и экологической эффективности. Формирование концепции устойчивого развития наряду с эффективным использованием всех элементов экономического потенциала предполагает также справедливое распределение доходов, устранение экономической отсталости, устранение экономического и социального неравенства. Таким образом, фактически формирование концепции устойчивого развития служит поддержанию социальной и экологической безопасности в обществе, а также реализации оптимальной взаимосвязи и интеграции между принципами экономической эффективности, социальной справедливости и экологической эффективности.

**Ключевые слова:** *устойчивое развитие, экономическая устойчивость, диверсификация экономики, концепция устойчивого развития, экономические основы концепции устойчивого развития, социальные аспекты концепции устойчивого развития, экологические аспекты концепции устойчивого развития.*

## SUMMARY

## CHARACTERISTICS OF THE CONCEPT OF SUSTAINABLE DEVELOPMENT

The formation of the concept of sustainable development stems from the need to ensure economic security and meet the living needs of members of society, as well as to maintain the ecological balance. The formation of the concept of sustainable development is a rather complex process and can be implemented on the basis of effective integration of public-private partnership. The formation of the concept of sustainable development serves not only to ensure economic efficiency, but also to maintain social and environmental efficiency. The formation of the concept of sustainable development, along with the effective use of all elements of economic potential, also implies a fair distribution of income, the elimination of economic backwardness, the elimination of economic and social inequality. Thus, in fact, the formation of the concept of sustainable development serves to maintain social and environmental security in society, as well as to realize the optimal relationship and integration between the principles of economic efficiency, social justice and environmental efficiency.

**Keywords:** *sustainable development, economic sustainability, economic diversification, sustainable development concept, economic bases of sustainable development concept, social aspects of sustainable development concept, ecological aspects of sustainable development concept.*

UOT: 368:368.07

# AZƏRBAYCANDA POSTPANDEMİYA DÖVRÜNDƏ LƏNKƏRAN İQTİSADİ RAYONUNDA TURİZM REKREASİYA KOMPLEKSİNİN SOSİAL –İQTİSADİ HƏYATA TƏSİRLƏRİ

**NURAN HÜSEYNLİ**
*Azərbaycan Dövlət Aqrar Universitetinin dissertantı*

*E-mail: nurangaga@yahoo.com*

Turizm həm iqtisadiyyatın güclü amilliyi, həm təsirli sosial institut, həm də cəmiyyətdə ictimai rifah və mədəniyyətin göstəricisi kimi həyat səviyyəsinin yüksəlməsini, mənəvi zənginləşməsini özündə ehtiva edir. Ölkəmiz milli turizm sahəsinin inkişaf etdirilməsini iqtisadiyyatın qeyri-neft sektoru üzrə prioritet istiqaməti elan etmişdir. Son illər turizmin inkişafı ilə bağlı görülən işlər, qəbul edilən dövlət proqramları, normativ-hüquqi bazanın təkmilləşdirilməsi bir daha sübut edir ki, dövlətimiz turizmin inkişafında çox marağlıdır. Dövlət və regional səviyyələrdə həyata keçirilən sosial iqtisadi siyasətdə turizm strateji mənada əhəmiyyətli məsələ kimi çıxış edir. Turizmin inkişaf konsepsiyası, onun qanunları, ölkə iqtisadiyyatında gələcəyə baxış konsepsiyası, turizm agentliyinin fəaliyyət mexanizmləri və beynəlxalq turist təşkilatlarının əsas iş prinsipləri müasir dövrün prizmasından baxılmalıdır.

Müstəqilliyini bərpa etdikdən az müddət sonra Azərbaycan bütün sahələrdə beynəlxalq aləmə inteqrasiya olunaraq həm dünyada keçirilən mötəbər tədbirlərə qatılmış, eyni zamanda bütün qapılarını dünyaya açaraq bir çox beynəlxalq əhəmiyyətli tədbirlərə ev sahibliyi etmişdir. Bu, hər şeydən əvvəl ölkəmizdə işgüzar və mədəni turizmin inkişafına səbəb olmuşdur. Müasir dövrdə işgüzar turizm yüksək dinamikliyi, turizm biznesinin və ondan əldə edilən gəlirlərin qloballaşması baxımından mühüm əhəmiyyət kəsb edir. Ümumdünya Turizm Təşkilatı tərəfindən müəyyənləşdirilən işgüzar turizmə qurultay, elmi konqres və konfranslarda, istehsal seminar və müşavirələrində, yarmarkalarda, sərgilərdə, salonlarda iştirak məqsədilə həyata keçirilən səyahətlər, həmçinin danışıqların aparılması və müqavilələrin bağlanması üçün edilən səfərlər aid edilir. İşgüzar və mədəni turizmdə kiçik qruplar üçün biliyi artıran turlar və istirahət edən şəxslərin mədəni abidələrə səyahətlərini özündə birləşdirən birgünlük ekskursiyalar təşkil olunur. Bununla əlaqədar mədəni abidələrin qorunub saxlanması üzrə səmərəli tədbirlərin həyata keçirilməsi və göstərilən ərazilərə turist axınlarının idarə edilməsi mühüm əhəmiyyət daşıyır [1].

Dövlətimizinn qeyri – neft sektorunun inkişafında turizmin prioritet sahə kimi seçməsini nəzərə aldıqda bu sahədə olan problemlərin araşdırılması, təhlili və qiymətləndirilməsi baxımından, Azərbaycanın regional və beynəlxalq turizm bazarında xüsusi çəkisi, perspektivləri gələcəkdə ölkəmizin bütün dünya üçün ənənəvi turizm destinasiyası halını ala biləcəyini göstərir ki, burada Lənkəran iqtisadi rayonunun xüsusi rolu və turizm – rekreasiya eləcə də dəniz qum sahil üçbucağından istifadə imkanları yüksəkdir.

Bundan əlavə, turizmin infrastruktur sahələri şəhərsalma, yeni tikililər və regionlarda kompleks ərazi inkişafını təmin edir. Turizmin sosial mahiyyəti onun sosial predmeti olaraq öyrənmə və sosial proqnozlaşdırmanın əsasını yaradır. Turizmin inkişafında sosial amillər- demoqrafik adət - ənənənin ictimai həyata təsiri eləcə də təhsil səviyyəsi ilə ölçülür. Turizmin sahə quruluşu, onun regional yerləşmə sistemi, sosial infrastrukturun konseptual əsası kimi qəbul edilməlidir. O cümlədən, turizmin infrastrukturu birbaşa sosial xarakterli infrastruktur sayılır, cünki istənilən halda həmin cəmiyyət üçün müsbət katalizator rolunu oynamaq ilə çıxış edir. Təhsil, səhiyyə, əhali daşınması, pullu xidmətləri, mənzil-kommunal təsərrüfatlarının inkişafı, otelçilik, ev təsərrüfatına münasibət sosial vəzifələri ifadə edir. Turizmin sosial-iqtisadi inkişafı əhalinin həyat səviyyəsinin yüksəldilməsi, rifah halının yaxşılaşdırılmasına səbəb olur. Bölgələrdə sahibkarlar tərəfindən və ya dövlət himayəçiliyi ilə turistik bazalar yaradılarsa, bu, ilk növbədə on minlərlə iş yerinin açılması, kənd təsərrüfatı mallarının fəal satışı, bölgə əhalisinin sosial rifah halının yaxşılaşması və bununla bağlı olaraq regionda iqtisadi aktivliyin, pul

kütləsinin artması deməkdir.

Mehmanxanaların və digər turizm xidməti müəssisələri şəbəkəsinin genişləndirilməsi, turizm sahəsi üçün kadr hazırlığı və ixtisasartırma sisteminin təkmilləşdirilməsi, xarici dövlətlərdə məqsədli təhsil üzrə layihələrin həyata keçirilməsi, Azərbaycanın milli-tarixi, mədəni və mənəvi irsinin, milli adət-ənənələrin dünyada təbliği, ayrı-ayrı regionların və şəhərlərin tarixini əks etdirən materialların nəşr etdirilməsi və yayılması, müasir informasiya və kommunikasiya texnologiyalarının tətbiq edilməsi, turizmin inkişafı sahəsində beynəlxalq əməkdaşlığın genişləndirilməsi də vacib şərtlərdəndir [2]. Vacib nüans kimi qeyd etmək yerinə düşər ki, turizm sahəsində ixtisaslaşmış ölkələr ilə tələbə hazırlığında mübadilə sistemi ölkə turizminin inkişafına insan kapitalına qoyuluş kimi qeyd edilməlidir və vacib nüans kimi ortaya çıxır.

1999-cu ildə qəbul edilmiş “Turizm haqqında qanun” və 2002-ci ildən həyata keçirilməyə başlanılmış “2002-2005-ci illərdə Azərbaycanda turizmin inkişafı proqramı”sonrakı dövrlərdə Azərbaycanda turizm sektorunun inkişafının sıfır nöqtəsindən vəya artıq keçid iqtisadiyyatından çıxmağa hazırlaşan, inkişaf istiqamətinin yüksələn dinamikasına təkan vermişdir. Proqramın əsas vəzifələri bunlardan ibarət olmuşdur:

- ölkənin turizm potensialından səmərəli istifadə etməklə Azərbaycan Respublikasında turizmin inkişafına nail olmaq;
- turizm sahəsində sahibkarlığı, ilk növbədə kiçik və orta sahibkarlığı inkişaf etdirmək;
- rəqabətə davamlı turizm bazarı yaratmaq;
- turizmdən dövlət və yerli büdcələrə daxil olan vəsaitin həcmini artırmaq;
- turistlərə xidmətin keyfiyyətinin yüksəldilməsini, onun beynəlxalq standartlara uyğunlaşdırılmasını təmin etmək;
- turizm infrastrukturunu, onun maddi-texniki bazasını möhkəmləndirmək;
- turizm fəaliyyətinin dövlət tərəfindən tənzimlənməsini həyata keçirtmək;
- xarici investorları turizm sahəsinə cəlb etmək;
- turist müəssisələrinin beynəlxalq turizm proqramlarında iştirakı üçün əlverişli şərait yaratmaq [3].

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə “Azərbaycan Respublikasında 2002-2005-ci illərdə turizmin inkişafına dair Dövlət Proqramı” təsdiq edilmiş bu Dövlət Proqramının məqsədi normativ hüquqi bazanın təkmilləşdirilməsi, turizm fəaliyyətinin təşkili, onun inkişafının idarə olunması, marketinq tədbirlərinin görülməsi, turistlərə xidmətin beynəlxalq standartlar səviyyəsinə çatdırılması, turizm infrastrukturunun təkmilləşdirilməsi, bu sahədə elmi təminatın gücləndirilməsi və daxili turizmin təşkili üçün tədbirlərin həyata keçirilməsini təmin etməkdən ibarət olmuşdur. Amma, bu problemlərin və tədbirlərin tam olaraq həyata keçirilməsi mümkün olmasa da, ölkədə turizmə baxış bucağı və turizmin populyarlaşması prosesinə dövlət tənzimlənməsi vasitəsilə və əsasən dövlətin maliyyə vəsaitləri ilə uğurlu başlanğıc təmin olunmuşdur.

Qeyd etmək lazımdır ki, ölkəmizdə turizmin müxtəlif növlərinin inkişafına, turizm sahəsində çalışan kadrların maarifləndirilməsinə təkan verən başqa bir dövlət proqramı – “Azərbaycan Respublikasında 2007-2016-cı illər üçün turizmin inkişafına dair Dövlət Proqramı” da icra olunmuşdur. Bu Dövlət Proqramının əsas məqsədi “Turizm haqqında” Qanunda, habelə digər müvafiq normativ-hüquqi aktlarda nəzərdə tutulmuş müddəalara uyğun olaraq, turizm sahəsində dövlət siyasətinin həyata keçirilməsini, ölkənin sosial-iqtisadi inkişafını təmin edən vasitələrdən biri kimi turizm sərvətlərindən səmərəli istifadə olunmasını, turizmin ölkə iqtisadiyyatının qabaqcıl istiqaməti kimi tanınması və bu sahənin rentabelliyinin artırılmasını təmin etməkdən ibarət olmuşdur.

Azərbaycanda turizmin inkişafı sahəsində qarşıya qoyulan əsas məqsədlər sırasında turizm təklifinin keyfiyyətinin artırılması, turizmdə əmək bazarına uyğunlaşma sistemini genişləndirmək, turizm ehtiyatlarının öyrənilməsi və onlardan istifadənin səmərəliliyinin təmin olunması, turistlərin istirahəti, onların tələbatının ödənilməsi üçün zəruri olan xidmətlərin, ekskursiya və digər mədəni tədbirlərin çeşidinin genişləndirilməsi və müasir standartlara uyğunlaşdırılması, sanatoriya-kurort sərvətlərinin öyrənilməsi və davamlı istismarı, mehmanxanaların və digər turizm obyektlərinin tikintisinin sürətləndirilməsi, turizm marşrutlarının artırılması, turizm növlərinin inkişaf etdirilməsi, prioritet turizm növü kimi mədəni turizm, ekoloji turizm və kənd yaşıl turizmi, rekreasiya turizmi sahəsində dövlət tənzimlənməsinin gücləndirilməsi, milli adət-ənənələrimizi,

Azərbaycan xalqının tarixi-mədəni irsini, ayrı-ayrı regionların və şəhərlərin tarixini əks etdirən materialların nəşr etdirilməsi və yayılması, milli sənətkarlıq və suvenir məhsullarının istehsalının, tarix memarlıq abidələrinin içərisində innovativ canlandırma üsullardan istifadə və satışının genişləndirilməsi kimi istiqamətləri qeyd etmək olar.

Dövlətin turizmə dəstəyi daimi olmaqla büdcədən ayrılan subsiyadalar, verilən ssudalar, yeni – yeni otellərin turizm – rekreasiya komplekslərinin inşası ilə yekunlaşmır. Buna ən bariz nümunə kimi Prezident İlham Əliyev tərəfindən 2011-ci ilin Azərbaycanda “Turizm ili” elan olunmasını göstərmək olar. “Turizm ili” çərçivəsində bir sıra tədbirlərin keçirilmişdir. Təsadüfi deyildir ki, bu məqsədlə Mədəniyyət və Turizm Nazirliyinin nəzdində xüsusi işçi qrupu yaradılmış və müxtəlif genişmiqyaslı və lokal tədbirlər görülmüşdür. Ölkəmizdə turizmin sosial – iqtisadi inkişafda rolunun artırılması, ölkənin malik olduğu ehtiyatların iqtisadi dövriyyəyə cəlb edilməsi və onlardan rentabelli istifadə olunması müasir dövrün tələbidir. Turizm müasir islahatlar proqramının tərkib hissəsi olaraq multiplikativ effektlə ölkənin digər problemlərinin həll olunmasında öz təsirini göstərir. Mövcud turizm ölkənin sosial – iqtisadi inkişaf vəzifələrinə və iqtisadiyyatın strukturundakı formalaşmalar hesabına davamlı dinamikaya sahibdir.

Bu gün Dövlət Turizm Agentliyinin gördüyü işlər, Azərbaycan Turizm Bürosu, Qoruqları İdarəetmə Mərkəzi, Turizm informasiya mərkəzləri, Destinasiya Menecmenti təşkilatlarının (regionlarda turizmin inkişafı, təşviqi və idarə olunması), Azərbaycan Turizm Agentlikləri Assosiasiyası, Azərbaycan Hotel Assosiasiyası və Azərbaycan Turizm Bələdçiləri Assosiasiyasının koordinasiyalı şəkildə fəaliyyəti ölkəmizin turizm imkanlarından səmərəli şəkildə istifadə edilməsi və dəstək göstərilməsi ümumi işin xeyrinə atılan uğurlu addımlardır [4].

Müasir dövrümüzdə turizm bölgəsinə çevrilmək təkcə iqtisadi baxımdan deyil, həm də sosial baxımdan ölkəmiz üçün vacibdir bir prosesdir. Çünki bu gün dünyada gedən proseslər və təhlükəsizlik məsələləri baxımından turizmin inkişafı vacibdir və təhlükəsizlik 21–ci əsrdə ön plana çıxan əsas faktorlardan biridir. Turizm həm də ölkələri, xalqları bir-birinə yaxınlaşdırır, qlobal münasibətləri gücləndirir, iqtisadi və mədəni əlaqələrin inkişafına təkan verir ki, bu da dünya iqtisadiyyatında onun yüksək gəlirliliyini və sərhədlərin formallaşması üstündə ümumi amillərə diqqəti artırmış olur. Turizmin həcmini artırmaqla, turistik bölgəyə çevrilməklə biz eyni zamanda regionların sosial-iqtisadi inkişafını çox sürətlə və effektiv şəkildə idarə edə bilərik. Turizmin inkişafı həm də regionların sosial – iqtisadi baxımdan qısa bir müddətdə dirçəlməsi vasitəsi hesab olunur, amma burada uzunmüddətli menecmentlə və turizm bazarının tendensiyalarını təhlil edərək, orta və uzunmüddətli perpsektivdə də bölgəni iqtisadi cəhətdən davamlı və dayanıqlı inkişaf sisteminə keçirtmək mümkündür. Regionlarda yaşayış üçün normal şərait qurulduğu halda, xeyli insan kənd və rayon yerlərində yaşamağa meyl edə bilər. Eyni zamanda, bununla həm də kəndlinin problemi həll olunur və gəlir mənbələri əldə etmiş olur. Bu gün Azərbaycanda turizmin inkişafı üçün çox geniş imkanlar vardır.

Digər tərəfdən, təhlükə əlamətlərini gözdən qaçırmaq mümkünsüzdür: hər yerdə temperatur daha yüksək həddə çatır; biomüxtəliflik azalır; okeanlar istiləşir, turşlaşır və plastik tullantılarla boğulur. Temperaturun bu həddə çatmasına görə planetimizin böyük əraziləri əsrin sonuna kimi bəşəriyyət üçün ölü zonalara çevriləcəkdir [5]. Turizmin inkişafı ilə bir sıra problemlər də avtomatik turizmin inkişafı nəticəsində ekoloji təmiz məhsul istehsalına diqqət yönələcək ki, bu da müsbət tendensiyalara səbəb ola bilər: “Azərbaycanda ekoloji təmiz məhsul istehsalını gücləndirsək, bu, turistlərin bölgəyə marağını, eyni zamanda regionların inkişafını gücləndirəcək”. Yəni bundan aydın olur ki, turizmin bölgələrin sosal-iqtisadi inkişafina təsiri yüksəkdir. Azərbaycanda son illər turizmin inkişafına diqqət artırılıb, bu istiqamətdə ilkin addımlar da atılır. Turizm sahəsində açılan hər bir iş yeri multiplikativ effekt prinsipi ilə 3-4, bəzən 6-7 yeni iş yerlərinin açılmasına səbəb olur. Yəni bu proses su və ərzaq, kənd təsərrüfatı məhsullarının istehsalını genişləndirir, xidmət sahələrinin keyfiyyətinin artırılması üçün peşəkar kadrlar yetişdirilir və bunun üçün kurslar açılır. Bunlar hamısı yeni iş yerləri və bölgələrin inkişafı deməkdir. Sosial-iqtisadi inkişaf sahəsində də şaxələndirmə siyasətini yürüdən Azərbaycan

XXI yüzilliyin əvvəllərində dinamik inkişafla səciyyələnən proseslər kontekstində, dünyaya yeni dövlətçilik modelini tanıtdırmağa nail oldu. 2004–2020-ci illər ərzində ümumi daxili məhsul 3,4 dəfə, o cümlədən qeyri-neft sektoru üzrə 2,9 dəfə, sənaye üzrə 2,7 dəfə, kənd təsərrüfatı üzrə 1,8 dəfə artmışdır [6].

Dogər tərəfdən, ölkə prezidenti İlham Əliyev tərəfindən təsdiq olunmuş "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında müəyyən edilmiş hədəflərin reallaşdırılması, xüsusilə də turizm sahəsini əhatə edən irimiqyaslı tədbirlərin həyata keçirilməsi və tədqiq edilmiş problemlərin həlli nəticəsində regionlarımızın və kəndlərimizin tarazlı inkişafı və bununla da gələcəkdə Azərbaycanın davamlı inkişafı, eləcə də bölgə əhalisinin və xalqımızın rifahının daha da yaxşılaşması əsasən təmin edilmiş, eləcə də deurbanizasiya prosesi sürətlənməyə başlamışdır ki, bununla da Bakının və digər böyük şəhərlərin inkişafının da yeni mərhələsi başlayacaqdır.

Turizm iqtisadiyyatın əsas sahələri olan nəqliyyat, rabitə, inşaat, kənd təsərrüfatı, əhali istehlak mallarının istehsalına və emalına əhəmiyyətli dərəcədə təsir göstərir. Turizm sənayesində göstərilən xidmətlərin həcminin artımı kəmiyyət və keyfiyyət etibarı ilə yeni iş yerlərinin açılmasına digər sahələrdən daha çox təkan verir. Buradan görünür ki, Lənkəran iqtisadi rayonunda turizm sosial-iqtisadi inkişafın özünəməxsus katalizator rolunu oynayır. Turizm xidmətləri istehlakçılar üçün bir rekreasiya, işgüzar, maarifləndirmə, idrakı və s. məqsədlə görülmüş səyahətdir (səfər, yürüş). Lənkəran iqtisadi regionunda turizm sənayesi ilə məşğul olanlardan ötrü bu kapital qoyulması üşün bir sahə olduğu kimi, potensial müştərilərin ehtiyaclarının ödənilməsinə yönələn bir fəaliyyət sahəsidir. Müasir turizmin inkişaf təmayüllərinin təhlili göstərir ki, siyasi – iqtisadi və sosial amillərin təsiri, yeni marketinq texnologiyasının tətbiqi inkişaf etmiş ölkələrdə turizm inkişafının sıçrayışına səbəb olur ki, burada innovasiyalar diqqətçəkən rol oynamaqdadır. Lənkəran iqtisadi regionunda həm ölkədaxili, həm də beynəlxalq turizm sürətlə inkişaf edir. Turizm, insanların səyahətlərindən meydana gələn ehtiyaclarının qarşılanması ilə əlaqəli olduğu üçün, sosial xüsusiyyəti ilə diqqət çəkməkdədir. Sosial hadisələr isə, sosial elmlərin mövzusu olduğundan, bu baxımdan turizm – rekreasiya da sosial bir elmdir.

Azərbaycan iqtisadiyyatının sosial-iqtisadi inkişafının sahə və ərazi problemləri onun dayanıqlı və tarazlı dinamikası Lənkəran iqtisadi rayonunun təbii, insan və coğrafi resurslarının səmərəli istifadəsi və bazar münasibətləri şəraitində imkanların alternativ layihələr əsasında iqtisadi dövriyyəyə cəlb edilməsi ilə mümkündür. Regionun inkişaf konsepsiyası onun resurslarının kompleks istifadə edilməsi yolu ilə daha yaxşı həyat səviyyəsi və təhlükəsiz həyat fəaliyyətinin cəmindən asılıdır. Sosial-iqtisadi amil olaraq turizm - rekreasiya fəaliyyətinin mövcud vəziyyəti onun qlobal məqsədlərinin reallaşmasında rolunu qiymətləndirməklə, bu sahənin inkişafının tənzimlənməsi bütövlükdə ölkə iqtisadiyyatının inkişaf strategiyasının və strateji planlaşmanın tərkib hissəsi kimi çıxış edir.

## YEKUN

Postpandemiya dövründə və hazırki şəraitdə turizm fəaliyyətinin multiplikativ effektinin daha geniş diapazonda baxılması və qiymətləndirilməsi lazım gələcəkdir. Bunlarla bağlı bir sıra məsələlərə daha çox diqqət yetirilməlidir:

- postpandemiya dövründə Lənkəran iqtisadi rayonunda turizm – rekreasiya kompleksləri daxili turizmin inkişafına uyğun şəkildə təkmilləşdirilməsi və yenilənmə proseslərini keçməlidirlər;
- iqtisadiyyatın müxtəlif sahələrində turizmə birbaşa və dolayı təsirlərdən rasional istifadənin genişləndirilməsi mühiti yaradılmalıdır;
- Lənkəran iqtisadi rayonunda sosial – iqtisadi məsələlərə ciddi baxılması büdcə ssudaları və eləcə də dövlət tənzimlənməsi, daxili turizmin inkişafı ilə bağlı infrastrukturun qorunması və yenilərinin əlavə edilməsi zərurəti yaranmaqdadır və s.

**Açar sözlər:** *postpandemiya dövrü, Lənkəran iqtisadi rayonu, turizm fəaliyyəti, turizmin multiplikativ təsiri, sosial amillər, turizm, dövlət tənzimlənməsi, sosial– iqtisadi inkişaf.*

## ƏDƏBİYYAT SİYAHISI

*1. Ölkəmizdə turizmin beynəlxalq səviyyədə inkişafı reallıqdır. https://www.azerbaijan-news.az/index.php/posts/detail/olkemizde-turizmin-beynelxalq-seviyyede-inkisafi-realliqdir-1631998567.*

*2. Azərbaycanda turizm beynəlxalq əlaqələrin bir forması kimi inkişaf etdirilir. 2021-07-06. https://www.respublica-news.az/news/azerbaycan-da-turizm-beynelxalq-elaqelerin-bir-formasi-kimi-inkisaf-etdirilir*

*3. Azərbaycan Respublikasında 2002-2005-ci illərdə turizmin inkişafına dair*

*4. Dövlət Proqramı. Azərbaycan Respublikası Prezidentinin*

*2002-ci il "27" avqust tarixli, 1029 nömrəli Sərəncamı ilə*

*Təsdiq Edilmişdir. http://www.e-qanun.az/framework/1615.*

*5. Azərbaycanın turizm imkanları: Əldə olunan nəticələr və gələcək perspektivlər. 19.12.2019. https://qaynarinfo.az/az/azerbaycanin-turizm-imkanlari-elde-olunan-neticeler-ve-gelecek-perspektivler/ .*

*6. BMT-nin Baş katibi: "Qlazqoda iqlim sınağı". 29 октjабр 2021. İqlim böhranı bəşəriyyət üçün həyəcan siqnalıdır. https://azerbaijan.un.org/az/156024-bmt-nin-bas-katibi-qlazqoda-iqlim-sinagi.*


## РЕЗЮМЕ

### ВЛИЯНИЕ ТУРИСТСКО-РЕКРЕАЦИОННОГО КОМПЛЕКСА НА СОЦИАЛЪНО-ЕКОНОМИЧЕСКУЮ ЖИЗН ЛЕНКОРАНСКОГО ЕКОНОМИЧЕСКОГО РАЙОНА В ПОСТПАНДЕМИЧЕСКИЙ ПЕРИОД В НАШЕЙ СТРАНЕ


Социально-экономические вопросы в Лянкяранском экономическом районе следует рассматривать как часть общих положений государственного регулирования и в соответствии с концепцией устойчивого и устойчивого развития страны. Поскольку невозможно разделить цели социально-экономического развития страны. туризм и отдых, в статье они изучаются в форме взаимодействия. В развитии экономики Лянкяранского экономического района, а также ускорении прибытия граждан на свои места можно будет уделять больше внимания всем социальным и экономическим процессам, а также занятости и продвижению органического производства.



**Ключевые слова:** *постпандемический период, Ленкоранский экономический район, туристическая деятельность, мультипликативный эффект туризма, социальные факторы, туризм, государственное регулирование, социально-экономическое развитие.*


## SUMMARY

### IMPACTS OF TOURİSM AND REACTİON COPMLEX ON SOCİO-ECONOMİC LİFE İN LANKARAN ECONOMİC REGİON DURİNG THE POSTPANDEMİC PERİOD İN OUR COUNTRY


Socio-economic issues in the Lankaran economic region should be considered as part of the general provisions of state regulation and in line with the concept of sustainable and sustainable development in the country. Since it is impossible to separate the goals of social and economic development of tourism and recreation, in the article they are studied in the form of interaction. In the development of the economy in the Lankaran economic region, as well as the acceleration of the arrival of citizens to their places, it will be possible to pay more attention to all social and economic processes, as well as employment and promotion of organic production.



**Keywords:** *postpandemic period, Lankaran economic region, tourism activity, multiplier effect of tourism, social factors, tourism, state regulation, socio-economic development.*

UOT: 338.49

# AZƏRBAYCANDA TEXNOPARKLAR ŞƏBƏKƏSİNİN GENİŞLƏNDİRİLMƏSİ MƏSƏLƏLƏRİ

**ƏLİHEYDƏR MAHMUDOV**
*Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin doktorantı*

*E-mail: aliheydar_89@mail.ru*

COVİD-19 pandemiyası və postpandemiya dövründə ölkəmizin strateji problemlərindən biri iqtisadiyyatın dayanıqlı və davamlı inkişafının təmin edilməsidir. Dayanıqlı və davamlı inkişaf iqtisadi artımın əsas mənbəyidir. İqtisadi artım ölkənin davamlı artımını təmin etmək və dünya bazarında rəqabət qabiliyyətini artırmaq baxımından mühüm rol oynayır. Azərbaycan iqtisadiyyatının inkişafındakı aktual tendensiyalardan biri yüksək texnologiyalı müəssisələrin payını artırmağa və nəticədə ölkənin iqtisadi artımını təmin etməyə qadir olan spesifik bir fenomen kimi innovasiyalı iqtisadiyyatı inkişaf etdirməkdir. Ölkədə innovasiya iqtisadiyyatının inkişafı innovativ məhsulların kommersiyalaşdırılmasını sürətləndirəcək, milli iqtisadiyyata müsbət iqtisadi təsir yaradacaq innovasiya dövrü, innovativ müəssisələrin payının, ixrac olunan yerli məhsulların həcminin artması, əhalinin rifahının yüksəldilməsi, bütün səviyyələrin büdcələrinə vergi ödənişlərinin artırılmasıdır. “Azərbaycan - 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyasında göstərilmişdir ki, innovasiya fəaliyyətinin genişləndirilməsi uzunmüddətli dayanıqlı iqtisadi inkişafın təmin edilməsi, biliklər iqtisadiyyatının formalaşdırılması, elm tutumlu texnologiyaların yaradılmasının sürətləndirilməsi və iqtisadiyyatın əsas istiqamətlərindən biri olacaqdır. Konsepsiyada yaxın gələcəkdə ölkənin davamlı inkişafının təmin edilməsi üçün əsas vəzifələrdən biri elm, təhsil və istehsalat arasında əlaqələrin gücləndirilməsi, bu prosesin və innovasiyaların idarə edilməsi mexanizmlərinin işlənib hazırlanması hesab olunur [1, s. 18].

Son dövrlərdə Azərbaycanda innovativ fəaliyyətin inkişafına diqqət daha da artır. Dünya bazarlarında neftin qiymətinin aşağı düşə biləcəyini nəzərə alaraq ölkə iqtisadiyyatının neft ixracından asılılığının azaldılması məsələsi aktuallaşır. Ölkə iqtisadiyyatının qeyri-neft sektorunun davamlı inkişafı, Azərbaycan iqtisadiyyatının alternativ inkişaf mənbələrinin yaradılması, xarici investorlar üçün yerli bazarların investisiya cəlbediciliyinin artırılması məqsədi ilə informasiya texnologiyaları sektorunun inkişafını təmin etmək lazımdır. İnnovasiya mərkəzləri, texnoloji komplekslər, texnoparklar və biznes inkubatorlar kimi innovativ strukturlar şəbəkəsini yaratmaq, genişləndirmək və onların gələcək fəaliyyətlərinin idarə edilməsini təkmilləşdirmək zəruridir. Azərbaycanda ölkənin investisiya cəlbediciliyini artırmaq və milli iqtisadiyyatı şaxələndirmək mühüm vəzifələr kimi qarşıya qoyulmuşdur. Bu məqsədlərə çatmaq üçün texnoparklar şəbəkəsinin genişləndirilməsi əsas vasitədir. Azərbaycanda texnoparklar şəbəkəsinin inkişaf etdirilməsi və genişləndirilməsi aşağıdakılar üçün nəzərdə tutulur: 1) Azərbaycanın yüksək texnologiyalı sənayesini inkişaf etdirmək və dəstəkləmək; 2) Azərbaycan iqtisadiyyatının yüksək texnologiyalı sahələrinin investisiya cəlbediciliyini artırmaq; 3) Beynəlxalq şirkətlərə öz istehsal müəssisələrini ölkənin müxtəlif regionlarının ərazisində yerləşdirməyə şərait yaratmaq; 4) Yüksək texnologiyalı məhsulların idxalından asılılığı azaltmaq və ixracını dəstəkləmək; 5) Yüksək texnologiyalar sahəsində kiçik və orta sahibkarlığın inkişafı üçün şərait yaratmaq və s.

Qeyd edək ki, texnopark - elmi təşkilatların, konstruktor bürolarının, təhsil, sənaye müəssisələrinin və ya onların bölmələrinin birliyi şəklində elm, təhsil və istehsalın ərazi inteqrasiyasının yeni formasıdır. Texnopark elmi tədqiqatların aparıldığı və innovativ məhsulların istehsal olunduğu xüsusi təchiz olunmuş ərazidir. Texnopark böyük əmlak kompleksidir, çoxsaylı obyektlərə bölünür. Həmin obyektlər sahibkarlara icarəyə verilir və onlar orada yüksək texnologiyalı istehsal yaradırlar. Bununla belə, texnoparklar təkcə kommersiya xarakteri daşımır, bəzən onlar universitetlərdə yaradılır və tələbələrin innovativ yaradıcılığının inkişafında mühüm rol oynayır [2, s. 107]. Elmi-texniki inkişafın və tətbiqinin sürətləndirilməsi məqsədi ilə yaradılır. Texnoparkları bu gün demək olar ki, istənilən milli iqtisadiyyatda yüksək texnologiyalı sənayenin inkişafı üçün ən səmərəli

alət adlandırmaq olar. Qeyd edək ki, texnoparklar müasir dünya iqtisadiyyatında mühüm rol oynayır. Çünki onlar innovativ texnologiyaların və bütöv korporasiyaların inkişafına xidmət edir. Müasir şəraitdə texnoparkların aşağıdakı növlərini ayırd etmək olar: bunlar universitet texnoparkları, regional filial texnoparkları, sənaye texnoparkları, şəbəkə texnoparkları, elm şəhərlərinə əsaslanan texnoparklardır [3, s. 54].

Dünya təcrübəsində ən çox yayılanlar universitet texnologiya parklarıdır. Universitet texnoparkları çərçivəsində kiçik innovativ müəssisələrə aşağıdakı xidmətlər göstərilir: binaların icarəsi, telefon və telefaks xidmətləri, elmi-tədqiqat işlərinin nəticələrinə çıxışın təmin edilməsi, texniki layihələrin hazırlanmasındaköməklik, mütəxəssislərin hazırlanması və seçilməsi və s. Elmi parkı universitetin əsas fəaliyyətinə bir növ əlavə kimi göstərə bilərik. Elm parkı əqli mülkiyyət məsələlərini ən uyğun şəkildə həll etməyə imkan verir. Universitetlərdə yaradılan texnoparklar və ya elmi parklar əslində texnoloji biznes-inkubator funksiyalarını yerinə yetirir. Elm və texnologiya parkları biznes inkubatorlardan, elmi-texniki, innovasiya və istehsal sahələrinin subyektləri arasında qarşılıqlı əlaqənin uzunmüddətli məqsədyönlü proqramına uyğun olaraq formalaşan komplekslərdən daha böyükdür. İstənilən region biliktutumlu sənaye sahələrinin genişləndirilməsində, ərazinin elmi-texniki potensialının sabit inkişaf tempində, iş yerlərinin sayının artırılmasında, istehsal və sosial infrastrukturun yaradılmasında, fəal sahibkarlıq fəaliyyətinin dəstəklənməsində və elmin inkişafının daim stimullaşdırılmasında maraqlıdır. Bütün bunlar ölkədə və onun regionlarında elmi-texnoloji parkın fəaliyyətini təmin etməyə imkan verir. Texnoparkların imkanlarını genişləndirmək üçün şəbəkə strukturları yaradılır. Şəbəkə texnoparklarını yaratmaq üçün iqtisadi əsas olmalıdır: müxtəlif şəhərlərdə yaşayan və işləyən tədqiqatçıların iştirakının təmin edilməsi, texnoparkların saxlanması üçün xərclərə qənaət və s. Belə strukturlar texnoparkların imkanlarının, onların xidmətlərinin sayının, səmərəliliyini artırılması baxımından əhəmiyyətlidir. Şəbəkə texnoparkları regional, sənaye və ya universitet texnoparklarının filialları hesab olunur [4, s. 17-18].

Sənaye texnoparkları əsasən milli iqtisadiyyatın istənilən sektorunda innovasiya proseslərinin aktivləşdirilməsi üçün yaradılır. Onlar layihələrin hüquqi dəstəyi, biznes konsaltinqi və s. kimi xidmətlər göstərirlər. Belə texnoparklar sənaye müəssisələrində müasir texnologiyaların tətbiqini təmin etmək və ya ayrı-ayrı korporasiyaların texnoloji problemlərini həll etmək üçün yaradılır. Texnopark istehsal şirkətinə bilik tutumlu və bahalı prosesləri autsorsinqində, onları müstəqil kiçik və orta müəssisələrə ötürməkdə kömək edir. Sənaye texnologiya parkları yeni sənaye sahələrinin təşkili üçün fiziki infrastruktur obyektləri kompleksidir. Sənaye texnoparkının yerləşdirilməsi şərtləri və onun obyektlərinə qoyulan tələblər potensial rezidentin istəyi əsasında və ya sənaye komplekslərinin müvafiq sənaye sahələrində yerləşdirilməsi təcrübəsinin təhlili əsasında müəyyən edilir. Sənaye texnoparkları sənaye istehsalının və müxtəlif infrastruktur obyektlərinin cəmləşdiyi sənaye zonalarıdır ki, onlar normal iş prosesini təmin edir. Bunlara əsasən deyə bilərik ki, texnoparklar şəbəkəsinə aşağıdakı innovasiya subyektləri daxil ola bilər: 1) elm parkları; 2) tədqiqat parkları; 3) innovasiya və texnologiya mərkəzləri; 4) texnologiya transferi mərkəzləri; 5) biznes və texnologiya inkubatorları; 6) virtual inkubatorlar və 7) texnopolislər.

Azərbaycan iqtisadiyyatının inkişafında yuxarıda qeyd etdiyimiz texnoparklar şəbəkəsinin genişləndirilməsi prioritet vəzifələrdəndir. Hazırda Azərbaycanda texnoparklar şəbəkəsinin inkişafı və genişləndirilməsi ilə bağlı bir sıra dövlət proqramları vardır. Onlar ölkənin innovasiya potensialının formalaşmasında artım nöqtələrinə çevrilməlidir. Azərbaycanda düzgün idarəetmə yolu ilə makroiqtisadi sabitliyin təmin edilməsi, iqtisadiyyatın strukturunun təkmilləşdirilməsi, məşğulluğun artırılması, balanslaşdırılmış regional inkişafın stimullaşdırılması, biznes mühitinin yaxşılaşdırılması və özəl sektorun iştirakının gücləndirilməsi məqsədilə “Milli iqtisadiyyat perspektivi üzrə strateji yol xəritəsi” hazırlanmışdır. Həmin strateji yol xəritələrindən biri “Telekommunikasiya və informasiya texnologiyalarının inkişafı üzrə strateji yol xəritəsi”dir. Bu strateji yol xəritəsinin əsas məqsədi dövlət sektorunun səmərəli fəaliyyəti üçün İKT infrastrukturunun inkişafı və təkmilləşdirilməsi, əhalinin sosial-iqtisadi həyat səviyyəsinin yüksəldilməsi, təhsil, səhiyyə, maliyyə sistemlərinin rəqəmsallaşdırılması üçün İKT sənayesinin potensialını artırmaqdır [5, s. 3]. Bu da öz növbəsində texnoparklar şəbəkəsinin genişləndirilməsi üçün əsas kimi çıxış edir.

Azərbaycanda ixrac yönümlü innovativ məhsul və ya xidmətlərin istehsalı üçün bir sıra texnoparklar yaradılmışıdır. Belə texnoparklara Sumqayıt

Kimya Sənayesi Texnoparkı, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin tabeliyi əsasında fəaliyyət göstərən Yüksək Texnologiyalar Parkı, Balaxanı Sənaye Parkı, AMEA-nın Yüksək Texnologiyalar Parkı və digərlərini göstərmək olar. Bütün bunlar texnoparklarda innovativ məhsulların istehsal proseslərinin modelləşdirilməsi üçün ümumi baza hazırlamağı zəruri edir [6, s. 69]. Bu, öz növbəsində texnoparklar şəbəkəsinin genişləndirilməsi üçün əsas ola bilər. Bütün bunlarla yanaşı, ölkəmizdə "Xüsusi iqtisadi zonalar haqqında" Azərbaycan Respublikasının qanunu qəbul edilmişdir ki, həmin qanunda texnoparkların yaradılması və genişləndirilməsi ilə bağlı münasibətlərin tənzimlənməsi qaydaları müəyyənləşdirilmiş, bu istiqamətdə müvafiq tədbirlər görülmüşdür. Texnoparklar şəbəkəsinin genişləndirilməsi üçün, ilk növbədə, mövcud olanların fəaliyyətinin səmərəliliyi təmin edilməlidir. Texnoparkların səmərəliliyini artırmadan tədqiqat və inkişaf nəticələrinin milli iqtisadiyyata ötürülməsini təmin etmək çətindir. Texnoparkların fəaliyyətinin səmərəliliyinin artırılması üçün dayanıqlı inkişafı təmin edilməlidir. Onların dayanıqlı fəaliyyət göstərməsi və inkişafı üçün dövlətin fəal dəstəyinə ehtiyac var. Bazar mexanizmləri texnoparkların idarə edilməsi üçün müasir tənzimləmə və hüquqi sistemlə müşayiət olunmalıdır. Bu, texnoparkların səmərəliliyinin artırılması problemini həll edə bilər. Beləliklə, texnoparkların səmərəliliyinin artırılması üçün bütün mexanizmlər şəkil 1-də verilmişdir. Şəkil 1-də bazar mexanizmləri ilə yanaşı, inzibati-hüquqi mexanizmlər də göstərilmişdir.

Texnoparkların səmərəli inkişafı ölkənin inkişafı üzrə strateji planın işlənib hazırlanmasında, eləcə də dövlətin sosial-iqtisadi siyasətinin formalaşdırılmasında və əsaslandırılmasında, dövlətin inkişafının prioritet istiqamətlərinin müəyyən edilməsində mühüm əhəmiyyət kəsb edir [7, s. 105]. Azərbaycanda texnoparkların inkişafına təsir göstərən bir sıra maneələr vardır ki, bunlara sənaye məhəllələrində işləmək üçün peşəkar, ixtisaslı və təcrübəli kadrların çatışmamasını, maddi-texniki və maliyyə baxımından kifayət qədər dövlət dəstəyinin olmamasını, sahibkarlıq mədəniyyətinin tam formalaşmamasını, sənaye zonalarında iştirakçı müəssisələrin davranışı haqqında dəqiq məlumatın olmamasını, texnoparkların yaradılması və inkişafı ilə bağlı layihədən çıxmaq probleminin olmasını və s. aid etmək olar [8, s. 554].




**Şəkil 1. Texnoparkların səmərəliliyinin artırılması mexanizmi (müəllif tərəfindən tərtib olunub).**

Texnoparkların işində səmərəliliyin olmasının əsas səbəblərindən biri onların inkişafına dövlət dəstəyi və normativ-hüquqi bazanın təkmillliyi ola bilər. Texnoparkların inkişafına dövlət dəstəyi tədbirlərinin ardıcıllığını təmin etmək üçün onların stimullaşdırılması məqsədilə maliyyə tədbirlərindən istifadə konsepsiyasının formalaşdırılması (vergi güzəştlərinin, vergi kreditlərinin, zəmanətlərin, büdcə kreditlərinin verilməsi, vergilərin ödənilməsinin təxirə salınması; torpaqdan, infrastrukturdan və digər dövlət əmlakından və ya bələdiyyə mülkiyyətindən istifadə; girov, sığorta, vençur fondlarının yaradılması) zəruridir. Həmçinin, texnoparkın fəaliyyətinin səmərəliliyinin artırılması üçün müəyyən normativ-hüquqi tədbirlərin həyata keçirilməsi prosedurunun hazırlanması vacibdir. Texnoparkın səmərəliliyinin artırılmasının hüquqi tənzimlənməsi aşağıdakılardan ibarətdir: 1) ölkənin elmi, təhsil və innovasiya komplekslərində texnoparkların yaradılmasının hüquqi əsaslarının hazırlanması, texnoparklarda elm və təhsil strukturlarının yaradılması qaydasının dəqiqləşdirilməsi, onların inkişafı proqramlarının təsdiq edilməsi; 2) texnoparkların fəaliyyətini tənzimləyən qanunvericiliyin hazırlanması və qəbulu. Qanunda texnopark formalarının tipologiyası onların vacib xüsusiyyətlərini, bu strukturların işinin meyarlarını, elmi tədqiqatların büdcədən maliyyələşdirilməsinin xüsusiyyətlərini, texnoparkların elmi fəaliyyətinin tənzimlənməsi prinsiplərini əks etdirməlidir; 3) dövlət əmlakının özəlləşdirilməsi zamanı mülkiyyət komplekslərinin, torpaq sahələrinin texnoparklara verilməsinin hüquqi tənzimləməsinin işlənib hazırlanması; 4) texnoparkın rezidentləri üçün hüquqi tənzimləmənin, habelə onların maliyyə göstəriciləri, texnoparkın ərazisində qalma müddətləri, fəaliyyət profili baxımından tələblərin işlənib hazırlanması və 5) əqli fəaliyyətin nəticələrinin hüquqi tənzimlənməsi və nəticələrinin qiymətləndirilməsi [9, s. 43].

Dövlət və bələdiyyə strukturlarının dəstəyi də qeyri-iqtisadi tədbirlərdən istifadə etməklə mümkündür. Bu, ilk növbədə, innovativ layihələrin həyata keçirilməsində inzibati prosedurların sadələşdirilməsi, texnoparkların və onların rezidentlərinin iqtisadi, hüquqi, statistik, istehsalat və texnoloji məlumatlarla, onların fəaliyyət göstərməsi və inkişafı üçün zəruri olan marketinq məlumatları ilə təmin edilməsidir. Texnoparkın fəaliyyətinin səmərəliliyinin artırılması üzrə təşkilati tədbirlərə aşağıdakılar daxildir: 1) texnoparkın idarəedici şirkətinin yaradılması üçün müsabiqənin keçirilməsi; 2) texnoparkda "rezident" statusunun alınması üçün müsabiqənin keçirilməsi; 3) texnoparkın rezidentləri üçün kiçik sahibkarlıq subyektləri ilə bağlı həyata keçirilən nəzarət tədbirlərinin sayının azaldılması və müvafiq olaraq bu fəaliyyətlərlə bağlı biznes xərclərinin azaldılması; 4) kadr təminatı. Kiçik innovativ sahibkarlıq sahəsində kadrların hazırlanması və ixtisasının artırılması, habelə kiçik və orta sahibkarlığın tədris-metodiki və elmi-metodiki təminatının inkişafı üzrə məqsədyönlü proqramların həyata keçirilməsi və işlənib hazırlanması; 5) informasiya təminatı (texnoparkların fəaliyyətinin nəticələrinin uçotu sisteminin və onların elmi nailiyyətlərinin təbliği üçün müvafiq sistemin yaradılması); 6) təhsil sahəsində siyasət, texnoparkların təhsil müəssisələri ilə inteqrasiyası tədbirləri; 7) texnoparkların rezidentlərinə dövlət satınalmalarında, malların tədarükü, işlərin görülməsi, dövlət və bələdiyyə ehtiyacları üçün xidmətlərin göstərilməsi üçün sifarişlərin yerləşdirilməsi məqsədilə təchizatçı (icraçı, podratçı) qismində keçirilən tenderlərdə iştirak etdikdə üstünlük verilməsi; 8) dövlət və bələdiyyə ehtiyacları məqsədilə malların tədarükü, işlərin görülməsi, xidmətlərin göstərilməsi üçün sifarişlərin verilməsi; 9) beynəlxalq təşkilatlarla və xarici dövlətlərlə əməkdaşlığa köməklik, o cümlədən malların (işlərin, xidmətlərin) və əqli fəaliyyətin nəticələrinin xarici dövlətlərin bazarlarında təşviqinə yardım göstərilməsi.

Yuxarıda qeyd edilən tədbirlər texnoparklar şəbəkəsinin genişləndirilməsi baxımından əhəmiyyətlidir. Bunlarla bərabər texnoparklar şəbəkəsinin genişləndirilməsi üçün aşağıdakılar zəruridir: 1) İKT-nin inkişafının milli seqmentinə yardımın göstərilməsi; 2) sosial-iqtisadi inkişafın prioritet istiqamətləri üzrə dövlət tərəfindən yeni texnologiya və avadanlıqların sifarişlərinin yerinə yetirilməsi; 3) müxtəlif növ dövlət imtiyazları sahəsində müasir texnologiyaların istehsalı və istehlakı üçün əlverişli şəraitin yaradılması; 4) ölkədə fəaliyyət göstərən yerli və xarici şirkətlər tərəfindən istehsal üçün müasir texnologiyaların məqbul şərtlərlə sifarişlərinin icrası; 5) beyin axınının qarşısının alınmasına kömək göstərilməsi; 6) idxal və ixracın sərbəst üstünlükləri sahəsində regional bazara operativ çıxış imkanlarının yaradılması; 7) təhsil müəssisələri üçün İT sahəsində tədris-praktiki mərkəzin yaradılması; 8) innovativ sahibkarlıqla məşğul olmaq niyyətində olan kiçik müəssisələrin fəaliyyət göstərməsi üçün əlverişli

şəraitin yaradılması və 9) xarici və yerli informasiya texnologiyaları şirkətlərinin elm yönümlü innovativ layihələrinin həyata keçirilməsi üçün zonanın formalaşdırılması.

Qeyd edək ki, dövlət dəstəyinin əsas məqsədi texnoparklar şəbəkəsinin fəaliyyətinin genişləndirilməsi və maksimum səmərəliliyini təmin edən və milli iqtisadiyyatın innovativ sahəsinin inkişafına töhfə verən səmərəli mexanizmin yaradılmasıdır. Bütün bunlar texnoparklar şəbəkəsinin genişləndirilməsi üzrə təkmil milli strategiyanın formalaşdırılmasını zərurətə çevirir. Texnoparklar şəbəkəsinin genişləndirilməsi üzrə milli strategiyanın formalaşdırılması fəaliyyətin planlaşdırılması kontekstində dövlət idarəçiliyinin əsas funksiyalarının həyata keçirilməsi, o cümlədən innovativ layihələrin stimullaşdırılması və onların icrasına nəzarətin həyata keçirilməsi ilə bağlı olmalıdır. Texnoparkın uğurunu şərtləndirən əsas amillərdən biri texnopark strukturlarında, ilk növbədə, onların elmi-tədqiqat bölmələrində işləmək üçün iri yüksək texnologiyalı şirkətlərin cəlb edilməsidir. Onu da qeyd etmək lazımdır ki, böyük şirkətlər həm elmi-tədqiqat işlərinin nəticələrinin kommersiyalaşdırılmasına resursları cəmləşdirmək, həm də bazarda innovativ məhsulların perspektivlərini təhlil etmək üçün ən böyük imkanlara malikdirlər. Nəticə etibarilə, aydın texnoloji ixtisasa malik olan texnoparklar tədqiqat və istehsal infrastrukturu yaratmaq və tədqiqat təşkilatları ilə tərəfdaşlıq əlaqələrini inkişaf etdirməkdə üstünlüklərə malikdir [10, s. 56]. Texnoparklar şəbəkəsinin genişləndirilməsi üzrə milli strategiyanın formalaşdırılması elmin, təhsilin və istehsalın inteqrasiyasına, resursların elmi və texnoloji inkişafın prioritet sahələrində cəmləşdirilməsinə, texnoparkların əqli mülkiyyətinin hüquqi qorunmasına və müdafiəsinə, onların fəaliyyətinin stimullaşdırılmasına yönəldilməlidir. Milli innovasiya sistemi çərçivəsində texnoparkların onlara təsir göstərən digər təşkilati formalarla qarşılıqlı əlaqəsini təmin etmək lazımdır. Texnoparklar şəbəkəsinin genişləndirilməsi üzrə milli strategiyanın formalaşdırılması aşağıdakı vəzifələrin həllinə yönəldilməlidir: 1) texnoparkların səmərəli inkişafı üçün institusional və normativ-hüquqi mühitin təmin edilməsi; 2) innovativ biznes sahəsində kadrların hazırlanması və yenidən hazırlanması sisteminin inkişafı; 3) texnoparkların elmi və texnoloji potensialının qorunması və inkişafı; 4) texnoparklarda elm tutumlu istehsalatların aktivləşdirilməsi üçün əlverişli iqtisadi şəraitin təmin edilməsi və 5) dövlət orqanlarının hərəkətlərinin əlaqələndirilməsi.

Yuxarıda qeyd edilənlərə əsaslanaraq texnoparklar şəbəkəsinin genişləndirilməsinə dair dövlət dəstəyi tədbirlərini təklif edə bilərik (şəkil 2.)




**Şəkil 2. Texnoparklar şəbəkəsinin genişləndirilməsinə dövlət dəstəyi tədbirləri (müəllif tərəfindən tərtib olunub)**

## YEKUN

Azərbaycanda texnoparklar şəbəkəsinin genişləndirilməsi müxtəlif səviyyəli büdcələrdən maliyyələşmədən mümkün deyil. Bundan əlavə, dövlət-özəl tərəfdaşlığının səmərəli mexanizmləri formalaşmalıdır. Elmi-texniki tərəqqinin fəaliyyətinin əsas problemlərini həll etmək üçün onların iştirakçılarının və idarəetmə orqanlarının hüquqi statusunu dəqiq müəyyən etmək, innovativ fəaliyyət üzrə ixtisaslaşmış şirkətlərə münasibətdə vergi yükünü azaltmaq lazımdır. Texnoparklar şəbəkəsinin inkişafı üzrə dövlət proqramları hazırlanarkən və həyata keçirilərkən elmi-texniki tərəqqinin əsas növlərinin seçilməsi, texnoparkların idarəetmə orqanlarının formalaşdırılması, onların maliyyə təminatı sahəsində qabaqcıl dünya təcrübəsinə əsaslanmaq lazımdır və bir sıra məsələlərə xüsusi önəm verilməlidir:

- yaxın persektivdə texnoparkların Azərbaycan iqtisadiyyatına sistemli müsbət təsir göstərəcəyini proqnozlaşdırmaq olar. Onların inkişafı elmi-tədqiqat təşkilatları ilə sənaye müəssisələri arasında itirilmiş əlaqələrin genişləndirilməsinə kömək edəcəkdir. Bundan əlavə, texnoparklar yaxın gələcəkdə kiçik innovativ biznesin inkişafı üçün ən mühüm vasitələrdən biri hesab edilməlidir.
- elmi-texniki tərəqqinin əsas funksiyalarından biri olan bilik və texnologiyanın ötürülməsi ölkənin iqtisadi təhlükəsizliyini müəyyən edən mühüm texnologiyaların işlənib hazırlanmasına və həyata keçirilməsinə imkan verəcəkdir.
- texnoparklar şəbəkəsinin genişləndirilməsi ölkə iqtisadiyyatının qeyri-neft sektorunun inkişafına, onun ixrac potensialının, məşğulluğun artırılmasına, iqtisadiyyatın müasirləşdirilməsinə, innovativ biliyə əsaslanan iqtisadiyyatın yaradılmasına, rəqabətqabiliyyətli məhsul istehsalının genişləndirilməsinə, ölkənin investisiya cəlbediciliyinin artırılmasına və innovativ sahibkarlığın inkişafına imkan verəcəkdir və s.

## ƏDƏBİYYAT SİYAHISI


*1. “Azərbaycan 2020: Gələcəyə Baxış” İnkişaf Konsepsiyası - https://president.az/files/future_az.pdf.*

*2. Кураченко В.П. Технополисы как элемент инфраструктуры инновационной экономики // Актуальные проблемы социоэкономики в XXI веке: Материалы X международной научной конференции студентов и молодых учёных. Москва: Российский государственный университет туризма и сервиса, 2018, с. 106-109.*

*3. Белова В.В., Четин В.Д., Латышенко Г.И. Технопарк как элемент инновационной инфраструктуры // Тенденции развития науки и образования, 2020, № 62-10, с. 54-57.*

*4. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi. İqtisadi Islahatlar Elmi Tədqiqat İnstitutu Texnoparkların Yaradılmasi üzrə beynəlxalq təcrübə - https://www.aceconsultants.az/media/files/32/file228.pdf.*

*5. Azərbaycan Respublikasında telekoomunikasiya və informasiya texnologiyalarının inkişafina dair strateji yol xəritəsi. Bakı, 6 dekabr 2016, 65 s.*

*6. Əliyev Ə.Q., Şahverdiyeva R.O. Texnoparklarda innovativ məhsul istehsalı proseslərinin modelləşdirilməsinin ümumi əsasları. İnformasiya cəmiyyəti problemləri, 2018, № 1, s.69-77.*

*7. Бозо Н.В., Динер А.В. Методический подход к оценке эффективности деятельности технопарков // Вестник Томского государственного университета. Экономика, 2016, № 1(33), с. 105-115.*

*8. V International Scientific Conference Of Young Researchers. Baku Engineering University. 29-30, April 2021, Baku, Azerbaijan - http://yric.az/books-2021/BOOK_2.pdf, s.554-555*

*9. Зырянова И.И. Механизмы повышения эффективности деятельности технопарков. Менеджмент социальных и экономических систем. 2017, № 4, с.38-46.*

*10. Литвиненко И.Л. Технопарки как один из ключевых инфраструктурных элементов развития региональной экономики // Инновационное развитие экономики, 2016, № 4(34), с. 49-58.*


*Açar sözlər: texnoparklar, texnoparklar şəbəkəsi, innovativ məhsullar, texnoparkların genişləndirilməsi problemləri, texnoparkların səmərəlilik problemləri, texnoparklar şəbəkəsinin genişləndirilməsi perspektivləri, ixracyönlü innovativ məhsullar.*


## РЕЗЮМЕ

**Вопросы расширения технопарков в Азербайджане**

В статье исследованы вопросы расширения

технопарков в Азербайджане. Исследован потенциал технопарков в увеличении объёма производства инновативных продукций. Изучены и обобщены особенности промышленных технопарков в нынешнем периоде. Рассмотрена роль технопарков в усилении макроэкономической стабильности в Азербайджане. Обоснована эффективность технопарков в улучшении бизнес-среды и интенсивного развития частного сектора. Даны преимущества технопарков в расширении номенклатуры и увеличение объёма в экспортоориентированных продукций в стране. Разработан механизм повышения эффективности технопарков с учётом тенденции экономического развития в современном периоде. Обращено внимание на важность мероприятий государственной поддержки в расширении технопарков в процессах практичной деятельности. Подготовлены рекомендации и даны предложения по рассматриваемым проблемам.

**Ключевые слова:** *технопарки, сеть технопарков, инновативные продукции, проблемы расширения технопарков, проблемы эффективности технопарков, перспективы расширения сети технопарков, экспортноориентированные инновативные продукции.*

## SUMMARY

### Question of expansion technoparks in Azerbaijan

The article examines the question of expanding technoparks in Azerbaijan. The potential of technoparks in increasing the volume of production of innovative products was investigated. The features of industrial technoparks in the current period were studied and summarized. The role of technoparks in increasing macroeconomic stability in Azerbaijan is considered. The efficiency of technoparks in improving the business environment and intensive development of the private sector was substantiated. In the article the advantages of technoparks in expanding the range and increasing the volume of export-oriented products in the country are given. A mechanism was developed to improve the efficiency of technoparks, taking into account the tendency of economic development in the current period. Attention is drawn to the importance of state support measures in the expansion of technoparks in the processes of practical activities. The article provides recommendations and suggestions related to discussed issue.

**Keywords:** *technoparks, a network of technoparks, innovative products, problems of expanding technoparks, prospects for expanding the network of technoparks, innovative export-oriented products.*

UOT: 334.012: 334.012.4

# POSTPANDEMİYA DÖVRÜNDƏ İQTİSADİ İNKİŞAFIN SÜRƏTLƏNDİRİLMƏSİNDƏ SAHİBKARLIQ FƏALİYYƏTİNİN TƏKMİLLƏŞMƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ

**VÜQAR TAĞIYEV**
*Azərbaycan Dövlət Neft və Sənaye Unversitetinin doktorantı*

*E-mail: vtaqiyev@mail.ru*

Dünya səviyyəsində baş verən qlobal problemlər və transformasiyalar iqtisadi inkişaf proseslərinə ciddi şəkildə təsir etmişdir. Ənənəvi yanaşmalar. tətbiq olunan mexanzimlər artıq qlobal təsirlər konteksində müəyyən problemlərlə üzşləşmişdir və onların yenilənməsi, eyni zamanda təkmilləşdirilməsi vacib şərtlərdəndir. Bunun üçün qlobal təhdidlərə adekvat olan mexanzimlər işlənməli, onların adaptivliyi, milli iqtisadi sistemdə dayanıqlılığı müəyyənləşdirilməli və yüksək texnologiyalardan istifadə etməklə tətbiq olunmalıdır. Sahibkarlığın iqtisadi inkişaf proseslərində rolunun artırılması prioritetləri dövlətin iqtisadi siyasətinin tərkib hissəsi kimi çıxış edir. Beynəlxalq təşkilatlar səviyyəsində, həmçının dünya ölkələrinin inteqrasiyayönlü proseslərində bu məsələlər daim diqqət mərkəzindədir. Məsələn, hər il Ümumdünya Sahibkarlıq və İnkişaf İnstitutu tərəfindən ölkələrdə olan sahibkarlıq subyeklərinin vəziyyətinin müqayisə edilmısi üçün Sahibkarlıq indeksi müəyyənləşdirilir və bu kimi tədbirlər dünya səviyyəsində sahibkarlar arasında rəqabət mühitinin sağlamlaşdırılmasına müsbət təsir göstərir. Bu indeksin metodiki və təşkilati-iqtisadi hazırlanma mexanzimlərinə və prosedurlarına gəlincə isə, həmin indeks 137 ölkə arasında 14 əsas göstərici əsasında tərtib olunur. Son illərin nəticələrindən yanaşsaq, bu indeksdə əsas ətibarilə ilk cərgələrdə ABŞ, İsvecrə, Kanada və s. yer almışlar. Qardaş Türkiyə həmin indeks üzrə 37-ci yerdə, MDB dövlətləri arasında isə ilk yerdə olan Azərbaycan ümumi siyahıda 62-ci yerdə qərarlaşmışdır, müqayisə üçün deyək ki, həmin siyahıda Qazaxstan 64-cü, Ukrayna-73-cü, Rusiya 78-ci, Ermənistan isə 88-ci yerdə qalmışdır.

İstərdik ki, beynəlxal səviyyədə olan və sahibkarlığın inkişaf səviyyəsinə ciddi təsir göstəırən bir sıra indekslər üzrə COVİD-19 pandemiya şəraitində olan dövrə nəzər salaq. Məlumdur ki, investisiyaların cəlbi üçün əlverişli mühitin yaradılması və yeni innovasiyaların inkişafına dövlət dəstəyinin artırılması ümumilikdə texnoloji inkişafın sürətləndirilməsinə və sahibkarlıq fəaliyyətinin müasir dövrün tələblərinə uyğun şəkildə modelləşdirilməsinə imkan verir. Pandemiya dövründə investisiyaların yatırılması və yeni innovasiyaların işlənməsi prosesləri kifayət qəədr mürəkkəbləşmişdir. Bunlarla belə, dünya ölkələri iqtisadi artımın azalmasının qarşısının alınması və postpandemiya dövründə iqtisadi inkişaf proseslərinin artım tempinin bərpa olunması məqsədilə yeni şərtlərlə və mexanizmlərlə sistemli tədbirlər görməyə üstünlük verməkdədirlər. Bu istiqamətlərdə rəqəmsal texnologiyalar və İKT-yönlü sahələrin inkişaf etdirilməsi, ənənəvi iqtisadiyyat sahələrində isə yüksək texnologiyaların geniş miqyasda tətbiqi məsələləri ön plana çıxmaqdadır. 2021-ci il üçün Qlobal innovasiya indeksinin təhlilinə baxsaq, görmək mümkündür ki, ilk onluqda olan ölkələrdə yüksək texnologiyaların və innovasiyaların inkişafına böyük məbləğdə maliyyə resursları yatırılır və investisiyalar yönəldilir. 2021-ci il üçün qlobal innovasiya indeksi üzrə ilk onluqda yerləşən ölkələr sırasında – İsvecrə, İsvec, ABŞ, Böyük Britaniya, Koreya Respublikası (Cənubi Koreya), Niderland, Finlandiya, Sinqapur, Danimarka və Almaniya qərarlaşmışlar [1]. Bu siyahıdan görmək olar ki, sahibkarlığının fəaliyyətinin intensivləşdirilməsində və səmərəliliyinin artırılmasaında ciddi önəm kəsb edən innovasiya indeksində qlobal innovasiya indeksində ilk 20-likdə Çindən başqa heç bir postsosialist və ya postsovet respublikası yer almamışdır. Buna görə hesab edirik ki, həmin ölkələrdə milli innovasiya sisteminin inkişafına, milli iqtisadiyyatın innovasiyalaşdırılmasına və yeni innovasiyaların tətbiqi ilə bağlı sistemli tədbirlərin görülməsinə daha çox resurslar yönəldilməlidir və investisiyalar yatırılmalıdır.

Elmi-texniki yeniliklərin biznes proseslərində tətbiqinin genişləndirilməsi və bunlarla əlaqəli sahibkarlıq fəaliyyətinin səmərəliliyinin yüksəldilməsi məsələləri də ciddi önəm kəsb edir. Bu proseslərdə sahibkarlıq fəaliyyətinin daha səmərəli və qlobal cağırışlara uyğun şəkildə tənzimlənməsi məqsədilə görülən tədbirlər son

nəticədə ölkə iqtisadiyyatının dayanıqlılığının artırılmasına və yeni artım mənbələrinin yaradılmasına gətirib çıxarır. Buna görə də, dövlətlər tərəfindən biznesin təşkili məsələlərinə daha çox önəm verilməli və tədbirlər görülməlidir. Ümumdünya Bankının bu sahədə araşdırmaları və 2002-2020-ci illər üçün biznesin təşkili indeksi üzrə dünya ölkələrinin reytinqinin təhlili maraq doğurur. Düzdür, pandemiya dövründə, konkret olaraq 2021-ci ildən başlayaraq bu layihə müvəqqəti olaraq dondurulmuşdur. Burada 10 nəzarət indikatorundan istifadə etməklə, ölkələrin reytinqi müəyyənləşdirilir: 1) müəssisələrin qeydiyyat prosesləri; 2) tikintiyə icazə alma prosesi; 3) elektrik təchizatı sisteminə qoşulma prosesi; 4) əmlakın qeydiyyat prosesi; 5) kreditləşdirmə; 6) investorların müdafiəsi; 7) vergiqoyma; 8) beynəlxalq ticarət; 9) kontraktların icarsının təminatı və 10) müəssisələrin ləgv edilməsi prosesi [2]. Qeyd edək ki, Doing Business 2020-yə görə biznesin təşkili üzrə ölkələrin reytinqində 190 ölkə yer almışdır.

Qeyd edək ki, sahibkarlar bazara yeni məhsullar və istehsal prosesləri ilə daxil olurlar. Yaradılan yeniliklər iqtisadi artım və məhsuldarlığı artırmaqla məşğulluğa müsbət təsir göstərir. İqtisadi inkişafda sahibkarlığın pozitiv rol oynadığına dair ilk sistematik töhfələr 20-ci əsrin əvvəlində Schumpeter ilə başlayır. Schumpeter (1963) sahibkarlığın iqtisadi inkişafa təsirini sahibkarların yeniliklərə uyğunlaşma bacarığı ilə əlaqələndirir. Yenilik yeni məhsulların tətbiqi, yeni istehsal üsullarının tətbiqi, yeni bazarların tətbiqi, yeni xammal və ya bitməmiş məhsulların mövcudluğu və ya bazarın yenidən qurulması (kartelin monopolizasiyası və ya məhv edilməsi) şəklində ola bilər. Daha çox mənfəət əldə etmək istəyən Sahibkarlar innovasiyaları tətbiq etməklə daha çox mənfəət əldə edir. İnnovasiyaların tətbiqi xərcləri azaldacaq və ya gəlirlərin artmasına səbəb olacaqdır. Hər növ innovasiya vacibdir, çünki innovasiyaların tətbiqi həm istehsalı sadələşdirəcək, həmdə sosail fayda gətirməklə daha çox gəlir əldə etmək imkanı yaradır. Yeni texnologiyalara əsaslanan sahibkarlıq üç səbəbdən daha çox mənfəət və sosial faydalar yaradır. Bunlar: 1) yeni sənayenin yaranmasına gətirib çıxarır; 2) texnologiyalardan istifadə edən sektorlardakı məhsuldarlığı artırır və 3) sürətlə böyüyən sektorlar olduğu üçün iqtisadi artımı sürətləndirir. Sahibkarlar rəqabət vasitəsi ilə səmərəliliyi artırırlar: Rəqabətlilik məşğulluq yaratmaq, bazarda məşğulluğun təmini / artırılması və keyfiyyətli malların istehsalı ilə iqtisadi inkişafa kömək etmək üçün tələb olunur. Bununla yanaşı, rəqabətin artması ilə məhsuldarlığın artırılması bir-birinə təsir edən əlaqə yaradır; Rəqabət səbəbi ilə müəssisələr istehlakçının tələbinə dərhal cavab verəcək keyfiyyətli mal istehsal etmək üçün işçi qüvvəsi və məhsuldarlığını artırırlar, məhsuldarlığın artması isə bazarda rəqabətin daha da sürətlənməsinə təsir göstərir. Bu proses istehlakçıya daha keyfiyyətli, ucuz və müxtəlif malların istehsalı ilə fayda təmin edir və iqtisadiyyatı qoruyur. Sahibkarlar, bazarda rəqabət təzyiqini artıraraq, digər firmalara məhsuldarlıq və effektivliyini artırmaq və ya yeniləşdirməyə məcbur edir; Bazar iqtisadiyyatının əsas elementi kimi əldə etdikləri uğurlar, cəmiyyətə sərvət və yeni iş imkanları və istehlakçılara seçim imkanı verir. Əvvəlki mövzuda da qeyd etdiyimiz kimi hal-hzırda ölkəmiz Dünya İqtisadi forumunun hesabatında əvvəlki illə müqayisədə xeyli geriləmişdir. Ölkəmizdə rəqabətin gücləndirilməsi və azad biznes mühitinin yaradılması üçün islahatlara və güclü hüquqi bazanın yaradılmasına ehtiyac var. Sahibkarlar, müştərinin arzularını və ehtiyaclarını müəyyənləşdirir. Yeni məhsullar bazara çıxararaq nəyin lazımlı olduğunu, istehlakçıların nələri almağa üstünlük verdiyi kimi məsələrdə yardım göstərir. Bu proses bizə məhsul-bazar kombinasiyasının inkişafınaköməkli edir. Sahibkarların riski öz üzərinə götürməsi və qeyri-müəyyənliklə mübarizə apara bilməsi başlıca makroiqtisadi nəticələrə malikdir. Risklərin idarə edilməsi və qeyri-müəyyənliklərə qarşı dözümlülük qabiliyyəti kiçik və orta müəssisələrin fəaliyyət dövrünü artıran səbəblərdən biri hesab olunur.

Qloballaşma artdıqca və rəqabətin ağır olduğu iqtisadi mühitdə bir çox ölkələr iqtisadi problemlərlə üzləşirlər. Bunun da başında məşğulluq problemi var. Sahibkarlar yeni müəssisələr yaradaraq məşğulluq yaradır və iqtisadiyyatı sürətləndirirlər. Sahibkarlığın inkişafl üçün həmişə böyük kapital tələb edilmədiyi üçün, kiçik kapital ilə də biznesə yaratmaq mümkündür. Kiçik sahibkarlığa heç bir maneəçilik olmadıqda geniş bir topluluğun sahibkarlığa yəni biznes qurmaq istəyinin artamasına səbəb olur. Bunun nəticəsində də topluluğun artıq öz işini qurmaq istəyi yaranır ki, sonda dövlətdən iş tələb etmə istəyi azalır. Bu vəziyyət, bir tərəfdən dövlətin əsas işəgötürən tərəf

olmasından çıxmasına şərait yaradır, digər tərəfdən, ümumi məşğulluq səviyyəsinin yüksəlməsinə gətirib çıxarmaqdadır. İnsanların ehtiyaclarını ödəmək üçün istehsal faktorlarını olan əmək, sərmayə və təbii qaynaqları bir araya gətirərək mal və xidmət istehsal edərək, bu məhsulların hazırlanmasında çəkilən əməyə görə də pay şəkilində əmək haqqı ödəyir. Sahibkarlıq fəaliyyəti nəticəsində yaranan yeni bazarlar, sənaye qolları və yeni iş sahələri məşğulluq səviyyəsini artırmaqla bərabər, işçilərin əməyindən istifadə edərək məhsuladarlığı artırmaqla, həm o bölgənin iqtisadiyyatını həm də ölkə iqtisadiyyatının inkişafının davam etdirməsinə yardım edir.

Digər tərəfdən, sahibkarlıq fəaliyyətinin tənzimlənməsi və dövrün tələblərinə uyğun olaraq təşkil edilməsi, zəruri addımların atılması dövlətin iqtiadi siyasətinin tərkib hissələrindən biri kimi baxılır. Sahibkarlıq fəaliyyətinə göstərilən dövlət dəstəyi son nəticədə öz müsbət effektini verir, məşğulluğun gücləndirilməsində, əhalinin gəlirlərinin artırılmasında və iqtisadiyyatın artım mənbələrinin formalaşdırılmasaında önəmli rol oynayır. Məsələn, aparıcı dünya ölkələrində sahibkaqlıq fəaliyyətinin dəstəklənməsi üçün çoxlu sayda mexanzimlər işlənilib və tətbiq olunub. Əsas dəstək formaları kimi güzəştli kreditlərin verilməsi, investisiya mühitinin yaxşılaşdırılması, vergi güzəştlərinin müəyyənləşdirilməsi və sahibkarlıq inkişaf zonaların yaradılması praktikası geniş yayılmışdır [3]. Bundan əlavə, sahibkarlıq fəaliyyətinin modelləşdirilməsi və zəruri maliyyə mexanzimləri ilə təmin edilməsi xüsusi diqqət mərkəzində saxlanılmalıdır. Belə ki, iqtisadi funksiyaları ilə yanaşı sahibkarlıq subyektləri həm də sosial funksiyaları yerinə yetirirlər və xüsusilə regionların inkişafında böyük əhəmiyyət kəsb edirlər [4]. Eyni zamanda, sahibkarlığın inkişafı ilə prioritet istiqamətlərin optimal olaraq müəyyənləşdirilməsi və ölkənin iqtisadi iunkişaf proseslərində nəzərə alınması vacib məsələlər kimi xarakterizə olunur. Sahibkarlığın inkişafı üçün görülən tədbirlər ölkənin sosial-iqtisadi inkişafının intensivləşdriilməsində stimullaşdırıcı şərtlərdəndir [5].

Son onilliklərdə qlobal problemlərin genişləndiyi bir dövrdə Azərbaycanda sahibkarlığın inkişafına, xüsusilə kiçik və orta sahibkarlıq subyektlərinin fəaliyyətinin dəstəklənməsinə dair ardıcıl tədbirlər görülməkdədir və məqsədli proqramlar reallaşdırılmış, strtaeji yanaşmalar formalaşdırılmışdır. Ölkə Prezidentinin 6 dekabr 2016-ci il tarixli Fərmanı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi"də sahibkarlığın inkişafı ilə bağlı hədəflər və prioritetlər verilmişdir [6]. Strateji yol xəritəsinin hədəflərinə çatmaq üçün keçən dövr ərzində ölkə iqtisadiyyatının müxtəlif sahələrində, sənaye və kənd təsərrüfatı sektoru sahələrində, kiçik və orta biznes sferasında, həmçinin bir sıra yeni inkişaf edən sahələrdə, o cümlədən turizm sektorunda, bilik iqtisadiyyatının formalaşmasında, rəqəmsal inkişafın sürətləndirilməsində, həmçinin biznes mühitinin yaxşılaşdırılmasında dövlət tərəfindən səmərəli tədbirlər görülmüş, maliyyə təminatı gücləndirilmiş və qanunvericilik bazası təkmilləşdirilmişdir. Eyni zamanda, ölkədə institusional və struktur islahatları dərinləşdirilmiş, yeni, eyni zamanda, çevik dövlət orqanları yaradılmış, biznesə müdaxilələr azalmış, biznes proseslərinin və fəaliyyətinin şəffaflığı artırılmış, vergi və gömrük islahatları aparılmış, biznes subyektlərinin daha səmərəli fəaliyyətinə mane olan halların aradan qaldırılması tədbirləri intensivləşdirilmişdir. Xüsusilə, qeyri-neft sənaye sektoru sahələrində biznes mühitinin səmərəliliyinin yüksəldilməsi strateji səviyyəyə yüksəldilmişdir. Artıq bir çox iqtisadiyyat sahələrində biznes mühiti kifayət qədər şəffaflaşmış, dövlət strukturlarında "bir pəncərə" sistemi tətbiq edilmiş, biznesin təşkili və aparılması üçün məcburi prosedurların sayı azaldılmış, kredit resurslarına əlçatanlığın artırılması tədbirləri görülmüşdür. Bütün bunlarla bərabər, strateji yol xəritələri çərçivəsində nəzərdə tutulmuş strateji hədəflərə çatmaq üçün biznes mühitinin müasir dövrün çağırışlarına uyğun fundamental səviyyədə araşdırılması və təkmilləşdirilməsi tələb olunur. Sahibkarlığın inkişafı ilə bağlı olaraq hər bir hədəf üçün prioritetlər, onların əsaslandırılması və reallaşdırılmasından ötrü yaxın, orta və uzaq perspektivlər nəzərə alınmaqla tədbirlər və vəzifələr müəyyənləşdirilmişdir [7].

Azərbaycanda da son 10 il ərzində sahibkarlıq fəaliyyətinə olan dövlət dəstəyi mexanzimlərinin və bununla bağlı aparılan siyasətin bir sıra məqamlarını qeyd etmək istərdik. Belə ki, ölkəmizdə sahibkarlığın inkişafına strateji yanaşmalardan irəli gələn məsələlərin kompleks və sistemli baxılması və reallaşdırılması istiqamətində son illərdə də davamlı

tədbirlər görülməkdədir. Sahibkarlıq fəaliyyətinin daha da səmərəli təşkili, xüsusilə regionlarda sahibkarlığın inkişafına imkan verən biznes mühtinin yaxşılaşdırılması üçün zəruri işlərin görülməsi ardıcıl xarakter daşımaqdadır. Bundan əlavə, sahibkarlıq sahəsində intensivliyin təmin olunması kənar müdaxilələrin azaldılması məqsədilə 20 oktyabr 2015-ci ildə "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında Azərbaycan Respublikasının Qanunu" qüvvəyə minmişdir [8]. Bu qanunla yalnız vergi yoxlamaları, maliyyə bazarları sahəsində aparılan yoxlamalar, gömrük auditi və s. bu kimi spesifik, həmçinin dövlət əhəmiyyətli, milli iqtisadi təhlükəsizlik baxımından vacib olan məsələlər üzrə yoxlamalar saxlanılmaqla digər bütün növ yoxlamalar dayandırılmışdır. Digər tərəfdən, ölkə Prezidentinin 31 iyul 2018-ci il tarixli Fərmanına əsasən əvvəllər İqtisadiyyat Nazirliyinin tərkibində fəaliyyət göstərən Sahibkarlığa Kömək Milli Fondu ləğv olunmuş əvəzində isə Sahibkarlığın İnkişaf Fondu publik hüquqi şəxsi yaradılmışdır [9]. Bu Fərmanın reallaşdırılması ilə bağlı prioritet tədbirlər sırasında qeyri-neft sektorunda müasir və məhsuldar texnologiyalara əsaslan yeni istehsal emal və infrastruktur müəssisələrinin yaradılması, həmçinin özəl subyektlərin maliyyə resurslarına əlçatanlığının təmin edilməsi məsələlərinə daha çox önəm verilmişdir. Bu Fondun vəsaitindən istifadə Qaydasında qeyd edilir ki, Fondun vəsaiti ölkənin sosial-iqtisadi inkişafı çərçivəsində strateji əhəmiyyət kəsb edən sahələrin inkişafı, xüsusilə, qeyri-neft sektorunun inkişafı, innovativ texnologiyaların tətbiqi və ixrac əməliyyatları üzrə investisiya layihələrinin maliyyələşdirilməsinə yönəldilir [10]. Sahibkarlıq subyektlərinin son illərdə fəal şəkildə xarici bazarlara çıxması, xarici ticarət fəaliyyəti ilə məşğul olmaları üçün dəstək mexanizmlərinin göstərilməsi və sahibkarların işgüzar əlaqələrinin inkişaf etdirilməsi, genişləndirilməsi tədbirlərini də təqdirəlayiq saymaq mümkündür. Belə ki, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu tərəfindən müxtəlif biznes forumların, sərgilər və seminarların, konfransların keçirilməsi sayəsində biznes mühitinin və iqtisadi potensialın təbliği, iqtisadi fəallığın artırılması, xarici işgüzar əlaqələrin yaradılması və inkişaf etdirilməsi istiqamətində səmərəli tədbirlər görülməkdədir [11]. Prezident İlham Əliyev bildirmişdir ki, "Hər bir yerdə yerli icra orqanların rəhbərləri, icra başçıları, vəzifəli şəxslər sahibkarlara köməklik göstərməlidirlər. Onların fəaliyyətinə dəstək verməlidirlər, onların işinə müdaxilə etməməlidirlər, qanunsuz tələblər irəli sürməməlidirlər. Sahibkarlara yalnız köməklik göstərmək lazımdır ki, öz işlərini daha da səmərəli şəkildə qura bilsinlər" [12]. Ölkəmizdə hər il aprel ayının 25-i sahibkarlar günü kimi qeyd olunur. Özəl sektor, kiçik və orta sahibkarlığın inkişafı ilə əlaqədar olaraq biznes və investisiya mühiti daha da yaxşılaşdırılır, bu kateqoriyadan olan subyektlərin qeydiyyat prosedurları sadələşdirilir, əksər istiqamətlər üzrə elektron xidmətlər göstərilir, "bir pəncərə" prinsipi tətbiq olunur, özəl sektor subyektləri ilə hökümət strukturları və icra orqanları arasında əməkdaşlıq gücləndirilir. Eyni zamanda, ölkə Prezidentinin 15 sentyabr 2017-ci il tarixli Fərmanı ilə "Kredit Zəmanət Fondu"nun yaradılması ilə sahibkarların maliyyə resurslarına əlçatanlığı mexanizminin yaradılması təqdirəlayiq dövlət tənzimlənməsi mexanizmlərindən biri kimi baxılmalıdır [13].

Qeyd edək ki, regionlarda istehsal və emal sahələrinin inkişaf etdirilməsi istiqamətində, həmçinin turizmin inkişafına yönəldilən kreditlərin hesabına hər il nisbi artım müşahidə olunur, eyni zamanada sahibkarlıq subyektlərinin maliyyələşdirilməsi məqsədilə ayrılmış kreditlərin təyinatı üzrə istifadəsinə əməl olunması, bunun üçün nəzarət mexanizmlərinin və monitorinqlərin həyata keçirilməsi qaydaları işlənib hazırlanmış və həyata keçirilməkdədir [14]. Sahibkarlıq subyektlərinin son illərdə fəal şəkildə xarici bazarlara çıxması, xarici ticarət fəaliyyəti ilə məşğul olmaları üçün dəstək mexanizmlərinin göstərilməsi və sahibkarların işgüzar əlaqələrinin inkişaf etdirilməsi, genişləndirilməsi tədbirlərini də təqdirəlayiq saymaq mümkündür. Belə ki, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu tərəfindən müxtəlif biznes forumların, sərgilər və seminarların, konfransların keçirilməsi sayəsində biznes mühitinin və iqtisadi potensialın təbliği, iqtisadi fəallığın artırılması, xarici işgüzar əlaqələrin yaradılması və inkişaf etdirilməsi istiqamətində səmərəli tədbirlər görülməkdədir [15].

İşğaldan azad olunmuş ərazilərin tezliklə bərpa edilməsi və məcburi köçkünlərimizin öz doğma yurdlarına qaytarılması prosesləri artıq intensiv xarakter almaqdadır. Bunlarla bağlı strateji

vəzifələr müəyyənləşdirilmişdir və hesab edirik ki, həmin proseslərdə sahibkarlqı fəaliyyətinin optimal olaraq təşkil olunması, onların fəaliyyəti ilə bağlı prioritetlərin müəyyənləşdirilməsi vacibdir və bunlarla bağlı bir sıra amillərə diqqət yetirmək istərdik: 1) işğaldan azad olmuş ərazilərdə sahibkarlıq fəaliyyətinin tənzimlənməsinə və stimullaşdırılmasına fərqli yanaşmalar təmin olunmalı, özəl investisiyaların cəlbi xüsusi olaraq stimullaşdırılmalıdır; 2) ölkəmizdə fəaliyyət göstərən sahibkarlıq subyektlərinin Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında fəaliyyətinin genişləndirmək məqsədilə prioritet layihələrin hazırlanması, elektron reyestrə salınması ilə şəffalığın gücləndirilməsi və məqsədli qrant müsahibələrinin keçriilməsi daha çox səmərə verə bilərdi və s.

Ümumilikdə, postpandemiya şəraitində iqtisadi inkişafın sürətləndirilməsində sahibkarlıq fəaliyyətinin təkmilləşdirilməsi məqsədilə bir sıra məsələlərə daha çox diqqət yetirilməlidir:

- postpandemiya dövrünə adekvat iri investisiya-innovasiya layihələrinin işlənməsi və regional aspektlər nəzərə alınmaqla, reallaşdırılması tədbirləri görülməli, bu proseslərdə sahibkarlıq subyektlərinin roluna xüsusi önəm verilməlidir;

- dövlət tərəfindən verilən subsidiyalar və digər güzəştlərlə yanaşı, sahibkarlıq fəaliyyətinin genişləndirilməsi və onların iqtisadi inkişafın sürətləndirilməsində rolunun artırılması üçün əlçatan kredit resursları mexanizmləri işlənərəq tətbiq olunmalıdır və s.

**Açar sözlər:** *postpandemiya, sahibkarlıq fəaliyyəti, iqtisadi inkişaf, iqtisadi inkişafın sürətləndirilməsi, sahibkarlıq fəaliyyətinin təkmilləşdirilməsi, sahibkarlqı fəaliyyətinin inkişaf istiqamətləri, iqtisadi inkişaf prioritetləri, işğaldan azad olunmuş ərazilər.*

## ƏDƏBİYYAT SİYAHISI

*1. Глобальный инновационный индекс 2021 г.: инвестиции в инновации демонстрируют устойчивость несмотря на пандемию COVID-19; Швейцария, Швеция, США, Соединенное Королевство и Республика Корея являются лидерами рейтинга; Китай приближается к первой десятке. Женева, 20-09-2021. https://www.wipo.int/pressroom/ru/articles/2021/article_0008.html.*

*2. Рейтинг стран мира по индексу ведения бизнеса. 2002–2020 годы. World Bank Group. https://gtmarket.ru/ratings/doing-business.*

*3. Версоцкий, Р.Р. Зарубежный опыт поддержки малого и среднего предпринимательства и возможности его применения в современной России // Управленческое консультирование. № 7. 2019.- с.108-114.*

*4. Малова, Е.А., Царегородцев, Е.И. Необходимость развития малого и среднего бизнеса //Вестник Марийского государственного университета. Серия «Сельскохозяйственные науки. Экономические науки». 2016. №5.– с.91-95.*

*5. Мальцева, Е.С. Проблемы и перспективы развития малого бизнеса в России // Бизнес и дизайн ревю. 2016. Т. 1. № 4 (4).- с. 4-8.*

*6. Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi, Bakı, AR Prezidentinin 06 dekabr 2016-cı il Fərmanı ilə təsdiq olunmuşdur.*

*7. Azərbaycanda sahibkarlığın inkişaf tarixi. 18.05.2020/ https://www.economy.gov.az/article/azda-sahib-inkishaf-tar/21410/.*

*8. Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı şəhəri, 20 oktyabr 2015-ci il, № 1410-IVQ.*

*9. Azərbaycan Respublikasında sahibkarlığın inkişafında dövlət dəstəyi mexanizminin təkmilləşdirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Bakı şəhəri, 31 iyul 2018.*

*10. Sahibkarlığın güzəştli maliyyələşmə mexanizmi. https://www.economy.gov.az/article/guzeshtli-maliyeleshme-mexanizmi/21392.*

*11. Sahibkarların işgüzar əlaqələrinin inkişafı və ixrac imkanlarının dəstəklənməsi. https://www.economy.gov.az/article/sahibkarlarin-ishguzar-elaqelerin-inkishafi/21390#.*

*12. Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının dördüncü ilinin yekunlarına həsr olunmuş konfransda İlham Əliyevin yekun nitqi. https://president.az/articles/7340.*

*13. Kredit Zəmanət Fondunun yaradılması*

*haqqında Azərbaycan Respublikasının Prezidentinin 15 sentyabr 2017-ci il tarixli Fərmanı, Bakı şəhəri, 15 sentyabr 2017-ci il.*

*14. Sahibkarlığın güzəştli maliyyələşmə mexanizmi. https://www.economy.gov.az/article/guzeshtli-maliyeleshme-mexanizmi/21392.*

*15. Sahibkarların işgüzar əlaqələrinin inkişafı və ixrac imkanlarının dəstəklənməsi. https://www.economy.gov.az/article/sahibkarlarin-ishguzar-elaqelerin-inkishafi/21390#.*

## РЕЗЮМЕ

**Направления совершенствования предпринимательской деятельности по ускорению экономического развития в постпандемическом периоде**

В статье исследованы направления совершенствования предпринимательской деятельности по ускорению экономического развития в постпандемическом периоде. Рассмотрены важнейшие аспекты проблем и перспектив развития предпринимательской деятельности с учетом мировых подходов и международного опыта. Обоснована необходимость расширения роли предпринимательской деятельности в углублении ускорения экономического развития и создания новых продуктивных источников роста экономики страны. Анализирована и оценена нынешняя ситуация по организации и развитию предпринимательской деятельности в Азербайджане с учетом восстановления освобожденных от армянской оккупации земель. Подготовлены рекомендации и даны предложения по ускорению предпринимательской деятельности в процессах экономического развития в постпандемическом периоде.

**Ключевые слова:** *постпандемия, предпринимательская деятельность, экономическое развитие, ускорение экономического развития, совершенствование предпринимательской деятельности, направления развития предпринимательской деятельности, приоритеты экономического развития, освобожденные от оккупации территории.*

## SUMMARY

**Directions for improving business activities to accelerate economic development in the post-pandemic period**

The directions of improvement of entrepreneurial activity to accelerate economic development in the postpandemic period are investigated in the article. The main aspects of problems and perspectives of business development taking into account world approaches and international experience are considered then. The need to expand the role of entrepreneurship in deepening the acceleration of economic development and the creation of new productive sources of growth of the country's economy is justified. The current situation on the organization and development of entrepreneurial activity in Azerbaijan are analyzed, taking into account the restoration of lands liberated from Armenian occupation. Recommendations and proposals to accelerate entrepreneurial activity in the processes of economic development in the post-pandemic period are given at the end of the article.

**Keywords:** *postpandemic, entrepreneurial activity, economic development, acceleration of economic development, improvement of entrepreneurial activity, business development directions, economic development priorities, territories liberated from the occupation.*

UOT: 330:001:330.341.1:336.025

# AZƏRBAYCANDA UNİVERSİTETLƏRİN VƏ ELMİ TƏŞKİLATLARIN FƏALİYYƏTİNDƏ İNNOVATİV SAHİBKARLIQ POTENSİALININ GÜCLƏNDİRİLMƏSİ YOLLARI

**KƏNAN VƏKİLOV**
*Bakı Dövlət Universitetinin "Dünya iqtisadiyyatı" kafedrasının müəllimi, iqtisad üzrə fəlsəfə doktoru*

*E-mail: kanan.vekilov@mail.ru*

Qlobal çağırışlar kontekstində bilik iqtisadiyyatının formalaşmasında və innovativ sahibkarlıq potensialının artırılmasında dünya təcrübədən yanaşdıqda bir çox amillər xüsusi yanaşmaları və araşdırmaları tələb edir və bu sırada dünya iqtisadiyyatında istehsal və istehlak prosesləri bir çox amillərlə tənzimlənməsi məsələləri ortaya çıxır. Bunlar qiymətlər, vergilər, gömrük rüsumları, bank faiz dərəcələri, habelə elmi-texniki inkişafın səviyyəsi və digərləridir. İnnovativ texnologiyaların iqtisadiyyatın inkişafına verdiyi töhfə son dərəcə yüksəkdir və artmaqda davam edir. Ona görə də dövlətin elmi-texniki, texnoloji və innovativ fəaliyyətinin əsasını bu və ya digər potensiallardan hərtərəfli istifadə etməklə uzunmüddətli perspektivdə sosial-iqtisadi effekti maksimum dərəcədə artırmağa yönəlmiş tədbirlər və onların həyata keçirilməsi üçün şərait sisteminin işlənib hazırlanması təşkil edilməlidir.

Fundamental və tətbiqi tədqiqatların nəticələri əsasında innovativ proseslərin aktivləşdirilməsi zamanı yerli qabaqcıl texnologiyaların yaradılması, istehsalın təşkili və elm tutumlu məhsulların satışını həyata keçirmək mümkündür. İKT-nin təkmilləşdirilməsi, sənayedə innovativ texnologiyaların fəal tətbiqi, bazarların qloballaşması və s. ilə əlaqəli yaranan bilik iqtisadiyyatını postindustrial iqtisadiyyatın inkişaf mərhələsi hesab etmək olar. İnformasiya və bilik iqtisadiyyatına postindustrial cəmiyyətin ilkin mərhələsinin iqtisadi inkişafı modeli kimi baxmaq olar [1, s.46]. Eyni zamanda, bilik iqtisadiyyatı cəmiyyətin bütün sosial-iqtisadi həyatının rəqəmsallaşmasında mühüm rol oynayan iqtisadiyyatın mühüm tərkib hissəsidir. Ölkədə innovasiyanın səviyyəsi də bu sahədə idarəetmənin səviyyəsindən asılıdır. Bilik iqtisadiyyatı innovativ iqtisadiyyatın inkişafının ən yüksək mərhələsi kimi informasiya cəmiyyətinin əsasını, bünövrəsini təşkil edir. Bu baxımdan bilik iqtisadiyyatı konsepsiyasının öyrənilməsi xüsusi aktuallıq kəsb edir. Covid-19 pandemiyasının mənfi təsirləri göstərdi ki, dünya iqtisadiyyatının mövcud mexanizmlərin daha innovativ yenilənməsinə ehtiyac vardır və bu istiqamətdə bilik iqtisadiyyatı, rəqəmsal texnologiyalar əhəmiyyətli funksiyaları yerinə yetirmək potensialına malikdir.

İnformasiya və bilik iqtisadiyyatı proseslərində bir sıra amillər vardır ki, özünəməxsus xüsusiyyətləri ilə fərqlənirlər, belə ki, bilik iqtisadiyyata və cəmiyyətə daha güclü təsir göstərir. Onlar yüksək səviyyəli iqtisadi resursa və rəqabətqabiliyyətlilik amilinə çevrilirlər. Biliyin yetərincə böyümək və yayılmaq qabiliyyətinə malik olduğu indiki dövrdə onların mübadiləsi hər bir insanın biliyinin artmasına səbəb olur.

İnformasiya və bilik iqtisadiyyatı adətən innovativ iqtisadiyyatın inkişafının və formalaşmasının ən yüksək mərhələsinə aid edilir. Bu, bir çox ölkələrin milli iqtisadiyyatlarının səy göstərdiyi mərhələdir. İndi heç bir ölkə innovativ məhsul və xidmətlərdən istifadə etmədən, ən son texnologiyaların hazırlanması və tətbiqi olmadan öz rəqabətqabiliyyətliliyini qoruya bilməz. Bilik dünyamızı dəyişir, həm də təkcə qlobal miqyasda deyil, həm də ayrı-ayrı insanların həyatında da dəyişikliklərə səbəb olur [2, s.117].

Müasir dövrdə bilik iqtisadiyyatı geniş mənada üç əsas sahəni əhatə edir: 1) Elmi-tədqiqat, təcrübi–konstruktor işləri və innovasiyalar; 2) insan kapitalının formalaşmasına töhfə verən təhsil və təlim; 3) informasiya kommunikasiya texnologiyaları. Onların hər biri öz nisbi müstəqilliyini saxlasa da, hər hansı birini digər ikisi olmadan təsəvvür etmək kifayət qədər çətindir. Məlumdur ki, COVID-19 pandemiyası nəticəsində dünya iqtisadiyyatı dərin tənəzzülə uğrayıb və qeyd etdik ki, belə bir şəraitdə bilik amili xüsusilə

qabarıq şəkildə özünü göstərir. Bu halda, istehsal amili kimi bilik üstünlük təşkil edir və bilik iqtisadiyyatının inkişafı innovativ tərəqqi və intellektual resurslardan səmərəli istifadə etməklə ölkənin rəqabət qabiliyyətinin təmin edilməsi üçün əsas prioritetdir.

Yüksək intellektli istehsalın payının yüksək səviyyəsi ölkənin inkişaf səviyyəsini və onun rəqabət qabiliyyətini müəyyən edir [3, s.198]. İnformasiya və bilik iqtisadiyyatının formalaşması proseslərinin səmərəli idarə olunmasına nail olmaq üçün geniş alətlərdən istifadə etmək lazımdır. Bunlara elmi prinsiplər, qanunauyğunluqlar, yanaşmalar, üsullar daxildir. Öz növbəsində, müvafiq sahədə qəbul edilən yüksək keyfiyyətli idarəetmə qərarlarının əldə edilməsinin şərtləri əsaslılıq, qarşılıqlı asılılıq, qarşılıqlı təsir, habelə bu vasitələrin tamlığıdır. Bu baxımdan, aydındır ki, bilik iqtisadiyyatının formalaşması və inkişafının özəl və əsas prinsiplərinin məzmununun müəyyənləşdirilməsi və öyrənilməsi onun mexanizmlərinin, meyillərinin və inkişaf perspektivlərinin dərk edilməsində mühüm rol oynayır [4, s.267].

İnformasiya və bilik iqtisadiyyatı insan kapitalının innovasiya infrastrukturu ilə qarşılıqlı əlaqəsinə əsaslanır. İnformasiya və bilik iqtisadiyyatının komponentləri bir-biri ilə sıx əlaqə qurur, onların hər birinin inkişafına töhfə verir və sinergik təsirə səbəb olur. Bilik iqtisadiyyatının səmərəliliyi daim inkişaf edə və bacarıqlarını uyğunlaşdıra bilən işçi qüvvəsinin bacarıqlarından asılıdır. Bundan əlavə, biliklərdən istifadə etmək, eləcə də onu genişləndirmək və təkmilləşdirmək qabiliyyətinə malik innovativ sistemin yaradılması son dərəcə vacibdir. İnformasiya kommunikasiya texnologiyaları həm bu elementlərin hər biri daxilində, həm də onlar arasında sürətli məlumat mübadiləsini stimullaşdırmaq üçün əsasdır ki, bu da yaradılan bilikləri daha yaxşı uyğunlaşdırmağa imkan verir.

Bilik iqtisadiyyatı infrastrukturu ölkənin İKT məkanının və informasiyanın qarşılıqlı əlaqə vasitələrinin fəaliyyətini və inkişafını təmin edən (informasiya mübadiləsini, onun yaradılmasını və yayılmasını asanlaşdıran) təşkilati strukturlar və alt sistemlərdir.

Azərbaycan Respublikasında telekommunikasiya və informasiya texnologiyalarının inkişafına dair Strateji Yol Xəritəsinin İKT sektorunun inkişafında rolunu xüsusilə vurğulamaq lazımdır və bunun nəticəsidir ki, son illər Azərbaycanda informasiya kommunikasiya texnologiyalarından, o cümlədən kompüterlərdən istifadə edənlərin sayı əhəmiyyətli dərəcədə artmışdır [5]. Belə ki, ölkəmizdə hər 100 nəfərə düşən kompüter istifadəçilərinin sayı davamlı olaraq artmışdır. 2020-ci ildə hər 100 nəfərə düşən kompüter istifadəçilərinin sayı 77,5 olmuşdur ki, bu da 2010-cu müqayisədə 2,3 dəfə, 2015-ci illə müqayisədə 10,9%, 2019-cu illə müqayisədə isə 4,6% artmışdır [6].

İnformasiya və biliklərin formalaşdırdığı iqtisadiyyatın əsas fərqləndirici xüsusiyyətləri bilik resurslarının ənənəvi olanlardan fərqli olaraq bir sıra müsbət spesifik xüsusiyyətlərə malik olması ilə müəyyən edilir. İnformasiya cəmiyyətləri və informasiya iqtisadiyyatı inkişaf edən ölkələr üçün təhsil vacib elementdir. Təhsilin səviyyəsinin inkişafı ilə yanaşı, ictimai quruluşun inkişafı qaçılmaz olacaqdır. Yeni iqtisadi strukturda iqtisadi gücü müəyyən edən ən mühüm məlumat təhsil səviyyəsidir.

Beləliklə, ali təhsil, universitetlərin dəstəklənməsi sahəsində yeni nailiyyətlər, təkmilləşmələr olmalıdır. Ali təhsilli əhalinin təhsil səviyyəsi ən yüksəkdir və əhalinin bu təbəqəsi əmək bazarında yüksək praktiki bacarıqlar tələb edən peşələr üçün nəzərdə tutulub. Məlumdur ki, təhsil və elm sektorunda yeni innovativ strukturlar yaranır və bunlar klasterlər, texnoparklar, texnoloji platformalar, elmi, innovasiya və təhsil kompleksləri, sənaye kompleksləri və parkları, biznes inkubatorlar və s. ibarətdir. Bütün bu innovativ təşkilati-hüquqi formaların özünəməxsus xüsusiyyətləri vardır və bunların hər biri bilik iqtisadiyyatının formalaşmasında mühüm rol oynayır.

Təhsil sistemində innovativ texnologiyalara əsasən distant texnologiyalar, elektron texnologiyalar və ya onların müxtəlif kompleksləri daxil olmaqla yeni təhsil texnologiyaları daxildir [7, s.105]. Təhsil və elmdə innovativ texnologiyalar getdikcə daha çox bir-birinə bağlıdır və insan təhsilinin və şəxsiyyətinin formalaşmasının sinergik yollarına sövq edir, sinergetik yanaşma isə qapalı təhsil

sistemindən açıq təhsil sisteminə keçidi nəzərdə tutur [8, s.107].

Müasir qlobal çağırışlar və inkişaf səmtləri əsas götürülməklə bilik iqtisadiyyatının daha səmərəli şəkildə inkişaf etdirilməsi üçün bir sıra məsələlərə ciddi önəm verilməlidir: 1) bilik resurslarının dərindən öyrənilməsi, sistemləşdirilməsi və iqtisadi mexanizmlər vasitəsilə əlavə dəyərə çevrilməsi, bu resursların iqtisadi böyümədə iştirakının təmin olunması tədbirləri dövlətin iqtisadi siyasətində önəmli yer tutmalıdır; 2) iqtisadiyyatın müxtəlif sahələrinin inkişafı üçün mövcud problemlərə və yeniliklərə dair informasiyaların işlənməsi, emal olunması, bilik resurslarının və intellektual varlıqların məqsədli şəkildə iqtisadi fəaliyyət sahələrinə daşınması və maddi məhsula, intellektual və ya xidmətə çevrilməsi infrastrukturu və mühitinin yaradılması tədbirləri görülməlidir; 3) dövlət və regional hakimiyyət orqanları, universitetlər və iqtisadi subyektlər, elmi-tədqiqat müəssisələri, klaster iştirakçıları, özəl təhsil, elmi, texniki və texnoloji mərkəzlərin nümayəndələrinin birlikdə bilik resurslarından ibarət iqtisadiyyatın formalaşdırılması və inkişaf etdirilməsi istiqamətində iri layihələrin hazırlanması və reallaşdırılması əhəmiyyətli səmərə verə bilər və s.

Qeyd edək ki, bilik iqtisadiyyatı kimi yüksək intellektual və texnologiyalar tutumlu sahənin məhsuldar işinin təşkili, intellektual işləmələrin istehsal proseslərinə tətbiqinin sürətləndirilməsi geniş həcmdə maliyyə resurslarının ayrılmasını və investisiyaların yatırılmasını tələb edir. Bunun üçün investorların bilik iqtisadiyyatını formalaşdıran ölkəyə böyük etimadı və inamı olmalıdır. Bu inam isə öz əksini qanunvericilik aktlarında, ölkə qanunlarında, innovatik sahibkarlığın inkişaf etdirilməsi ilə bağlı dövlət siyasətində, sahibkarlıq fəaliyyətinin genişləndirilməsi üçün yaradılan investisiya-innovasiya mühitində, bu proseslərin intensivliyini təmin edəcək etibarlı və əlçatan maliyyə təminatı mexanizmlərində tapmalıdır. Bilik iqtisadiyyatının proqnozlaşdırılan nəticələrinin reallaşdırılmasına qədər olan proseslər o qədər də qısa deyildir, bu proseslərdə istifadə olunan maliyyə resurslarının ödənmə müddətləri müəyyən vaxt tələb edir, əməliyyat və maliyyə riskləri də çoxdur, proseslərin planlaşdırılan inkişafına kifayət qədər ciddi təsir edə biləcək daxili və xarici amillər də istisna olunmur.

Buna görə də bilik iqtisadiyyatının dayanıqlı inkişafı və bununla bağlı prioritetlərin reallaşdırılması məqsədilə uzunmüddətli dövr üçün nəzərdə tutulmuş yanaşmalar, o cümlədən bu proseslərdə innovatik sahibkarlığın strateji rolunun reallaşdırlmasına adekvat ola biləcək maliyyə təminatı və investisiyal mexanizmləri olmalıdır. Bilik iqtisadiyyatının inkişafının sürətləndirilməsi və bu istiqmətdə innovativ sahibkarlığın rolunun yüksəldilməsi məqsədilə intellektual resursların formalaşdırılması vacibdir və buna görə də insan kapitalına investisiyaların həcmi artırılmalıdır. “Azərbaycanda artıq “neft kapitalının insan kapitalına çevrilməsi” istiqamətində kifayət qədər əhəmiyyətli tədbirlər görülmüşdür ki, bunun nəticələri də özünü göstərməkdəri. Lakin bu sahənin tam inkişafını təmin etmək üçün hələ bir sıra tədbirlərin görülməsinə ehtiyac vardır” [9]. Bu sırada universitetlərin, elmi-tədqiqat müəssisələrinin rolu artırılmalı, onların investisiya və maliyyə fondları ilə əlaqələri gücləndirilməlidir.

Этот подход впервые использовал Эрнст Энгель [4] для оценки стоимости рождения и воспитания детей, которая была определена им в виде общих затрат на содержание детей в семье до достижения ими совершеннолетия. В своих расчетах ученый исходил из неравенства затрат на рождение ребенка для людей из разных социальных слоев, предполагая ежегодное увеличение затрат на содержание ребенка в арифметической прогрессии по мере увеличения его возраста (Engel, 1881). Очевидно, что этот подход был направлен не столько на оценку человеческого капитала, сколько на оценку стоимости содержания человека как физического существа. Кроме того, не учитывались издержки общества в целом, связанные с рождением и воспитанием детей; в нем не учитывалось также время, затрачиваемое родителями на уход за детьми. Кроме того, поскольку расходы на содержание детей разного возраста были произведены в разные периоды времени, их можно было суммировать только с учетом уровня прошлых цен.

Джон В. Кендрик [10], используя статистические данные, предпринял попытку подсчитать накопление инвестиций в людей, включив в человеческий капитал затраты семьи и общества на воспитание детей до достижения ими трудоспособного возраста и получение образования и специализации, повышение квалификации, здравоохранение, трудовую миграцию и жилищные расходы, товары длительного пользования и др. (Kendrick, 1974). Эти исследования проводились с целью разработки справочных таблиц для индустрии страхования жизни при расчете размера требований о компенсации за потерю жизни.

Основоположник теории человеческого капитала Теодор Шульц [16] считал образование ключевым фактором роста ценности человеческого капитала. Он отмечал, что, поскольку одной из форм капитала является полученное образование - этот капитал называется человеческим, так как он становится частью человека, а капиталом - потому, что представляет собой источник будущего удовлетворения или будущих доходов, или и того, и другого (Schultz, 1971). Рассматривая различные теории человеческого капитала, можно отметить, что подход Т. Шульца более конкретно отражает сущность человеческого капитала.

Всемирный банк предложил формулу расчета человеческого капитала, которая определяет его взаимосвязь с инвестициями. Согласно этому подходу, человеческий капитал является функцией продукта индекса качества труда в его широком определении, индекса качества накопленного человеческого капитала, инвестиций в человеческий капитал и других переменных. Последние расчеты экспертов Всемирного банка включают потребительские расходы - стоимость продуктов питания, затраты на одежду, жилье, образование, культуру, здравоохранение, а также государственные расходы на эти цели.

Несомненно, эти подходы, основанные на затратах на производство человеческого капитала, учитывают множество факторов, влияющих на его формирование. Но нужно отметить, что они также имеют определенные недостатки. В частности, предполагается, что стоимость человеческого капитала полностью определяется со стороны предложения без какого-либо участия факторов спроса. Также не учитывается, что при измерении человеческого капитала, в отличие от физического, нет однозначной устойчивой связи между объемом инвестированных средств и конечными результатами их инвестирования. Например, можно отметить, что содержание и воспитание менее здоровых или менее способных детей обходится родителям дороже, чем более здоровых и более способных. Однако из этого не следует, что у первых будет больший человеческий капитал, чем у вторых. Обычно ситуация обратная. В таких условиях использование метода стоимости приводит к переоценке человеческого капитала людей со слабым здоровьем или меньшими способностями и недооценке его уровня у людей с хорошим здоровьем или большими способностями.

Кроме того, при использовании данного подхода не учитывается, что амортизация человеческого капитала принципиально отличается от амортизации физического.

В процессе деятельности по мере взросления работников и накопления ими профессионального опыта экономическая ценность имеющихся у них знаний, навыков и умений не уменьшается, а увеличивается, в отличие от физического капитала. Из недостатков можно также выделить то, что не учитывается длительность вложений в человека. Этап вложения в человеческий капитал и период его использования часто имеют определенный временной лаг. В современном обществе значительная часть инвестиций осуществляется в школьные и студенческие годы, когда человеку еще есть время побыть в системе образования, а человеческий капитал еще далек от начала своего активного «использования».

Методы оценки человеческого капитала на основе доходов от его использования

Уильям Петти [14] был первым, кто попытался оценить человеческий капитал с точки зрения доходов. Он рассчитал годовой фонд заработной платы, определив его как разницу между национальным доходом и доходом от собственности. Затем, разделив полученную стоимость на процентную ставку, вычислил запас человеческого капитала (Petti, 1691).

Другой английский экономист Уильям Фарр [6] сформулировал ключевую идею о том, что капитал, воплощенный в людях, можно измерить общим доходом, который они получат на рынке труда в течение своей жизни. Он оценил человеческий капитал как капитализированную стоимость будущих доходов людей после вычета их затрат на содержание и представляющий собой богатство, которое должно облагаться налогом в соответствии с физической собственностью (Farr, 1853).

Большое внимание было уделено оценке человеческого капитала Гэри Беккером [2], который провел статистический расчет экономической эффективности образования. Таким образом, чтобы определить, доход от высшего образования, следует вычесть из пожизненного заработка сотрудников, окончивших колледж, пожизненный заработок тех, чей уровень образования не был выше средней школы (Becker, 1993). Г. Беккер, рассматривая рабочего как комбинацию одной единицы простого труда и определенного количества воплощенного «человеческого» капитала, определил его заработную плату (доход) как комбинацию рыночной цены его простого труда и дохода от вложенных в человека инвестиций. Причем основную часть дохода работнику, по мнению Г. Беккера, как и по расчетам других исследователей, приносит человеческий капитал.

Лестер К. Туроу [19] использовал метод капитализации доходов для оценки человеческого капитала. Он предложил измерять стоимость производственных мощностей человека косвенно используя рыночную стоимость, за которую они могут быть сданы в аренду (Thurow, 1970).

В работах Милтона Фридмана [8] под человеческим капиталом понимается отдельная собственность, некий фонд, обеспечивающий непрерывный доход. Этот доход можно представить в виде дисконтированной заработной платы (рассчитанной на текущий момент среднегодового заработка) полученный работником в течение всего периода трудовой жизни (Friedman, 1999). Исследуя подходы ученых экономистов к оценке человеческого капитала на основе дохода от использования этого капитала можно согласиться с мнением М. Фридмана.

Следует отметить, что сегодня метод основанный на исчислении совокупного дохода широко используется в экономических и социальных науках. В целом, несомненным преимуществом является то, что при его использовании запасы человеческого капитала оцениваются по рыночным ценам. Уровни заработной платы, устанавливаемые на рынке труда, формируются в результате предложения услуг со стороны рабочих и спроса на них со стороны предприятий. Таким образом, они объединяют множество факторов, которые проявляются как на микроуровне (возможности работников, их профессиональная квалификация, мотивация, интенсивность трудовых усилий и т. д.), так, и на макроуровне (технологическое состояние экономики, особенности институциональной среды и др.).

В начале 21 века теория человеческого капитала была разработана, расширена и дополнена такими учеными, как Ле (2002)

[12], Стиглиц (2004) [17], Армстронг (2011) [1], Капелюшников (2012) [9], Сен (2016) [15], Мэйо (2016) [13], Гонин (2017) [7] и Хоутон (2017) [5]. Изучая различные аспекты формирования человеческого капитала, было выявлено, что не может быть полной аналогии между физическим и человеческим капиталом. Некоторые исследователи считают, что в развитии важную роль играют эко-инновации, что означает новые продукты, новые технологии и новые способы организации производства [3, 11]. Было также установлено, что размер дохода следует рассчитывать с учетом ожидаемых темпов экономического роста, согласно которым заработная плата человека в течение определенного периода времени будет выше, чем его заработная плата в настоящее время. Необходимо учесть, что основным препятствием для использования этого метода является отсутствие статистики по заработной плате работников с разными личностными характеристиками, которая позволила бы рассчитать показатель пожизненного заработка.

Следует отметить, что сегодня существует довольно много подходов к оценке человеческого капитала, но не все из них практически применимы или подлежат адаптации.

### Выводы

Человеческий капитал как накопленные знания и образование имеет огромную ценность. Это наследие и богатство личности человека, предприятия и страны, а также общества в целом. Различные методологические подходы к изучению человеческого капитала привели к различным определениям понятия его сущности, что отражается в характеристике лишь отдельных аспектов. В основном многие определения рассматривают человеческий капитал как своего рода капитал в форме затрат, доходов и прибыли.

Между оценками человеческого капитала, полученными с помощью разных подходов, есть определенные расхождения, поэтому получить единую объективную методологию оценки человеческого капитала вряд ли возможно. На наш взгляд, экспертный метод (метод качественной оценки) всех существующих подходов к оценке человеческого капитала наиболее объективно оценивает качественные составляющие личности. Профессионализм сотрудника оценивается не только с точки зрения того, насколько хорошо он выполняет текущие задачи, но и как он может мыслить творчески и генерировать новые инновационные идеи. Сравнение качественных и количественных оценок с учетом специфики деятельности компании и должности сотрудника позволит сформировать направления дальнейшего развития сотрудников.

Успешная реализация национальных программ и прорывных проектов требует активизации человеческого фактора и нового качества человеческого капитала. В условиях индустриально-инновационного развития и цифровизации экономики образование, профессионализм и интеллект приобретают приоритетное значение (Киреева и др., 2018).

Следует подчеркнуть, что оценка человеческого капитала на микроуровне или корпоративном уровне должна быть важной частью управления человеческими ресурсами и корпоративного управления. Повышению качества человеческого капитала на предприятии способствует также развитие культурного и организационного разнообразия взаимоотношений в коллективе, что в конечном итоге сводится к развитию различных сфер управленческой деятельности на предприятии в целом. При этом рассматривается не только организационная сфера с точки зрения кадровой политики и образовательных программ, но и сфера устранения расовых, этнических, национальных, культурных и гендерных различий. Как следствие, задачей предприятия в данном случае является поиск сохранения такого человеческого капитала. Он будет представлен в виде талантливых людей, обладающих не только необходимыми и важными знаниями, но и способных адаптировать полученные знания для рациональной деятельности организации. Такие сотрудники необходимы для создания, поддержания и развития рассматриваемого предприятия. Инвестируя в их обучение, компания создает основу для бизнеса на будущее, снижает риски потери новых возможностей и, как следствие, упущенной выгоды. В последние годы оценка

человеческого капитала на макроэкономическом уровне приобрела большое экономическое значение. Категория человеческого капитала, рассматриваемая в данной статье, указывает на необходимость создания государством оптимальных условий вложения инвестиций в людей. В то же время инвестиции в людей определяют необходимость совершенствования государственных механизмов, позволяющих более эффективно использовать современные социально-экономические ресурсы общества и человеческие ресурсы.

## СПИСОК ЛИТЕРАТУРЫ

1. *Armstrong, M. (2011). Armstrong's handbook of human resource management practice. London, England: Kogan Page.*

2. *Becker, G. S. (1993). Human Capital: A Theoretical and Empirical Analysis, with Special Reference to Education.Chicago, IL: University of Chicago Press.*

3. *Dnishev, F. M., Alzhanova, F. G., & Alibekova, G. Z. (2015).Innovative Development of Kazakhstan on the Basis of Triple Helix and Cluster Approach, Economy of Region,1(2), 160-171.*

4. *Engel, E. (1881). Des Rechnungsbuch der Hausfrau und seine Bedeutung im Wirtschaftsleben der Nation.Retrieved May 29, 2018, from http://www.litigationanalytics.com/history.html.*

5. *Houghton, E. (2017). Human capital analytics and reporting:exploring theory and evidence. London, England:Chartered Institute of Personnel and Development.*

6. *Farr, W. (1853). Equitable Taxation of Property. A Brief History of Human Capital. Retrieved July 12, 2017, from http://www.litigationanalytics.com/history.html*

7. *Gonin, D. V. (2017). A Modern Approach to AssessingHuman Capital in the Public Service. Management Consulting, 5(20), 20-29.*

8. *Friedman, M. (1999). Two Lucky People: Memoirs. Chicago, IL: University of Chicago Press.*

9. *Kapelyushnikov, R. I. (2012). How much is the human capital of Russia? Moscow, Russia: Higher school of Economics.*

10. *Kendrick, J. W. (1974). The accounting treatment of human investment and capital. Income and Wealth, 20(4), 439-468.*

11. *Kireyeva, A. A., Abilkayir, N. A., & Tsoy, A. A. (2018), A Study on the Distribution of Information and High Technology Clusters: Kazakhstan's Experience. Journal of Distribution Science, 16(4), 5-15.*

12. *Le, T., Gibson, J., & Oxley, L. A. (2002). Forward Looking Measure of the Stock of Human Capital in New Zealand. Paper presented at the NZAE conference. Retrieved July 15, 2017, from www.econorus.org/publication/228272757.*

13. *Mayo, A. (2016). Human resources or human capital:managing people as assets. New York, NY: Routledge.*

14. *Petty, U. (1691). Economic and statistical work. The book on demand. Retrieved May 29, 2015,from https://www.researchgate.net/publication/228272397.*

15. *Sen, A. (2016). The idea of justice. Moscow, Russia:Publishing house of the Gaidar Institute.*

16. *Schultz, T. W. (1971). Investment in Human Capital: The Role of Education and of Research, New York, NY: Free Press.*

17. *Stiglitz, J. (2004). The human face of globalization. Scientific digital library Portalus. Retrieved October 28, 2015, fromhttp://portalus.ru/modules/ruseconomics/rus_readme.php?subaction=showfull&id=1130509724&archive=1254312998&start_from=&ucat=&*

18. *World Bank (2006). Where is the Wealth of nations?Measuring capital for the 21st Century. Washington, DC:World Bank.*

19. *Thurow, L. C. (1970). Investment in Human Capital.Wadsworth Series in Labor Economics and Industrial Relations, 3(37), 3-145.*

20. *United Nations Development Programme (2018). Human Development Report. Retrieved May 29, 2018, from http://hdr.undp.org/sites/default/files/reports/2843/978-92-1-126436-4_web.pdf.*

## Основные методы оценки влияния человеческого капитала на экономику страны

## РЕЗЮМЕ

В статье рассматриваются основные подходы к оценке человеческого капитала, используемые на практике: ретроспективный (затратный) и перспективный (доходный). Затратные методы предполагают измерение стоимости человеческого капитала на основе общих затрат, связанных с его формированием. Предлагаемая дополнительная оценка критериев,

в частности, использование экспертного подхода и разработанных показателей качественной оценки человеческого капитала предприятия позволит более эффективно развивать и использовать имеющиеся человеческие ресурсы. Человеческий капитал становится основным фактором формирования и развития инновационной экономики и экономики знаний. Соответственно, предлагаемые дополнения к оценке человеческого капитала на страновом уровне нацелены на его оценку с учетом текущих мировых тенденций в формировании инновационной экономики и цифровизации.

**Ключевые слова:** *человеческий капитал, методы экономической оценки, инновационная экономика, экспертная оценка качества, управление человеческими ресурсами.*

## The main methods of evaluating the impact of human capital on the country's economy

### SUMMARY

The article discusses the main approaches to assessing human capital used in practice: retrospective (cost-based) and prospective (income-based). Cost-based methods suggest measuring the value of human capital based on the total costs associated with its formation. The proposed additional evaluation criteria, in particular, the use of the expert approach and the indicators formulated for a qualitative assessment of the human capital of the enterprise will provide an opportunity for more efficient development and use of the available human resources. Human capital is becoming a major factor in the formation and development of an innovative economy and knowledge economy. Accordingly, the proposed additions to the assessment of human capital at the country level are aimed at assessing it taking into account the current global trends in the formation of an innovative economy and digitalization.

**Keywords:** *human capital, economic valuation methods, innovative economy, expert quality assessment, human resources management*

## İnsan kapitalının ölkə iqtisadiyyatına təsirinin qiymətləndirilməsinin əsas üsulları

### XÜLASƏ

Məqalədə təcrübədə istifadə olunan insan kapitalının qiymətləndirilməsinə əsas yanaşmalar müzakirə olunur: retrospektiv (xərclərə əsaslanan) və perspektiv (gəlirə əsaslanan). Xərclərə əsaslanan metodlar, insan kapitalının dəyərinin onun formalaşması ilə bağlı ümumi xərclərə əsaslanaraq ölçülməsini təklif edir. Təklif olunan əlavə qiymətləndirmə meyarları, xüsusən də ekspert yanaşmasının istifadəsi və müəssisənin insan kapitalının keyfiyyətcə qiymətləndirilməsi üçün tərtib edilmiş göstəricilər, mövcud insan resurslarının daha səmərəli inkişafı və istifadəsinə imkan verəcəkdir. İnsan kapitalı innovativ iqtisadiyyatın və biliklər iqtisadiyyatının formalaşması və inkişafında əsas amilə çevrilir. Müvafiq olaraq, ölkə səviyyəsində insan kapitalının qiymətləndirilməsinə təklif olunan əlavələr onun innovativ iqtisadiyyatın formalaşması və rəqəmsallaşma üzrə mövcud qlobal tendensiyaları nəzərə alınmaqla qiymətləndirilməsinə yönəlib.

**Açar sözlər:** *insan kapitalı, iqtisadi qiymətləndirmə üsulları, innovativ iqtisadiyyat, keyfiyyətin ekspert qiymətləndirilməsi, insan resurslarının idarə edilməsi*

UOT 338:61

# KORONAVİRUS ƏLEYHİNƏ KARANTİN ŞƏRAİTİNDƏ ƏHALİNİN FİZİKİ AKTİVLİK VƏZİYYƏTİ

**RƏNA NAĞIYEVA**
*Azərbaycan Tibb Universiteti,*
*tibb elmləri üzrə fəlsəfə doktoru, dosent*
*E-mail: rananaghiyeva@gmail.com*

**LƏMAN İBADOVA**
*Azərbaycan Tibb Universiteti, magistr*
*E-mail: laman_ibad@bk.ru*

## GİRİŞ

2019-cu ilin sonlarından etibarən dünya yeni növ koronavirus COVİD-19-la mübarizə aparmaqdadır. Bütün dünyanı bürüyən bu virus qısa zamanda insanların həyatlarına məhdudiyyətlər qoymağı bacarmışdır. Hal-hazırda dünyada 246 mln-dan çox insan koronavirusa yoluxmuşdur, 5 mln-dan çox insan dünyasını dəyişmişdir.

Koronavirusun yayılmasının qarsının alınması məqsədilə bir sıra addımlar atılmışdır, bunardan biri də karantin rejiminin tədbiq edilməsidir. Əhalinin sağlamlığının qorunması məqsədilə ölkəmizdə də karantin rejimi davam etməkdədir. Azərbaycanda indiyə kimi 533min-dən çox yolxuma faktı, 7000-dən çox ölüm faktı qeydə alınışdır. Yoluxma riskinin azaldılması məqsədilə görülən tədbirlər qismən öz təsirini göstərmişdir. Bunlara aiddir sərt karantin rejiminin tədbiqi, vaksinasiya və s.

Lakin xüsusi qeyd etmək lazımdır ki, insanların fiziki aktivliyi karantin rejimi zamanı kəskin azalır. Fiziki aktivlik isə insan həyatında vacib rol oynayır. Həm koronavirusdan qorunmaq, həm də fiziki aktiv qalmaq ev şəraitində də mümkündür.

## ƏSAS HİSSƏ

Koronavirus infeksiyası (COVİD-19)- kəskin respirator xəstəlikdir. 31 dekabr 2019-cu ildə Ümumdünya Səhiyyə Təşkilatına Çinin Uhan şəhərində naməlum mikrob etiologiyası pnevmoniyasının aşkarlandığı barədə məlumat daxil olmuşdur. Virusa yoluxma insanlar arasında hava damcı yolu ilə baş verir. Daha sonra epidemioloji vəziyyət getdikcə təhlükəli vəziyyət almağa başladı və 11 mart 2020-ci ildə ÜST tərəfindən pandemiya haqqında məlumat yayıldı. COVİD-19 virusuna yoluxan insanlarda ən çox rast gəlinən simptomlar hərarət, öskürmə, nəfəs darlığı, iy və dad bilməni itirmə və s..

Koronavirus infeksiyasından qorunma tədbiri olaraq ölkələr bir sıra tədbirlər görmüşdür. Bu tədbirlərdən ilki karantin rejiminin tədbiq edilməsi olmuşdur. ÜST-ün qoyduğu qaydalara ilk gündən riayət edən Azərbaycan da 3 mart 2020-ci il tarixindən etibarən xüsusi krantin rejimi və sərt karantin rejimi elan etmişdir. Sərt karantin rejimi zamanı bir çox fəaliyyət sahəsində işlər dayandırıldı, parklar, restoranlar, idman zalları bağlandı, bir sözlə insanların fiziki aktivliyi məhdudlaşdırıldı.

Məqalədə fiziki aktivlik əhatəli şəkildə araşdırılmışdır. Bədəndə skelet əzələlərinin enerji sərfini tələb edən hər hansı bir hərəkətə fiziki aktivlik deyilir. Fiziki aktivlik dedikdə təkcə qaçış, velosiped sürmək, üzgüçülük, ayaq xizəyi idmanı, aerobika və digər idman məşqləri deyil, həm də gündəlik fəaliyyət, məsələn, ritmik gəzinti, pilləkənlərlə qalxmaq və enmək, ev işlərinin görülməsi, rəqs etmək və digər aktiv əyləncə tədbirləri nəzərdə tutulur. Fiziki aktivlik qeyri- infeksion xəstəliklərin profilaktikası və sağlamlıq üçün vacib əhəmiyyətə malikdir. Fiziki passivlik isə, ölüm riskini artırır, ürək-damar xəstəlikləri, xərçəng və şəkərli diabet kimi xəstəlklərin yaranmasının əsas risk faktorlarından biridir. Hər il dünyada 3.2 milyon insan fiziki passivlik nəticəsində həyatını itirir. Fiziki aktivlik ürək və tənəffüs sistemi başda olmaqla əzələləri möhkəmləndirir; sümükləri möhkəmləndirir; yüksək qan təzyiqi, ürəyin işemik xəstəlikləri, beyin insultu, şəkərli diabet, süd vəzi və yoğun bağırsaq xərçəngi həmçinin depressiyanın yaranma riskini azaldır;yıxılma, boyun və onurğa zədələnmələri riskini azaldır; enerji mübadiləsi və normal bədən çəkisini stabil saxlamağa kömək edir. Koronavirus əleyhinə karantin tədbirləri fiziki aktivliyin çatışmazlığına səbəb olmuşdur. Bildiyimiz kimi, fiziki aktivlik 3 yaş qrupu üzrə müəyyən edilir:

- Uşaq və yeniyetmələr (5-15 yaş);

- Böyüklər (18-64 yaş);
- Yaşlılar (64 və daha böyük yaş).

Uşaq və yeniyetmələrin əsas fiziki aktivlik sahələri oyunlar, yarışlar, idmanla məşğul olma, gəzintilər, məktəb və digərləridir. Karantin rejiminin ilk günündən etibarən bağça, məktəblər və universitetlərin fəaliyyəti dayandırılmışdı. Disdant təhsilə keçid uşaq, yeniyetmə və gənclərin fiziki aktivliyinin birdən birə azalmasına gətirib çıxartdı. Dövlət Statistika Komitəsinin 2021-ci il üçün verdiyi məlumatlara istinadən deyə bilərik ki, 2021-ci ildə 5-15 yaş arası uşaq və yeni yetmələrin sayı 1.557 min nəfər təşkil edir. Bu isə deməkdir ki, 1557000 nəfər karantin rejimi zamanı fiziki passivlikdən əziyyət çəkir. Bu yaş qrupundan olan insanlar gündəlik 60 dəqiqədən az olmayaraq orta intensivlikdə müxtəlif fiziki aktivlik formaları ilə məşğul olmalıdırlar. Gündəlik 60 dəqiqə və daha çox aktiv olmaq isə bu yaş qrupundan olan insanların sağlamlığına müsbət təsir göstərir. Yüksək intensivlikdə fiziki aktivlik isə həftədə 3 dəfə 60 dəqiqə olmaqla tənzimlənə bilər, bu skelet sisteminin inkişafına ciddi töhvə verəcəkdir. Məqalədə eləcə də karantin rejimi zamanı fiziki aktivliyin təmin edilməsi üsulları da qeyd olunmuşdur.

18-64 yaş aralığında 2021-ci ildə təxminən 6477400 nəfər insan var. Bu isə o deməkdir ki, əhalinin əsas hissəsini məhz 18-64 yaş aralığındakı insanlar təşkil edir. Ona görə də bu yaş qrupundan olan insanlar öz fiziki aktivliyi və sağlamlıqlarına xüsusi diqqət yetirməlidirlər. Böyüklər həftədə 150 dəqiqədən az olmayaraq orta intensivlikdə və ya 75 dəqiqədən az olmayaraq yüksək intensivlikdə fiziki hərəkətlərlə məşğul olmalıdırlar. Bu yaş qrupuna aid insanlar daha sağlam olmaq istəsələr həftədə 300 dəqiqə orta intensivlikdə və ya 150 dəqiqə yüksək intensivlikdə fiziki fəaliyyətlə məşğul olmalıdırlar.

65 yaş və yuxarı yaş aralığında təqribən 4380187 nəfər insan var. Ahıl yaşlı insanlar həftədə 150 dəqiqədən az olmayaraq orta intensivlikdə və ya 75 dəqiqədən az olmayaraq yüksək intensivlikdə fiziki hərəkətlərlə məşğul olmalıdırlar. Bu yaş qrupuna aid insanlar daha sağlam olmaq istəsələr həftədə 300 dəqiqə orta intensivlikdə və ya 150 dəqiqə yüksək intensivlikdə fiziki fəaliyyətlə məşğul olmalıdırlar.

ÜST dünyada yeni COVID-19 koronavirusuna yoluxma halları təsdiqləndikdən sonra vətəndaşlardan ev karantinində qalmaları xahiş olunmuşdur. Bir sıra ölkələrdə idman mərkəzləri və fiziki aktivliklə məşğul olmaq üçün nəzərdə tutulan digər yerlər müvəqqəti olaraq bağlanmışdır. Evdə uzun müddət qalmaq fiziki fəaliyyəti davam etdirməyi ciddi şəkildə çətinləşdirə bilər. Oturaq həyat tərzi və aşağı fiziki fəaliyyət sağlamlıq, rifah və həyat keyfiyyətinə mənfi təsir göstərə bilər. Karantin şəraitində qalmaq həm əlavə stress yarada, həm də vətəndaşların psixi sağlamlığını təhdid edə bilər. Məşq və istirahət üsulları bu müddət ərzində insanları sakitləşdirməyə və sağlamlıqlarını qorumağa kömək edə bilər.

ÜST həftədə 150 dəqiqə orta intensivlikdə fiziki fəaliyyət və ya 75 dəqiqə yüksək intensivlikdə fiziki fəaliyyət və ya orta və yüksək intensivlikdə fiziki fəaliyyətin birləşməsini tövsiyə edir. Xüsusi avadanlıqların olmaması və məhdud yerin olması nəzərə alınmaqla, bu tövsiyələrə riayət etmək evdə də mümkündür. Karantin rejimində bütün yaş qruplarının aktiv qalmaq və oturaq həyat tərzini azaltması üçün aşağıdakılar tövsiyə olunur:

- Gün ərzində qısa və aktiv fasilələr verin. Rəqs etmək, uşaqlarla oynamaq, ev təmizləmək və bağçaya qulluq etmək kimi ev işləri görmək də evdə fiziki aktiv qalmağınıza kömək edə bilər.
- Onlayn resurslardan istifadə edin. Onlayn məşq resurslarından yararlanın. Onların bir çoxu YouTube-da pulsuzdur. Bu cür məşqlərlə təcrübəniz olmadıqda, diqqətli olun və məhdudiyyətlərinizi nəzərə alın.
- Gəzişin. Kiçik məkanlarda yerimək və ya yerində yürüş etmək aktiv qalmağınıza kömək edə bilər.
- Ayaqüstə zaman keçirin. Oturaq vəziyyətdə sərf etdiyiniz vaxtı azaldın və mümkünsə ayaq üstə durmağa üstünlük verin. İdeal olaraq, hər dəfə 30 dəqiqədən çox olmayan oturma və uzanma vəziyyətində qalın.
- Rahatlaşdırıcı fəaliyyətlər edin. Meditasiya və dərindən nəfəs almaq və nəfəs vermək sakitləşməyə kömək edəcək.

**Açar sözlər:** *koronavirus, ÜST, karantin rejimi, fiziki aktivlik, yoluxma, yeniyetmə, böyüklər, yaş qrupu.*

## ƏDƏBİYYAT SİYAHISI

1. *https://www.stat.gov.az/source/demoqraphy/#*
2. *https://saglamliq.isim.az/news/2015/fiziki-aktivlik*
3. *https://www.euro.who.int/ru/health-topics/health-emergencies/coronavirus-covid-19/publications-and-technical-guidance/noncommunicable-diseases/stay-physically-active-during-self-quarantine*
4. *https://www.who.int/ru/health-topics/coronavirus#tab=tab_1*
5. *https://bestpractice.bmj.com/topics/ru-ru/3000201*

## PHYSICAL ACTIVITY STATUS OF THE POPULATION UNDER QUARANTINE CONDITIONS AGAINST CORONAVIRUS

### SUMMARY

Coronavirus disease is an infectious acute respiratory disease caused by a novel coronavirus. The World Health Organization was informed of cases of pneumonia of unknown microbial aetiology associated with Wuhan City, China on 31 December 2019.

This thesis is based on the best evidence currently available, but as this is an evolving situation, evidence is limited in some areas and some recommendations may be based on observational studies and retrospective analyses, as well as randomised controlled trials and guidelines. As new coronavirus cases continue to emerge in the WHO in the all around the world, many healthy individuals are being requested to stay at home in self-quarantine. In some countries, fitness centers and other locations where individuals are normally active, will remain temporarily closed. Sedentary behavior and low levels of physical activity can have negative effects on the health, well-being and quality of life of individuals and also cause additional stress and challenge the mental health of citizens.

Physical activity is divided into three age groups: 5-15 years old, 18-64 years old and 64 and older. WHO recommends 150 minutes of moderate-intensity or 75 minutes of vigorous-intensity physical activity per week, or a combination of both.

**Keywords:** *koronavirus, WHO, quarantine, physical activity, infection, teenager, adults, age group.*

## ПОЛОЖЕНИЕ ФИЗИЧЕСКОЙ АКТИВНОСТИ НАСЕЛЕНИЯ В КАРАНТИННЫХ УСЛОВИЯХ ПРОТИВ КОРОНАВИРУСА

### РЕЗЮМЕ

Коронавирусная инфекция – это острое инфекционное заболевание дыхательных путей, возбудителем которого является новый коронавирус. 31 декабря 2019 года во Всемирную организацию здравоохранения поступила информация о случаях пневмонии неизвестной микробной этиологии, возникшей в городе Ухань, Китай.

Поскольку в мире ВОЗ подтверждаются новые случаи коронавируса, граждан просят оставаться в режиме домашнего карантина. В ряде стран фитнес-центры и другие точки, где предполагается активная двигательная деятельность, временно закрыты. Пребывание в карантинном режиме может оказать негативное влияние на здоровье, благополучие и качество жизни и вызвать дополнительный стресс и поставить под угрозу психическое здоровье граждан.

Физическая активность делится на три возрастные группы: 5-15 лет, 18-64 лет и 64 и старше. Всемирная Организация Здравохранения рекомендует 150 минут умеренной физической активности или 75 минут интенсивной физической активности в неделю или сочетание умеренной и интенсивной физической активности.

**Ключевые слова:** *коронавирус, ВОЗ, карантинный режим, физическая активность, заражение, подросток, взрослые, возростная группа.*

UOT: 334.021: 330.1

# İQTİSADİYYATIN FİSKAL ALƏTLƏR VASİTƏSİLƏ TƏNZİMLƏNMƏSİNİN TƏDQİQİ

**GÜLMİRA DADAŞZADƏ**
*Azərbaycan Dövlət İqtisad Universitetinin İqtisadiyyatın dövlət tənzimlənməsi kafedrasının müəllimi*

*E-mail: dgul.11@mail.ru*

**Əsas hissə**

Fiskal siyasətin alətləri iqtisadiyyata müxtəlif formalarda təsir göstərməkdədirlər. Dövlət satınalmaları dövlətin məcmu xərclərinin əsas elementlərindən biri kimi xərclər səviyyəsinin artımına səbəb olur.

Fiskal siyasətin diskret və avtomatik kimi iki tipi fərqləndirilir:

Fiskal siyasətin çevik və dəyişkən bir xarakter daşıyan diskret tipi ölkədə ÜDM həcminin dəyişməsi, məşğulluq səviyyəsinin optimallaşdırılması, qiymətlərin səviyyəsinin dəyişməsi və inflyasiyanın tənzimlənməsi məqsədilə vergilər və dövlət xərcləri arasında manevr etmək, mövcud situasiyadan səmərəli çıxış yolları tapmaq deməkdir.

Fiskal siyasətin diskret tipi: ictimai işlər, transfert ödənişlərdəki dəyişikliklər və vergi dərəcələrinin dəyişdirilməsi alətləri ilə həyata keçirilir.

Diskret fiskal siyasətin tətbiqi bir sıra problemlərlə bağlıdır. Bu problemlərdən ən başlıcası vergi dərəcələrinin dəyişdirilməsinin cəmiyyətin müxtəlif təbəqələri arasında birtərəfli qəbul edilməməsi ilə bağlıdır.

Təcrübədə dövlət tərəfindən hazırlanmış xüsusi dövlət proqramlarının tətbiq olunması fiziki və hüquqi şəxsləri stimullaşdırmaq məqsədilə onlara bir sıra güzəştlərin tətbiqi fiskal siyasətin diskret tipindən istifadə olunaraq həyata keçirilmişdir. Şübhəsiz ki, bu tədbirlərin səmərəlilik dərəcəsi vaxt amili və mövcud vəziyyətin özünəxas cəhətlərindən asılı olmuşdur. Aydındır ki, bu cür proqram və tədbirlərin iqtisadiyyatın böhran dövrlərində tətbiq edilməsi əlavə bir sıra çətinliklərə gətirib çıxardır.

Dövlət diskret fiskal siyasət həyata keçirərkən ölkədə işgüzar fəallığın yüksək olmadığı bir müddətdə vergi dərəcələrini azaltmaq səmərəli ola bilər. Bu zaman dövlət həm də öz vəzifələrini normal yerinə yetirə bilmək üçün vergi dərəcələrini yüksəltmədən, xərcləri artırmaq məcburiyyəti yaşaya bilər. Məlumdur ki, vergi dərəcələrinin sabit qaldığı və ya aşağı salındığı halda dövlət xərclərinin artması büdcədə kəsir yaranmasına səbəb olacaqdır. Lakin mövcud vəziyyətdən asılı olaraq, dövlətin bu yolu seçməsi ölkənin təsərrüfat həyatının dinamik olmasıyla izah olunur. Bu o deməkdir ki, dövlət və hakimiyyət orqanları ilk baxışda əlverişli görünməyən bu üsuldan ümumi milli mənafe baxımından istifadə etməyi məqsədəuyğun hesab edirlər.

Dövlətin həyata keçirdiyi diskret fiskal siyasət ölkənin iqtisadi vəziyyətini yaxşılaşdırmaq məqsədilə planlı şəkildə vergitutma və budcə xərclərini tənzimləyir. İqtisadi tsiklin müxtəlif dövrlərində bu tənzimləmə forması fərqlənir. Belə ki, iqtisadi böhranlar dövründə dövlət öz xərclərini yüksəldir, vergilərin səviyyəsini isə azaldır. Bu isə alıcılıq tələbatının artmasına gətirib çıxarır. İstehsal zamanı artım inflyasiya ilə müşayiət olunduğu zaman dövlət öz xərclərini azaldaraq və vergilərin səviyyəsini artıraraq işgüzar fəallığın qarşısını almış olur. İqtisadi tənəzzül dövründə isə məcmu tələbi stimullaşdırmaq məqsədilə dövlət diskret fiskal siyasət vasitəsilə xərclərin həcmini artırmaqla və yaxud vergilərin səviyyəsini azaltmaqla planlı şəkildə büdcə kəsiri yaratmış olur.

Dövlət xərclərinin həvəsləndirici təsir göstərməsi məqsədilə onlar vergi daxilolmaları hesabına maliyyələşdirilməməlidirlər. Vergi dərəcələrinin yüksəldilməsi işgüzar fəallığa olan stimulun azalmasına səbəb olur ki, bu da öz növbəsində istehsalın həcminin azalmasına səbəb olur. Elə buna görə də, dövlət xərclərinin artımı birmənalı olaraq büdcə kəsri ilə nəticələnir.

Beləliklə, diskret fiskal siyasət zamanı dövlət, isehsalın tənəzzülə uğradığı dövrdə dövlət xərclərini artıraraq, inflyasiya ilə müşayiət olunan iqtisadi

yükşəliş dövründə isə dövlət xərclərini azaldaraq iqtisadi böranları yüngülləşdirir, bununla da milli istehsalın həcminin artmasına nail olur.

Fiskal siyasətin passiv xarakter daşıyan avtomatik tipi vergi dərəcələrinin sabit olduğu dövrdə iqtisadiyyatda baş verən təbii dəyişikliklərlə bağlıdır. Belə ki, avtomatik fiskal siyasət əvvəlcədən müəyyən olunmuş, eyni zaman daxilində prosesin öz-özünü tənzimləməsi halı kimi xarakterizə olunur.

Fiskal siyasətin avtomatik tipi: vergi ödənişlərinə dəyişikliklər edilməklə, işsizlərə müavinat və bir sıra sosial ödənişlər edilməklə, fermerlərə subsidiyalar verməklə həyata keçirilir.

Avtomatik fiskal siyasət məcmu gəlirin dövrü tərəddüdləri nəticəsində dövlət xərcləri, vergilər və dövlət büdcəsinin saldosunun avtomatik dəyişməsidir. Fiskal siyasətin bu tipində iqtisadi yüksəliş zamanı dövlət büdcəsinə xalis vergi daxilolmalarının həcminin avtomatik artmasını, iqtisadi tənəzzül dövründə isə əksinə, dövlət büdcəsinə xalis vergi daxilolmalarının avtomatik azalmasını nəzərdə tutur. Bütün bu hallar isə quraşdırılmış özünütənzimləyicilərin vasitəsilə baş verir.

Quraşdırılmış özünütənzimləyicilər ölkənin iqtisadi siyasətində heç bir dəyişiklik etmədən istehsal və məşğulluq səviyyələrindəki tərəddüdləri azalda bilən bir mexanizmdir. Həmin quraşdırılmış tənzimləyicilər bunlardır:

a) İqtisadi yüksəliş dövründə əhalinin gəlirlərinin səviyyəsi artdıqda bu gəlirlər daha yüksək vergi dərəcələri ilə vergiyə cəlb olunurlar. Bu zaman məcmu tələbin qarşısını alan proqressiv vergi sistemi tətbiq olunur. İqtisadi tənəzzül dövründə gəlir səviyyəsi azaldıldıqda vergi dərəcələrinin də aşağı salınması əhalinin əlində olan gəlirlərin artmasına səbəb olur. Bu zaman məcmu tələbin stimullaşdırılması prosesi baş verir.

b) İqtisadi tənəzzül dövründə işsizlərin sayının artması səbəbilə işsizliyə görə ödənilən müavinatların və s. sosial ödənişlərin səviyyəsi artır. İqtisadi yüksəliş dövründə isə işsizlik səviyyəsi azalır, bu da avtomatik olaraq sosial ödənişlərin səviyyəsinin azalmasına gətirib çıxarır.

Fiskal siyasətin müsbət cəhəti iqtisadi vəziyyətin ani dəyişməsilə quraşdırılmış özünütənzimləyicilərin hərəkətə keçməsilə bağlıdır. Mənfi cəhəti isə dövri tərəddüdləri tamamilə aradan qaldıra bilməməsilə bağlıdır.

Fiskal siyasətin məqsədindən aslı olaraq 2 növü ekspansionist və restriksionist növləri vardır. Ekspansionist fiskal siyasət istehsalın tənəzzülü dövründə dövlət xərclərinin səviyyəsinin yüksəldilməsi, vergi dərəcələrinin azaldılması yolu ilə həyata keçirilir. Ekspansionist siyasət uzunmüddətli dövr üçün vergi dərəcələrinin azaldılması zamanı iqtisadi artım səviyyəsinin stimullaşdırılmasına səbəb olacaqdır. Belə bir hal keçən əsrin 80-ci illərində inkişaf etmiş ölkələrdə vergi dərəcələrinin aşağı salınması nəticəsində iqtisadi artım səviyyəsinin stimullaşdırılması ilə müşayiət olunmuşdur.

Restriksionist fiskal siyasət isə inflyasiya sürətinin aşağı salınması məqsədilə həyata keçirdilir. Fiskal siyasətin bu növü dövlət xərclərinin aşağı salınması və vergi dərəcələrinin səviyyəsinin yüksəldilməsi üsulu ilə həyata keçirilir. Bu siyasət qısamüddətli dövr üçün məcmu tələbi azaltmağa imkan verir. Bu səbəbdən inflyasiyanın səviyyəsinin aşağı salınmasına kömək edir. Uzunmüddətli dövr üçün isə istehsalın tənəzzülünə və işsizlik səviyyəsinin artımına səbəb ola bilər.

## YEKUN

Dövlət həmin vəzifələri həyata keçirərkən fiskal siyasətin iqtisadi artım sürətinin yüksəldilməsinə, iqtisadiyyatda dövri tərəddüdlərin hamarlaşdırılmasına, əhalinin tam məşğulluq səviyyəsinə və inflyasiyanın mülayim sürətinə nail olunması kimi ictimai məqsədlərini əsas tutur.

Dövlət fiskal siyasətini həyata keçirərkən qarşıya qoyduğu həmin məqsədlərə müxtəlif növ vergi və vergi dərəcələri ilə, transfert ödənişləri və digər növ dövlət xərcləri alətləri vasitəsilə nail olur.

Fiskal siyasətə müxtəif növ vergilər və vergi dərəcələri ilə təsir edilməsi məcmu xərclərə mənfi təsir aləti rolunda çıxış edir. Belə ki, istənilən vergi növü əldə olan gəlirin məbləğini azaldır. Bu isə öz növbəsində nəinki istehlak xərclərinin azalmasına, eyni zamanda yığımların da səviyyəsinin aşağı düşməsinə səbəb olur.

**Açar sözlər:** *fiskal, iqtisadiyyat, dövlət, metod.*

## ƏDƏBİYYAT SİYAHISI

1. Baxşəliyev R.A. Strateji yol xəritələri milli inkişafa yeni təkan verir //Azərbaycan -2018.- 25 iyul.- s.1-3.

2. Eichenbaum, M and Christiano, L. J. (2015) Keynesian and Monetarist Views on Monetary Policy, Journal of Economic Theory, 140(1):161–186.

3. Erceg, C. J., Levin, A. T and Henderson, D. W., (2016) Monetarist Transmission Facility Journal of Monetary Economics, 52(8):1279–1295

4. Hasanov F., Alirzayev E. (2012), "The government spending, FDIs and the non-oil: sector of the oil exporting economy" The Center for Socio-Economic Research, Qafqaz University, 210 pp

5. Schuknecht L, Alfonso A, and Tanzi V (2015), "Public Sector Efficiency: an International Comparison, Public Choise", . Cambridge: MIT Press, 311-321 pp

6. Triechel V.(2016), Stance of Fiscal Policy and Non-oil Economic Growth. Oman Beyond the Oil Horizon: Policies Toward Sustainable Growth,-1 36 pp.

## Research on the regulation of the economy through fiscal instruments

**GULMIRA DADASHZADE,**
***Azerbaijan State University of Economics***
***Teacher of the Department of State Regulation of the Economy***

### SUMMARY

The state carries out the internal and external functions of its relevant authorities through monetary and material funds created through fiscal policy, which is typical for all countries. In carrying out these tasks, the state pursues public goals of fiscal policy, such as increasing the rate of economic growth, smoothing periodic fluctuations in the economy, achieving full employment and a moderate rate of inflation. The government achieves these goals in the implementation of fiscal policy through various types of taxes and tax rates, transfer payments and other types of public spending instruments. Influencing fiscal policy with different types of taxes and tax rates is a tool to negatively affect aggregate spending. Thus, any type of tax reduces the amount of income received. This, in turn, not only reduces consumer spending, but also lowers the level of savings.

**Keywords:** *fiscal, economy, state, method*

## Исследования по регулированию экономики с помощью фискальных инструментов

**ГУЛЬМИРА ДАДАШЗАДЕ,**
***Азербайджанский Государственный Экономический Университет***
***Преподаватель кафедры государственного регулирования экономики***

### РЕЗЮМЕ

Государство выполняет внутренние и внешние функции своих соответствующих органов через денежные и материальные фонды, создаваемые в рамках фискальной политики, что типично для всех стран. При выполнении этих задач государство основывает свою фискальную политику на общественных целях, таких как ускорение экономического роста, сглаживание периодических колебаний в экономике, достижение полной занятости и умеренного уровня инфляции. Правительство достигает этих целей при реализации налогово-бюджетной политики с помощью различных видов налогов и налоговых ставок, трансфертных платежей и других инструментов государственных расходов. Влияние на налогово-бюджетную политику различных видов налогов и налоговых ставок - это инструмент, который негативно влияет на совокупные расходы. Таким образом, любой вид налога уменьшает размер полученного дохода. Это, в свою очередь, не только снижает потребительские расходы, но и снижает уровень сбережений.

**Ключевые слова:** *фискальная, экономика, государство, метод.*

UOT 338

# AZƏRBAYCANDA ƏRZAQ TƏHLÜKƏSİZLİYİNİN TƏMİN OLUNMASINDA KƏND TƏSƏRRÜFATINA DÖVLƏT DƏSTƏYİNİN ROLU

**VƏFA QULİYEVA**
*Naxçıvan Dövlət Universitetinin dissertantı*

*E-mail: vefaquliyeva96@gmail.com*

## GİRİŞ

Ərzaq təhlükəsizliyi, dövlətin milli təhlükəsizliyinin, dövlətçiliyinin və suverenliyinin qorunmasının ayrılmaz bir hissəsidir, demoqrafik siyasətin ən vacib komponenti, həyat təminatı sistemi, sağlamlığın, fiziki fəaliyyətin, uzunömürlülüyün və yüksək həyat keyfiyyətinin təmin edilməsinin ön şərtidir. Ərzaq təhlükəsizliyinin təmin edilməsi, istehsal həcminin azalmasına, əhalinin əhəmiyyətli qida növlərinə çıxışının pisləşməsinə səbəb ola biləcək mövcud və ortaya çıxan təhlükələri neytrallaşdırmaq məqsədi daşıyır. Bu baxımdan, aydındır ki, əhalinin qidalanmaması risklərindən qaçmaq istəyən hər bir dövlət, bazar dəyişkənliyi dövründə vətəndaşlarını ərzaqla təmin etməlidir.

Əhalinin bütün təbəqələri üçün ərzaq təhlükəsizliyinin təmin edilməsi məqsədi ilə aşağıdakılara nail olunmalıdır:

• kənd təsərrüfatı istehsalına dövlət dəstəyi siyasətinin genişləndirilməsi və effektivliyinin artırılması;

• kənd təsərrüfatı məhsullarının ixracına dəstək;

• kənd təsərrüfatı istehsalı üçün ehtiyatların təhlükəsizliyinin təmin edilməsi;

• kənd təsərrüfatı kreditlərinə dəstək;

• kənd təsərrüfatında tədqiqat fəaliyyətinin dəstəklənməsi və.s.

## 1. Ərzaq təhlükəsizliyində kənd təsərrüfatı siyasətinin məzmunu

Bir çox ölkədə ərzaq təhlükəsizliyinin tənzimlənməsi və inkişafı sistemi onilliklər ərzində formalaşmışdır. Hər bir dövlət bir sıra xüsusi tənzimləmə tədbirləri tətbiq edir. Bununla birlikdə, hər bir tənzimlənmə tədbirlərinin ortaq məqsədləri var:

- Əhalinin ərzaq təminatını sığortalamaq;
- Sabit iqtisadi vəziyyəti qorumaq;
- Aqrar sektorda müəyyən dərəcədə gəlirlilik əldə etmək;
- Daxili bazarı qorumaq və s.

Bir qayda olaraq, dövlət tənzimləmə tədbirlərinin həyata keçirilməsi artıq kənd təsərrüfatı məhsullarının minimal qiymətlərlə alınması, subsidiyaların verilməsi, güzəştli kreditlərin verilməsi və s. məsələləri özündə birləşdirir. Mövcud büdcə xərclərinin genişləndirilməsi və daha yüksək səviyyədə istehlak əhalinin rifah halının yaxşılaşdırılmasına yönəldilmiş istiqamətlərdəndir. Məlumdur ki, Dünya Ticarət Təşkilatının qaydalarına görə, üzv ölkələrdə bazara təsir ciddi şəkildə tənzimlənir və təsnif edilir, bu da dəstək tədbirlərinin əhatə dairəsini və istiqamətini müəyyən etmiş olur.

Bu sahə üzrə araşdırma aparan mütəxəssislərin əhəmiyyətli bir hissəsi, ərzaq təhlükəsizliyinin əsasən yerli aqrar-sənaye kompleksinin, o cümlədən kənd təsərrüfatı sahələrinin davamlı işləməsi ilə təmin edilməli olduğu qənaətindədirlər [5.s 58].

Nəticədə, kənd təsərrüfatı sektoruna dövlət dəstəyinin müxtəlif mexanizmlərinin hazırlanması və tətbiqi elm adamları tərəfindən ərzaq təhlükəsizliyinə nail olmaq və onu ən uğurlu şəkildə təmin etmək məqsədi ilə həyata keçirilən dövlət aqrar siyasətinin əsas istiqaməti hesab olunur [3.s 243].

Kənd təsərrüfatı sektorunda qida ehtiyatlarının istehsalı ilə əhalinin ərzaq istehlakı arasındakı əlaqəni qeyd edərək, hesab edilir ki, "ölkənin ərzaq təhlükəsizliyi, ilk növbədə, aqrar-sənaye istehsalının səmərəliliyi ilə və əlaqədar sektorlarla qarşılıqlı fəaliyyət ilə təmin edilməlidir.

Milli iqtisadiyyatın başlıca vəzifəsidir ki, tələb olunan məhsulların istehsalını və onları idxal etmək qabiliyyətinin davamlı olması izlənilsin, əhalinin bütün sosial qruplarının rasional (elmi əsaslı) ehtiyaclarını ödəmək üçün lazım olan həcmdə qida məhsullarının son istehlakçılara əlçatanlığı təmin edilsin [4.s 44].

Beləliklə, kənd təsərrüfatı qida məhsullarının fiziki cəhətdən əlçatanlığını və əhalinin kifayət qədər miqdarda onları istehlak etmə ehtimalını təmin edən, xammalın və qida məhsullarının

davamlı yerli istehsalını, qida təhlükəsizliyinin təmin edilməsinin əsas mexanizmi hesab edilə bilər. Dövlət aqrar siyasətinin prioritet istiqaməti olaraq - yerli kənd təsərrüfatı məhsullarının kiçik və orta sahibkarlar, fermerlər tərəfindən istehsalının dövlət dəstəyi mexanizmlərinin hazırlanması və tətbiqi bu aktual problemin ən sadə çıxış yolu kimi qiymətləndirilir.

Ərzaq təhlükəsizliyinin təmin olunmasında yerli kənd təsərrüfatı məhsullarının istehsalçılarına dövlət dəstəyinin ən vacib istiqaməti, kənd təsərrüfatı məhsullarının istehsal xərclərinin bir hissəsini kompensasiya etməyə yönəlmiş dövlət büdcəsi hesabına kənd təsərrüfatı məhsullarına subsidiyaların verilməsidir. Aqrar-ərzaq bazarının mövcud konyunkturası altında subsidiyaların genişləndirilmiş təkrar istehsal formatında aqrar sektorun davamlı işləməsi üçün həyati əhəmiyyət kəsb edir [4.s 49].

Bir sıra elm adamları, kənd təsərrüfatı sektorunu dəstəkləməklə yanaşı, aqrar-ərzaq bazarının səmərəli fəaliyyətini təmin etməyi qida təhlükəsizliyinin təmin edilməsinin əsas şərti olaraq kənd təsərrüfatı sektorunun dayanıqlı işləməsi hesab edirlər. Xüsusilə, ərzaq təhlükəsizliyini təmin etmək üçün bir sıra "texniki, texnoloji, aqrar sənaye kompleksinin və kənd təsərrüfatı ərzaq bazarlarının davamlı fəaliyyətini təmin etmək üçün təşkilati, iqtisadi, sosial, ekoloji, hüquqi və digər tədbirlərin görülməsi dünya miqyasında mövcüd ərzaq çatışmamazlığı böhranını dayandıra bilər ".

Hazırkı mərhələdə, yerli aqrar sənaye kompleksinin və kənd təsərrüfatı ərzaq bazarının inkişafına yönəlmiş dövlət dəstəyi inkişaf etmiş ölkələr tərəfindən daxili ərzaq təhlükəsizliyinin təmin edilməsində kiçik və orta sahibkarlara, fermerlərə arxalanaraq aparılan ən uğurlu siyasət istiqamətlərindəndir.

**2. Azərbaycanın kənd təsərrüfatı siyasəti ərzaq təhlükəsizliyinin təminatı kimi.**

Ölkə əhalisinin əsas ərzaq məhsulları ilə təmin edilməsinin və məşğul əhalinin əksəriyyətinin çalışdığı sarılmış kənd təsərrüfatı sektorunun inkişafının və yenidən dirçəlməsinin təməli ötən əsrin 90-cı illərinin ortalarında qoyulmuşdur. O dövrdə Azərbaycanda MDB ölkələri arasında ən sürətləndirilmiş torpaq islahatları həyata keçirildi, kənd təsərrüfatı məhsulları istehsalçılarına yardım mexanizmləri formalaşdırıldı. Dünya Bankı və BMT -nin Ərzaq Təşkilatı (FAO) da daxil olmaqla beynəlxalq təşkilatlarla birlikdə bunun üçün əhəmiyyətli layihələrin həyata keçirilməsi təmin edilirdi.

2001-ci ildə ölkə Prezidentinin qərarı ilə "Azərbaycan Respublikasının Ərzaq Təhlükəsizliyi Proqramı" təsdiq edildi. Bu proqram çərçivəsində aparılan işlər nəticəsində ərzaq və kənd təsərrüfatı məhsullarının istehsalı xeyli artmışdır. Bu proqramın nəticəsi olaraq, sonradan Azərbaycanın sürətli iqtisadi inkişafı nəticəsində aqrar sektorun canlanması ilə bağlı tədbirlər də genişləndirildi [1].

Kənd təsərrüfatı sektorunun inkişafı Azərbaycan Prezidentinin iqtisadiyyatın şaxələndirilməsi strategiyasının əsas istiqamətlərindən biridir. Ölkənin təxminən 1,5 milyon vətəndaşının aqrar sektorda çalışdığını, habelə qeyri-neft sektorunun inkişafı, işsizlik və yoxsulluğun azaldılması baxımından bu sahənin inkişafı xüsusi əhəmiyyət kəsb edir [7].

**Cədvəl 1.**

**Kənd təsərrüfatı müəssisələri və fərdi sahibkar təsərrüfatlarının sayı, ilin axırına**

| | 2016 | 2017 | 2018 | 2019 | 2020 |
|---|---|---|---|---|---|
| **Kənd təsərrüfatı ilə məşğul olan müəssisələr** | 1719 | 1735 | 1765 | 1666 | 1096* |
| **Kənd təsərrüfatı müəssisələri** | 1716 | 1727 | 1751 | 1648 | 1085 |
| **Dövlət mülkiyyəti** | 187 | 189 | 168 | 176 | 113 |
| **Xüsusi mülkiyyəti** | 1519 | 1523 | 1564 | 1450 | 955 |
| **Bələdiyyə mülkiyyəti** | 2 | 2 | 3 | 1 | - |
| **Xarici mülkiyyət** | 3 | 9 | 9 | 12 | 9 |
| **Birgə mülkiyyət (xarici qarışıq)** | 5 | 4 | 7 | 9 | 8 |
| **Fərdi sahibkar təsərrüfatları** | 1468 | 955 | 907 | 910 | 804 |

** Kənd təsərüüfatına xidmət göstərən müəssisələr istisna olmaqla*

***Mənbə:** Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. https://www.stat.gov.az/*

Kənd təsərrüfatı sektorunun inkişafı yoxsulluğun azaldılması və sosial-iqtisadi inkişaf üzrə dövlət proqramlarında lider mövqe tutur. "Azərbaycanda yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə 2003-2005-ci illər üçün Dövlət Proqramı", "Azərbaycan Respublikasında orta və kiçik sahibkarlığın inkişafı üzrə Dövlət Proqramı (2002-2005)", "Dövlət Proqramı" ilə müəyyən

edilmiş vəzifələrin yerinə yetirilməsi Azərbaycan Respublikasının sosial-iqtisadi və digər qəbul edilmiş sənədlər, habelə fermerlərə maddi-texniki yardım göstərilməsi, sahibkarlığın inkişafı, bölgələrdə infrastruktur layihələrinin həyata keçirilməsi əhalinin istehlakında yerli məhsulların payının artmasını təmin etmiş olur.

7. *İnnovasiyalar Mərkəzi. Ümumi məlumat. http://icenter.az/umumi-melumat/ (05.02.2017)*
8. *Əmrah Qarayev. "Sənayeyönlü yeni kiçik və orta şirkətlərin (startap) yaradılmasının dəstəklənməsinə üzrə beynəlxalq təcrübə haqqında Arayış". İqtisadiyyat və Sənaye Nazirliyi. Bakı 2015 (səh.26-31).*
9. *"Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilmişdir.*



**Azer Musayev**
***Doctoral student of Azerbaijan State University of Economics***


### Assessment of the current state of use of innovation potential in the development of science-business cooperation


### SUMMARY

The article is devoted to the analysis and assessment of the current situation with the use of innovation potential in the development of scientific and business cooperation in Azerbaijan. The purpose of the study is to develop proposals and recommendations to improve the use of existing innovation potential for the development of science and business cooperation in the country. The article substantiates the need to use institutional and legal mechanisms in the context of improved innovation policy in the management of innovative activities, and identifies the preconditions for the transition of Azerbaijan to an innovative economy and its development at the present stage. The article also analyzes and evaluates the indicators characterizing the scientific potential of the country, identifies and substantiates the directions of implementation of the innovative development strategy in Azerbaijan.



**Keywords:** *science-business cooperation, innovation potential, innovation policy, innovative development strategy.*



**Азер Мусаев**
***Докторант Азербайджанского Государственного Экономического Университета***


### Оценка текущего состояния использования инновационного потенциала в развитии сотрудничества науки и бизнеса.


### РЕЗЮМЕ

Статья посвящена анализу и оценке текущей ситуации с использованием инновационного потенциала в развитии научного и делового сотрудничества в Азербайджане. Целью исследования является разработка предложений и рекомендаций по совершенствованию использования имеющегося инновационного потенциала для развития науки и делового сотрудничества в стране. В статье обоснована необходимость использования институциональных и правовых механизмов в контексте совершенствования инновационной политики в управлении инновационной деятельностью, а также определены предпосылки для перехода Азербайджана к инновационной экономике и ее развития на современном этапе. В статье также анализируются и оцениваются показатели, характеризующие научный потенциал страны, выявляются и обосновываются направления реализации стратегии инновационного развития в Азербайджане.



**Ключевые слова:** *сотрудничество науки и бизнеса, инновационный потенциал, инновационная политика, стратегия инновационного развития.*

UOT 331. 5.024.54

# MÜƏSSİSƏLƏRİN TƏSƏRRÜFAT FƏALİYYƏTİNDƏ İŞÇİ KARYERASININ İDARƏ EDİLMƏSİ SİSTEMİNİN ƏHƏMİYYƏTİ

**ŞƏHRİYAR ŞAHKƏRƏMLİ**
*Azərbaycan Kooperasiya Universitetinin doktorantı*

*E-mail: shahriyar.shahkaramli@gmail.com*

## Giriş

Hər sonrakı karyera addımı, hətta əgər karyera kortəbii inkişaf etsə belə, sistemsiz və təsadüfi fəaliyyət dəyişikliyindən ibarət olsa da, prestij və gəlir artımına səbəb ola bilər.

Keçmiş illərdə qurulmuş firmaya mənsub olmaq, iddialı işçilər üçün uğurlu karyera yolları təmin edirdi, buna görə karyera sabitliklə əlaqəli idi. Bu gün əmək bazarı çox dəyişkən və dinamik olduğundan bu cür irəliləyiş daha az etibarlı olur. Nəticədə, karyera artımına çalışan menecerlər bir firmadan digərinə keçməyə məcbur olurlar və bəzən fəaliyyət sahələrini kəskin şəkildə dəyişə bilərlər, çünki daha yüksək qazanclar və gələcək inkişaf üçün daha cəlbedici planlar var. Bu tamamilə təbiidir, çünki bazarın inkişafı şəraitində hər şey, hətta şəxsin özü, onun peşəkarlıq və şəxsi xüsusiyyətləri əmtəəyə çevrilir. Bu kontekstdə karyera öz şəxsi brendinin irəlilədilməsi üzrə müəyyən kommersiya layihəsidir. Müasir insanın özünüqiymətləndirməsi onun nə qədər uğur qazanacağından, özünü uğurla sata biləcəyindən, özü müqabilində nə əldə edə biləcəyindən asılı olacaq.

## 1. Karyera anlayışı, onun mahiyyəti və səciyyəvi cəhətləri

Bu gün insan resursları baxımından əhəmiyyətli hala gələn anlayışlardan biri də karyeradır. Bu gün bir çox insan təlimləri müddətində iş həyatı üçün fərdi karyera hədəflərini müəyyənləşdirir və onlara çatmaq üçün performanslarını artırmağa çalışır, bir çox müəssisə də işçiləri üçün karyera planları hazırlayır və bunları uğurla həyata keçirməyə çalışır. Karyera hər kəs üçün eyni mənaya gələ bilməz. Bəziləri üçün karyera işdə irəliləmək, bəziləri üçün daha yüksək vəzifələrə çatmaq, bəziləri üçün özünü inkişaf etdirmək, bəziləri üçün özünü gerçəkləşdirmə ehtiyacını qarşılamaqdır [1, s. 314].

Xarici dillərdə söz karyerasının kökünə baxanda latınca "carrus" (at arabası), "carrera" (yol), fransız dilində "carrere" (yarış yolu) və ingilis dilində "karyera" (peşə) mənasını verir. Sözün türkcə istifadəsində həyat, iş və peşə anlayışlarına uyğun gəldiyini söyləmək olar. Şəxs üçün karyera yalnız işləməkdən daha çox deməkdir. Karyera tərəqqisi daha çox gəlir, məsuliyyət, daha yüksək peşə və sosial ləyaqət qazanmaq deməkdir [2, s. 51].

Karyeranın digər tərifləri də var. Belə ki, məsələn, O.O. Boqatıreva, karyeranı istehsalat, mülkiyyət və ya sosial sahədə atılan addımların ardıcıllığını əks etdirərək peşə fəaliyyətinin fenomeni kimi müəyyənləşdirir [3, s. 92-98].

A.N. Tolstaya karyeranı əmək təcrübəsi və peşə fəaliyyəti ilə əlaqəli fərdi şüurlu mövqe və davranış olaraq təyin edir [4].

A.Y. Kibanov bunu insanın fərdi olaraq şüurlu, işin gələcəyi ilə bağlı mülahizələrini, özünü ifadə etmə və iş məmnuniyyətinin gözlənilən yollarını, mərhələli karyera pilləkəni üzrə yüksəlişini, bacarıq, qabiliyyət, ixtisas inkişaf etdirmə imkanların və mükafat dəyərlərinin transformasiyası kimi müəyyənləşdirir [5].

O. A. Tixomandritskaya və A.M. Rykiel, karyeranı obyektiv göstəricilərin toplanması və peşəkar və ya iş inkişafındakı nailiyyətləri şəxsi subyektiv şəkildə məmnun edən proses və ya nəticə kimi başa düşürlər [6, s. 50-56].

Karyera bir fərdin iş rollarının ardıcıllığı və nümunələridir. Ənənəvi olaraq, karyera iş rollarına münasibətdə hamı üçün daha çox tətbiq olunan bir anlayışa çevrilməyə başlandı, halbuki bu yalnız idarəetmə və ya peşə rolunu tutanlara tətbiq olunur. Karyera iş rollarında yuxarı hərəkət və irəliləməni nəzərdə tutmaq üçün də istifadə olunur. Karyera daha geniş şəkildə "şəxs" olaraq təyin olunur ömrü boyu işində öyrənmə və inkişaf deməkdir"; buna görə də, könüllülərin işi və şəxslərin digər həyat təcrübələri daxildir [7, s. 410].

İnsanın karyerası yalnız iş yerləri ilə deyil, həm də işdə ona həvalə olunan iş rolu ilə bağlı gözləntilərini, hədəflərini, hisslərini və istəklərini reallaşdırmaq üçün bilik, bacarıq və təlimlə

bağlıdır. Bu həm də öz istedadı və işləmək istəyi ilə həmin şirkətdə irəliləməyi bacarmaq deməkdir. Karyeradakı ümumi məqamları aşağıdakı kimi sıralamaq mümkündür [8, s.137]:

- Hər peşə üçün bir karyera var, yalnız yüksək səviyyəli, yüksək statuslu iş deyil. Baş menecerin, işçinin və ya akademikin öz karyera həyatı var.
- Şaquli hərəkətliliklə yanaşı, eyni təşkilati səviyyədə qalmaq və müxtəlif bilik, bacarıq və bacarıqlara yiyələnməklə də karyera qazanmaq olar.
- Şəxsin karyerasında təkcə rəhbərlik deyil. Fərd öz karyerasını özü planlaya bilər.
- Karyera bir təşkilat üzvü olmaqla qazanılan qazancla məhdudlaşmamalıdır. Şəxslər karyeralarına öz fəaliyyətləri və iş xaricində yaşamaları ilə töhfə verə bilər və sürətlə dəyişən dünyada birdən çox karyera sahibi olan insanların sayı sürətlə artır.

Karyera bir insanın iş illərində təcrübə və bacarıq qazanaraq, hər hansı bir iş sahəsində addım-addım və davamlı irəliləməsidir. Nəticədə daha çox pul qazanmaq, məsuliyyət götürmək, status qazanmaq, güc və hörmət qazanmaq istəyirlər [9, s. 278-279].

Karyera bir tərəfdən şəxsin məmnuniyyətini təmin edir. Digər tərəfdən, özü ilə status və ləyaqət gətirir. Digər tərəfdən, karyeranın inkişafı ilə insanlar daha çox maddi qazanc əldə edir və həyat səviyyələrini yüksəldirlər. Buna görə karyera bir çox insanlar üçün mənalıdır və vacibdir.

Beləliklə, karyera, bir insanın iş sahəsindəki və ya peşə böyüməsi ilə əlaqəli düşünülmüş mövqe və davranışının nəticəsidir.

## 2. Karyera strategiyası və karyeranın idarə edilməsi arasında funksional qarşılıqlı əlaqə

Güclü liderin əsas xüsusiyyətlərindən biri karyera qurmaq arzusu hesab olunur. Bu, nüfuz idarəçiliyi və karyera idarəçiliyinə nüfuz və kadr menecmenti texnologiyalarının tətbiq olunduğu ayrılmaz, davamlı bir proses kimi baxılmasını zəruri edir. Eyni zamanda, peşəkar-vəzifə yüksəlişi strategiyasının formalaşdırılması bir sıra fərqli elementlərə malikdir, çünki söhbət şəxsin hansı vəzifədə işləməsindən, peşə yüksəlişinin başlanğıcında olmasından və ya müəyyən zirvələrə çatmasından asılı olmayaraq ayrı-ayrı işçinin nüfuzundan və uğurundan gedir [10, s. 114].

Karyera strategiyası, işçi tərəfindən onun müəyyən bir təşkilatdakı karyera artımı imkanları barədə fikirləri əsasında bir və ya daha çox karyera vektorunun şüurlu seçilməsidir.

Karyera strategiyasının məqsədi karyera prosesinin davamlılığını təmin etməkdir. Bu hədəfin həyata keçirilməsində aşağıdakı prinsiplərdən istifadə olunur: fasiləsizlik, dərketmə, sürət, çeviklik, qənaətlilik, diqqətlilik [11, s.22].

Karyeranın idarə edilməsi kadrların inkişafı xidməti tərəfindən peşə vəzifələrinin yüksəldilməsinin proqnozlaşdırılması, təşkili, stimullaşdırılması və yoxlanılması üzrə həyata keçirilən kadrların idarə olunması sahəsində tədbirlər məcmusudur. Qeyd etmək lazımdır ki, əməkdaş həm də öz iş karyerasının idarə olunmasında iştirak edir. İş karyerasının idarə edilməsi sayəsində əmək məhsuldarlığının artmasına, həmçinin kadr axınları səviyyəsinin azalmasına nail olmaq mümkündür.

Karyera idarəetməsi işçilərin maraqlarını, dəyərlərini, güclü və zəif tərəflərini müəyyənləşdirən, təşkilat daxilində iş imkanları haqqında məlumat əldə edən, karyera məqsədlərini təyin edən və bu hədəflərə çatmaq üçün fəaliyyət planları hazırlayan bir prosesdir [12, s. 327].

Sadə mənada karyera idarəetməsi insanların iş həyatı üçün planlar qurmasıdır. Karyera idarəçiliyinin yaxşı aparıldığı müəssisələrdə insanlar bir müddət sonra, məsələn, 1 və ya 5 il sonra harada və hansı statusda olacağını asanlıqla bilə və ya əvvəlcədən bilə bilər. İnsanın karyera məqsədlərinə çatması uğurlu karyera idarəetmə ilə sıx bağlıdır.

Karyera rəhbərliyi karyeraların fərdlərin üstünlüklərini və imkanlarını nəzərə alan və təşkilatın ehtiyaclarına cavab verən şəkildə planlaşdırılmasına və idarə edilməsinə imkan verən vahid bir prosesin hazırlanmasını və həyata keçirilməsini tələb edir. Bu tərif göstərir ki, karyera planlaşdırması və inkişafı karyera idarəçiliyinin iki komponentini təşkil edir [13, s. 199].

Karyera rəhbərliyi bir və ya daha çox insanın karyerasına təsir göstərməyə çalışmaqdan ibarətdir. Maraqlanan şəxs özü və ya başqası ola bilər. Karyera rəhbərliyi psixoloqlar tərəfindən tez-tez fərdi baxımdan təsvir olunur. Greenhaus və Callenen [14] insanın özündə və işində karyeranın özünüidarəetməsinin güclü şəkildə olduğunu qeyd edirlər. Söhbət dəqiq məlumatlara əsaslanan və bu hədəflərə doğru irəliləməni izləyən real karyera hədəflərinin qurulmasından gedir. A.R. Noe [15, s.119-133] daha konkret olaraq üç şeyi etdiyi bir

müddət olaraq xarakterizə etdiyi insanın karyera rəhbərliyindəki davranış strategiyasını özündə cəmləşdirir. Bunlardan birincisi, bacarıqların dəyərləri, maraqları və güclü və zəif tərəfləri haqqında məlumat toplamaqdır. İkincisi, bir və ya daha çox karyera məqsədi təyin etməkdir. Üçüncüsü, bu karyera məqsədlərinə çatma ehtimalını artıran strategiyalardan istifadə etməkdir [16, s. 133].

Başqa sözlə, karyeranın idarəetməsi prosesində fərdlər öz güclü və zəif tərəflərini obyektiv şəkildə ortaya qoya, əldə etmək istədikləri karyera hədəflərini təyin edə və bu hədəflərə çatmasına kömək edəcək strategiyaları təyin edə bilmələri son dərəcə vacibdir.

Mövcud fərdi işəgötürən daxilində deyil, karyeranı daha yaxşı idarə etmək üçün tək işəgötürən deyil, potensial işəgötürənlərin müxtəlifliyi daxilində işlə əlaqəli bacarıq və bilikləri inkişaf etdirmək qərarlarında sərbəstliyə diqqət yetirərək iş üçün bacarıq, bilik və təcrübə qurmağa diqqət edilməsi, həm də iş haqqında karyera ilə əlaqəli fərdi öyrənmə mövzusunda əlaqələr ilə düzgün ünsiyyət və əməkdaşlıq şəbəkələrinin qurulması, yenidən işlənməsi və təkmilləşdirilməsi lazımdır. [17, s.672].

Karyera idarəçiliyi ilə məşğul olan iki tərəf - işçi və işəgötürən olduğundan, karyera idarəçiliyi iki mərhələyə bölünə bilər: inkişaf perspektivlərini işçinin özü tərəfindən müəyyənləşdirmək, həmçinin işçinin fərdi inkişaf planını tərtib etmək.

Hər bir insanın onu hansı karyera perspektivlərini gözlədiyini və bu təşkilatda peşəkar inkişaf üçün imkanların olub olmadığını bilmək istəməsi təəccüblü deyil. Əlbətdə, arzuolunan artımın baş verməsi üçün hansı şərtlərə əməl edilməli olduğunu bilmək lazımdır. Şirkət işçilərin böyüməsi üçün imkan vermirsə, tezliklə işçinin özünüinkişafına marağı yox olur, bu da iş məhsuldarlığının azalmasına səbəb olur və işçi təşkilatı yalnız müəyyən qazanc təmin edən bir yer kimi qəbul edir və gələcəkdə daha perspektivli iş yeri axtarışında olacaqdır [18].

### 3. Karyera hədəfləri və onların müəyyən edilməsi xüsusiyyətləri

İnsan işə başlayanda öz qarşısına bəzi hədəflər qoyur, ancaq təşkilat işə götürərkən bəzi məqsədlərini həyata keçirdiyindən işəgötürənin öz iş keyfiyyətlərini ayıqca qiymətləndirə bilməsi lazımdır. Öz iş keyfiyyətlərini təşkilatın onun qarşısına qoyduğu tələbləri ilə də real olaraq əlaqələndirən işəgötürən bu təşkilatdakı onun bütün karyerasının mənzərəsinin nə qədər perspektivli olduğunu qiymətləndirə bilər. [19, s. 80–85].

Bir şəxs iş üçün müraciət edərkən əmək bazarının həqiqi mənzərəsini də nəzərə almalıdır. Öz bacarıq və iş xüsusiyyətlərinin düzgün qiymətləndirilməsi özünüreallaşdırmanın düzgün yolunu qurmağa və karyera hədəflərini təyin etməyə kömək edəcəkdir.

Karyera hədəfini bir fəaliyyət sahəsi, konkret bir iş və ya vəzifə, karyera pilləkənində yer adlandırmaq heç də doğru deyil, çünki o, daha dərin bir məna daşıyır. Karyera hədəfləri insanın müəyyən bir işə sahib olmaq və vəzifələrin iyerarxiya pilləkənində müəyyən bir addım tutmaq istəyi səbəbi ilə müəyyən edilir. Yaşla karyera hədəfləri dəyişir, insan dəyişdikcə onun keyfiyyətləri və dəyərləri bütövlükdə dəyişir. Buna görə karyera hədəflərinin formalaşmasını daimi baş verən bir proses adlandırmaq olar.

Məsələn, bəzi karyera hədəflərini təyin edək:

• özünüqiymətləndirməyə uyğun gələn və nəticədə mənəvi məmnuniyyət gətirən vəzifəyə sahib olmaq və ya həmin fəaliyyətlə məşğul olmaq;

• təbii şəraitin sağlamlığa faydalı təsir göstərdiyi və adekvat istirahətini təmin edən bir yerdə özünüqiymətləndirməyə cavab verən bir işə malik olmaq;

• mövcud imkanları artıran və onların inkişafına imkan verən bir vəzifədə olmaq;

• yaradıcılıq xarakteri daşıyan işlə məşğul olmaq;

• müəyyən dərəcədə müstəqillik əldə etməyə imkan verən vəzifə və ya peşədə olmaq;

• layiqli mükafat ilə xarakterizə olunan və ya eyni zamanda əlavə gəlir əldə etməyə imkan verən peşədə işləmək;

• aktiv öyrənməyə davam etməyə imkan verən vəzifəyə sahib olmaq;

• eyni zamanda özünü bir valideyn kimi reallaşdırmağa imkan verən və ya ev işlərini görməyə imkan verən vəzifədə olmaq.

Karyeranın idarə edilməsi işə götürməkdən başlayır: müsahibə zamanı suallara cavab verərək, işə götürən təşkilatın hansı tələblərlə çıxış etdiyini başa düşmək olar.

Karyera idarəetməsində aşağıdakı məqamları prioritet hesab etmək olar:

• yalnız öz peşə sahəsindəki biliklərini genişləndirmək;

• təşəbbüskar və mobil liderlərlə işləmək;
• yeni bacarıqların əldə edilməsi;
• boşaldıqda daha yüksək vəzifə tutmaq istəyi;
• özünü tərbiyə etmək və müəyyən bir sistemə riayət etmək bacarığı;
• şəxsi planlar qurmaq lazımdır.

Həyat vəziyyətinin qiymətləndirilməsi aşağıdakı məqamlarla xarakterizə olunur:

1) İş - qlobal mənada öz işlərinə dair perspektivlər və fikirlərlə əlaqəli suallar: karyeranın zirvəsinə çatma müddəti, özü və başqaları üçün faydaları, şəxsi motivasiya sualları;

2) İqtisadi vəziyyət - maddi vəziyyətlə bağlı suallar;

3) Fiziki vəziyyət - sağlamlıq və fiziki vəziyyət ilə əlaqəli məsələlər;

4) Sosial vəziyyət, insan münasibətləri - başqaları ilə münasibətlər, başqaları ilə münasibətlərdə dəyərli oriyentirlər ilə əlaqəli məsələlər;

5) Psixoloji vəziyyət - psixoloji sağlamlıq vəziyyəti, ətrafdakı streslərin təhlili, çıxış yolu axtarma;

6) Ailə həyatı - ailə vəziyyəti, bu istiqamətdə artım perspektivləri, istirahət və uşaqların gələcəyi ilə bağlı məsələlər.

Bu sualları cavablandırmaqla işçi öz karyera perspektivləri haqqında daha dolğun təsəvvür əldə edə bilər.

İkinci mərhələ işçinin karyerasının fərdi inkişaf planını tərtib etməkdir, yəni işçinin öz karyerasının artımı boyunca ala biləcəyi vəzifələrin siyahısının tərtib olunmasıdır.

Təşkilatdakı karyeranın yalnız davamlı yüksəlişlə əlaqələndirilə bilməyəcəyi xüsusi diqqətə layiqdir. Karyera müxtəlif struktur bölmələr üzrə üfüqi hərəkət deməkdir [20, s.2656-2660].

Bu mərhələdə işçinin imkanları işəgötürən tərəfindən müəyyən bir vəzifə üçün qoyulan tələblərlə müqayisə olunur. Nəzərə alınmalıdır ki, hər bir işçinin bir şəxs kimi karyera artımı planları tərtib edilərkən nəzərə alınmalı olan öz xüsusiyyətləri var. Bu vəziyyətdə birbaşa rəhbərin iştirakı zəruridir, çünki məhz o, iddiaçının müsbət cəhətlərini və çatışmazlıqlarını və onun potensialını obyektiv qiymətləndirə biləcəkdir.

Bunun ardınca, işçinin peşə karyerasının inkişafı planının həyata keçirilməsi mərhələsi gəlir ki, bu da vəzifələr, təcrübə və fərdi mentorluq (məşqçilik) üzrə rotasiya planının tətbiqidir.

Bu mərhələni həyata keçirərkən işçinin fəaliyyəti daim qiymətləndirilməlidir. Bunun aparılması zərurəti, heyətin yalnız yeni səriştəliklərə yiyələnməsi ilə deyil, həm də onları gündəlik işlərində uğurla istifadə etmələri ilə bağlıdır. Buradan belə çıxır ki, bu prosesi idarə etmək üçün bəzi vasitələrə ehtiyac var.

Qiymətləndirmə adi attestasiya ilə eyni vaxtda və ya ayrıca planlaşdırılmış tədbir şəklində aparıla bilər. Qiymətləndirmə sayəsində əldə edilən nəticələr işçinin müəyyən bir müddətdə qazandığı müvəffəqiyyət dərəcəsini, karyeranın daha da inkişaf etdirilməsində işin hansı tərəflərinə daha çox diqqət yetirilməli olduğunu anlamağa imkan verir. Bir qayda olaraq, menecer və insan resursları şöbəsi qiymətləndirməni birlikdə aparırlar.

Xidmət üzrə irəli çəkilən işçinin dövri qiymətləndirməsi ona hansı əlavə bilik və bacarıqların çatışmaya biləcəyi anlayışı təmin edir. Buradan belə çıxır ki, təhsil proqramlarının formalaşması daha effektiv olur. Təhsil proqramlarının formalaşmasında prioritet onların məqsədlərinin aydın şəkildə formalaşdırılmasıdır. Əks təqdirdə, təşkilat heyətin vaxtının və pulunun lazımsız istifadəsindən qaçmaq çətindir. Bir çox tədris metodları və formaları var, ən əsası əvvəllər qoyulmuş hədəflərə uyğun seçimdir.

**4. İş karyerası idarəetməsinin effektivliyinin qiymətləndirilməsi**

Təşkilatdakı hər hansı bir proses onun effektivliyinə görə qiymətləndirilməlidir və iş karyerasının idarə olunması da istisna deyil. İşçinin iş karyerası idarəetməsinin son mərhələsi işçinin karyera böyüməsi prosesinin effektivliyinin qiymətləndirilməsidir.

Aşağıdakı göstəricilərə əsasən işçinin iş karyerası idarəetməsinin effektivliyini qiymətləndirmək mümkündür:

• şirkətin idarə edilməsi səmərəliliyinin artırılması;
• məhsuldarlığın artırılması;
• kadrların axını əmsalının minimuma endirilməsi;
• kənardan öncül vəzifələrə işə götürülən kadrların müəssisə daxilində karyera pillləkənləri üzrə yüksəldənlərə nisbəti;
• innovativ idarəetmənin formalaşdırılması elementi kimi yeni layihə tapşırıqları üzrə fəaliyyətlərin

həyata keçirilməsi.

İş karyerasının proqnozlaşdırılması və yoxlanılması işçinin işə götürüldüyü andan gözlənilən işdən çıxana qədər işçinin vəzifələr sistemi üzrə üfüqi və şaquli yüksəlişdən keçməsini nəzərdə tutur. İşçi mütləq təşkilatdakı öz qısa və uzunmüddətli perspektivlərini, həmçinin xidmət üzrə yüksəlişə nail olmaq üçün onun yerinə yetirməli olduğu şərtləri və göstəriciləri bilməlidir [21, s. 632-639].

Bunun ən yaxşı nümunəsi Yaponiyada məşhur olan ömür boyu məşğulluq sistemidir. Bu sistem İkinci Dünya Müharibəsindən sonra meydana gəlib və onun effektiv və həyat qabiliyyətli ola biləcəyi sübut edilib. Sistemin mənası odur ki, təhsil aldıqdan sonra bir şirkətdə işə düzələn insan təqaüdə çıxana qədər orada işləyir. İşlədiyi müddət ərzində işçi fəaliyyət sahəsini dəyişdirə, yüksəlişə nail ola bilər və bütün karyera dəyişiklikləri bir təşkilat daxilində baş verəcəkdir. Bu sistemin üstünlüyü ondadır ki, işçi özünü işlədiyi təşkilatla birbaşa əlaqələndirir və firavanlığının birbaşa onun şirkətinin uğurundan asılı olduğunu dərk edir. Belə bir sistem sayəsində insan sabitliyə inam qazanır və özünü işdən qovulmaqdan qorunmuş hiss edir. Lakin hər halda ömürlük məşğulluq sisteminin ciddi məhdudiyyətlərə malik olduğuna diqqət yetirməyə dəyər: bu, böyük şirkətlərin işçilərinin yalnız 25-30% -nə aiddir və şirkətin maliyyə vəziyyəti pisləşirsə, idarəetmə qrupunun müəyyən sayda ixtisarlar etməsi lazımdır.

Yaponiyada ömürlük məşğulluq sistemi zəmanətli məşğulluq formalarından biridir. Dünya praktikasında işin saxlanması zəmanətlərinə maraq artmaqdadır. Bunun müəyyən səbəbləri var: işdən çıxarılma qorxusu səbəbindən işçilərin məhsuldarlığı azalacaq, yeni iş yerlərinin ixtisarına səbəb olacaq texnika tətbiqi qorxusu səbəbilə istehsalın texniki inkişafı ləngiyir, yüksək kadr axını təşkilatın iqtisadiyyatına mənfi təsir göstərir, xüsusən də yüksək ixtisaslı işçilərə gəldikdə[21, s. 632-639].

Məşğulluq üzrə zəmanət öhdəliklərinin icrası firma və təşkilatlarda kadr idarəçiliyinin ən çətin problemlərindən biridir. Ayrı-ayrı menecerlər bu problemi nəzərə almaq belə istəmirlər, bazarın inkişafı şəraitində sahibkarın nə vaxt və kimləri ixtisar edəcəyini özü müəyyən etdiyini düşünürlər.

Həm də uğurlu karyera idarəçiliyi üçün hər bir insanın öz bütün əmək həyatı boyunca fərqli ehtiyacları ödədiyini nəzərə almaq lazımdır.

Karyeranın idarə edilməsi üçün karyeralarının müxtəlif mərhələlərindəki insanlarla nələrin baş verdiyinin daha dolğun şəkildə təsəvvürlərinə malik olmaq lazımdır. Effektiv karyera idarəçiliyi ilə maraqlanan təşkilatlar xüsusi tədqiqatlar aparırlar. Müəyyən tədqiqat nəticələri karyera pilləkənləri ilə keçdiyi yolu və müəyyən vəzifələr üçün tələblər irəli sürən ixtisas inkişafı səviyyəsindəki xüsusiyyətləri hərtərəfli görməyə imkan verən karyera qramları şəklində göstərilir. Eyni zamanda, formalaşmış səriştələr karyera yüksəlişinin peşə-vəzifə strategiyasının formalaşması kontekstində ön plana çıxır.

**Nəticə**

SOCAR işçiləri şirkət daxilində yerdəyişməyə nail olmaq üçün aşağıdakı əsas meyarları əldə etməlidirlər:

- işçinin növbəti karyera yolunda tələb olunan yeni vəzifə standartında əks olunan təhsil səviyyəsinə, təhsil sahəsinə, iş təcrübəsinə və sertifikatlara malik olması;
- səriştəliliklərin qiymətləndirilməsi nəticələrinə görə işçinin ortalama 2,5 bal əldə etməsi;
- işçi tərəfindən effektivlik qiymətlərin nəticələrinə görə yüksək nəticə əldə etməsi.

SOCAR işçilərinin karyera yolunu seçərkən aşağıdakı meyarlar ilə tanış olması məsləhət bilinir:

- işçi hazırda işlədiyi sahəni eyni funksional istiqamət daxil olan digər sahə üzrə dəyişə bilər;
- işçiyə karyera inkişaf imkanları barəsində müvafiq struktur bölmənin kadrlar şöbəsi məlumat verməlidir;
- işçi bütün karyera imkanları ilə bağlı məlumatlı olmalıdır;
- işçinin gedəcəyi vəzifəsi üzrə ondan gözləntilər nələrdir.

SOCAR üzrə aşağıdakı 4 halda vakansiyalar yaranır ki, bu da işçilərin karyera inkişafı üçün zəmin yaradır:

1) SOCAR-ın işçisi hər hansı bir strukturdan digər bir struktura keçid edildikdə.
2) SOCAR işçisi işdən azad edildikdə.
3) Biznes tələbinə uyğun olaraq yeni ştat yaradıldıqda.
4) Təqaüdə çıxma zamanı vakant yer boşaldıqda

İşçilərin karyera planlaması zamanı vakant yer olduğu təqdirdə prioritetliyinə görə aşağıdakı kateqoriyalar üzrə işçinin yeni vəzifəyə təyinatı

ardıcıllığı aşağıdakı kimidir:

• Davamçı işçilər (yüksək əhəmiyyətli vəzifə vakant olduğu təqdirdə)

• Perspektivli işçilər

• Orta göstəricilərə malik olan işçilər

SOCAR işçilərinin karyera imkanları onlara iki istiqamət üzrə karyerasını davam etdirməyə imkan verəcəkdir. Hər bir işçi həm menecment və müvafiq sahəsi üzrə karyera istiqamətini seçə bilər.

İşçilərin seçə biləcəyi karyera istiqamətləri kvalifikasiya klassifikatoru sənədi vasitəsilə tənzimlənəcəkdir. Hər bir iş ailəsi altında əks olunmuş funksional sahə və istiqamətlər üzrə işçilər karyerasını davam etdirə bilər.

Bundan əlavə, işçinin karyera yüksəlişi vəzifə standartında əks olunmuş minimum iş təcrübəsi tələbini ödədiyi təqdirdə baş verə bilər.

**Açar sözlər:** *müəssisə, karyera, karyera strategiyası, karyeranın idarə edilməsi, karyera hədəfləri, effektivliyin qiymətləndirilməsi.*

## ƏDƏBİYYAT SİYAHISI

*1. Özler E.D. ve Mercan N. . Yönetsel ve Örgütsel Aç›dan Psikolojik Terör. Ankara: Detay Yayıncılık. 2009*

*2. Seçer B. ve Çınar E. "Bireycilik ve Yeni Kariyer Yönelimleri". Yönetim ve Ekonomi. 2011 C. 18. Sa. 2. ss. 49-62.*

*3. Богатырева О.О. Психологические предпосылки карьерного роста // Вопросы психологии. - 2008. - № 3. - С. 92-98.*

*4. Толстая А.Н Психология управления: Учебное пособие. - Л.: Лениздат, 2001. - 246 с.*

*5. Кибанов А.Я. Управление персоналом организации: практикум. - М.: Инфра-М, 2000. - 512 с.*

*6. Тихомандрицкая О.А., Рикель А.М. Социально-психологические факторы успешности карьеры // Психологические исследования: науч. журн. -2010. - № 2(10). - С. 50-56.*

*7. Torrington D., Hall L., Taylor S. Human Resource Management. Sixth Edition. England: Prentice Hall. 2005.*

*8. Bayraktaroglu S. İnsan Kaynakları Yönetimi. B. 3. Adapazarı: Sakarya Yayıncılık. 2008.*

*9. Adıgüzel O. "Shein'ın Kariyer Çapaları Perspektifinde Süleyman Demirel Üniversitesi İ.İ.B.F. Ögrencilerinin Kariyer Degerlerine İliflkin Bir Arafltırma". Süleyman Demirel Üniversitesi İktisadi ve İdari Bilimler Fakültesi Dergisi. 2009. C. 14. Sa. 2. ss. 277-292.*

*10. Гнеденко М.В., Щуров И.В., Гнеденко В.В. Целесообразность планирования инвестиций в персонал компании // Фундаментальные исследования. - 2005. - № 6. -С. 114.*

*11. Евсюков Д.В. Профессиональные и личные качества современного менеджера по персоналу // Тенденции развития науки и образования.-2016.- № 16-1.- С. 22.*

*12. Noe A. R. İnsan Kaynaklarının Eğitim ve Gelişimi. (Ed. Canan Çetin). B. 1. İstanbul: Beta Basım Yayın Dağıtım. 1999*

*13. Ayrancı E. ve Öğe E. "A Study of the Relationship between Students' Views toward A Career Management Class and Their Future Careers". International Business Research. 2011. Vol. 4. No. 1. pp. 198-207.*

*14. Greenhaus J.H. ve Callanan G.A. Career Management. Second Edition. London: Dryden Press. 1994*

*15. Noe A.R. "Is Carrer Management Related To Employee Development and Performance". Journal of Organizational Behavior. 1996. Vol. 17. pp. 119-133.*

*16. Arnold J." Kariyer ve Kariyer Yönetimi". (Ed. Neil Anderson, Deniz S. Önefl, Handan Kepir Sinangil ve Chockalingam Viswesvaran). Endüstri, İfl ve Örgüt Psikolojisi El Kitabı. 2009. C. 2. ss. 133-149.*

*17. Power J. S. "Career Management Tactical Innovations and Successful Interorganizational Transitions". Career Development International. 2010. Vol. 15 No. 7. pp. 664-686.*

*18. Митрофанова Е.А. Управление персоналом: Теория и практика. Компетентностный подход в управлении персоналом: Учебно-практическое пособие / Е.А. Митрофанова. - М.: Проспект, 2013. - 72 с.*

*19. Романько И.Е. Модель оценки качества профессионального обучения государственных служащих // Государственное и муниципальное управление в XXI веке: теория, методология, практика. - 2015. - № 11. -С. 80–85.*

*20. Соколова А.В. Современные требования к персоналу // Научно-методический электронный журнал Концепт. -2017.- № Т39. -С. 2656-2660.*

*21. Уляхина Д.Д., Чернова А.П., Железникова Е.П. Стратегия управления персоналом и её влияние на формирование службы управления*

*персоналом // Аллея науки. -2018.- Т. 4.- № 4 (20). -С. 632-639.*

**Shahriyar Shahkaramli**
***Doctoral student of Azerbaijan Cooperation University***

**The importance of the employee career management system in the economic activities of enterprises**

**SUMMARY**

The article discusses the concept of career, its essence and characteristics, and identifies the functional relationship between career strategy and career management. It also identifies career goals by the author and the specifics of their definition, and substantiates the author's approach to assessing the effectiveness of business career management.

**Keywords:** *enterprise, career, career strategy, career management, career goals, performance appraisal.*

**Шахрияр Шахкарамли**
***Докторант Докторант Азербайджанского Университета Кооперации***

**Значение системы управления карьерой сотрудников в хозяйственной деятельности предприятий**

**РЕЗЮМЕ**

В статье рассматривается понятие карьеры, ее сущность и характеристики, а также определяется функциональная связь между стратегией карьеры и управлением карьерой. Здесь автором также раскрываются карьерные цели и особенности их определения, обоснован авторский подход к оценке эффективности управления бизнес-карьерой.

**Ключевые слова:** *предприятие, карьера,* карьерная стратегия, управление карьерой, карьерные цели, оценка эффективности.

UOT 331. 5.024.54

# DÜNYA ÜLKELERİNDE VE AZERBAYCAN`DA YENİLENEBİLİR ENERJİ KULLANIMI. YENİLENEBİLİR ENERJİLERİN TEŞVİKİNE YÖNELİK POLİTİKALAR

**ŞEMSİ EFENDİZADE**
*İstanbul Üniversitesi*
*E-mail: shemsiefendizade555@gmail.com*

**NAMİG İBADZADA**
*Azerbaycan Cumhuriyeti Cumhurbaşkanına bağlı Kamu Yönetimi Akademisi*
*E-mail: ibadzadenamiq@gmail.com*

## Giriş

Yenilenebilir enerjilerin temel üstünlüğü enerji güvenliğini arttırması ve fosil kaynaklı enerjilerden bağımlılığının azaltılması ile çevrenin korunmasıdır. Dünyada enerji sektöründeki trendin de bu yönde olması tesadüf değildir. Petrol ve doğalgaz zengini ülkeler için yenilenebilir enerjinin teşviki önemli strateji gibi görünmüyor olsa da bile aslında yenilenebilir politikasında bu ülkelerin iki en önemli nedenle daha avantajlı olması kanaatindeyiz: 1. Petrol ve doğalgaz satışlarından gelirlerin YEN`ler için önemli finansman kaynağına çevrilme avantajı, 2. Enerji rezervlerinin 20 yıldan fazla bir sürede ülkenin enerji güvenliğini koruması ile yenilenebilir enerjilerin kullanımının yaygınlaşmasına zaman kazandırması. Özellikle bu konuda Azerbaycan ve diğer fosil kaynakları zengin ülkeler daha avantajlı durumda oldukları aşikardır. Diğer bir avantaj ise Azerbaycan`ın iç enerji talebini yenilenebilir enerjilerle karşılayarak tasarruf ettiği petrol ve doğalgazın ihraç edilmesidir

Azerbaycan`da yenilenebilir enerjinin durumu

Azerbaycan bağımsızlığını yeniden elde ettiği 1991 yılından sonra savaş sonrası petrol ve doğalgaza bağımlı bir ekonomi kurdu. Doğal kaynaklardan elde ettiği gelirle diğer alanlara, özellikle alt yapıya yönelik iri çaplı yatırımlar yaptı. Fakat enerji talebinin %98 oranında fosil kaynaklı karşılandığı Azerbaycan yenilenebilir enerji konusunda gelişmiş ülkelerle karşılaştırıldığında hâlâ çok geride (Grafik 7).

Yenilenebilir enerji olarak daha çok hidroelektrik kaynaklarını kullanan Azerbaycan 2010 yıllarına kadar yenilenebilir enerji kullanım oranında %7`lere ulaşmış olsa da, sonraki yıllarda bu oran %2`lere kadar endi (Grafik 8).

Aynı zamanda yenilenebilir enerji kaynağı olarak güneş, rüzgar vb enerji kaynaklarının kullanımı 2010 yılı sonrasına tesadüf ediyor (Grafik 9).




**Grafik 7. Azerbaycan`da kaynağa göre kişi başına birincil enerji tüketimi, 2019**
*Kaynakça: BP Dünya Enerjisinin İstatistiksel İncelemesi (http://www.bp.com/statisticalreview)*




**Grafik 8. Azerbaycan`ın yenilenebilir enerji kullanım oranı, 1985-2019**
*Kaynakça: BP Dünya Enerjisinin İstatiksel İncelemesi 2020 (verileri ile hazırlanmıştır)*




**Grafik 9. Azerbaycan`da yenilenebilir enerji tüketimi, TWh, 1985-2020**

*Kaynakça: BP Dünya Enerjisinin İstatiksel İncelemesi 2020 (verileri ile hazırlanmıştır)*

Tablo 2`de izlendiği gibi Azerbaycan yenilenebilir enerjilere devamlı düzeyde yatırımlar yapmamıştır:

**Tablo 2. Azerbaycan`da yenilenebilir enerjilere kamu yatırımları, 2000-2020**

| milyon ABD doları | 2000-2002 | 2003-2005 | 2006-2008 | 2009-2011 | 2012-2014 | 2015-2017 | 2018-2020 |
|---|---|---|---|---|---|---|---|
| Yenilenebilir enerjiye kamu yatırımları | 4,88 | 2,23 | 0,48 | 187,58 | 0,02 | 77,67 | 0,01 |

*Kaynakça: Kaynakça: Uluslararası Yenilenebilir Enerji Ajansı, https://www.irena.org/Statistics/View-Data-by-Topic/ Finance-and-Investment/Renewable-Energy-Finance-Flows*

Tablo 3`te göründüğü üzere Azerbaycan yenilenebilir enerji kapasitesinin çok az bir oranını kullanıyor durumda:

**Tablo 3. Azerbaycan`da yenilenebilir enerji kapasitesi ve mevcut kullanımı**

| Enerji kaynağı | Kapasitesi | Kullanımı | Kullanım / Kapaiste oranı |
|---|---|---|---|
| Rüzgar | 15 000 MWt | 66 MWt | 0,4% |
| Güneş | 8 000 MWt | 30 MWt | 0,4% |
| Biyoenerji | 900 MWt | 46 MWt | 5,1% |

*Kaynakça: Azerbaycan Cumhuriyeti Enerji Bakanlığı bünyesinde Yenilenebilir Enerji Kaynakları Devlet Ajansı*

Azerbaycan`da 2000 yıllardan sonraki dönemde yenilenebilir enerjinin kullanımı ile ilgili ele alınan program ve kararnameleri Tablo 4`te kısa özetliyoruz:

**Tablo 4. Azerbaycan`da yenilenebilir enerjilere yönelik kânun ve programlar, önemli faaliyetler**

| Sıra No | Kanun / Program | Kabul edildiği yıl |
|---|---|---|
| 1 | Azerbaycan`da yenilenebilir enerjilerin kullanımına ilişkin Devlet Programı | 2004 |
| 2 | Azerbaycan milli ekonomisi için stratejik yol haritası | 2016 |
| 3 | Azerbaycan Cumhuriyeti Cumhurbaşkanı'nın 29 Mayıs 2019 tarih ve 1209 sayılı "Azerbaycan Cumhuriyeti enerji sektöründe reformların hızlandırılması hakkında" Emri | 2019 |
| 4 | Azerbaycan Cumhuriyeti Cumhurbaşkanı'nın emri "Yenilenebilir enerji kaynaklarının kullanımında pilot projelerin uygulanmasına yönelik tedbirler hakkında" | 2019 |
| 5 | Azerbaycan Cumhuriyeti Enerji Bakanlığı bünyesinde Yenilenebilir Enerji Kaynakları Devlet Ajansının Kurulması | 2020 |
| 6 | Azerbaycan 2030: Sosyo-Ekonomik Kalkınma için Ulusal Öncelikler (Paragraf 5.) | 2021 |
| 7 | "Azerbaycan'da yenilenebilir enerji ihalelerine destek " Avrupa Yeniden Yapılaşma ve Kalkınma Bankası tarafından desteklenen proje | 2021 |
| 8 | Azerbaycan'ın bölge ve şehirlerinde büyük ölçekli karbonsuzlaştırılmış ve entegre enerji ve ulaşım sistemleri ile yenilenebilir enerji projeleri için gerekli potansiyel ve koşulları değerlendirmek için İş birliği Mutabakat Muhtırası | 2021 |
| 9 | Karabağ savaşı sonrası işgalden kurtarılmış bölgelerin yenilenebilir enerji potansiyelini araştırmak için çalıştayların kurulması | 2021 |
| 10 | "Azerbaycan'da açık deniz rüzgâr enerjisinin geliştirilmesi için yol haritası" Dünya Bankası ile ortak çalışma | 2021 |

*Kaynakça: Azerbaycan Cumhuriyeti Enerji Bakanlığı verileri ile hazırlanmıştır.*

Azerbaycan`ın Ulusal Stratejik Yol Haritası`da Azerbaycan`da yenilenebilir enerjilere yönelik çalışmaların ortak amaçlarını aşağıdaki gibi sıralamamız doğru olacaktır:

• Ana hedef, ülkenin yenilenebilir enerji yatırım kapasitesini 2030 yılına kadar %30'a çıkarmaktır.

• Yenilenebilir enerjiler hesabına tasarruf edilmiş doğalgazın TAP ve TANAP ile Avrupa`ya ihracatı.

Verilerden de görüldüğü üzere Azerbaycan`ın yenilenebilir enerji kaynaklarına yönelik çalışmaları son yıllarda hız kazanmış durumda. Eğer başlatılmış projeler verimli bir şekilde yönetilirse ülkede yenilenebilir enerji kullanım oranları önemli derecede artacaktır. Fakat bu konuda ülke nüfusun da katkısı oldukça gereklidir. Bu katkıyı elde etmek için yenilenebilir enerjilerle ilgili bilgilendirme ve teşvik programlarının uygulanması gerekmektedir.

## Sonuç

Azerbaycan`ın yürüttüğü YEN politikaları ise başlangıç aşamasında olduğu için bu konuda deneyimli ülkelerin bilgilerinden yararlanmak oldukça önemlidir. Araştırmamız boyunca belirttiğimiz gibi Azerbaycan`ın YEN ile ilgili politikalarında acil olarak yasal düzenlemelerini net bir şekilde yapması, yerel yönetimlerin, iş dünyasının, yerel ve yabancı yatırımların da katılımı ile koordineli politikalar uygulaması faydalı olacaktır. Bunun yanı sıra eğitim sisteminin içerisinde de YEN`ler ile ilgili bilgilendirmelerin uygulanması gerekmektedir.

Özellikle finansal konularda önemli KOBİ destekleri yapan Azerbaycan bu destekleri YEN programlarına kolay bir şekilde bağlayarak kısa vadede bile başarılar kazana bilecektir.

## Kaynakça


- *Uluslararası Enerji Ajansı, https://www.iea.org/*
- *World Energy Outlook 2021, IEA, www.iea.org/weo*
- *World Energy Council, World Energy Scenarios Composing energy futures to 2050, Project Partner Paul Scherrer Institute (PSI), Switzerland*
- *Dünya Doğayı Koruma Vakfı, 2011 rapor özeti, Enerji Raporu 2050 yılında %100 Yenilenebilir Enerji*
- *Dünya Doğayı Koruma Vakfı – Türkiye, Enerji Verimliliği ve İklik Değişikliği 2011*
- *İklim Çözümleri: 2050 Türkiye Vizyonu, 2009, WWF-Türkiye (Doğal Hayatı Koruma Vakfı) İstanbul, Türkiye*
- *WWF International, '%100 Renewable Energy is Possible by 2050', Gland:2011*
- *B.Sertkaya, S.Baş, Yenilenebilir Enerji Kaynaklarının Önemi: Türkiye ve Azerbaycan'ın Dış Ticaret Yapısına Yönelik Karşılaştırmalı Bir Analiz, EUROASIA SUMMIT Congress on Scientific Researches and Recent Trends-7*
- *Yine Yeni Yeniden Yenilenebilir Enerji, 2010, WWF-Türkiye (Doğal Hayatı Koruma Vakfı) İstanbul, Türkiye*
- *Bayraktar, Y. & Kaya, H. İ. (2016). Yenilenebilir Enerji Politikaları ve Rüzgâr Enerjisi Açısından Bir Karşılaştırma: Çin, Almanya ve Türkiye Örneği . Uluslararası Ekonomik Araştırmalar Dergisi , 2 (4) , 1-18 . Retrieved from https://dergipark.org.tr/en/pub/ead/issue/48240/610678*
- *BP, Statistical Review of World Energy 2021, https://www.bp.com/en/global/corporate/energy-economics/statistical-review-of-world-energy.html*
- *Public policies to support the development of renewable energy in Romania: A review. (n.d.). ScienceDirect.com | Science, health and medical journals, full text articles and books.):*
- *Çelikkaya A (2017). Yenilenebilir Enerjinin Teşvikine Yönelik Uluslararası Kamu Politikaları Üzerine Bir İnceleme 1. Maliye Dergisi, 0(172), 52-84*
- *Avustralya Enerji Ajansı, https://arena.gov.au/what-is-renewable-energy/*
- *SETA, Siyaset Ekonomi ve Toplum Araştırmaları Vakfı, Karagöl, Kavaz, Dünyada ve Türkiye`de Yenilenebilir Enerji, 2017*
- *BloombergNEF; UNEP, FS-UNEP Collaborating Centre; ID 186807*
- *BP Dünya Enerjisinin İstatiksel İncelemesi 2021, 70. baskı*
- *BP Dünya Enerjisinin İstatiksel İncelemesi 2020*
- *Uluslararası Yenilenebilir Enerji Ajansı, https://www.irena.org/Statistics/View-Data-by-Topic/Finance-and-Investment/Renewable-Energy-Finance-Flows*
- *Azerbaycan Ulusal Strateji Yol Haritası, 2016, https://static.president.az/pdf/38542.pdf*
- *Azerbaycan Cumhuriyeti Enerji Bakanlığı, https://www.minenergy.gov.az/*
- *Azerbaycan İstatistik Kurumu, www.stat.gov.az*
- *UNEP (2015), Global Trends in Renewable Energy Investment 2015, http://www.fs-unep-centre.org*



## ÖZET

Son yıllarda iklim değişikliği sorunu, fosil enerji kaynaklarının tükenme kaygısı ve ülkelerin enerji güvenliği konuları dünya ülkelerine yenilenebilir enerji kaynaklarına odaklanmayı zorunlu hale getirmiştir. Azerbaycan önemli derecede petrol ve doğalgaz kaynaklarına sahip olsa da önümüzdeki 50 yıllık dönemde kaynakların tükenmeye doğru gitmesi bekleniyor. Bu tükenme ülkenin hem ihracata bağımlı olan ekonomisi hem de iç enerji güvenliği için oldukça büyük, üzerinde düşünülmesi gereken bir konudur. Bu sorunları hesaplayan Azerbaycan Hükümeti son 10 yıllık dönemde yenilenebilir enerjilerle ilgili önemli adımlar atmaya başlamıştır. Fakat gerekse ekonomik ve finansal sorunlar gerekse de insanların, işletmelerin yenilenebilir enerji konularında bilgisinin yetersiz olması bu alanda öncül ülkelerle kıyaslamada başarı kazanılmasına engel olmuştur. Bu nedenle araştırmamızda dünya ülkelerinde ve Azerbaycan`da yenilenebilir enerjilerin kullanım durumunu, bu enerjilerin kullanımına yönelik hangi politikaların uygulandığını, Azerbaycan`ın yenilenebilir enerjilerde (YEN) pozisyonunu nasıl ilerlete bileceğini araştırmayı hedefliyoruz. Bu araştırmamızda yenilenebilir enerjilerde önemli başarılar kazanmış ülkelerin deneyimlerinden faydalanmaya çalışmışızdır. Araştırmamızın sonucunda Azerbaycan`ın yenilenebilir enerji konusuna hem finansal hem politik hem de eğitimsel yöntemlerle destek verebileceği ve yenilenebilir enerji üretimi ve kullanımında önemli başarılar kazanabileceği tespit edilmiştir.


**Anahtar kelimeler:** *Yenilenebilir enerji, Azerbaycan`da yenilenebilir enerji kullanımı, Yenilenebilir enerjilerin teşviki.*

## RESUME


### USE OF RENEWABLE ENERGY IN THE WORLD AND IN AZERBAIJAN. POLICIES FOR THE PROMOTION OF RENEWABLE ENERGIES

In recent years, the problem of climate change, the concern of depletion of fossil energy resources and the energy security of countries have made it necessary for the countries of the world to focus on renewable energy sources. Although Azerbaijan has significant oil and natural gas resources, it is expected that the resources will go towards depletion in the next 50 years. This depletion is a very big issue for both the export-dependent economy of the country and its internal energy security, and it is an issue that needs to be considered. Calculating these problems, the Government of Azerbaijan has started to take important steps regarding renewable energies in the last 10 years. However, both the economic and financial problems and the insufficient knowledge of people and businesses on renewable energy have prevented success in comparison with the leading countries in this field. Therefore, in our research, we aim to investigate the use of renewable energies in the countries of the world and in Azerbaijan, what policies are applied for the use of these energies, and how Azerbaijan can improve its position in renewable energies. In this research, we have tried to benefit from the experiences of countries that have achieved significant success in renewable energies. As a result of our research, it has been determined that Azerbaijan can support the renewable energy issue both financially, politically and educationally and can achieve significant success in the production and use of renewable energy.


**Keywords:** *Renewable energy, Use of renewable energy in Azerbaijan, Promotion of renewable energies.*

# Tarix

UOT 94 (479.24)

# İRƏVAN ŞƏHƏRİNİN ƏHALİSİNİN ENTİK TƏRKİBİNDƏKİ MÜXTƏLİFLİK VƏ ONA TƏSİR EDƏN AMİLLƏR

**LALƏ ALLAHVERDİYEVA**
*AMEA A. A. Bakıxanov adına Tarix İnstitutu, doktorant*

*E-mail: allahverdiyevaL-95@mail.ru*

Irəvan Azərbaycanın qədim şəhərlərindən biridir. Qədim zamanlarda yaşayış məskəni kimi olmuş, Səfəvilər dövləti zamanından şəhər kimi formalaşmış, İrəvan qalasının əsası qoyulmuşdur. İrəvan şəhərinin qısa müddət ərzində inkişaf etməsində şəhərin əlverişli strateji mövqeyi mühüm təsir göstərmişdir. Belə ki, İpək yolunun üstündə yerləşdiyi üçün müsafirlər və tacirlər buradan keçirdi.

İlk vaxtlardan İrəvan şəhərində daimi yaşayan əhalininin böyük əksəriyyətini də Azərbaycan türkləri təşkil etmişdir. Eləcə də XVIII yüzillikdə İrəvan şəhərində yaşayan əhalinin təxminən ¾-ü Azərbaycan türkləri, ¼-i isə ermənilərdən ibarət olmuşdur. Məsələn, 1700-cü ilin yazında İrəvanda olmuş alman səyyahı Kaspari Şillinger də təsdiq edir ki, İrəvan şəhərində sayca və siyasi cəhətdən Azərbaycan türkləri tam üstünlük təşkil edirdi. O yazır: "İrəvan şəhərinin daxilində Azərbaycan türkləri, şəhərin nisbətən iri qəsəbəsində və müxtəlif yerlərdə kilsəyə xidmət üçün erməni tacir və sənətkarları yaşayır. Onlar Azərbaycan türklərinə vergi verirlər"(5, səh.29). Və ya "Qədim İrəvan" kitabında İrəvan əhalisindən bəhs edən Y. Şahəziz 1673-cü ildə İrəvanda olan Fransız səyyahı Şardenin İrəvan qalasında yaşayan əhali haqda məlumatını təsdiq edir və əlavə olaraq qeyd edir ki, ermənilərin orada yalnız dükanları var idi və onlar orada gündüzlər alver edir, axşamlar isə dükanlarını bağlayıb evlərinə gedirdilər. Faktlardan da göründüyü kimi İrəvanda ermənilər yerli əhali olmadıqları üçün daimi məskən sala bilməmişlər, yalnız ticarət və missionerlik fəaliyyəti ilə məşğul olmuşlar. Bunlara əsasən həm də demək olar ki, İrəvan şəhərində əhalinin əksəriyyətini təşkil edən yerli Azərbaycan türkləri siyasi hakimiyyətə də tam sahib olmaqla həm şəhərin, həm də xanlığın idarəsində mühüm yer tutmuşlar.

Ermənilərin Azərbaycan torpaqlarında ortaya çıxması 1441-ci ildə Erməni katalikosluğunun Kilikiyadan Azərbaycan Qaraqoyunlu dövlətinin torpaqlarına, yəni Üçkilsəyə köçürülməsindən sonra başlamışdır. Matenadaranda tapılan 1687-ci il tarixli bir sənəddə belə göstərilir " biz, yəni ermənilər azərbaycan türklərinə aid torpaqları ya satın alırıq, ya zəbt edirik, ya sahibinin əlindən qəsb edir, ya rüşvət verib alırıq, ya da bəxşiş olaraq əldə edirik". Üçkilsə katalikosluğunun və onların Avropadakı dəstəkçilərinin də köməyi ilə İrəvanda ermənilərin məskunlaşdırılması siyasəti aparılmışdır (5, səh.41). Ümumiyyətlə, bu ərazilərdə əvvəllər ermənilər yaşamamışdılar. Müxtəlif səbəblərdən Çuxursəd vilayətinə (İrəvan bölgəsinə) ermənilər köçürülmüşdü ki, onların da başında XVI-XVII, XVIII əsrlərdə olmuş Səfəvi-Osmanlı müharibələri dayanırdı. Belə ki, müharibələr nəticəsində əhali qırılıb azalmış, öz yerlərini tərk etmişlər. Ona görə də bu ərazilərdə ermənilər məskunlaşdırılmışdır.

Müstəqil xanlığın mərkəzi olduqdan sonra İrəvan şəhəri daha da inkişaf etmiş böyük ticarət və sənətkarlıq mərkəzinə çevrilmişdi. İrəvan şəhəri şimaldan Qırxbulaq, qərbdən və cənubdan Zəngibasar mahalları ilə, şərqdən isə onu Qərbibasar (Körpübasar) mahalından ayıran Oxçuberd dağının daşlı pillələri ilə həmsərhəd idi. İrəvan şəhəri onu əhatə edən bağlarla birgə geniş ərazini əhatə edirdi. Onun sahəsi 28 verstə bərabər idi. Lakin Cənubi Qafqazda baş verən proeslər İrəvan şəhərindən də yan keçmədi (9, səh.22), (4,səh.90-91), (12, səh.463-464).

XVIII əsrin əvvəllərində baş verən Səfəvi-Osmanlı müharibələri sonda İstanbul müqaviləsi ilə başa çatdı. Müqaviləyə əsasən də Azərbaycanın qərb əraziləri Səfəvilərin, Xəzərboyu ərazilər isə Rusiyanın təsir sairəsinə keçdi. Bundan sonra 1724-cü ilin yazından fəaliyyətini genişləndirən Osmanlı dövləti iyunun axırlarında Araz çayını keçərək İrəvan şəhərini mühasirəyə aldı. Osmanlı qoşunu 3 dəfə şəhərə güclü hücuma keçdi. Lakin şəhərdə

yerləşən qoşun hissələri mülki əhalinin köməyi ilə bu hücumları dəf etdi. Nəticədə hər iki tərəfdən ölən və yaralanan oldu. İş o yerə çatmışdı ki, ölənlərin havanı zəhərlədiyinə görə onları dəfn etmək üçün 3 gün barışıq elan olunmuşdu (2, səh.61). Bunların nəticəsində də İrəvan şəhəri və onun ətraf kəndləri güclü dağıntılara məruz qalmış, çoxlu insan tələfatı olmuşdu. Bundan əlavə, Osmanlı üsuli-darəsi ilə barışmayan əhalinin xeyli hissəsi vətənlərini tərk edərək Səfəvi dövlətinin hakimiyyəti altında olan digər ərazilərə köçmüşdülər. Buna görə də İrəvan şəhərində əhalinin sayı azalmışdır.

Hər nə qədər müxtəlif səbəblərdən əhalinin sayında müəyyən dəyişikliklər olsa da, yenə də İrəvan şəhərinin etnik tərkibinin əsas hissəsini Azərbaycan türkləri təşkil etmişdir. Məsələn, XVIII yüzilliyin əvvəllərinə aid – 1728-ci ildə tərtib edilmiş “İrəvan əyalətinin icmal dəftəri”nə görə, İrəvan şəhərində 428 Azərbaycan türkü, 224 xristian ailəsi və 9 subay xristian qeydə alınmışdı. Şəhər əhalisi bütün əyalət əhalisinin 4, 7 % – ni təşkil edirdi. Hər ailə 5 nəfərdən hesablanarsa, İrəvan şəhər əhalisi təxminən 3269 nəfərə bərabər idi. Şəhərdə yaşayan əhalinin 63, 5 %-ini Azərbaycan türkləri, 36, 5 %-ini isə xristianlar təşkil edirdi. Xristian əhalinin isə 14, 9%-i qaraçıların, 21, 6%-i isə ermənilərin payına düşürdü. Ümumiyyətlə, mənbələrin araşdırılmasından belə nəticəyə gəlmək olur ki, İrəvan şəhər əhalisinin say və etnik tərkibi müharibələrlə və təbii fəlakətlə əlaqədar olaraq bir neçə dəfə kəskin surətdə azalsa da, əlverişli cografi mövqedə yerləşdiyinə görə onun əhalisi sonradan yenidən sürətlə artmışdı (1, səh.392).

İrəvan şəhəri müstəqil İrəvan xanlığının mərkəzi olduqdan sonra əhalinin sayı daha da artmışdı. Kərim xan Zəndin dövründə (1759-1779) İrəvan şəhərində əhalinin sayı 20.000 nəfərə çatırdı. Sonrakı dövrlərdə İrəvan şəhəri tez-tez müdaxilələrə məruz qaldığından burada əhalinin sayı kəskin surətdə aşağı düşmüşdü. İşğaldan əvvəl şəhər əhalisinin sayı 2.400 ailədən və yaxud 12.000 nəfərdən ibarət olmuşdu. Lakin işğal nəticəsində şəhər güclü dağıntıya məruz qaldığından burada 2374 ailə və yaxud 9700 adam qeydə alınmışdı. Bunlardan 1807-si Azərbaycan türkü, 521-i erməni və 46-sı isə qaraçı ailəsi idi. Bu ailələrdən 802-si İrəvan şəhərinin “Şəhər”, 594-ü “Təpəbaşı”, 411-i isə “Dəmirbulaq” məhəllələrində yaşayırdılar. Azərbaycan türklərinin sayı 7331 nəfərdən ibarət olmuşdu. Bunlardan 3749-u kişi, 3582-si qadın cinsinə məxsus olmuşdu. Erməni ailələrindən 244-ü “Şəhər”, 277-i isə “Təpəbaşı” məhəllələrində qeydə alınmışdı. Bu ailələrin tərkibi 1119 kişidən, 1055-i isə qadından ibarət idi. İrəvan şəhərində sayı 195 nəfərdən ibarət olan 46-ı qaraçı ailəsi yalnız “Təpəbaşı” məhəlləsində yaşamışdı (1, səh.403).

İrəvan şəhərində əhalinin say tərkibinin əsaslı dəyişməsi 1828-ci il Türkmənçay müqaviləsi və 1829-cu ildə bağlanan Ədirnə müqavilələrindən sonra baş vermişdir. İşğaldan sonra ermənilərin kütləvi surətdə İrəvana və Azərbaycanın digər ərazilərinə köçürülməsi və yerləşdirilməsi İrəvan şəhərinin də demoqrafik durumuna güclü təsir göstərmişdi. N.N. Şavrov yazırdı: “Biz müstəmləkəçilik fəaliyyətinə Cənubi Qafqazda rus əhalisinin deyil, bizə yad olan xalqların yerləşdirilməsindən başladıq... Sonra 1826-1828-ci illər müharibəsindən keçən iki il ərzində, 1828-ci ildən 1830-cu ilə kimi biz Cənubi Qafqaza İrandan 40 mindən çox, Türkiyədən isə 84 min erməni köçürmüş və onları erməni əhalisinin azlıq təşkil etdiyi Yelizavetpol və İrəvan quberniyalarının ən yaxşı xəzinə torpaqlarında... yerləşdirmişik” (1, səh.396). İ.Şopenə görə, 1826-cı ildə İrəvanda Azərbaycan türkləri 76%, ermənilər 24% idisə, əsrin sonunda İrəvanda Azərbaycan türkləri azalaraq 37.5%, ermənilər isə çoxalaraq 56% olmuşdur (6, səh.96). 1829-1832-ci illərdə aparılmış kameral siyahıyaalmaya görə, İrəvan şəhərində xanlıq dövründə 2400 evin olduğu, işğaldan sonra isə 1736 evin qaldığı göstərilmişdi. Bu evlərdən 792-si “Şəhər” , 622-si “Təpəbaşı”, 322-si isə “Dəmirbulaq” məhəllələrində yerləşirdi. Müharibə nəticəsində İrəvan şəhəri böyük dağıntılara məruz qalmış, məhəllələrdə çoxsaylı boş qalmış yerlər qeydə alınmışdı. Belə ki, “Şəhər” məhəlləsində Abbas dərə və Köşəli, “Təpəbaşı” məhəlləsində Abuhəyat, Qızılqala, Dərəbağ, Dərəkənd, Dəlmə, Yenikənd, “Dəmirbulaq”da isə Xosrovabad və Səbziyeri yaşayış yerləri əhalisiz qalmışdı. Lakin 1849-cu ildə İrəvan şəhəri quberniya mərkəzi olduqdan sonra burada 3 min ev qeydə alınmışdı (1, səh.310-311). İşğaldan əvvəl İrəvan şəhərində təxminən 15.000 nəfər türk və 3 minə yaxın erməni yaşamış və əhalinin 84 faizə yaxını türk olmuşdur (3, səh.40). İşğaldan sonra xanlığın digər ərazilərində olduğu kimi, İrəvan şəhərində də Cənubi Azərbaycandan və Osmanlı ərazisindən xeyli erməni əhalisi gətirilib yerləşdirilmişdi. 1831-ci il kameral siyahıyaalmaya

görə, bu şəhərdə Cənubi Azərbaycandan 366, Osmanlı ərazisindən isə 11 köçkün erməni ailəsi yaşayırdı. Onlar əsasən şəhərin mərkəzi hissəsində yerləşdirilmişdi. Yəni indi İrəvan şəhərində yaşayan 11.463 nəfər ümumi əhalinin 64 faizi türklər idi. Cənubi Azərbaycandan köçürülmüş 231 erməni ailəsi İrəvan şəhərinin "Şəhər", 87-si "Təpəbaşı", 48-i isə həmin vaxta qədər heç bir erməni ailəsinin yaşamadığı "Dəmirbulaq" məhəllələrində, Osmanlı ərazisindən köçürülmüş 8 ailə "Şəhər", 3-ü isə "Təpəbaşı" məhəllələrində yaşayırdılar (1, səh.404). 300-dən çox sənətkar erməni ailəsi İrəvanda yerli şəhərlilərin yəni Azərbaycan türklərinin evlərində yerləşdirilmişdi. 1834-cü ilin kameral təsvirinə görə İrəvan şəhəri və ətrafında yaşayan 2.750 ailənin 65,7% -i tatar (türk), 32,6%-i erməni, 1,4%-i boşa (qaraçı) olmuşdur. 19-cu əsrin 90-cı illərində İrəvan şəhərində 7.228 nəfər tatar (türk), 313 rus, 7.142 erməni və digər millətlərdən 55 nəfər yaşayırdı (3, səh.40). İrəvan şəhərinə aid kameral siyahıyaalmada adları göstərilən şəxslərin hacı, kərbalayi, məşədi titulları daşıması əhalisinin əksəriyyətinin türklər təşkil etməsini və dindar olduqlarını göstərir. Ümumilikdə İrəvan şəhərinin əhalisinin say tərkibi 1831-ci il siyahiyaalmasına görə aşağıdakı kimi olmuşdur:

Tatarlar ( yəni müsəlmanlar): Şəhər hissəsi 802 ailə, 1.627 kişi, 1.527 qadın, cəmi 3.199 nəfər; Təpəbaşı hissəsi 594 ailə, 1.333 kişi, 1.264 qadın, cəmi 2.537 nəfər; Dəmirbulaq hissəsi 411 ailə, 789 kişi, 806 qadın, cəmi 1.595 nəfər. Cəmi 1.807 ailə, 3.749 kişi, 3.582 qadın, 7.331 nəfər.

Ermənilər: Şəhər hissəsi 244 ailə, 530 kişi, 468 qadın, cəmi 998 nəfər; Təpəbaşı hissəsi 277 ailə, 589 kişi, 587 qadın, cəmi 1.176 nəfər. Cəmi 521 ailə, 1.119 kişi, 1.055 qadın, 2.174 nəfər;

Boşalar( yəni qaraçılar): Təpəbaşı hissəsi 46 ailə, 101 kişi, 94 qadın, cəmi 195 nəfər

İrandan köçürülən ermənilər: Şəhər hissəsi 231 ailə, 598 kişi, 513 qadın, cəmi 1.111 nəfər; Təpəbaşı hissəsi 87 ailə, 187 kişi, 187 qadın, cəmi 374 nəfər; Dəmirbulaq hissəsi 48 ailə, 118 kişi, 112 qadın, cəmi 230 nəfər; Cəmi 366 ailə, 903 kişi, 812 qadın, 1.715 nəfər

Türkiyədən köçürülən ermənilər: Şəhər hissəsi 8 ailə, 14 kişi, 16 qadın, cəmi 30 nəfər; Təpəbaşı hissəsi 3 ailə, 11 kişi, 7 qadın, cəmi 18 nəfər; Cəmi 11 ailə, 25 kişi, 23 qadın, 48 nəfər.

Şəhər hissəsindəki bütün əhali: 1.285 ailə, 2.769 kişi, 2.569 qadın, cəmi 5.398 nəfər;

Təpəbaşı hissəsindəki bütün əhali: 1.007 ailə, 2.221 kişi, 2.079 qadın, cəmi 4.300 nəfər;

Dəmirbulaq hissəsindəki bütün əhali: 459 ailə, 907 kişi, 918 qadın, cəmi 1.825 nəfər

Bütün İrəvan şəhəri üzrə əhali: Cəmi 2.751 ailə, 5.897 kişi, 5.566 qadın, 11.463 nəfər (3, səh. 58-59)

Rusiya işğalına qədər İrəvan qalasında 800 ev var idi, ancaq işğal zamanı onların böyük hissəsi dağıdılmışdı. İrəvan qalasının ətrafında – bayır şəhərdə isə 1736 ev var idi və bunların əksəriyyəti palçıqdan tikilmişdi. 1834-cü ilin kameral təsvirinə görə İrəvan şəhərinin ətrafında yaşayan 2750 ailənin 65,7% tatar, 32,6% erməni, 1,4% boşa idi. Həmin kameral təsvirə görə İrəvan əyalətində yaşayan 22336 ailənin 45,5% tatarlardan, 15,8% rus işğalından əvvəl köçürülən ermənilərdən və 37,1% İran və Osmanlı dövlətindən köçürülən ermənilərdən, 1,5% Bəyazid paşalığından buraya köçən yezidi kürdləri və az hissəsi boşa adlanan qaraçılardan ibarət idi (7, səh.24).

Əgər 1829-cu ildə İrəvan şəhərində Tatar (Azərbaycan Türkləri) ailələrin sayı 1807 (7331 nəfər), erməni ailələr 994 (4132 nəfər) idisə, artıq 1880-ci ildə şəhərdə 1318 (6293 nəfər) Tatar, 9509 (5975 nəfər) erməni, 46 (115 nəfər) Rus, 7 (26 nəfər) gürcü ailəsi qeydə alınmışdır. Buradan aydın görünür ki, 50 il boyunca şəhərdə xristianların nüfuzu, ermənilərin məqsədli bir dövlət siyasəti ilə buraya yerləşdirilməsi nəticəsində 8568 ailə artmış, Azərbaycan türklərnin sayısı isə 489 ailə azalmışdır. Bu da Azərbaycan türklərinə ya da başqa bir ifadə ilə müsəlmanlara qarşı Çar Rusiyası tərəfindən həyata keçirilən məqsədli assimilyasiyanın nəticəsidir (5, səh.48).

İrəvanın türk müsəlman şəhəri olmasını, əhalisinin böyük əksəriyyətini Azərbaycan türkləri təşkil etməsini həm də İrəvan şəhərində olan məscid və mədrəsələr, ordakı təhsil sistemidə bir daha sübut edir. İrəvan şəhərində yaşayış evlərindən başqa çoxsaylı ictimai binalar və məscidlər də vardı. Kameral siyahıyaalmaya görə, bu şəhərdə ikisi qalada, altısı isə şəhərdə olmaqla səkkiz iri məscid qeydə alınmışdı. Məscidlərin içərisində möhtəşəmliyinə görə, Hüseynəli xan məscidi və yaxud Göy məscid daha məşhur idi. Gümbəzi göy rəngli kaşı ilə bəzədildiyi üçün Göy məscid adlanan bu məscid İrəvan şəhərinin qərb hissəsində, hər tərəfdən Azərbaycan türklərinin yaşadığı

evlərin əhatəsində yerləşmişdi. Məscid memarlıq baxımından, böyüklüyünə və bəzəyinə görə insanı valeh edirdi. İrəvanın Göy məscidi Gəncədəki Şah Abbas və Təbrizdəki Göy məscid üslubunda tikilmişdi.

İrəvan şəhərində əhalinin milli tərkibindəki müxtəlifliyi şəhərdə yaşayan əhalinin ödədiyi vergilərin növləri haqqında bəhs etdikdə də görmək olar. Belə ki, İrəvan xanlığında həm pulla həm də məhsulla ödənilən bilavasitə (birbaşa xəzinəyə ödənilən) və bilvasitə (dolayı ödənilən) vergilər vardı. Bu vergilər cəmiyyətlər üzrə alınırdı. Bu vergini verən yerli əhali müxtəlif sosial təbəqələri əhatə edir və səkkiz icmada birləşirdi. Bunlardan birinci icmaya da İrəvan şəhər əhalisinin ödədiyi vergi daxil idi. Bu icma da özlüyündə beş müxtəlif qola ayrılırdı: a) Müsəlman icması-1200 tümən; Qızılqala əhalisi-54 tümən 5 minaltun; b) Erməni icması – Məlik Saakın tabeçiliyində olan icma-400 tümən; yüzbaşı Parseq Keğamovun tabeçiliyində olan icma isə 40 tümən; c) Qaraçılar – 30 tümən (1,səh.347).

Faktlardan da göründüyü kimi, İrəvan şəhərində əhali artımı təbii yolla ve mexaniki yolla olmuşdur. İrəvan əhalisinin yavaş artım tempi, digər səbəblərlə yanaşı, zəif iqtisadi inkişafının nəticəsi idi. XIX əsrin 50 ili ərzində şəhər əhalisi cəmi 986 nəfər artdı, orta illik artım yalnız 0.1% idi. Bunun səbəbi məhsuldar qüvvələrin inkişaf templərinin zəif olması və təbii artımın aşağı olması ilə əlaqəli olmuşdur. Miqrasiya prosesi, yəni əhalinin iqtisadi cəhətdən daha inkişaf etmiş mərkəzlərə axını da əhəmiyyətli təsir göstərmişdir. Məsələn, 1827-ci ildə İrəvanda 2400 ailənin, cəmi 12 min nəfər insanın yaşadığını göstərdiyi halda, bildirməliyik ki, Rusiya tərəfindən işğaldan sonra onların bir hissəsi İrana və Türkiyəyə köçmək məcburiyyətində qaldılar. Mühacirətə gedənlərin evləri və əmlakları həmin ölkələrdən gələnlər tərəfindən zəbt olundu. Nəticədə İrəvandakı azərbaycanlıların sayı 1807 ailə, 7331 nəfər azaldığı halda, ermənilərin sayı 567 ailə, 2379 nəfər artdı. Bütün bunlara baxmayaraq, hələ də dörd xan ailəsi, 41 bəy və sultan müqabilində, cəmi 8 erməni məliki və ağası orada yaşayırdı. 50 ruhani müqabilində isə, 19 nəfər keşiş var idi. (11,səh. 89-90) ( 12, səh.468).

Bütün bu siyasətin kökündə Azərbaycan türklərini məhv etmək, onların ərazisini mənimsəmək və dünyaya səpələnmiş erməniləri bir ərazidə cəmləşdirmək dayanırdı. Məsələn, 1906-cı ildə İrəvan əhalisi 30.670, 1910 - 32.369, 1912 - 36.836 nəfər idi. Bu ermənilərin axını ilə əlaqədar idi. 1902-ci ildə Osmanlı İmperiyasından gələn erməni qaçqınları İrəvanda 3.896 nəfər idi. Sonrakı illərdə erməni əhalisinin Suriyadan İrəvana axını davam etdi və Birinci Dünya Müharibəsi dövründə maksimuma çatdı. Və nəticədə Cənubi Qafqazda yeni bir dövlət-Ermənistan yaradıldı. Müxtəlif dövrlərdə Çuxursəd vilayətinin mərkəzi, İrəvan xanlığı, İrəvan vilayəti olmuş İrəvan şəhəri də, nəhayət, 1918-ci ildən Ermənistan Respublikasının paytaxtına çevrildi. 1918-1920-ci illərdə daşnak hökumətinin hakimiyyəti dövründə İrəvan şəhərində azərbaycanlılara qarşı əsl soyqırımı törədilmişdi. Şəhərdə tək-tük azərbaycanlı qalmışdı. Ermənistanda sovet hakimiyyəti qurulduqdan sonra azərbaycanlıların az bir qismi öz evlərinə qayıda bilmişdi. 1922-ci ildə İrəvanda cəmisi 5.124 azərbaycanlı yaşadığı halda, ermənilərin sayı 40.396 nəfərə çatmışdı. İrəvan şəhərində 1926-cı ildə 4.968 nəfər azərbaycanlı, 57.295 nəfər erməni, 1931-ci ildə 5.620 nəfər azərbaycanlı, 80.327 nəfər erməni yaşayırdı (7, səh.36). Bütün yuxarıda qeyd edilənlərdən belə nəticə hasil olur ki, azərbaycanlılar XIX əsrin əvvəllərində İrəvan şəhərinin əhalisinin 80 faizini, həmin əsrin sonunda təqribən yarısını təşkil etdiyi halda, XX əsr boyunca həyata keçirilən etnik təmizləmə nəticəsində 80-ci illərin sonlarında İrəvanda bir nəfər də olsun azərbaycanlı qalmamışdır.

## NƏTİCƏ

Bütün tarixi dövrlərdə İrəvan şəhəri həmişə Azərbaycana məxsus olmuş, əhalisini Azərbaycan türkləri təşkil etmişdir. Azərbaycan xalqının formalaşmasında iştirak etmiş bütün türk tayfaları burda özlərinə məxsus izlər qoymuşlar. Türkmənçay və Ədirnə müqavilələrindən sonra bölgəyə erməni əhalisinin köçürülməsi nəticəsində İrəvan şəhərinin də etnik mənzərəsində dəyişiklik oldu. Çar Rusiyasının həyata keçirdiyi sosial siyasətin nəticəsində İrəvan şəhərində müsəlman türklərin sayı zamanla azalmağa başlamışdır. XX əsrin əvvəllərindən isə şəhərdə demək olar ki, azərbaycanlı əhali qalmamışdır.

**Açar sözlər:** *İrəvan şəhəri, Rusiya, Osmanlı, türklər, azərbaycanlılar, ermənilər, əhali*

**ƏDƏBİYYAT SİYAHISI**

*1. Qarayev E.T., "Azərbaycanın İrəvan bölgəsinin tarixindən (XVII yüzilliyin sonu–XIX yüzilliyin ortalarında)" Bakı 2016, 544 səh.*

*2. Qarayev E.T., "Azərbaycan XVIII əsr rus və Qərbi Avropa səyyahlarının təsvirində" Bakı, 2005,160 səh.*

*3. Əhmədli N. İrəvan əyalətinin kameral təsviri. I cild. İrəvan şəhərinin Kameral təsviri. Bakı, 2018, 328 səh.*

*4. " İrəvan xanlığı" Mahmudov Y.M. redaktorluğu ilə, Bakı 2010, 463 səh.*

*5. Məmmədova İ.M., "İrevan hanlığının nüfusu ( Səyyahların məlumatları, sosial,dini, iqtisadi vəziyyəti,məşğuliyyətləri, İrəvan xanlığının sosial vəziyyəti, ermənilərin xanlığa köçürülməsi)". "Akademik Tarix və Düşüncə Jurnalı" may 2017, 4 cild, №11, s. 25-57*

*6. Məmmədova İ.M., "XIX əsrin 80-90-cı illərində Qarsda daxil olmaqla Cənubi Qafqazın etnoqrafik xəritəsi" İnsan və Sosial Elmlər Araşdırmaları Jurnalı 2012, 1 cild, № 2, s. 87-99*

*7. Məmmədova İ.M., "İrəvan xanlığının əhalisi" Bakı, 2017, 56 səh.*

*8. Mustafa N.Y., "İrəvan şəhəri", Bakı 2020, 292 səh.*

*9. Mustafa N.Y., "Milli tariximizin İrəvan səhifələri haqqında həqiqətlər", "Xalq qəzeti" 6 avqust 2013, №171, s.3*

*10. Nəcəfli G.T., "İəvan xanlığının paytaxtı-İrəvan şəhəri", Bakı 2017, 40 səh.*

*11. Səməd Sərdariniya, "İrəvan müsəlman sakinli vilayət olmuşdur", Bakı 2014, 202 səh.*

*12. Шопен И. Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи. «В типографии Императорской Аккадемии Наук», Санкпетербург 1852. 1236 с.*


**SUMMARY**


**Differences in the etnic structure of the population of Iravan and the factors affecting it**

In all historical periods, the city of Yerevan has always belonged to Azerbaijan, and its population was Azerbaijani Turks. All the Turkic tribes that took part in the formation of the Azerbaijani people have left their mark here. As a result of the resettlement of the Armenian population in the region after the Turkmenchay and Edirne agreements, the ethnic landscape of the city of Yerevan also changed. As a result of the social policy performed by Tsarist Russia, the number of Muslim Turks in the city of Yerevan began to decline over time. Since the beginning of the 20th century, there has been almost no Azerbaijani population left in the city.



**Keywords:** *Iravan, Russia, Ottomans, Turks, Azerbaijanis, Armenians, population*


**РЕЗЮМЕ**


**Этническое разнообразие населения Иревана и факторы влияющие на него.**

Во все исторические периоды город Иреван всегда принадлежал Азербайджану, а его население составляли азербайджанские турки. Тюркские племена, принимавшие участие в формировании азербайджанского народа, оставили здесь свой глубокий след. После заключения Туркменчайского и Адрианопольского договоров, переселение в этот регион армянского населения полностью изменило этническую панораму Иревана.

В результате социальной политики, проводимой царской Россией, количество турок-мусульман в Иреване со временем стало сокращаться. С начала XX века в городе почти не осталось азербайджанского населения.



**Ключевые слова:** *Ереван, Россия, Османы, Турки, азербайджанцы, армяне, население.*

UOT 94(479.24)

# AZƏRBAYCANDA MULTİKULTURALİZM

**HƏCƏR ƏHMƏDOVA**
*Bakı Dövlət Universiteti,*
*Tarix fakültəsinin doktorantı*

*E-mail: hecerehmed95@gmail.com*

Multikulturalizm bir anlayış olaraq 1960-cı illərin sonunda Kanadada meydana gəlsə də, multikultural ideyalar və tolerantlıq əsrlər boyu Azərbaycan xalqının milli-mənəvi dəyərlərində kök salmış və nəsildən-nəslə keçərək günümüzədək gəlib çatmışdır. Azərbaycan şifahi və yazılı ədəbiyyatı multikultural ideyalarla zəngindir. Azərbaycan xalqının dildən-dilə dolaşan əfsanələrində, miflərdə, rəvayətlərdə, nağıllarda insanpərvərlik, vətənpərvərlik, tolerantlıq, humanizm, yaxşı niyyət, saflıq, ədalətli cəmiyyət, bərabərlik tərənnüm olunur.

Orta əsrlər Azərbaycan poetik məktəbinin nümayəndələrinin əsərlərində ümumbəşəri dəyərlərin təbliği məsələsi başlıca yerlərdən birini tutur. Söz sərrafı olan və bədii yaradıcılığın ən gözəl nümunələrini yaradan Nizami Gəncəvinin əsərlərin bu cəhətdən xüsusilə fərqlənir. Onun yaradıcılığına əsasən deyə bilərik ki, şairin yaradıcılığında multikultural və tolerantlıq elementlərinə rast gəlmək mümkündür. (1, səh 3)

Qeyd edək ki, Nizami Gəncəvi üçün şəxsiyyətin ən yüksək meyarı insanlıq idi. İrqi, milli və dini ayrı-seçkiliyi qətiyyətlə rədd edən bu şairin qəhrəmanları içərisində türk, fars, ərəb, çinli, hindli, zənci, yunan, gürcü və s. xalqların nümayəndələrinə rast gəlirik. Hümanist şair müxtəlif dinlərə mənsub bu qəhrəmanların heç birinin milliyətinə, dini görüşlərinə qarşı çıxmır. Onun qəhrəmanları ədalət, xalq xöşbəxtliyi, yüksək məqsədlər uğrunda mübarizə aparırlar. İnsan şəxsiyyətinə, insan əməyinə ehtiram şairin yaradıcılığının aparıcı mövzularındandır. Nizami təsvir etdiyi ideal cəmiyyətdə din və etiqad haqqında təliminin mahiyyətini oradakı insanların düşüncələri ilə verir.

*Bizdə bərabərdir hamının varı,*
*Bərabər bölərik bütün malları.*
*Bizdə artıq deyil heç kəsdən heç kəs,*
*Bizdə ağlayana heç kimsə gülməz...*
*Birini qəzəbli, acıqlı görsək,*
*Ona məsləhətlə eylərik kömək.*
*Qızıla, gümüşə aldanmaz heç kəs,*
*Onlar bizim yerdə bir şeyə dəyməz.*

Humanist şair müxtəlif dinlərə mənsub bu qəhrəmanların heç birinin milliyətinə, dini görüşlərinə qarşı çıxmır, fərqli fikir və mədəniyyətlərə göstərilən hörmətlə yanaşır. Nizami vahid din ideyasını irəli sürməklə xalqlar, millətlər, milli etnik qruplar, tayfalar arasında mövcud olan münaqişələrə son qoymaq istəyir. Nizami xalqların adını çəkərək də onların mənsubiyyətinə hörmətlə yanaşır. O qara dərili zəncini açıq qəlbə və möhkəm xüsusiyyətə malik olduğunu qeyd edərək irqi mənsubiyyəti əsasında insana qiymət verməkdən çəkindirir:

*Zəncinin zahiri qaradır, ancaq,*
*Sən ağzından çıxan saf sözlərə bax.*
*Zənci dəmir kimi qara, parlaqdır,*
*Üzü qaradırsa, ürəyi ağdır!*

Zərdüştlik, Musəvilik və Xristian dinləri və onlara dair işarətlər, atributlar xoş niyyətlə xatırlanır:

*Ey müsəlman, öyünmə, atəşpərəst deyilsən,*
*Bir günəşin eşqindən zərrəcə məst deyilsən.*
*Kaş ki, hindli möbidtək dərk edəsən dünyanı.*
*Bu dünyaya uymadan tərk edəsən dünyanı*

Nizami Gəncəvi insanlığa səadət və xoşbəxtlik, dinclik və əmin-amanlıq gətirən bir quruluş arzulayır və ideal hökmdarın belə bir quruluş yarada biləcəyini düşünürdü. Əsərdə ilk dəfə olaraq utopik cəmiyyət təsvir edilmişdir. Şairin xəyali ölkəsində insanlar firavan həyat sürür, halal zəhmətləri ilə yaşayırlar, hamının da hüquqları bərabərdir. Bu ölkədə sürülər çobansız, evlər qıfılsız, bağlar gözətçisizdir. Nizaminin təqdimində İsgəndər ədalətli hakim, mütəfəkkir alim, humanist-mötəqid

şəxsiyyət və rəşadətli qəhrəmandır. Nizaminin İsgəndəri yalnız öz vətəninin ədalətli hökmdarı deyil, ümumbəşəriyyətin səadəti haqqında düşünən, bütün insanlar üçün gözəl həyat arzulayan və bu arzular uğrunda mübarizə aparan bir dövlət başçısıdır. Şairə görə: Bəşəriyyəti əsl səadətlə yeganə hakimi həqiqət olan, düz ilqar, düz inam əsasında qurulmuş cəmiyyət təmin edə bilər. İnsanlığın şərəfini biliyi sevməkdə, fərdin səadətini cəmiyyət üçün çalışmaqda görən, hissənin mənafeyini tamın salamatlığında axtaran şair dövləti ictimai ədalət qurmağa borclu bir varlıq kimi qəbul edir. "Sirlər xəzinəsi" poemasından aşağıdakı beytlərə diqqət yetirək:

*Zülmkarlıq dağıdar, bərbad eylər ölkəni,*
*Ədalət səadətlə abad eylər ölkəni*
*Bu dünyanın nəbzini kim tutsa İsa kimi*
*İnsafı, mürvətiylə olar dünya hakimi.*
*Dünyaya fateh olmaz zülmkarlıq, rəzalət,*
*Yer üzünün fatehi ədalətdir, ədalət!*
*Ədalətin - müjdəçi, bu dünyanı şad eylər,*
*Ədalətin işidir, - ölkəni abad eylər.*
*Məmləkətin dayağı ədalətdir hər zaman,*
*Ədalətlə nəsibin səadətdir hər zaman* (1,səh 8)

Orta yüzilliklərdə islam aləmində, o cümlədən Azərbaycanda geniş yayılmış dini cərəyanlardan biri ideya-nəzəri baxımdan zəngin, eləcə də ritual və ayinlərin çoxluğu və rəngarəngliyi ilə diqqəti çəkən sufizm mühüm əhəmiyyət kəsb edirdi. Sufililər başqa dindən olanlara, digər dini inanclara hörmət bəsləyir, hətta başqa dindən olanları öz aralarına almaqdan belə çəkinmirdilər. Onlar deyirdilər ki, "nə qədər insan varsa, haqqa da o qədər yol var" Böyük sufi bilim adamı İbn Ərəbi deyirdi: “Mənim könlüm istənilən formanı götürməyə başlayıb: o həm cüyürlər üçün otlaq, həm xristianlar üçün monastır, bütpərəstlər üçünsə məbəddir. O təvat edənlər üçün Kəbə, Tövratın, Quranın səhifələridir”. Bütün dinləri bir arada görən Mövlana isə deyirdi: “...kafirsən, müsəlmansan, bütpərəstsən, hətta din düşmənisənsə, bizim ümid qapımız sənin üzünə açıqdır, gəl”, “...ayrılıq gediş tərzindədir, yolun həqiqətində deyil”. Hətta İstanbul civarından bir nəfər keşiş onun müridi olmuşdu. Şəms Təbrizli isə bildirirdi: “Mən kafirəm, sən müsəlmansan. Müsəlman kafirin içində amma. Aləmdə kafir hanı? Göstər, səcdə edim ona.

Azərbaycan maarifçilərinin yaradıcılığında da multikultural və tolerantlıq ideyalarına rast gəlmək mümkündür. Azərbaycan maarifçiliyi – bir-birindən fərqli iki mədəniyyətin toqquşması nəticəsində yaranan ictimai-mədəni dirçəlişdir. Bu maarifçilik bir çox cəhətlərə görə bir-birindən fərqlənən mədəniyyətlərin, ənənələrin, mentallığın qızğın mübarizəsi mühitində inkişaf etmişdir. O, Şərqlə Qərbin dialoq və görüş formalarından biridir. Azərbaycan tarixi boyu bir neçə sivilizasiyaların toqquşması nəticəsində bir çox dirçəliş mərhələləri yaşamışdır. Maarifçilik həmişə və hər yerdə milli intibahın, milli özünüdərkin, istisnasız bütün sahələrdə və çağdaş mənada etnik mentalitetin, ədəbi dilin və realist milli ədəbiyyatın ən qəti təşəkkülü dövrünün ideoloji hadisəsi kimi yaranır, bütünlükdə xalqın tarixi taleyi ilə bağlı məsələlər qaldırır və onları xalq, millət miqyasında da həll edir. M.F.Axundov xalqın iqtisadi-mədəni həyatda mövcud problemləri duyan, onların tərəqqisinə təkan verən görkəmli Azərbaycan maarifçilərindən biri də M.F.Axundzadə olmuşdur. O, maarifçi-realist metodunun ədəbiyyat tariximizdə böyük nümayəndəsidir. Fikir azadlığını tərəqqinin əsası hesab edən M.Fətəli yazır: "Canlılar aləmində insan daima tərəqqi tələb edən bir növdür və fikir azadlığı olmadan tərəqqi mümkün ola bilməz. Tərəqqinin nəticəsini zəmanəmizdə sivilizasyon adlandırırlar. Sivilizasyon elə bir ümumi sözdür ki, onun məzmununda bütün sənətlər, fəndlər, qüdrəti-dövlət, millətin asayişi və mədəniyyətin bu kimi şərtləri cəm olmuşdur. Əgər cəmiyyət öz fərdlərinə fikir azadlığı verməzsə onları ata-babanın və övliyaların qərar verdikləri şeylərlə kifayət etməyə və bunlardan kənara çıxmamağa və ağıllarını mədəniyyət işlərində işlətməyə məcbur edərsə, bu sürətdə fərdlər yer əkən, məhsul toplayan və hər bir işi düşünmədən və fikir etmədən görən avtomat olarlar; və ya onlar dəyirman atlarına bənzərlər ki, hər gün müəyyən dairədə dolanarlar və öz vaxtında da arpa-saman yeyib su içər və yatarlar, sonra yenə oyanıb haman dünənki dolanışı dünyanın axırına qədər təkrar edərlər. Və bu biçarə atların hərgiz xətri olmaz ki, dünyada çəmənlər, otlaqlar, çayırlıqlar, çiçəkliklər, meşələr, dağlar və dərələr vardır; əgər bağlı olmasaydılar, dünyada gəzərdilər və o könül

açan yerləri görərdilər və dünya nemətlərindən tamamilə faydalanmış olardılar".

O, bərabərliyi insan tərəqqisinin özülü sayırdı, hesab edirdi ki, o Anayasanın əsasında durmalıdır. Mənəvi, milli və ictimai bərabərlik tələblərini Axundzadə dialektik vəhdətdə və qarşılıqlı əlaqədə ələ alır, azadlıq və hüquq, hakimiyyət və maarif problemini həm fərd, şəxsiyyət, həm də cəmiyyət və xalq miqyasında irəli sürürdü. Böyük mütəfəkkir qeyd edirdi ki, Bəşər övladına səadət və qurtuluş o zaman nəsib olacaqdır ki, istər Asiyada və istərsə də Avropada insanın şüuru tamamilə əbədi həbsdən xilas olsun və bütün işlərdə də, təfəkkürdə də hadisələr deyil, insanın ağlı yeganə dəlil, sənəd və hakimi - mütləq olsun". Şərqin dinçi və heç bir düşüncə və din pluralizminə haqq tanımayan qaranlıq kültüründə Axundov ilk dəfə olaraq sekularizm sözünü tələffüz etmiş, dinin siyasətdən ayrı olması zərurətini savunmuşdur. O, öz nəzərlərini konstitusiya quruluşunun təsdiqləndiyi Avropa ölkələrinə istiqamətləndirirdi. Beləliklə, Axundov Şərqin müsəlman mütəfəkkirləri arasında ilk olaraq konstitusionalizm ideyalarını dəstəkləyən mütəfəkkir idi. Mən elə bir dinə üstünlük verə bilərdim ki, onun vasitəsilə insan bu dünyada azad və xoşbəxt yaşaya biləydi. Heydər Hüseynovun fikrincə, M.F.Axundov öz xalqını savadlı görməyi çox istəyirdi. Buna görə də ilk növbədə Azərbaycan xalqı tərəfindən yeni əlifbanın (latın əlifbası) qəbul edilməsini zəruri sayırdı. O, bildirirdi ki, ərəb əlifbası elmin və mədəniyyətin inkişafına, geniş xalq kütlələri arasında maarifin yayılmasına böyük maneə yaradır. M.F.Axundov əlifba islahatını elmi cəhətdən əsaslandırmış və praktiki olaraq yeni əlifbanın qəbul edilməsi-Şərqdəki mədəni inqilab uğrunda mübarizə aparırdı. Bu iş uğrunda yorulmadan, cəsarətlə mübarizə aparan Axundov yazırdı: "Mənim əlifbam yüz ildən sonra şərq ədəbiyyatında öz layiqli yerini tutacaq... Bu əlifba ilə yeni əsərlər yazılacaq, həmçinin onun hərfləri ilə köhnə kitablardakılar oxuculara çatdırılacaq... O zaman mənim məqsədimə nail olunacaq və mən qabaqcadan arxayın ola bilərəm, baxmayaraq ki, o xoşbəxt günü görməyəcəyəm"(5, səh 17).

Bu gün Azərbaycanda multikulturalizm Dövlət siyasəti səviyyəsinə qaldırılmışdır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev qeyd etmişdir: "Multikulturalizm Azərbaycan xalqının həyat tərzidir" (2, səh 14).

"Azərbaycan xalqı özlüyündə, təbiətinə görə, öz xarakterinə görə yüksək tolerantlıq hissinə malikdir", deyən Ulu Öndər Heydər Əliyev bizim cəmiyyət olaraq bəşəri dəyərlərə münasibətimizin ən orijinal və aydın izahını verib, Azərbaycanı milliyyətindən və dinindən asılı olmayaraq müxtəlif xalqların nümayəndələrinin doğma vətəni adlandırıb. Çünki, tarixin bütün dövrlərində ölkəmizdə bu gün multikulturalizm adlandırdığımız sosial münasibətin mövcudluğu və davamlılığını şərtləndirən, çağdaş dövrümüzdə belə, dünyanın bir sıra ölkələrinə hava su qədər gərəkli olan çoxsaylı amillər olub. Bu amillərdən dinc birgəyaşayış ənənəsini, tolerantlıq, qarşılıqlı hörmət və ehtirama söykənən köklü münasibətləri örnək göstərə bilərik. Eyni zamanda, multikultural münasibətlərin davamlılığı, onun bugünkü inkişafı bilavasitə dövlət dəstəyindən qaynaqlanır ( 3, səh 5). Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş, bütün sahələrdə inkişaf tempinə görə ölkəmizi dünyanın lider dövlətinə çevirən, ən əsası dövlət maraqları, xalqın mənafeləri, həmçinin bəşəri dəyərləri əsas götürən praqmatik siyasi kursun hazırda möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi respublikamızda multikultural mühitin möhkəmlənməsi, o cümlədən tolerantlıq ənənələrinin güclənməsinə də öz həlledici töhfələrini verməkdədir. Qeyd etməliyik ki, möhtərəm Prezidentimiz cənab İlham Əliyevin Azərbaycanda multikultural münasibətlərin inkişafı yönündə atdığı addımlar davamlı xarakter daşıyır. Bu bəşəri dəyərə ciddi önəm verən dövlət başçısının imzaladığı sərəncamları ilə Millətlərarası, Multikulturalizm və Dini məsələlər üzrə Dövlət Müşavirliyi Xidməti, eləcə də Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi yaradılıb. (4, səh 3)

Məhz etnik-mədəni müxtəlifliklər arasındakı münasibətlərin düzgün tənzimlənməsi işində respublikamızın spesifik sülhsevər siyasətinin nəticəsidir ki, bu gün heç kim, hətta bizə ikili standartlar prizmasından yanaşmağı ənənəyə çevirmiş ölkələr də Azərbaycanda multikultural mühitin mövcudluğunu nəinki inkar edə bilmir, üstəlik bu sosial münasibət və dövlət siyasətinin dünya üçün nümunə olduğunu təsdiqləyirlər. Çünki

tarixən Azərbaycan cəmiyyətinə xas olan fərqli mədəniyyət, din, dillərə ehtiram kimi humanist münasibətin dövlət tərəfindən inkişaf etdirilməsi istiqamətində həyata keçirilən çoxşaxəli fəaliyyət multikulturalizm fenomenini gerçək mahiyyətinə uyğun şəkildə dünya gündəmində aktuallaşdırıb.

## ƏDƏBİYYAT SİYAHISI

*1. Multikulturalizmə giriş, mühazirələr kursu, Bakı 2017*

*2. M. Hacıyeva, N. Alışova, "Multikulturalizm Azərbaycanın həyat tərzidir", Bakı 2016*

*3. N. Məmmədli, "Multikulturalizm", Bakı 2016*

*4. Azərbaycan tarixi 7 cilddə, II cild, Bakı 2007*

*5. Nicat Məmmədli. Multikulturalizm Panaseya yoxsa Alternativ. Bakı. 2016*

***Açar sözlər:** tolerantlıq, multikulturalizm, azsaylı xalqlar, etnik qruplar, humanizm, interkulturalizm.*

***Ключевые слова:** толерантность, мультикультурализм, меньшинства, этнические группы, гуманизм, интеркультурализм.*

### *Multiculturalism in Azerbaijan*
### *SUMMARY*

*The article reflects the long-standing ideas of tolerance and the existence of a multicultural society in Azerbaijan. The transformation of multiculturalism into a way of life for the population in Azerbaijan and raising it to the level of state policy today demonstrates the application of multiculturalism in our country over the years as a policy model. The article substantiates the tolerant and humane attitude towards the historically minorities and non-nationals in Azerbaijan, the state's care by referring to various sources and research works. The main source of information in the article are historical works and articles on multiculturalism.*

***Keywords:** tolerance, multiculturalism, minorities, ethnic groups, humanism, interculturalism.*

UOT 94 (479.24)

# İKİNCİ QARABAĞ MÜHARİBƏSİ DÖVRÜNDƏ ABŞ VƏ TÜRKİYƏNİN MÖVQEYİ

**NURDAN ƏSƏDOVA**
*Bakı Dövlət Universitetinin doktorantı*

*E-mail: nurdan.asadova@gmail.com*

## GİRİŞ

Ermənistan - Azərbaycan Dağlıq Qarabağ münaqişəsi XX yüzilliyin tarixinə ən faciəli münaqişələrdən biri kimi daxil olmuş, onun nəticələri milyonlarla insanın taleyinə ciddi təsir göstərmişdir. Belə ki, 1988-ci ildə ermənilərin Azərbaycanın tarixi torpaqlarına açıq formada ərazi iddiaları və etnik zəmində təxribatları ilə başlamış bu münaqişə Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü ilə nəticələnmişdir. Beynəlxalq sülhün və təhlükəsizliyin əsas təminatçısı kimi çıxış edən BMT Təhlükəsizlik Şurası Ermənistan - Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar 1993-cü ildə – 822, 853, 874 və 884 saylı dörd qətnamə qəbul etmişdir. Lakin Ermənistan tərəfi bu qətnamələrin heç birinə riayət etməmişdir. [5]

## 44 günlük Vətən müharibəsində tarixi qələbə

2020-ci il sentyabrın 27-də Ermənistan Silahlı Qüvvələrinin cəbhəboyu zonada yerləşən Azərbaycan ordusunun mövqelərini və yaşayış məntəqələrini iriçaplı silahlar, minaatanlar və müxtəlif çaplı artilleriya qurğularından intensiv atəşə tutması nəticəsində Azərbaycan ordusunun komandanlığı tərəfindən qoşunların bütün cəbhə boyu sürətli əks-hücum əməliyyatı başlaması barədə qərar verilmişdir. Ermənistan silahlı qüvvələri bütün cəbhə boyu genişmiqyaslı təxribatlar törətmişdir. [6]

44 gün ərzində Ermənistan, xaricdə yaşayan ermənilərdən, PKK, PYD/YPG, ASALA və Yaxın Şərqin digər terror təşkilatlarından ibarət işğalçı və cinayətkar ordunun qarşısında sinəsini sipər etmiş şanlı Azərbaycan Ordusu elə bir zəfər salnaməsi yazdı ki, bu barədə xarici ölkələrin qərargahlarında, hərbi təhsil və hərbi-tədqiqat müəssisələrində, hərb tarixi dərsliklərində bundan sonra çox yazılacaq və tədqiqatlar aparılacaqdır.

10 noyabr Bəyannaməsi isə Ermənistan - Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq, dövlətlərarası xarakterini bir daha təsdiqləmiş oldu. Belə ki, Dağlıq Qarabağın statusu məsələsi danışıqların predmetindən çıxmış oldu, orada yaşayan ermənilərə öz müqəddəratını təyinetmə prinsipinin heç daxili aspekti də şamil edilməyəcək, onlar adi Azərbaycan vətəndaşına verilən hüquqlardan yararlanmalı olacaqlar. İkinci Qarabağ müharibəsi nəticəsində, Azərbaycan BMT TŞ-nin 4 qətnaməsini təkbaşına icra etdi və bu istiqamətdə BMT Nizamnaməsinin 51-ci maddəsini əldə rəhbər tutaraq fərdi qaydada həmin qətnamələrin tələblərini yerinə yetirmiş oldu.

Müharibənin nəticələrindən biri də “dəhlizlərin mübadiləsi” ideyasının gerçəkləşəcək olması idi. Bu, Azərbaycanın əsas hissəsi ilə Naxçıvan, Ermənistanla Xankəndi arasında birbaşa quru yolunun olması deməkdir. Ermənistana yalnız Laçın dəhlizi vasitəsilə və qarşıdan gələn 3 il ərzində o istiqamət üzrə inşası nəzərdə tutulan yolla Azərbaycana daxil olmağa icazə verildiyi halda, Azərbaycana isə həm Laçın, həm də ölkəmizin digər qərb rayonları vasitəsilə Naxçıvana çıxış imkanı verilirdi. Şübhəsiz, Azərbaycandan Naxçıvana, oradan isə Türkiyəyə çıxış, əks-istiqamətdə isə Türkiyədən Cənubi Qafqaz, Orta Asiya və Çin Xalq Respublikasına kimi nəhəng türk zolağı uzanacaqdı. [8]

## II Qarabağ müharibəsi dövründə Türkiyənin mövqeyi

İkinci Qarabağ müharibəsi başlanan gündən qardaş Türkiyə Respublikası açıq şəkildə Azərbaycan Respublikasının yanında olduğunu bəyan etmişdir. Hələ 2018-ci ildə torpaqlarımızın işğal altında olduğu bir dövrdə hər iki ölkənin liderləri tarixi ədalətin bərpa ediləcəyini bildirmişdilər. Həmin vaxt Prezident İlham Əliyev öz geniş nitqində bildirmişdir: “Bir gün Azadlıq meydanına döyüşlərdə olmuş Azərbaycan bayraqları gətiriləcək. O bayraqlar ki, 2016-cı ildə Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının işğaldan azad edilmiş torpaqlarında Azərbaycan əsgəri tərəfindən qaldırılmışdır. O bayraqlar ki, bu ilin may ayında Azərbaycan - Ermənistan sərhədinin Naxçıvan hissəsində uğurlu əməliyyat nəticəsində işğaldan azad edilmiş torpaqlarda qaldırılmışdır. Gün gələcək

Azərbaycanın dövlət bayrağı bu gün hələ də işğal altında olan bütün torpaqlarda qaldırılacaqdır". [2]

2020-ci ilin sentyabr ayının 27-də, İkinci Qarabağ müharibəsi başlanan gün Türkiyənin Müdafiə naziri Hulusi Akar Türkiyənin Azərbaycanın tərəfində olduğunu bildirmiş və Ermənistanın mövqeyinin Qafqazda sülh və sabitliyin ən böyük əngəli olduğunu vurğulamışdır. [12]

Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan İkinci Qarabağ müharibəsi zamanı çıxışlarının birində vuğulamışdır: "Erməni xalqını onları fəlakətə aparan hökumətlərinə və onları bir kukla kimi oynadanlara qarşı çıxmağa, gələcəklərinə sahib çıxmağa dəvət edirəm. Bütün dünyayı işğala və zülmə qarşı verdikləri mübarizədə Azərbaycanın yanında olmağa çağırıram. 30 ilə yaxındır məsələyə etinasız yanaşan ATƏT-in Minsk qrupunun həmsədr ölkələri həll üçün fəaliyyətdən, təəssüf ki, çox uzaqdır. Ermənistan bölgədə sülh və sabitliyin önündəki ən böyük təhdid olduğunu növbəti dəfə göstərdi. Türk milləti hər zaman olduğu kimi bu gün də bütün imkanları ilə azərbaycanlı qardaşlarımızın yanındadır".

Oktyabrın 6-da isə Türkiyənin İstanbul və Konya şəhərlərində Azərbaycan dövlətinə dəstək məqsədilə mitinq keçirilmişdir. Oktyabrın 8-də "Eskişehirspor" stadionunda baş tutan aksiyada isə Eskişehir Azərbaycanlıları Dərnəyi, Humanitar Yardım Fondu (İHH) və digər qeyri-hökümət təşkilatlarının rəhbərləri və üzvləri iştirak etmişdilər. [9]

Oktyabrın 23-də Azərbaycanın ədliyyə naziri Fikrət Məmmədov ölkəmizdə səfərdə olan Türkiyə Respublikasının Baş Ombudsmanı Şərəf Malkoç və onun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşmüşdür. Həmçinin, Ədliyyə Nazirliyi tərəfindən yaradılmış "Qarabağ Azərbaycandır!" elektron məlumat platformasının istifadəyə verilməsi görüşə təsadüf etdiyindən tədbirdə onun da təqdimatı keçirilmişdir. [7; 21]

**44 günlük müharibə dövründə ABŞ**

Hələ ilkin mərhələdə Ermənistan - Azərbaycan münaqişəsinin tənzimlənməsinin ABŞ variantı təklif edilmişdir. Həmin layihəyə görə, Azərbaycanın Laçın, Kəlbəcər rayonları və DQMV-nin bir hissəsi Ermənistanın tərkibinə daxil olmalı, Ermənistanın Meğri rayonu, DQMV-nin Mardakert və Hadrut rayonları Azərbaycana verilməli idi. İlk baxışda kompromis variantı kimi görünən bu plan hər iki tərəfi qane etmədi. Azərbaycan hər zaman hər bir ərazi dəyişikliyinin əleyhinə olmuşdur. Ermənistan isə bu halda İranla sərhədini itirmiş olurdu. Bəzi ermənipərəst müəlliflərin fikrincə, əgər bu plan həyata keçirilsəydi, Ermənistan 70 faiz Türkiyə və Azərbaycan ərazilərinin əhatəsində olar, bir növ CAR-ın Lesoto kimi protektorata tabe olan qurumuna çevrilərdi. [10; 51-52]

İkinci Qarabağ müharibəsi başlandığı gün, 27 sentyabr 2020-ci ildə ABŞ Prezidenti Donald Tramp iki keçmiş sovet respublikası olan Ermənistanla Azərbaycan arasında alovlanan şiddəti dayandırmağa çalışacağını söyləmiş, həmçinin, mətbuat brifinqində, administrasiyasının "münaqişəyə çox ciddi baxdığını" bildirmişdir. [11]

Daha sonra, ABŞ Dövlət katibinin birinci müavini S.Biqan Azərbaycan Xarici İşlər naziri C.Bayramov və Ermənistan Xarici İşlər naziri Z.Mnatsakanyanla əlaqə saxlayaraq hər iki tərəfi dərhal hərbi əməliyyatları dayandırmağa, vəziyyəti daha da gərginləşdirməmək üçün aralarındakı mövcud birbaşa rabitə əlaqələrindən istifadə etməyə və regiondakı gərginliyi daha da artıran ritorika və hərəkətlərdən uzaq olmağa çağırmışdır. [9]

2020-ci ilin oktyabr ayının əvvəllərində Vaşinqtonda 60-dan çox nümayəndənin qatıldığı Senat və nümayəndələrin liderləri həmin vaxt ABŞ-ın Dövlət Katibi Mayk Pompeonu "Azərbaycan və Türkiyənin Ermənistana və Artsaxa (Dağlıq Qarabağ) hücumunu" qınamaq üçün qəti addımlar atmağa çağırmışdılar. Amerika Erməni Milli Komitəsinin (ANCA) icraçı direktoru Aram Hamparian bildirmişdir: "Amerikada yaşayan ermənilər və konqresdəki müttəfiqlərimiz, qətlin dayandırılmasını, Türkiyəyə qarşı sanksiyaların və ABŞ-ın Azərbaycana hərbi yardımının dərhal kəsilməsini tələb edir. Ərdoğan və Əliyev - 1915-ci il işini tamamlamaq üçün sui-qəsd quran iki diktator - indi cavab verməlidirlər". Senatın Xarici Əlaqələr Komitəsinin nümayəndəsi Robert Menendez, Senatın demokrat lideri Çarles Şumer və onun 9 həmkarı ABŞ-ın Dövlət Təhlükəsizliyi Yardımına dərhal son qoyulmasını istəyərək Dövlət Katibi Pompeoya məktub göndərmişdilər. Senatorlar qeyd etmişdilər: "Türkiyə qarşıdurmada fəal iştirakdan geri çəkilmək istəmirsə, Dövlət Departamenti Ankaraya hərbi texnikanın satışını və köçürülməsini dərhal dayandırmalıdır". Senatorlar bu tələblərini belə izah edirdilər: "Bu münaqişənin bölgəni bürüyə biləcəyi və digər xarici faktorları cəlb edə biləcəyi ehtimalını nəzərə alaraq, ABŞ-ın diplomatik münasibətlərdən istifadə edərək dərhal atəşkəs

əldə etməsi vacibdir". [13]

Oktyabr ayının 23-də jurnalistlərə müsahibəsində ABŞ Prezidenti D.Tramp Dağlıq Qarabağ danışıqlarında "əla irəliləyiş" olduğunu bildirmişdir. Jurnalistlər tərəfindən Trampın Ermənistan və ya Azərbaycan liderləri ilə danışıb-danışmadığını soruşduqda isə bu barədə danışmaq istəmədiyini bildirmişdir. Həmçinin, o, müsahibəsində qeyd etmişdir: "Bu ölkədə Ermənistandan çoxlu insan yaşayır. Onlar yaxşı insanlardır və biz onlara kömək edəcəyik". [3]

İkinci Qarabağ müharibəsinin başlanmasından təxmini bir ay sonra, Demokrat Partiyasının prezidentliyə namizədi Co Bayden Azərbaycanla Ermənistan arasında 27 sentyabrdan bəri davam edən Dağlıq Qarabağ münaqişəsi ilə bağlı yazılı açıqlama vermişdir. O, "atəşkəsin pozulmasından sonra bölgədə humanitar fəlakət" olacağını, Trampın Azərbaycan, Ermənistan və Türkiyə ilə birbaşa görüşməli olduğunu bildirmişdir. Həmçinin, Co Bayden, Tramp administrasiyasının Azərbaycana hərbi texnika tədarükünü dayandırmaq üçün 907 saylı Azadlığa Dəstək Qanununun müddəalarını tam şəkildə tətbiq etməli olduğunu və bu çərçivədəki şərtlərdən istisnalar verməməli olduğunu qeyd etmişdir. O, ABŞ-ın avropalı tərəfdaşları ilə birlikdə münaqişənin sona çatması və beynəlxalq humanitar yardım göstərmək üçün diplomatik səylərə rəhbərlik etməli olduğunu və iqtidara gələcəyi təqdirdə bu addımları atacağını ifadə etmişdir. [4]

Oktyabrın 29-da isə ABŞ-ın Texas ştatının Hyuston şəhərində yaşayan azərbaycanlılar Ermənistan ordusunun Azərbaycanın Bərdə və Gəncə şəhərlərində, eləcə də digər yaşayış məntəqələrində törətdikləri terror aktlarını dünya ictimaiyyətinə çatdırmaq məqsədi ilə Hyuston şəhər meriyasının binası qarşısında icazəli aksiya keçirmişdilər.

İkinci Qarabağ müharibəsi zamanı erməni diasporu gözlənildiyi kimi fəal olmamış, ayrı-ayrı ölkələrdə yaşayan erməni diaspor nümayəndələri öz aqressiv hərəkətləri ilə yadda qalmışdılar. Yalnız, oktyabrın 11-də ABŞ-ın Vaşinqton, San-Fransisko, Nyu-York, Boston və digər şəhərlərində kiçik etirazlar və Los-Anceles şəhərinin erməni icması Türkiyə konsulluğunun önündə 100.000 nəfərlik etiraz yürüşü keçirmişdir. [9]

İkinci Qarabağ müharibəsi bitdikdən sonra, 2020-ci ilin dekabr ayının 18-də Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi və ABŞ-ın Xəzər Siyasi Mərkəzinin (CPC) birgə təşkilatçılığı ilə "Azərbaycan - ABŞ münasibətləri: Seçkilər və II Qarabağ müharibəsindən sonrakı proseslər" adlı beynəlxalq vebinar keçirilmişdir. CPC-nin Təhlükəsizlik və Siyasi Proqramlar üzrə rəhbəri Riçard Hoqlandın moderatorluq etdiyi tədbirdə təşkilatın icraçı direktoru Əfqan Nifti açılış nitqi zamanı vebinarın həm ABŞ, həm də Azərbaycan üçün çox əlamətdar bir vaxta təsadüf etdiyini bildirmişdir. İrs Fondu (Heritage Foundation) yanında Xarici Siyasət Araşdırmaları üzrə Allison Mərkəzinin direktoru Lyuk Koffi ABŞ - Azərbaycan münasibətlərinin gələcək perspektivləri baxımından bir sıra təkliflərlə çıxış etmişdir. Onun sözlərinə görə, yeni administrasiya zamanı daha çox rəsmi şəxslərin Azərbaycana səfərləri təşkil olunmalıdır. Həmçinin, o, Azərbaycanın münaqişə zonasına və Gürcüstana yaxın yerləşən ikinci böyük şəhəri Gəncədə ABŞ konsulluğunun açılmasının vacibliyini qeyd edərək, bununla ABŞ-ın həmin yerlərdə vəziyyəti daha yaxşı anlaya biləcəyini vurğulamışdır. Daha sonra, Mərk əzi Asiya-Qafqaz İnstitutu və İpək Yolu Araşdırmaları Proqramı mərkəzinin direktoru Svante Kornel çıxışı zamanı kağız üzərində ABŞ və Azərbaycanın çox sıx tərəfdaşlar olduğunu, lakin bunun reallıqda belə olmadığını ifadə etmişdir. "Bu məsələdə ABŞ-dakı erməni diasporunun da rolu az deyil. Lakin düşünürəm ki, bu yanaşma dəyişməli və ABŞ daha realistik yanaşma sərgiləməlidir" – deyə o, qeyd etmişdir. Son zamanlar cəbhədə baş verənlərə toxunan S.Kornelin sözlərinə görə, müharibə Azərbaycanın kiçik deyil, artıq orta ölkə olduğunu sübut edib: "Azərbaycan bu uğurları planlaşdırdığı prioritetləri və iqtisadi inkişafı nəticəsində əldə etdi. Biz bu yanaşmanı həm müharibədə, həm ölkə daxili və xarici siyasətdə görürük. ABŞ bunu nəzərə almalıdır". [1]

## NƏTİCƏ

2020-ci ilin sentyabrın 27-də başlanan Vətən müharibəsi 44 gün davam etdi və noyabrın 10-da Azərbaycanın parlaq, şanlı qələbəsi ilə başa çatdı. Eyni zamanda, müharibə bizə kimlərin dost, kimlərin isə düşmən olduğunu göstərmiş oldu. Belə ki, Azərbaycana ən böyük dəstəyi qardaş Türkiyə dövləti verdi və hər zaman yanımızda olduğunu bir daha sübut etdi. ABŞ isə müharibə zamanı, əsasən bitərəf siyasət yürüdərək səssiz qalmağı seçdi.

İkinci Qarabağ müharibəsi bitdikdən sonra isə 2020-ci il dekabrın 10-da Bakının Azadlıq meydanında Vətən müharibəsində Qələbəyə

həsr olunmuş Zəfər paradı keçirildi və Türkiyə Respublikası Silahlı Qüvvələrini təmsil edən hərbi qulluqçular minbaşı Harun Ergenin rəhbərliyi ilə tribuna önündən keçdilər.

**Açar sözlər:** *ABŞ, Türkiyə, Azərbaycan, Qarabağ, 27 sentyabr.*

## ƏDƏBİYYAT SİYAHISI


*1. Azərbaycan-ABŞ münasibətləri: Seçkilər və II Qarabağ müharibəsindən sonrakı proseslər" adlı beynəlxalq vebinar, 18.12.2021. https://aircenter.az/az/post/abs-azerbaycan-munasibetleri-ve-ii-qarabag-munaqisesine-dair-beynelxalq-vebinar kecirilib-552*

*2. Azərbaycan - Türkiyə qardaşlığının daha bir simvolu: Bakının azad olunduğu gün – TƏHLİL. https://apa.az/az/xeber/siyasi/azerbaycan-turkiye-qardasliginin-daha-bir-simvolu-bakinin-azad-olundugu-gun-tehlil-661460*

*3. Armenians are great people and we're going to help them – Donald Trump. October 23, 2020. https://en.armradio.am/2020/10/23/armenians-are-great-people-and-were-going-to-help-them-donald-trump/*

*4. Baydenin Dağlıq Qarabağ və Türkiyə Bəyanatı, 28 oktyabr 2020-ci il. https://www.amerikaninsesi.com/a/joe-bidendan-daglik-karabag-ve-turkiye-aciklamasi/5639292.html*

*5. Ermənistan - Azərbaycan Dağlıq Qarabağ münaqişəsi. https://youthfoundation.az/about-us/az%C9%99rbaycan/erm%C9%99nistan-az%C9%99rbaycan-dagliq-qarabag-munaqis%C9%99si/*

*6. Ermənistan silahlı qüvvələri bütün cəbhə boyu genişmiqyaslı təxribat törədib, 27 sentyabr 2020-ci il. https://mod.gov.az/az/news/ermenistan-silahli-quvveleri-butun-cebhe-boyu-genismiqyasli-texribat-toredib-32310.html*

*7. "Ədliyyə" qəzeti, № 09-12 (200), 2020-ci il, 28 s.*

*8. 44 günlük Qarabağ müharibəsinin nəticəsi. http://newtimes.az/az/politics/6987/*

*9. İkinci Qarabağ Müharibəsi. https://www.virtualkarabakh.az/az/post-item/52/2871/ikinci-qarabag-muharibesi.html*

*10. İsmayılov Füzuli. Qarabağ konflikti ABŞ-ın qlobal siyasəti kontekstində. Bakı, 2001,151 s.*

*11. Trump says U.S. will seek to stop violence between Armenia-Azerbaijan. September 28, 2020. https://www.reuters.com/article/us-armenia-azerbaijan-trump-idUSKBN26I124*

*12. Türkiyənin müdafiə naziri: "Azərbaycanlı qardaşlarımızın yanında olacağıq". https://sputnik.az/20200927/turkiyenin-mudafie-naziri 425040468.html*

*13. https://armenianweekly.com/2020/10/02/senate-and-house-leaders-to secretary-of-state-pompeo-cut-military-aid-to-azerbaijan-sanction-turkey-for-ongoing-attacks-against-armenia-and-artsakh/*


**Nurdan Asadova**
***PhD student, Baku State University***

### During the Second Karabakh war the position of the United States of America and Turkey

**SUMMARY**

The article analyzes the 44-day Second Karabakh war and the position of the United States of America and the Republic of Turkey during this war. This article notes that the brotherly Republic of Turkey has supported Azerbaijan since the first day of the war. Simultaneously, the article informs the United States of America remained silent and mainly neutral during the Second Karabakh war.

**Key words:** *USA, Turkey, Azerbaijan, Karabakh, September 27.*

**Нурдан Асадова**
***Докторант, Бакинский Государственный Университет***

### Во время второй карабахской войны позиция США и Турции

**РЕЗЮМЕ**

В статье исследуется 44-дневная Вторая карабахская война и позиция Соединенных Штатов и Турецкой Республики во время этой войны. В статье отмечается, что братская Турецкая Республика поддерживает Азербайджан с первого дня войны. В то же время в статье показано, что во время Второй карабахской войны США сохраняли молчание и в основном нейтралитет.

**Ключевые слова:** *США, Турция, Азербайджан, Карабах, 27 сентября*

UOT 99(479.24)

# QARABAĞ XANLIĞININ TARİXİ QAFQAZ ARXEOQRAFİYA KOMİSSİYASININ AKTLARINDA
## (I və II cildlərdəki materialların təsviri və təhlili)

**SAMİRƏ RƏHİMOVA**
*Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun dissertantı*

*E-mail: samire.rahimova@gmail.com*

### Giriş

Qafqaz Arxeoqrafiya Komissiyasının Aktları Ümumrusiya İmperiyasının hakim dairələrinin təşəbbüsü ilə Arxeoqrafiya Komissiyasının sədri Adolf Petroviç Berjenin (1828-1886) redaktorluğu ilə nəşrə hazırlanmışdır. Bu mənbə bütövlükdə Qafqaz tarixinin X əsrdən 1862-ci ilə qədər böyük bir dövrünə işıq salır. 12 cildlik Qafqaz Arxeoqrafiya Komissiyasının Aktlarında Qafqaz xalqlarının tarixi ilə bağlı müxtəlif növ məlumatlara təsadüf etmək mümkündür. Həmin məlumatlara ərəb salnamələri, fərmanlar və digər sənədlər, XIV-XIX əsrin I yarısına aid türk, ərəb, fars, gürcü, erməni dillərində olan sənədlər rus dilinə tərcüməsi ilə birgə, o cümlədən də yerli xan və sultanlara aid sənədlər daxildir. Hər bir cild bu və ya digər Qafqaz canişininin hakimiyyəti dövrünə aid sənədləri də özündə əks etdirir [6]. Bu minvalla toplularda Qafqazın Baş komandan və hakimlərinin hesabatları, raportları, məktub və reskriptləri və başqa sənədlərlə yanaşı, vergi siyahıları və cədvəlləri, mədaxil-məxaric sənədləri kimi statistik materiallar da mövcuddur [3, s.11-12]. Nəşrinə 1866-cı ildə başlanan bu toplular Tiflisdə çap olunub. Qafqaz Arxeoqrafiya Komissiyasının Aktlarının ilk cildinin giriş hissəsində komissiyanın təşkili məqsədi ilə bağlı belə məlumat verilir: "Qafqaz müharibəsinin başa çatması, çoxsaylı və müxtəlif yerli tayfalardan ibarət diyarın dinc həyata qədəm qoyması ilə Qafqazda rus hakimiyyətinin fəaliyyəti ilə bağlı hadisələrlə zəngin olan yarıməsrlik bir dövrü haqq-hesab etməyin, bu diyarın həyatında daxili inkişaf üçün yeni dövrü, sülh dövrünü layiqli şəkildə açmağın vaxtı çatdı. Bu məqsədlə hökumətin rus hakimiyyəti burada bərqərar olan andan öz keçmişinə nəzər salması, keçdiyi yolu ölçüb-biçməsi, qarşısında duran böyük maneələri düzgün şəkildə hərtərəfli düşünüb dəyərləndirməsi, bu maneələrin hansı üsullarla keçilməsi – bütün bunların tarixi etibarlılıq qazanmaqdan ötrü faktlarla işıqlandırılmasına ehtiyac duyulur. Bu cür faktların... mənbələrin... toplanması, onlarda olan məlumatların açıqlanması hökumətin xüsusi diqqətini özünə cəlb etməyə bilməzdi... Qafqaz Arxeoqrafiya Komissiyasının yaradılması fikri ilk dəfə dövlət katibi baron A.P.Nikolay (Aleksandr Pavloviç Nikolay (1821-1899) – S.R.) tərəfindən irəli sürüldü... 1864-cü ilin aprelində komissiyanın açılışı ali təsdiqini aldı" [7, s.III-IV]. Komissiyanının üzvləri arasında Mirzə Fətəli Axundov da vardı və o, ilk cildə daxil olan bütün şərq sənədlərinin tərcüməsində iştirak edib [7, s.VIII].

### Qafqaz Arxeoqrafiya Komissiyasının aktlarının birinci cildi

İki hissədən ibarət olan Qafqaz Arxeoqrafiya Komissiyasının aktlarının birinci cildinin girişində bu cildlə bağlı belə məlumat verilir: "Birinci hissəyə Gürcü çarları və Gürcüstanın digər hakimlərinə aid imtiyaz vərəqəsi olan qucarlar, ərəb, fars və türk dillərində Persiya şahlarının (Azərbaycan Səfəvi dövlətinə, Nadir şah Əfşar imperiyası və onun xələfləri dövrünə aid [7, s.VII] – red.) fərmanları və digər sənədlər daxil idi. İkinci hissədə isə XVIII əsrin II yarısına və general-leytenant II Karl Fyodoroviç Knorrinqin 1802-ci ilin sonunda P.D.Sisianov tərəfindən əvəz edilməsinə qədər olan idarəçiliyi dövrünə aid aktlar daxildir" [7, s.VI-VII]. Tədqiq etdiyimiz mövzu ilə bağlı I cildin ikinci hissəsində Qarabağla bağlı ayrıca paraqraf öz əksini tapmışdır. Zaqafqaziyanın (bundan sonra – Cənubi Qafqaz) Müsəlman hakimlikləri adlanan XII bölmənin "İ" hərfi ilə qeyd olunan "Qarabağ" paraqrafında [7, s.631-639] 871-dən 884-ə qədər nömrələnən 14 sənəd öz əksini tapıb. Bu sənədlər əsasən Qarabağın xristian məlikləri ilə bağlı olub 1799-1801-ci illərə aiddir. 871 nömrəli sənəd Gülüstan məliyi Fridonun, 872 nömrəli sənəd erməni kimi təqdim edilən Vərəndə məliyi Cümşüd və Gülüstan məliyi Fridonun, 873 nömrəli sənəd Vərəndə məliyi Cümşüdün adından əlahəzrət imperatora ünvanlanan müraciətlərdir [7, s.631-635]. 874 nömrəli sənəddə Qarabağın xristian məlikləri erməni kimi təqdim olunur və bir-bir hər

bir məlik barədə qısaca məlumat verilir [7, s.635]. 875 nömrəli sənəddə erməni məlikləri adı altında Qarabağın xristian məliklərinin əlahəzrət imperatora, 876 nömrəli sənəddə isə Kartli-Kaxetiya çarı Georgiyə ünvanlanan müraciəti öz əksini tapıb [7, s.635-636]. 877 nömrəli sənəddə Gürcü çarının Məlik Cümşüdə 1800-cü il 29 fevral tarixli məktubu yer alıb. Həmin məktubun ardınca Ümumrusiya İmperiyasının zabitləri – general mayor Lazarev və general leytenant Knorrinq arasında məliklərlə bağlı qarşılıqlı raport mübadiləsi (878-880, 882) barədə məlumat əldə edirik. 881 nömrəli sənəddə Ümumrusiya İmperiyasının zabiti Lazarevin Talış məliyi Abova məktubu, 883 nömrəli sənəddə Gəncəsərli Sarkisin general leytenant Knorrinqə ünvanladığı 29 may 1801-ci il tarixli müraciətdə İbrahimxəlil xanın məliklərlə rəftarından şikayətlər yer alıb. I cilddə Qarabağla bağlı yer alan sənədlərin sonuncusu – 884 nömrəli sənəd general mayor Lazarevin Vərəndə hakimi Məlik Cümşüdlə bağlı Gürcü hakiminə 1801-ci il 7 iyun tarixli müraciətidir [7, s.637-639]. Qafqaz Arxeoqrafiya Komissiyasının Aktlarının birinci cildində Qarabağlı, Qarabağ xalqı kimi ifadələrdən də istifadə edilmişdir [7, s.5, 6, 463, 622, 637, 639, 691]. Gürcü dilindən tərcümə edilmiş 3 nömrəli sənəddə abxazlılar, gürcülər, qarabağlılar, kaxetiyalılar, ermənilər və b. toplumlar sadalanır. Maraqlıdır ki, qarabağlılar adı tarixi həqiqətə uyğun olaraq ermənilər ifadəsinə sinonim kimi istifadə edilməyib [7, s. 6]. Bütövlükdə Qarabağ adına I cilddə tez-tez rast gəlirik [7, s.116, 120, 122, 123, 187, 283-285, 287, 299, 300, 376, 380, 381, 404, 407, 411, 430, 438, 463, 606, 616, 620, 621, 631, 633-639, 670, 686, 692]. Hətta "Gürcüstan çar XII Georginin dövründə" başlıqlı aktların II hissəsinin II bölməsində 34 nömrəli "S.S. Kovalenskinin Gürcüstan haqqında qeydi" adlı sənəddə Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Qarabağla bağlı da maraqlı məlumatlar verilmişdir [7, s.120-121]. Qarabağ xanı İbrahimxəlil xandan müdrik dövlət xadimi kimi bəhs edən bu sənəddə o persiyalı kimi təqdim olunur. Üstəlik də guya qədim zamanlardan müstəqil olan "erməni məlikləri"nin onun himayəsini qəbul etməsi barədə məlumat verilir [7, s.120] ki, bu da həqiqəti əks etdirmir. Nə məliklər erməni idi, nə də qədimdən bəri müstəqil məlikliklərdən söhbət gedə bilərdi. Qarabağın Şuşa qalası Ağa Məhəmməd xan Qacara qarşı da dirəniş göstərmiş əzəmətli qala kimi təsvir olunur [7, s.120-121]. Gürcüstanın 5 qəzaya (3 qəza Kartlidə - Lori, Qori, Duşet, 2 qəza Kaxetiyada olmaqla – Telavi və Sığnaq) bölünməsi ilə bağlı sənədə daxil olan cədvəldə Qarabağdan gələrək Borçalıda məskunlaşan Mamay, Qullar (Qullari), Eyvazalı (Akvazalo), Fəxralu (Paxralo), Sadaxlu (Sadaklu) kimi kəndlər və b. sadalanır. Əlavə olaraq da Qarabağ məliklərindən Məlik Abovun təbəəsi olan erməni və tatarlardan (türklərdən) ibarət əhalinin Bolnisi kəndində, Şulaverin Şinixi, Disiqi, Uzunlar kəndlərində məskunlaşması barədə məlumat verilir [7, s.463].

**Qafqaz Arxeoqrafiya Komissiyasının aktlarının ikinci cildi**

Ümumrusiya İmperiyasının infanteriya generalı (*Rusiya imperiyası silahlı qüvvələrində feldmarşaldan kiçik, general-leytenantdan yüksək rütbədir. Pavel Sisianov Gəncənin işğalına görə bu rütbəni alıb.* ) knyaz Pavel Dmitriyeviç Sisianovun Cənubi Qafqazda idarəçiliyi dövrünü – 1802-1806-cı illəri əhatə edən Qafqaz Arxeoqrafiya Komissiyasının aktlarının ikinci cildi [8] 25 bölmədən ibarətdir. Bu topluda Qarabağla bağlı həm "Cənubi Qafqazın müsəlman hakimlikləri" adlı 18-ci bölmənin 11-ci paraqrafında [8, s.695-728], həm də Qarabağ əhalisi [8, s.663, 665-667, 669, 678, 697, 703, 718, 721, 724, 726, 834, 835, 852], Qarabağ xanlığının tarixinə dair [8, s. 162, 172, 208, 246, 355, 441, 532, 565-568, 604, 612, 623-625, 635, 643, 648, 650-652, 654, 660, 663-668, 671, 675-677, 681, 683, 695, 697, 699, 702-707, 710, 712-716, 718-728, 748, 784, 814, 825, 829-835, 838-848, 860, 851, 853, 862, 863, 1027, 1030, 1032, 1034, 1038, 1039] toplunun müxtəlif hissələrində məlumat verilir. Təbii ki ən mühüm hissə birbaşa Qarabağa həsr edilən paraqrafdır. Bu paraqrafın əvvəlində 1415 nömrəli sənəddə Qarabağ xanı İbrahimxəlil xanın nəsil şəcərəsi, övladları, nəvələri xüsusi cədvəl formasında öz əksini tapıb. Cədvəldə xanın nikahda olduğu həyat yoldaşlarından olan 6 oğlu və 7 qızının adı, müvəqqəti kəbində olduğu həyat yoldaşlarından 6 oğlu və 1 qızının adı qeyd olunur. Cədvəldəki məlumatdan aydın olur ki, Qarabağ xanı İbrahimxəlil xan Gəncə, Şəki, Avar xanlıqları, Dizaq məlikliyi ilə birbaşa qohumluq əlaqələrinə malik idi [8, s.695]. 1415-1494 nömrəli 79 sənəd Qarabağ xanlığının 8 yanvar 1804-cü il tarixindən 1806-cı il 10 yanvar tarixinə qədər olan dövrünün tədqiqi baxımından mühüm əhəmiyyət kəsb edir. 1416, 1420, 1428, 1431, 1434, 1439, 1444, 1446, 1450, 1454, 1459, 1461, 1463, 1472, 1474, 1476, 1483, 1486, 1488, 1491 nömrəli

sənədlərdə Sisianovun Qarabağ xanına, 1440, 1445, 1449, 1475 nömrəli sənədlərdə isə İbrahimxəlil xanın Sisianova ünvanlanan məktubları yer alıb. Daha sonra polkovnik Karyaginin Sisianova müraciəti (1418 nömrəli sənəd), Cəfərqulu xanın Karyaginin polkuna ünvanladığı 14 may 1804-cü il tarixli məktubu [8, s.696-697], 1436 nömrəli sənəddə knyaz Sisianovun 1805-ci il 22 may tarixli və 19 nömrəli raportunda Qarabağ xanlığı ilə Ümumrusiya İmperiyası arasında imzalanan 14 may tarixli Kürəkçay müqaviləsi öz əksini tapıb. 11 maddədən ibarət Kürəkçay müqaviləsinin mətnindən müqavilənin Qarabağlı və Şuşalı İbrahimxəlil xanla infanteriya generalı Pavel Sisianov arasında imzalanması məlum olur. Bu raportda Qarabağ yerləşmə yerinə görə "Azərbaycanın qapısı hesab oluna bilər" deyə qeyd olunur [8, s.703]. Lakin Qafqaz Arxeoqrafiya Komissiyasının Aktlarının II cildində Qarabağda guya Ağa Məhəmməd xan Qacarın yürüşünə qədər 40.000 erməni ailəsi olması [8, s.703] kimi saxta məlumatlar da verilir. 1436 nömrəli sənəddə Qarabağ xanlığının sərhədləri barədə də məlumat verilir [8, s.703]. Qarabağa həsr edilən xüsusi paraqrafda knyaz Sisianovun mayor Lisaneviçlə qarşılıqlı raportlaşmaları da Qarabağ tarixinin tədqiqi baxımından mühüm əhəmiyyət kəsb edir. Xüsusilə də Qarabağ xanının qətlə yetirilməsi səbəblərini daha yaxşı başa düşmək baxımdan bu sənədlər mühüm əhəmiyyət kəsb edir. 1493 nömrəli sənəddə Sisianov Lisaneviçə "zəif idarəçiliyə malik olan İbrahimxəlil xanı" həm xarici düşmənlərdən, həm daxili qiyamçılardan qorumağı tapşırır [8, s.727]. Hadisələrin sonrakı inkişafı isə bunun tam əksini göstərir və xanı qorumaq həvalə edilən Lisaneviç xan başda olmaqla onun ailəsinin qatili oldu. Qeyd edək ki, Qarabağnamə müəlliflərindən Rzaqulu bəy bu hadisəni daha geniş təsvir edərək yazır ki, o gecə on yeddi adam, o cümlədən İbrahimxan, arvadı Tuba xanım, qızı Səltənət bəyim, on iki yaşlı bir oğlunu, həmçinin Kəbirli Abbasqulu ağa, Hacıhəsənəli bəyi, Mirzə Haqverdini, qərvəndli Hümmət bəy, sarıcalı Gülməli bəyin oğulları Cavanşir və Həsənağa, nökərlərdən qərvəndli Əli Pənahı, əfşar Cavanşir və Mirzə Nağını, kəbirli Əcəmoğlunun oğlu Hacı Həsəni və onun iki oğlunu, iki nəfər şelli və iki başqa adamı öldürülmüşdür. Bu adamlar 1806-cı ildə 14 iyun gecəsi səhərə 3 saat qalmış qətlə yetirildi [2, s.236-237]. Rzaqulu bəy qeyd etdiyi rəqəmlə, sadaladığı adların sayı arasında müəyyən fərq var, yəni adbaad sadaladıqlarını sayanda 17-dən çox şəxsin qətlə yetirildiyi məlum olur. Dəyişməyən bircə fakt budur ki, dəli mayor ləqəbli Lisaneviç İbrahimxəlil xanın guya Qacarlara danışığa gedib xəyanət etməsini bəhanə gətirsə də, əslində Qarabağ xanlarının nəslinə qarşı planlı soyqırım aktının icraçısı olmuşdur.

Qafqaz Arxeoqrafiya Komissiyasının Aktlarının ikinci cildində rus zabitlərinin raportlarında Qarabağın xristian məlikliklərі, onların əhalisi diqqət mərkəzində saxlanılır və onların mənşəyi məqsədli şəkildə təhrif edilərək erməni kimi təqdim edilir [8, s.355, 623]. Əslində isə Rusiya Federasiyasının Moskva şəhərində yerləşən Rusiya İmperiyasının Xarici Siyasət Arxivində (RİXSA) qorunub saxlanılan sənədlərdə Qarabağ məliklərinin I Pyotra ünvanlanan məktublarında məliklər özlərini erməni deyil, ya alban-Arşaki mənşəli, ya da sadəcə olaraq Qarabağ məlikləri adlanmışdır [5, s.323-325]. Knyaz Sisianovun Rusiya imperatoruna 1804-cü il 30 dekabr tarixli raportunda da [8, s.621-624] Qarabağla bağlı təhriflərlə dolu məlumatlar verilir. Belə ki, Sisianovun raportunda belə qeyd olunur: "80 yaşlı qoca - İbrahim xanın Ağa Məhəmməd xanın yürüşünə qədər 5 nüfuzlu məlik tərəfindən idarə olunan 60.000 ev Qarabağ ermənisi vardı, indi isə 4000 evdən çox..." [8, s.623]. Xatırladaq ki, 1823-cü ildə Qarabağ xanlığının ləğv edilməsi ilə bağlı həyata keçirilən sayımda Qarabağ əyalətində cəmi 18.563 ailə qeydə alınmışdı, onlardan da beş məlikliyin payına yalnız 1559 ailə və ya bütün ailələrin 8,4 faizi düşürdü [4, s.27; 9; 10]. Daha dəqiq ifadə etsək, Qarabağ əyalətinin təsvirinə görə Talış mahalında 215, Xaçın mahalında 230, Çiləbörd mahalında 201, Vərəndə mahalında 625, Dizaq mahalında 288 ailə olmaqla cəmi 1559 ailə var idi. Bu ailələrin də hamısı erməni deyildi. Erməni kəndi kimi qələmə verilməyən kəndlərdə 239 ailə yaşayırdı. Qeyd edək ki, xristian albanlar da erməni kəndi kimi qeydə alınmışdı. Verilən məlumatdan məlum olur ki, hətta ermənilərin kompakt şəkildə yaşadığı deyilən xristian məlikliklərində belə əhali tamamilə erməni deyildi [9, s. 220-235, 242-245, 310-337]. Hətta bir qədər əvvəlki dövrlərə nəzər salsaq görərik ki, 1727-ci il tarixli "Müfəssəl dəftər"ə görə, Gəncə-Qarabağ əyaləti üzrə qeydə alınmış 121.975 nəfərdən 80,340 nəfəri (65,9%) türk-müsəlman, 37.885 nəfəri (31%) xristianlar və 3.750 nəfəri (3,1%) isə kürdlər olmuşdu [1, s.17]. Bu xristianların hamısı da sadəcə Qarabağ xanlığına şamil edilə bilməz. I Pyotrun yürüşü ərəfəsində erməni liderləri tərəfindən xüsusi olaraq hazırlanmış bu məktublarda digər məktublarla bağlı qeyd etdiy-

imiz kimi, rus çarını işğalçı yürüşə həvəsləndirmək üçün Qarabağda yaşayan xristianların hərbi qüvvələrinin sayı ifrat dərəcədə şişirdilmişdir.

İkinci cilddə Sisianovun Kürəkçay müqaviləsindən sonra Qarabağ xanlığı ilə münasibətlərinin tədqiqi baxımından əhəmiyyət kəsb edən Qarabağ xanına ünvanlanan məktubları da öz əksini tapıb. Bu məktublarda Şamaxıya köç edən qarabağlıların Qarabağa geri qaytarılması, Cavad ərazisinin Qarabağ xanlığının tərkibinə qatılması ətrafında gedən müzakirələr maraq doğurur. Belə ki, qarşılıqlı olaraq Şamaxı xanı ilə də yazışan Sisianov Mustafa xandan bu məsələlərlə bağlı müsbət cavab almır. Birinci məsələ ilə bağlı Şamaxı xanından aclıqla bağlı qarabağlıların Qarabağdan köç etməsi, ikinci məsələ ilə bağlı isə Mustafa xanın "Cavadın Qarabağ ərazisi olmasını təsdiq edən sənəd ortaya qoyularsa bu ərazini təhvil verə biləcəyi" cavabını İbrahimxəlil xana 2 sentyabr 1805-ci il tarixli məktubunda xatırladır. Lakin birinci məsələdə Rusiyanın təbəəsi olduğuna görə Qarabağ xanını sonuna qədər dəstəkləyəcəyini ifadə edir [8, s.665]. Yekunda isə 9 noyabr 1805-ci il tarixli məktubunda da Şamaxı xanı Mustafa xanla arzu edilən nəticənin danışıqlarla əldə edilə bilinməyəcəyini və ehtiyat üçün Qarabağ xanlığının 1000 nəfərlik süvari dəstə hazırlaması istəyi Sisianov tərəfindən İbrahimxəlil xana bildirilir [8, s.671]. Nəticədə Şamaxının taleyi sülh yolu ilə həll edilir. Sisianov Mustafa xana məktublarında Qarabağlı ailələrin, hətta "Qarabağda 80 il yaşayıb sonra Şirvana köçən Kəngərli və Ərəbli adlanan" əhalini də geri qaytarılmasını tələb edir. Bu barədə 10 yanvar, 20 yanvar 1806-cı il tarixli məktublarından məlumat alırıq [8, s.681, 682]. 1714 nömrəli 19 iyun 1805-ci il tarixli sənəddə mayor Lisaneviçin "Qarabağ ermənilərinə müraciət" adlı müraciət yer alıb [8, s.833]. Həmin müraciətdə belə qeyd olunur: "Doğurdanmı siz, öz cəsarəti ilə tanınan Qarabağ erməniləri, İbrahim xan Qarabağlı Ümumrusiya İmperiyasının əbədi təbəəliyini qəbul etdikdən sonra dəyişildiniz? ... Siz indi İmperator qüvvələrinə arxalanıb daha cəsur olmalı idiniz, lakin siz yalnız ticarət sahəsi ilə məşğul olan digər ermənilərə bənzəməyə, qadınabənzər olmağa başlamısınız. Sizdən kiminləsə müharibə aparmaq tələb olunmur... sizi güclü və məğlubedilməz Rusiya İmperiyasına Persiya qoşunlarına qarşı kömək etməyə çağırıram... Sizdən tələb olunan ... Rus qoşunları düşməni məğlub etdikdən sonra sadəcə o düşmənə arxadan öz süvarilərinizlə zərbə vurub qaçanları məhv etməkdir" [8, s.833].

Ümumiyyətlə, Qafqaz Arxeoqrafiya Komissiyasının Aktlarının ikinci cildində Rusiya imperiyası və Qacarlar İranı arasında gedən müharibənin gedişi zamanı Qarabağda cərəyan edən hadisələrlə bağlı maraqlı məlumatlar kifayət qədərdir. Belə məlumatlardan biri də knyaz Sisianovun əlahəzrət imperatora ünvanladığı raportdur [8, s.837-840]. Həmin raportda 11 iyuldan 24 iyula qədər Qarabağa hücum edən Baba xan sərdarın 40.000 qoşunun oradan uzaqlaşdırmaq məqsədi ilə edilən yürüşə dair gündəlik qeydlər başlıqlı əlavə öz əksini tapıb. Həmin qeydlərdən məlum olur ki, İbrahimxəlil xan ruslarla müqaviləyə sadiq qalmış və hətta müharibənin gedişində belə övladlarını kömək üçün xüsusi dəstələrlə hər gün Sisianovun düşərgəsinə göndərmişdir [8, s.840].

## Nəticə

Bütövlükdə, Qafqaz Arxeoqrafiya Komissiyasının aktlarının həm birinci, həm də ikinci cildində Qarabağ tarixi ilə bağlı kifayət qədər maraqlı və əhəmiyyətli məqamlar var. Xüsusilə də aktların birinci cildində Qarabağ xanlığında Rusiya imperiyasının maraqlarına xidmət edən, hər fürsətdə separatçılıq fəaliyyəti ilə məşğul olub xanlığı diqqətini əsas düşmənə yönəltmədən yayındıran xristian məliklər barədə mühüm məlumatlar verilir. Topluda həmin məliklər erməni məlikliyi kimi təqdim edilsə də aparılan tədqiqatın gedişində əldə edilən nəticələr, xüsusilə də məliklərin Rusiya imperiyasına ünvanladıqları məktublar bu fikri təkzib etməyə imkan verir. Ümumilikdə Qafqaz Arxeoqrafiya Komissiyasının aktlarının I cild XVIII əsrin II yarısından 1802-cı ilə qədər Qarabağ xanlığının tarixinə dair mühüm mənbə rolunu oynayır. Eynilə Qafqaz Arxeoqrafiya Komissiyasının aktlarının II cildi də xanlığın tarixində 1802-1806-cı illərdə baş vermiş mühüm hadisələrə - I Rus-Qacar müharibəsinin ilkin mərhələsində xanlığın vəziyyətinə, Kürəkçay müqaviləsinin imzalanmasına, Qarabağ xanlarının nəslinə qarşı təşkil edilən soyqırım aktına – dair dəyərli məlumatları özündə əks etdirir. Hər iki cildin tədqiqi Qarabağ xanlığının tarixinə dair bir çox qaranlıq məsələləri aydınlaşdırmağa imkan verəcəkdir.

**Açar sözlər:** *Qarabağ xanlığı, Qafqaz Arxeoqrafiya Komissiyasının aktları, İbrahimxəlil xan, Ümumrusiya İmperiyası, xristian məliklər.*

## ƏDƏBİYYAT SİYAHISI


1. *Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri. (Ön söz, tərcümə, qeyd və şərhlərin müəllifi Hüsaməddin Məmmədov (Qaramanlı). Bakı: Şuşa, 2000, 508 s.*
2. *Qarabağnamələr. [2 kitabda]: II kitab / Elmi redaktoru Nazim Axundov. Bakı: Yazıçı, 1991, 450 s.*
3. *Quliyev, C.Ş. Qafqaz Arxeoqrafiya Komissiyasının sənədləri Şimali Azərbaycanın Rusiya tərəfindən işğalını öyrənmək üçün mənbə kimi [Mətn] : tarix üzrə fəls. d-ru e. dər. al. üçün təq. ol. dis.: 5503.02 /C. Ş. Quliyev ; Azərb. Resp. Təhsil Nazirliyi, Lənkəran Dövlət Un-ti. Bakı, 2014, 131 s.*
4. *Mustafazadə T, T. Qarabağ xanlığı. AMEA A.A.Bakıxanov ad. Tarix İn-tu, Azərb. Tarix Qurumu.- Bakı: Sabah, 2010, 333 s.*
5. *Архив внешней политики Российской империи (АВПРИ), f. 100, 1723 g., д.1, л.2.; Махмудов Я.М., Наджафли Г.Дж. Игры великих держав по созданию армянского государства на территории Азербайджана. Бишкек, «Улуу Тоолор», 2021, 392 с.*
6. *Акты, собранные Кавказской археографической комиссией / https://runivers.ru/lib/book3029/9486/*
7. *Акты, собранные Кавказской археографической комиссией: [12-х томах]. Том I. Под редакцией: А.П. Берже. Тифлис: Тип. Главного Управления Наместника Кавказского 1866, 827 с.*
8. *Акты, собранные Кавказской археографической комиссией: [12-х томах]. Том II. Под редакцией: А.П. Берже. Тифлис: Тип. Главного Управления Наместника Кавказского 1868, 1238 с.*
9. *Описание Карабагской провинции (составленное в 1823 году, по распоряжению главноуправлявщаго в Грузии Ермолова, действительным статским советником Могилевским и полковником Ермоловым П-м. Тифлис: «В типографии управления наместника Кавказского», 1866//ARDTA, f.24, siyahı I, iş 141*
10. *Описание Карабахской провинции, составленное в 1823 году ... [подготовка ко второму переизданию и автор предисловия Гаджиева З.А.] Баку: Нурлан, 2003, 425 с.*


### The history of Garabagh Khanate in the Acts Collected by the Caucasian Archeographic Commission (description and analysis of the materials in I and II volumes)


**Samira Rahimova**
***Institute of History of the Azerbaijan National Academy of Sciences***



**SUMMARY**

The Acts Collected by the Caucasian Archeographic Commission (ACAC) are one of the famous sources on the history of Azerbaijani Khanates, including the Garabagh Khanate. Nowadays there is a necessity to issue a special investigation of the full package of documents on the history of the Garabagh Khanate from this collection. Preparing such publication the author for the first time proposes a review and analysis of the ACAC first and second volumes materials on the history of Garabagh Khanate of the end of the XVIII the beginning of the XIX century.



**Key words:** *Garabagh Khanate, Acts Collected by the Caucasian Archeographic Commission, Ibrahim Khalil Khan, All-Russian Empire, Christian Melikdoms.*


### История Карабахского ханства в Актах, собранных Кавказской Археографической Комиссией (описание и анализ материалов в I и II томах)


**Самира Рагимова**
***Институт истории Национальной Академии Наук Азербайджана***



**РЕЗЮМЕ**

Акты Кавказской археографической комиссии (АКАК) являются одним из известных источников по истории азербайджанских ханств, в том числе Карабахского ханства. На сегодняшний день возникает необходимость в отдельном изучении всего комплекса документов по истории Карабахского ханства из этого сборника. В рамках подготовки такой работы автором впервые предлагаются обзор и анализ извлеченных из первого и второго тома АКАК материалов по истории Карабахского ханства конца XVIII начала XIX в.



**Ключевые слова:** *Карабахское ханство, Акты, собранные Кавказской археографической комиссии, Ибрагим Халил-хан, Всероссийская империя, христианские меликства.*

Fəlsəfə və Sosiologiya

UOT 130.2

ÜLVİ MƏMMƏDOV
*AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutunun Sosial Fəlsəfə və Ekoloji Problemlər şöbəsinin doktorantı*

*E-mail: ulvi@phd.az*

# İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRDƏ TURİZMİNİN İNKİŞAFINDA MƏDƏNİ AMİLLƏR: SOSİAL-FƏLSƏFİ BAXIŞ

Mədəni amillər bir cəmiyyətin, toplumun və ya digər müəyyən bir qrupun ortaq olduğu inanclar, maddi və mənəvi mədəniyyət dəyərlərini, ənənələr, dil və qanunları və ya davranış qaydalarını özündə əhatə edən amillərdir. İlk baxışdan "Mədəni amillər" termini mədəniyyətlər üçün xarakterik olan ümumi münasibətləri və ya düşüncə nümunələrini özündə ehtiva edən, lakin potensial olaraq daha dərin fəlsəfi mahiyyətə malikdirlər. Mədəni amillər tarixən və günümüzdə də müxtəlif fəaliyyət sahələrinin öyrənilməsində nəzərə alınan əsas vacib elementlər sırasında dayanır. Bu nöqteyi-nəzərdən Azərbaycanın işğaldan azad edilmiş ərazilərində mədəni amillərin turizminin inkişafındakı rolunu və ona təsir imkanlarını fəlsəfi baxımdan nəzərdən keçirəcəyik. İnsanın daim yenilik axtaran bir varlıq olduğunu nəzərə alsaq, onun üçün səyahət etmək arzusu, müxtəlif dərəcədə tanımadığı bir yeri kəşf etmək xəyalı, yeni təcrübə yaşamaq istəyi, xarici mədəniyyətlər və onların təzahürlərini duymaq ehtirası, keçmişdə yaşananlara yenidən qayıtmaq həvəsi sözü gedən əraziləri, həm ölkə daxilində, həm də ölkə xaricində olduqca cazibədar edir. Mədəniyyət və mədəni irs insanların kimliyi, özünə hörmət və ləyaqət üçün çox vacibdir. Müxtəlif mədəniyyətlər arasındakı əlaqə və münasibətlərin inkişafı uzunmüddətli perspektivdə sülh yaratmaq və onu qorumaq üçün bir vasitə kimi qəbul edilə bilər. Bu baxımdan, xüsusilə turizmin inkişafının ana sütununu təşkil edən əsas amillərə: təhlükəsizlik, infrastruktur və kommunikasiyaların, tarixi-mədəni abidələrin bərpası, ekoloji təhlükəsizliyinin təmin edilməsi və ətraf mühitin mühafizəsinin təşkili, müxtəlif idam və mədəniyyət tədbirlərin keçirilməsinin vacibliyinə diqqət yetirməliyik.

Müharibələr, etnik münaqişələr və vətəndaş müharibələri kimi hadisələr adətən ölkənin sosial-iqtisadi sistemini zəiflədir, sənaye quruluşuna sarsıdıcı zərbə vurur. Münaqişədən sonrakı vəziyyətdə isə ölkənin sosial-iqtisadi bərpasını dəstəkləmək və ya idarə etmək üçün ən əlverişli sahələrdən biri olaraq turizm bir fürsət kimi dəyərləndirilir. Post-konflikt dövründə münaqişədən əziyyət çəkmiş regionun bərpası və inkişafında turizm sənayesinin düzgün planlaşdırılması əhəmiyyətli rola malikdir. Turizm mədəniyyətin təbliği və iqtisadi inkişaf baxımından münaqişədən zərər görmüş bölgələr üçün çox vacib bir vasitədir. Xarici valyuta, beynəlxalq investisiyaların cəlb edilməsi, vergi gəlirlərinin artırılması və post-konflikt dövründə əhalinin işlə təmin edilməsi imkanları prioritet sahə kimi turizmi ölkənin əsas sosial-mədəni və sosial-iqtisadi siyasətinin tərkib hissəsinə çevirir. Yarandığı gündən turizm sənayesi turist qəbul edən ölkələrdə yalnız yerli iqtisadiyyatı inkişaf etdirmək üçün iqtisadi qaynaqları koordinasiya edən bir fəaliyyət olaraq başa düşülmür, eyni zamanda sosial-mədəni inkişafın, firavanlığın, barış və sülhün göstəricisi rolunda çıxış edir. Lakin bu inkişaf müəyyən məhdudiyyətlərlə əhatələnir. İlk baxışdan turizmin inkişafını şərtləndirən məsələlər bir sıra mədəni amillərlə əlaqələndirilsə də, digər tərəfdən, turizm sənayesi mədəni-iqtisadi sektorun elə bir sahəsidir ki, qarşıdurmalar, iğtişaşlar və müharibələr kimi pozucu hadisələrə həssas olub turist qəbul edən regionun təhlükəsizliyinin təminatına bağlıdır. Təhlükəsizlik və güvənlik turizmin keyfiyyətini təmin etmək üçün həyati əhəmiyyət daşıyır. Turizmin inkişafının uğurlu və ya uğursuz olması mədəni-iqtisadi fəaliyyətdən daha çox ziyarətçilər üçün təhlükəsiz və etibarlı bir mühitin formalaşmasından başlayır. Mərkəzi Florida Univerisitetinin turizm menecmenti üzrə tədqiqatçı alimi Abraham Pizam qeyd edir ki, " Müəyyən bir təhlükəsizlik şəraitində turizm sisteminə zərər vura biləcək dörd mümkün faktor bunlardır: a) cinayətlə əlaqəli hadisələr; b) terrorizm; c) müharibə; d) siyasi iğtişaşlar; (1, 3) Bu faktorların turizm sənayesinə uzunmüddətli mənfi təsirini dünyanın müxtəlif yerlərində baş verən xoşagəlməz hadisələrin inkişafında müşahidə edə

bilərik. Göründüyü kimi təhlükəsizlik və güvənlik məsələləri turizmin inkişafında və turistlərin rahat və təhlükəsiz səfərlərinin təminində əsas amillərdən biridir.

Post-konflikt dövründə təhlükəsizlik və güvənlik məsələləri ilə yanaşı münaqişədən əziyyət çəkmiş ərazilərin yenidən qurulması, sosial-iqtisadi və sosial-mədəni inkişafın davamlılığını təmin etmək turizmin inkişafına da təsir edən başlıca amillərdəndir. 2020-ci ildə 44 günlük Vətən müharibəsi nəticəsində Azərbaycan işğal altında olan öz ərazilərinin əksər hissəsini erməni işğalçılarından azad etdi. Torpaqlarımızın işğaldan azad edilməsi Azərbaycanın qazandığı hərbi uğur ilə yanaşı Azərbaycanın geo-siyasi, sosial-iqtisadi və mədəni həyatının inkişafı üçün də münbit şərait yaratmışdır. Torpaqlarımızla bərabər Azərbaycan mədəniyyətinin ayrılmaz hissəsini təşkil edən tarixi-mədəniyyət abidələrimiz də düşmən əsarətindən xilas olundu. Otuz ilə yaxın müddət ərzində işğal altında qalan torpaqlarımızdakı tarixi mədəniyyət abidələri işğalçılar tərəfindən, ya vandalizmə məruz qalmış, ya da həmin abidələr saxta yollarla özününküləşdirilmişdir. Bununla kifayətlənməyən işğalçılar bir çox hallarda Azərbaycan mədəniyyətində böyük tarixi əhəmiyyətə malik qədim insan məskənlərini, tarixi-arxeloji memarlıq abidələrini və bunlarla əlaqədar yer altında olan maddi mədəniyyət nümunələrini, o cümlədən ibtidai insan düşərgələri və yaşayış məskənlərini qanunsuz mənimsəyib onların istifadəsindən bəhrələnmişdir. Maddi mədəniyyət abidələri ilə yanaşı təbii sərvətlərimiz və turizm sahəsinin inkişafi üçün gözəl təbiəti, əlverişli relyefi, zəngin mineral sulara malik torpaqlarımız uzun müddət işğalçılar tərəfindən qeyri-qanuni istismara məruz qalmışdır. Ermənistanın Azərbaycana qarşı apardığı hərbi təcavüz nəticəsində şübhəsiz ki, şəhər və kəndlərin, qədim yaşayış məskənlərinin dağıdılması, o cümlədən 1992-ci il mayın 8-də Şuşa şəhərinin işğalı və şəhərdə xalqımızın tarixi-mədəni irsinin məhv edilməsi siyasətinin həyata keçirilməsi bütövlükdə Azərbaycanın dünya mədəniyyətindəki izlərini aradan götürmək məqsədi daşıyırdı. Azərbaycan tarixinin bir parçası olan Şuşa şəhəri Azərbaycanın tarixi-mədəni, ictimai-siyasi həyatında mühüm yer tutmuşdur. Bununla bağlı Şuşa şəhərinin Azərbaycanın mədəniyyət paytaxtı elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamında qeyd olunur ki, “1977-ci ildə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin təşəbbüsü ilə “Şuşa şəhərinin tarixi hissəsini tarix-memarlıq qoruğu elan etmək haqqında” qərar qəbul edilmişdir. Həmin qərar nəticəsində Şuşada abidələrin qorunması, görkəmli mədəniyyət və incəsənət xadimlərinin xatirələrinin əbədiləşdirilməsi istiqamətində əhəmiyyətli addımlar atılmışdır. Tarixi-mədəni əhəmiyyəti və Azərbaycan xalqı üçün müstəsna mənəvi dəyərə malik olması Şuşaya xüsusi qayğı və həssaslıqla yanaşılmasını zəruri edir. Bu baxımdan, Şuşada dövlət idarəetməsinin və hüquqi tənzimləmənin daha da təkmilləşdirilməsi şəhərdə tarixi-mədəni irsin bərpasına və qorunub saxlanmasına xidmət etməklə yanaşı, onun daim inkişafına şərait yaradacaqdır” (2, a).

İşğaldan azad edilmiş ərazilərin inkişafı baxımından dövlətimizin atdığı addımlar təqdirə layiqdir. Azərbaycan mədəniyyətinin təbliği təkcə onun qədim və zəngin tarixi ənənələrə malik olması faktını deyil, həm də bu təbliğat cəmiyyətimizin sosial-mədəni-iqtisadi həyatının inkişafı üçün zəruri amilə çevrilmişdir. Bunun üçün bir sıra kompleks tədbirlərin həyata keçirilməsi əhəmiyyətli xarakter daşıyır.

İlk növbədə, işğaldan azad edilmiş ərazilərdə sosial infrastruktur layihələrinin uğurla həyata keçirilməsi siyasəti davamlı olmalıdır. Bu hədəflərə çatmaq üçün isə əsas prioritet vəzifə kimi regionda sülhə nail olmaq və stabillik yaratmaq məsələsi ön planda durmalıdır. Qeyd etməliyik ki, müasir dövrdə uğurlu iqtisadi və sosial siyasətin aparılması münaqişələrin qarşısının alınmasında əhəmiyyətli rola malikdir. Təəssüf ki, uzun müddət Ermənistanın Azərbaycana qarşı apardığı təcavüzkar işğalçı siyasəti etnik azərbaycanlıların öz tarixi yurd-yuvalarından qovulması ilə nəticələnmişdir. Bunun tam əksinə isə Azərbaycan cəmiyyəti, həm dövlət siyasətində, həm də cəmiyyətin ictimai yanaşmasında işğalçı erməni separatçılarının əsarətində olan erməni əsilli Azərbaycan vətəndaşları ilə birgə yaşayış ümidlərini heç zaman itirməmişdir. Bu isə post-konflikt dövründə xalqların birgəyaşayış perspektivinə zəmin yaradaraq Azərbaycan xalqının multikultural dəyərlərə sahib tarixi ənənələrinə söykənir. İşğaldan azad olunmuş ərazilərdə yenidənqurma işlərinin aparılması müasir dövrün tələblərinə uyğun for-

mada aparılmalıdır. Müasir texnologiyanın tərkib hissəsi olan süni intellektin verdiyi imkanlardan istifadə olunmaqla işğaldan azad olunmuş ərazilərdə bərpa işlərinin aparılması mədəni fəaliyyətin və turizmin inkişaf etdirilməsi, onların Azərbaycanın dünya miqyasında təbliğindəki rolu, həm sosial-iqtisadi, həm də siyasi-mədəni baxımdan ölkəmizin inkişafında uğurlu addımlardan olacaqdır. Təsadüfi deyil ki, Prezident İlham Əliyevin təşəbbüsü ilə işğaldan azad edilmiş ərazilərdə "Ağıllı kənd" konsepsiyası əsasında quruculuq işlərinə start verilmişdir. Sözügedən infrastruktur layihələrinin həyata keçirilməsi üçün Azərbaycan böyük potensiala malikdir. Nəzərə alsaq ki, bərpa işləri aparılan ərazilərimiz potensial olaraq ekoloji cəhətdən təmiz, alternativ və bərpa olunan enerji mənbələri ilə zəngindir, o zaman bu işlər tezliklə öz müsbət nəticəsini verəcəkdir. Bütün bu layihələr uzun müddət yurd-yuvalarından köçkün düşmüş vətəndaşlarımızın yalnız öz tarixi vətənlərinə qayıtması və sosial-siyasi hədəflər ilə nəticələnmir, eyni zamanda, iqtisadi-mədəni baxımdan, turizm infrastrukturu üçün də münbit şərait yaradır. İşğaldan azad edilmiş ərazilərdə infrastruktur layihələrinin həyata keçirilməsi çərçivəsində turizmin inkişafında olduqca əhəmiyyətli yer tutan digər bir məsələ də kommunikasiyaların açılmasıdır. Uzun müddət işğal altında qalmış bu ərazilərdə yaşayış məntəqələrinin vandalcasına dağıdılması nəticəsində kommunikasiya xətlərinin sıradan çıxması yenidən bu sahənin də bərpasını zərurətə çevirmişdir. Bərpa ediləcək şəhər və kəndlər arasında yol-nəqliyyat infrastrukturunun yenidən qurulması və onların davamlı inkişafı əhalinin sosial-mədəni və sosial-iqtisadi vəziyyətinin yüksəlməsinə də xidmət edəcəkdir. İşğaldan azad olmuş rayonlarda beynəlxalq hava limanlarının inşası nəinki həmin ərazilərin sosial-iqtisadi inkişafına, həmçinin ümumilikdə Azərbaycanın hər bir regionunun əlçatanlığına imkan verəcəkdir. Bu barədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 26 aprel 2021-ci il tarixində Zəngilanda Beynəlxalq Hava Limanının təməl qoyma mərasimində demişdir: "...Azad edilmiş torpaqlarda ikinci hava limanının tikintisinə start verilibdir. Artıq Füzuli Beynəlxalq Hava Limanının tikintisi uğurla gedir. Bu il Füzuli hava limanının uçuş-enmə zolağı istismara veriləcəkdir. Beləliklə, biz bu il ilk təyyarələri Füzulidə qəbul edə biləcəyik.

Zəngilan rayonunun coğrafi yerləşməsi və burada olan imkanlar təbii ki, Zəngilanı beynəlxalq nəqliyyat-logistika mərkəzinə çevirmək üçün imkanlar yaradır. Təsadüfi deyil ki, hava limanı məhz Zəngilanda inşa ediləcək. Çünki coğrafi vəziyyətə baxdıqda hər kəs görə bilər ki, Füzuli, Zəngilan və ondan sonra Laçın rayonunda inşa ediləcək üçüncü beynəlxalq hava limanı bütün Qarabağ və şərqi Zəngəzur zonasını Zəngilan daxil olmaq şərtilə əhatə edəcək. Buradan dəmir yolu, avtomobil yolu keçəcək, Naxçıvana yol açılacaq. Əlbəttə ki, Zəngilanın gələcək uğurlu sosial-iqtisadi inkişafı üçün bu hava limanının böyük rolu olacaqdır" (2, b).

Uzun müddət erməni işğalçılarının qeyri-qanuni istismarına məruz qalmış ərazilərdə bütün yaşayış məntəqələrinə aid infrastruktur demək olar ki, tamamilə məhv edilmiş, bununla kifayətlənməyən işğalçılar Azərbaycan xalqına məxsus tarixi-mədəni, dini abidələrə, musiqi irsinə və etnik-mədəni dəyərlərə də ağır zərbələr vurmuşlar. Təəssüflə qeyd etməliyik ki, erməni işğalçıları təkcə yaşayış məskənlərini deyil, həmçinin mədəniyyət abidələrini də vandalizmə məruz qoymuşdur. Xüsusilə vurğulamalıyıq ki, təcavüzkar Ermənistanın təşkilatçılığı ilə Azıx mağarası, eləcə də Ağdam rayonunda yerləşən Şahbulaq qəsrinin ətrafında xarici ölkələrdən olan bəzi "mütəxəssislərin" də daxil edildiyi saxta arxeoloji ekspedisiyalar tərəfindən qanunsuz qazıntı işləri aparılmışdır (3). Ermənistanın hərbi birləşmələri müsəlman tarixi dini-memarlıq abidələrinə xüsusi amansızlıq nümayiş etdirmiş, məscidləri dünyanın heç bir yerində rast gəlinməyən, ən iyrənc formada vandallizmə məruz qoymuşdurlar. Onu da bildirməliyik ki, Ermənistanın təcəvüzü yalnız müsəlman tarixi dini-memarlıq abidələri ilə yekunlaşmır. Bu anti-bəşəri davranışlar xristian tarixi-dini abidələrinə münasibətdə də özünü göstərmişdir. Belə ki, Qafqaz Albaniyasına aid bir çox məbədlər, o cümlədən Kəlbəcər rayonunda yerləşən Xudavəng və Gəncəsər monastırları işğalçı erməni birləşmələrinin təcavüzünə uğramışdır (4).

Post-konflikt dövründə işğaldan azad edilmiş ərazilərdə müasir dövrün tələblərinə cavab verən infrastruktur layihələrinin həyata keçirilməsi ilə yanaşı Azərbaycan mədəniyyətinin tərkib hissəsi olaraq maddi mədəniyyət abidələrimizin bərpası da zəruri xarakter daşıyır. Əgər həmin ərazilərdə müasir standartlara cavab verən, ekoloji və iqtisadi

cəhətdən səmərəli xarakter daşıyan yenidənqurma işləri Azərbaycanın siyasi və sosial-iqtisadi maraqlarına tam cavab verirsə, maddi-mədəni və mənəvi irsin bərpası da Azərbaycan xalqının mənəvi ruhunun, özünə inam hissinin, gələcəyə baxış fəlsəfəsinin gerçəkləşdirilməsində müstəsna rol oynayacaqdır. Mədəni irsinin bərpası, qorunması və saxlanılması eyni zamanda Azərbaycan turizminin inkişafına da öz müsbət təsirini göstərəcəkdir. Azərbaycan mədəniyyəti dünya mədəniyyətinin ayrılmaz tərkib hissəsi kimi ölkəmizin dünyada mədəni müxtəlifliyə, xalqımızın multikultural dəyərlərə sahib olmasını bir daha sübut edəcək. İşğala son qoymaqla və post-konflikt dövründə mədəni turizmin təşkili ilə mədəniyyətimizin təbliğində Azərbaycanın dünyada qədim yaşayış məskənlərindən biri olduğunu sərgiləmək artıq praktiki baxımdan bir reallıqdır. Bu baxımdan, Azərbaycan tarixinin əsas abidələrindən olan və qədim insanlarımızın yaşadığı Azıx mağarasının UNESCO-nun Ümumdünya İrsi obyektlərinin siyahısına salınması vacibdir. Azıx mağarasına turistlərin ziyarətinin gerçəkləşməsi eyni zamanda mədəni turizmin bir hissəsi kimi Azərbaycanın digər ərazilərində arxeoloji turizmin inkişafına da təkan verə bilər.

Azərbaycanın qədim yaşayış məskəni olması, ən qədim dövrlərindən günümüzədək müxtəlif dini inanc və etiqadlara malik etnik qruplara ev sahibliyi etməsi tarixi-mədəni baxımdan özünü maddi mədəniyyət nümunələrində və tarixi mədəniyyət abidələrində əks etdirməklə bərabər, eyni zamanda ölkəmizin dünyada tolerantlıq, birgəyaşayış dəyərlərinə sahib olduğunu da nümayiş etdirir. Həm müsəlman tarixi abidələrinin - məscidlərin, türbələrin bərpası, həm də Azərbaycan tarixinin ayrılmaz hissəsi olan Qafqaz Albaniyasına məxsus xristian dini abidələrin – monastırların öz orijinal vəziyyətinə qaytarılması Azərbaycan cəmiyyətinin mədəni-mənəvi dəyərlərə sahib çıxdığını dünyaya bir daha nümayiş etdirəcək. Fikrimizi əsaslandırmaq üçün xristianlığının ən böyük ilahiyyatçılarından və filosoflarından biri, Xristian kilsəsinin müqəddəs atası Avqustinin bir aforizmini xatırlayaq. Avqustin deyirdi ki, "Dünya bir kitabdır, səyahət etməyənlər onun yalnız bir səhfəsini oxuyar" (5). Bu baxımdan, Azərbaycan mədəniyyətinin çeşidliyi, onun müxtəlif dini-etnik-tarixi köklərə söykənməsi, günümüzdə də inkişafı və qorunub saxlanması dünya üçün oxunulası yeni bir səhfə açır.

İşğaldan azad olunmuş ərazilərdə tarixi-mədəni abidələrin bərpası, onların qorunması və mədəni turizmin inkişafı üçün istismara verilməsi qədər həmin ərazilərin təbii-coğrafi mövqeyi, ekoloji təhlükəsizliyinin təmin edilməsi və ətraf mühitin mühafizəsinin təşkili də əsas mədəni amillərdəndir. Təəssüflər olsun ki, erməni işğalçıları işğal olunmuş ərazilərin iri yaşayış məntəqələri, onların infrastruktur və maddi mədəniyyət abidələri ilə yanaşı təbiətinə də ağır zərbələr vurmuş, ətraf mühitin ekoloji fəlakətinə səbəb olmuşlar. 10 Noyabr 2020-ci il Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının baş naziri və Rusiya Federasiyasının Prezidentinin bəyanatının (2, c) müvafiq bölməsində Ermənistan Respublikası 15 noyabr 2020-ci il tarixinədək Azərbaycan Respublikasına Kəlbəcər rayonunu, 1 dekabr 2020-ci il tarixinədək isə Laçın rayonunu qaytarmasını razılaşdırdıqdan sonra erməni vandalları Kəlbəcər və Laçın rayonlarını tərk edərkən ağacların kəsilməsini, meşələrin yandırılmasını həyata keçirmişdir. Bütün bunlar dünyanın aparıcı KİV-lərində işıqlandırılmış və ətraf mühitə vurulan ekoloji terror pislənmişdir. Təbii ki, müasir dünyada belə hadisələr heç bir etik çərçivəyə sığa bilməz. Bu cür xoşagəlməz olayların qarşısını almaq və onları sivil dünyanın qınaq obyektinə çevirmək üçün biz turizmin imkanlarından da təbliğat kimi istifadə etməliyik. Eyni zamanda turizmin inkişafı istiqamətində atılan bu addımlar özündə etikanı, onun norma və prinsiplərini ehtiva edən dəyərləri aşılamalıdır. Etika – mənəviyyat, davranış normaları, insanın seçim azadlığı haqqında bir elmdir (6, 3). Turizmdə etika isə adətən etik kodlar - qayda və qadağalar şəkilində üzə çıxır, hansılar ki, fərdlərə və qruplara yardım etmək üçün hazırlanır və bir sıra sosial-mədəni, iqtisadi və ekoloji mülahizələri nəzərdə tutan ən ümdə maraqlarla birgə fəaliyyət göstərir (7, 212).

Əlverişli təbii şəraitə malik işğaldan azad edilən ərazilərimizdə ekoloji təhlükəsizlik və ətraf mühitin mühafizəsinin təşkili ölkəmizdə davamlı turizm mədəniyyətinin formalaşmasında və inkişafında yeni bir dövrə qədəm qoyur. Davamlı turizmin inkişafı mövcud turistlərin və onların səyahət etdiyi bölgələrin ehtiyaclarını qarşılayır, gələcək üçün imkanları qoruyur və daha da inkişaf etdirir (8). Burada mədəni bütövlüyü, əsas ekoloji prosesləri,

biomüxtəlifliyi dəstəkləyən sistemlər qorunub saxlanarkən, eyni zamanda iqtisadi, sosial və estetik ehtiyacların həyata keçirilməsi də nəzərdə tutulur. Başqa sözlə, davamlı inkişafın tərkibində yer alan davamlı turizm gələcək nəsillərin öz ehtiyaclarını ödəmək qabiliyyətinə xələl gətirmədən bu günün ehtiyaclarına cavab verən sosial-iqtisadi, sosial-ekoloji və sosial-mədəni fəaliyyətdir. Bu baxımdan Kəlbəcərin zəngin təbii resursları, sağlamlıq turizminin inkişafına böyük töhfə verə biləcək təbii mineral sularının əhəmiyyətini vurğulaya bilərik.

Azərbaycan turizminin inkişafında rol oynayan daha bir mədəni amil isə həm ölkənin dünyada mədəni təbliğində, həm də iqtisadi-siyasi baxımdan son illərdə Azərbaycanın ev sahibliyi etdiyi kütləvi idman və mədəniyyət tədbirləridir. Təsadüfi deyildir ki, erməni işğalçılarından torpaqlarımız azad edildikdən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tövsiyəsi nəticəsində Vaqif Poeziya günləri və "Xarıbülbül" festivalı bərpa olunmuşdur. 2021-ci il mayın 12-i və 13-də Şuşa şəhəri Ermənistanın işğalından azad olunandan sonra ilk dəfə "Xarıbülbül" festivalı keçirilmişdir. Hələ Qədim Yunanıstan və Romada Saturnalia (Saturunun şərəfinə keçirilən bayram tədbiri ) kimi festivallar, dinlə yanaşı ictimai təşkilatlanma və siyasi proseslərlə sıx əlaqəli idi (9). Müasir dövrdə də eksantrik və ya tarixi-mədəni səciyyə daşıyan festival və bayramların bəziləri turistlərin diqqətini cəlb edir. Bu baxımdan, hələ Qarabağ xanlığı dövründən bir sıra bayram tədbirlərinin, at yarışları, çövkən oyunlarının keçirildiyi Şuşa şəhəri yaxınlığındakı Cıdır düzünün əhəmiyyətini vurğulamaq yerinə düşər. Azərbaycanın tarixi-ənənələrinə söykənən, milli folklorumuzda yer alan kütləvi mədəniyyət və idman tədbirlərinin yenidən Azərbaycanın tarixi torpaqlarında qeyd olunması şübhəsiz ki, Azərbaycanın mədəni-iqtisadi həyatında, turizminin inkişafında əvəzsiz rol oynayacaqdır.

**Açar sözlər:** *Turizm siyasəti, dövlət siyasəti, mədəni amillər, münaqişədən sonrakı inkişaf, mədəniyyət fəlsəfəsi, davamlı inkişaf, mədəni irs, ekoloji mədəniyyət, multikulturalizm, mədəniyyətlərarası kommunikasiya.*

## ƏDƏBİYYAT SİYAHISI

*1. Y. Mansfeld & A. Pizam, Tourism, Security & Safety. Oxford: Elsevier Inc. (2006), p. 361*

*2. a) https://president.az/articles/51394 b) https://president.az/articles/51295 c) https://president.az/articles/45924*

*3. http://www.science.gov.az/az/news/open/16463*

*4. http://www.dqdk.gov.az/az/view/objects/8*

*5. Thomas Fielding (John Wade), Select Proverbs of All Nations. London, (1824) p.216*

*6. Мамедзаде Ильхам, Введение в этику. Баку: Муаллим, (2004), 160 с.*

*7. John Tribe, Philosophical Issues in Tourism, Bristol: Channel View Publications (2009), p. 272.*

*8. https://www.unwto.org/sustainable-development*

*9. J. Rasmus Brandt and Jon W. Iddeng, Greek and Roman Festivals: Content, Meaning, and Practice., Oxford: Oxford University Press (2012), p. 432.*

## SUMMARY

In the article, the author looks over the cultural factors that play a role in the development of tourism, analyzes their potential impact on the development of Azerbaijani tourism in the recently liberated territories from a socio-philosophical point of view.

**Keywords:** *Tourism policy, state policy, cultural factors, post-conflict development, philosophy of culture, sustainable development, cultural heritage, environmental culture, multiculturalism, intercultural communication.*

## РЕЗЮМЕ

В статье автор рассматривает культурные факторы, которые играют роль в развитии туризма, анализирует возможности влияния культурных факторов на развитие туризма Азербайджана на освобожденных территориях с социально-философской точки зрения.

**Ключевые слова:** *туристическая политика, государственная политика, культурные факторы, постконфликтное развитие, философия культуры, устойчивое развитие, культурное наследие, экологическая культура, мультикультурализм, межкультурная коммуникация.*

UOT : 31.0

# İNTELLEKTUAL KAPİTALIN FORMALAŞMASI DÖVLƏTİN İNNOVASİYA SİYASƏTİNİN TƏRKİB HİSSƏSİ KİMİ

**NƏRMİN GÖYÜŞLÜ**
*Azərbaycan Turizm və Menecment Universiteti, Beynəlxalq münasibətlər kafedrasının Sosial dəyişiklik və inkişaf ixtisası üzrə doktorantı*

Qlobal çərçivədə intellektual resurslar təkcə iqtisadi inkişafın bazis resursuna deyil, eyni zamanda bu inkişafın əsas prioritet istiqamətinə çevrilmiş olur. Cəmiyyətin həyatında baş verən mənfi və müsbət sosial və iqtisadi xarakterli transformasiyalar intellektual kapitalın xüsusiyyətinə təsir edir. Bu mənada intellektual kapitalın qorunması, onun inkişafının düzgün istiqamətdə qurulması dövlətin önəmli vəzifələrindən birinə çevrilir.

İntellektual potensialın effektiv iqtisadi inkişafın təmin edilməsində həlledici rolu ilk növbədə dünyanın inkişaf etmiş ölkələri tərəfindən qəbul edilmişdir. Bu səbəbdən XX əsrin 90-cı illərindən başlayaraq bu ölkələrdə intellektual kapitalın sərmayələşməsinə dövlət resurs və maliyyə mənbələrinin yarıdan çoxu sərf edilməyə başlanmışdır. Bu gün belə dünyanın inkişaf etmiş dövlətlərində intellektual sektorun sərmayələşməsinin 50 % dən çoxu dövlət vəsaitləri hesabına həyata keçirilir.

Hesab edilir ki, dövlət tərəfindən intellektual potensialın gücləndirilməsi ilə bağlı görülən tədbirlər birlikdə dövlətin innovasiya siyasətinin tərkib hissəsinə daxildir.

Müasir innovasiya siyasəti dövlətin sosial – iqtisadi siyasətinin tərkib hissəsi olmaqla hakimiyyət orqanlarının elm, texnika və elmi-texniki nəaliyyətlərinin həyata kecirilməsi sahəsində apardığı fəaliyyətin məqsədini, istiqamət və formalarını müəyyənləşdirir. Müvafiq siyasətin əsasını elmi-texniki inkisafın konseptual hüquqi əsasları təşkil edir. Həmin əsasların işlənib hazırlanması zamanı əsaslandırılmış müddəalar elmin aparıcı sahələrinin inkisaf istiqamətlərinin və texnoloji proseslərin yerləşdirilməsi tədbirlərini əhatə etməlidir. Bu zaman elmi-texniki inkisafın stimullaşdırılması sisteminin təkmilləşdirilməsi, elmin və texnikanin prioritet inkisaf istqamətlərinin seçilməsi, lisenziya-patent hüquqi, eləcə də intellektual mülkiyyət hüquqların qorunması, elmi infrastrukturun yeniləşdirilməsi, elmi kadrların mövcud tələblər səviyyəsində hazırlanması və s. kimi tədbirlər diqqət mərkəzində saxlanılmalıdır.[1, s.53]

Dövlətin innovasiya siyasətinin realizəsi intellektual potensialın formalaşmasının əsas şərtlərindən biridir. İntellektual potensial burada bütöv təsərrüfat sahələrinin və ayrı-ayrılıqda firmaların elmtutumlu məhsul istehsal etməsini şərtləndirir. Bu elmtutumlu məhsullar adətən dünya bazarının tələbinə uyğun olur.

Hesab edilir ki, dövlət innovativ fəaliyyətin stimullaşdırılması üçün bir sıra tədbirlər həyata keçirə bilir:

Dövlət ehtiyaclarının ödənilməsi üçün müasir texnologiyaların və elmtutumlu innovativ məhsulların satınalmasını təşkil etməklə bu məhsulların və texnikanın tətbiqinə qarant durur.

İnnovativ fəaliyyətlə bağlı hüquqi bazanın təkmilləşdirilməsini və inkişafını təmin edir.

Dövlət büdcəsindən innovativ proyekt və proqramların reallaşdırılması üçün vəsait ayrırır.

Xüsusi qanunvericiliyə uyğun formada, milli maraqları nəzərə alaraq, innovativ fəaliyyətin reallaşdırılması üçün istər xarici, istər yerli sərmayə qoyuluşuna güzəştli şərtlər təklif edir.

Dünya praktikasında dövlət tərəfindən innovativ fəaliyyətin stimullaşdırılması üçün aşağıdakı tədbirlərdən istifadə edirlər:

• Tədqiqat mərkəzlərinə və sahibkarlıq subyektlərinə tədqiqat və sərmayə kreditləri ayrılır;
• İnnovativ məhsulların istehsalına vergilərin azaldılması;
• Elm tutumlu məhsulların istehsalı ilə məşğul olanların uzun müddət vergilərdən azad edilməsi;
• IC -nin istifadəsi nəticəsində əldə edilən gəlirin güzəştli vergitutma;
• Reallaşdırılıan layihələrin prioritetliliyi nəzərə alınmaqla güzəştlərin verilməsi;
• Dövlət və sahibkarlıq subyektləri arasında birgə və xüsusi layihələrə yönəlmiş gəlir vergisi dərəcələrinin azaldılması;[2]

Ölkənin intellektual potensialının formalaşması qlobal rəqabətə davamlı milli

innovasiya sisteminin formalaşması olmadan

mümkün deyil. Milli innovasiya sistemi özü-özlüyündə bilik və texnologiyaların istehsalı və kommersiya tətbiqi ilə məşğul olan, bir-biri ilə əlaqəli təhsil, elm, sahibkarlıq və qeyri-kommersiya təşkilatlarının qarşılıqlı fəaliyyətini təmin edən hüquqi, maliyyə və sosial institutların kompleksidir.

Ölkənin intellektual potensialını yaratmaq məqsədi, qabaqcıl elmi-texniki inkişaflara əsaslanan istehsalın geniş miqyaslı texnoloji yenilənməsi, iqtisadiyyatın innovativ inkişaf yoluna keçməsini təmin edən rəqabətədavamlı milli tədqiqat və inkişaf sektorunun formalaşdırılmasıdır.

Bu və ya digər ölkədə intellektual potensialın yaradılmasında əsas məqsəd istehsalın öncül elmi-texniki ixtiralara əsaslanaraq miqyaslı şəkildə texnoloji yenilənməsini təmin etmək, beynəlxalq rəqabətə davamlı milli tədqiqat və araşdırma mərkəzlərinin yaradılması, iqtisadiyyatın innovativ inkişaf vektoruna keçməsi, bütövlükdə əhalidə və konkret olaraq müəssisələrdə innovativ davranış və fəaliyyət modelini formalaşdırmaq, iqtisadiyyatın bütün sahələrində innovasiyaların yaradılması və tətbiqi ola bilər.

Dövlət intellektual kapitalın tənzimlənməsi prosesində iştirak etməlidir. Bu iştirakı zəruri edən bir sıra amillər var. Belə ki, biliyə əsaslanan iqtisadi sistem şəraitində müstəqil şəkildə bazar mexanizmləri intellektual kapitalın təkrar istehsalı ilə məşğul ola bilmir yaxud bu prosesin öhdəsindən gələ bilmir. Ümumiyyətlə azad bazar iqtisadiyyatı mühitində intellektual resursları və kapitalı nəzarətsiz qoymaq olmaz. Eyni zamanda intellektual məhsulların istehsalı prosesini də nəzəratsiz qoymaq mümkün deyil. Belə hesab edilir ki, azad bazar mühitində sahibkarlıq subyektləri dövlətdən fərqli olaraq intellektual potensialı strateji amil kimi nəzərdən keçirmir və bu mənada bilik məhsulları tez bir zamanda sərbəst alqı-satqı obyektinə çevrilə bilər. Yeni innovasiyalara əsaslanan iqtisadiyyat şəraitində intellektual kapitalın formalaşdırılmasının idarə edilməsi dövlətin funksiyalarından birini təşkil edir.

İntellektual kapitalın formalaşdırılmasının idarə olunması təsərrüfat subyektlərinin innovativ fəaliyyətinin stimullaşdırılmasına, istehsal qabiliyyətinin artmasına, milli iqtisaqdiyyatın effektivliyinin yüksəlməsinə, onun rəqabət qabiliyyətinin artmasına təsri edir ki, bu da son nəticədə cəmiyyətin bütövlükdə və onun hər bir üzvünün ayrıayrılıqda rifah halının yaxışlaşmasına gətirib çıxarır. İntellektual kapitalın formalaşdırılması və idarə edilməsi funskiyasını öz üzərinə götürən dövlət artıq bilik iqtisadiyyatı quruculuğuna başlayır. Bu quruculuq prosesində dövlətin yeni vəzifələri meydana gəlir:

Bilik iqtisadiyyatının formalaşdırılması ilə əlaqədar dövlətin məqsəd və vəzifələrinin formalaşdırılması, bununla əlaqədar elmi tədqiqat institutlarının fəaliyyət istiqamətinin müəyyən edilməsi;

Qeyd edilməlidir ki, bu və ya digər ölkədə formalaşan və inkişaf edən intellektual potensialın əsas nəticələrindən biri bilik iqtisadiyyatıdır. 1962-ci ildə amerikalı tədqiqatçı Maxlup tərəfindən ilk dəfə elmi ədəbiyyata daxil edilmiş “Biliklərə əsaslanan iqtisadiyyat” və ya “bilik iqtisadiyyatı” anlayışını “texnoloji və elmi tərəqqinin sürətli vüsətinə töhfə verməklə, əqli fəaliyyətə əsaslanan istehsal və xidmətlər” [3, S.201] kimi şərh etmək olar. Bilik iqtisadiyyatının əsas komponentlərinə fiziki kapital və ya təbii resursların əvəzinə intellektual qabiliyyətlərə istinad edilməsi, həmçinin tədqiqat və sınaq laboratoriyalarından tutmuş təchizat xəttlərinədək və istehlakçılarla ünsiyyətədək istehsal prosesinin bütün mərhələlərində yenilənmələrin davamlı surətdə tətbiq olunması daxildir.

Hal-hazırda bilik iqtisadiyyatı termininin müxtəlif izahları olsa da, ümumi məqamlar aşağıdakılardan ibarətdir:

• Biliklərin resurs olması konsepsiyası – biliklər kapital və əməklə yanaşı iqtisadi artımın əsas amillərindən biridir;

• Biliklərin məhsul olması konsepsiyası – yeni biliklərin yaradılması (“bilik istehsalı”) müasir iqtisadiyyatın “simasını” müəyyən edir;

• Biliklərin aydın ifadə edilməsi konsepsiyası – intuitiv olaraq əxz edilmiş və konkret ifadə oluna bilməyən mücərrəd biliklərdən fərqli olaraq aydın ifadə edilən praktik bilik və ideyalar iqtisadi münasibətlərin əsas komponentidir;

• Bilik iqtisadiyyatının informasiya cəmiyyəti ilə üzvi bağlılığı konsepsiyası – biliklər informasiya və kommunikasiya texnologiyalarının inkişafına, tətbiqinə və dəyişməsinə əsaslanır.

Bilik iqtisadiyyatı 3 bazarın – biliklər, xidmət və əmək bazarlarının vəhdətidir. Bu bazarların bir-birilə o dərəcədə sıx bağlılığı vardır ki, onları birbirindən ayrılıqda təsvir və təhlil etmək mümkün deyil. Biliklərə əsaslanan iqtisadiyyatı qeyri-ənənəvi sosial struktur da tamamlayır. İndiyədək biliklərin istehsalçısı ilə istehlakçısı arasında vasitəçilik var idisə, müasir yeni sistemdə biliyin istifadəçisi onun

yaradılmasında iştirak edir.

Bilik iqtisadiyyatının komponenetlərini diqqətlə nəzərdən keçirsək onun intellektual potensialdan asılılıq dərəcəsini müəyyən edə bilərik. Belə ki, bilik iqtisadiyyatının infrastrukturu aşağıdakı əsas komponentləri və inkişaf amillərini əhatə edir:

1. yüksək həyat keyfiyyətini tətbiq edən təsirli dövlət qurumları.
2. yüksək keyfiyyətli təhsil.
3. effektiv fundamental elm.
4. effektiv elmi və texniki təşəbbüs işi.
5. geniş tərifində yüksək keyfiyyətli insan kapitalı.
6. bilik və yüksək texnologiya istehsalı.
7. informasiya cəmiyyəti və ya bilik cəmiyyəti.
